HƏVVA ABDULLAYEVA
İRADƏ ƏFƏNDİYEVA
MƏLAHƏT ƏLƏSGƏROVA

# AZƏRBAYCAN DİLİ 5

Ümumtəhsil məktəblərinin 5-ci sinfi üçün
“Azərbaycan dili” (dövlət dili kimi)
fənni üzrə müəllim üçün metodik vəsait

*Azərbaycan Respublikası Təhsil Nazirliyinin 24.05.2016-cı il tarixli 354 nömrəli əmri ilə təsdiq edilmişdir.*

Çap üçün deyil

“KÖVSƏR”
NƏŞRİYYATI
BAKI – 2016

**H. ABDULLAYEVA, İ. ƏFƏNDİYEVA, M. ƏLƏSGƏROVA**
Ümumtəhsil məktəblərinin 5-ci sinfi üçün
"Azərbaycan dili" (dövlət dili kimi) fənni üzrə
müəllim üçün metodik vəsait.
Bakı, "KÖVSƏR" nəşriyyatı, 2016. 160 səh.

Dərsliklə bağlı rəy, irad və təkliflərin **kovserneshriyyat@gmail.com** və **derslik@edu.gov.az** elektron ünvanlara göndərilməsi xahiş olunur. Əməkdaşlığınız üçün əvvəlcədən təşəkkür edirik!

Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq, elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir.

ISBN 978 – 9952 – 8024 – 3 – 6

© - Azərbaycan Respublikası Təhsil Nazirliyi – 2016

Çap üçün deyil

# GİRİŞ

Azərbaycanda təhsil islahatının başlanmasından keçən dövr göstərdi ki, ölkəmiz müstəqillik əldə etdikdən sonra təhsil sahəsində başlanan islahatlar davamlı olaraq sistemli şəkildə həyata keçirilməkdədir və strateji əhəmiyyət daşıyan əsaslı təhsil quruculuğu siyasəti hələ də prioritet sahə kimi öz mövqeyini qoruyub saxlayır. Təhsil siyasətinin dönmədən və məqsədyönlü həyata keçirilməsinin nəticəsidir ki, demokratik, humanist prinsiplərə əsaslanan inteqrativ xarakterli təhsil sistemi artıq öz bəhrələrini verməyə başlamış, ibtidai təhsilin bütün pillələri üzrə kurikulumun tətbiqi uğurla başa çatmışdır.

Yeni təhsil islahatı təhsildə şagirdyönümlü və nəticəyönümlü istiqaməti əsas hədəf kimi seçdiyindən hazırda şagird şəxsiyyətinin formalaşdırılmasında inkişafyönümlülük əsas məqsəd kimi qarşıya qoyulur. Bütün şagirdlər üçün bərabər imkanların yaradılmasının nəticəsində şagird təhsil prosesinin subyektlərindən birinə çevrilir və tədris prosesində onunla əməkdaşlıq ön plana çəkilir. Bunun reallaşdırılması isə təhsilin məzmun və formasının, qiymətləndirmə mexanizminin yeni əsaslar üzərində qurulmasını şərtləndirir. Kurikulum islahatının ümumi orta təhsil səviyyəsində sistemli şəkildə davam etdirilməsi zərurəti də məhz bu tələbdən irəli gəlir.

Kurikulumun tətbiqi inkişaf etmiş ölkələrin qabaqcıl təcrübələrinin öyrənilməsi ilə yanaşı, ənənəvi təhsildə qazanılmış təcrübənin müsbət cəhətlərindən faydalanmağın zəruriliyini də ortaya qoydu.

"Təlim digər dillərdə aparılan ümumtəhsil məktəbləri üçün Azərbaycan dili kurikulumu" bu fənn üzrə təlim nəticələrini, məzmun standartlarını, təlim strategiyalarını, qiymətləndirmə məsələlərini əhatə etməklə bütün fəaliyyətlərin əsasını təşkil edir. Kurikulumda nəzərdə tutulmuş məzmun standartları və bütün fəaliyyətlər (təlim strategiyaları və qiymətləndirmə məsələləri) şəxsiyyətyönümlü təhsil siyasətinin əsas prinsiplərinə (inkişafyönümlülük, şagirdyönümlülük, fəaliyyətin stimullaşdırlması, təlimdə bərabər imkanların yaradılması və s.) uyğun olaraq idraki, hissi və psixomotor fəaliyyətlər fonunda şagirdlərin ümumi inkişafına yönəldilir.

Təlim digər dillərdə aparılan ümumtəhsil məktəbləri üçün Azərbaycan dili (dövlət dili kimi) kurikulumu" dövlət dili kimi Azərbaycan dilinin öyrənilməsinin istiqamətini, məqsəd və vəzifələrini müəyyən etməklə, müəllimlərin, şagirdlərin, idarəetmə və qiymətləndirmə ilə məşğul olanların, hətta valideynlərin fəaliyyətini istiqamətləndirir.

Azərbaycan Respublikası Konstitusiyasının 21-ci maddəsi demokratik prinsiplərdən çıxış edərək əhalinin danışdığı başqa dillərin sərbəst işlədilməsi və inkişafını təmin etməklə bərabər, milli mənsubiyyətindən asılı olmayaraq, dövlət idarələrində vəzifə tutan bütün vətəndaşların (o cümlədən, müxtəlif xalqların nümayəndələrinin) öz vəzifələrini məhz Azərbaycan dilində icra edəcəkləri tələbini qarşıya qoyur. Odur ki, Azərbaycan Respublikası Konstitusiyasının tələblərinə uyğun olaraq ("Azərbaycan Respublikası Azərbaycan dilinin inkişafını təmin edir") dövlət, orta ümumtəhsil məktəblərində, o cümlədən təlim digər dillərdə aparılan ümumtəhsil məktəblərində Azərbaycan dili tədrisini həyata keçirməklə dövlət dili kimi, bu dilin

Çap üçün deyil

öyrənilməsinə şəraiti təmin edir.

Təlim rus dilində aparılan orta ümumtəhsil məktəblərinin I-IV siniflərində Azərbaycan dili dərslərinin kurikulumun tələbi əsasında həyata keçirilməsi göstərdi ki, təlimin bütün pillələrində şagirdlər dövlət dilinin öyrənilməsinə yaradılmış imkanlardan istifadə etməklə Azərbaycan dilində dinləyib-anlama, danışma, oxu və yazı üzrə müvafiq bacarıqlara yiyələnəcək, cəmiyyət həyatının müxtəlif sahələrində fəaliyyət göstərmək üçün zəruri nitq vərdişləri qazanmış olacaqlar.

İnkaredilməz faktdır ki, Azərbaycan dilini öyrənməklə şagirdlər nəinki yalnız bu dildə müxtəlif mənbələrdən informasiya əldə etmək, fəaliyyət sahəsini təkmilləşdirmək, ümumi həyati bacarıqlar qazanmaq imkanlarını genişləndirir, eyni zamanda, dünyada geniş yayılmış türk dillərinə bələd olur, türkdilli ölkələrdə də fəaliyyət göstərmək üçün əlaqə və ünsiyyət bacarıqlarına (kommunikativ) sahib olurlar. Təlim rus dilində aparılan məktəblərdə Azərbaycan dili təliminin məqsədi də məhz bu imkanları reallaşdırmaq, şagirdlərdə dinləyib-anlama, danışma, oxu və yazı üzrə müvafiq bacarıqlar formalaşdırmaqla onların nitqini inkişaf etdirməkdən ibarətdir.

Bu məqsədin həyata keçirilməsi üçün ibtidai təhsil pilləsində olduğu kimi, ümumi orta təhsil səviyyəsində də bir sıra resurslara ehtiyac duyulur. Fikrimizcə, V sinif üçün hazırladığımız “Azərbaycan dili” dərslik dəsti (dərslik və müəllim üçün metodik vəsait) bu ehtiyacı ödəməklə üzərinə düşən vəzifənin öhdəsindən layiqincə gələcək və tədris prosesində müəllim və şagirdlərin ən yaxın köməkçisi olacaqdır.

Təlim rus dilində aparılan məktəblərin 5-ci siniflərində tədris işini planlaşdıracaq müəllimlərin ehtiyacını nəzərə alaraq burada ümumi orta təhsil səviyyəsi (V-IX siniflər) üçün nəzərdə tutulan məzmun standartlarını verməyi məqsədəuyğun hesab edirik.

## 1. TƏLİM DİGƏR DİLLƏRDƏ APARILAN ÜMUMTƏHSİL MƏKTƏBLƏRİ ÜÇÜN AZƏRBAYCAN DİLİ TƏLİMİNİN MƏZMUNU

### 1.1. Ümumi təlim nəticələri

**Ümumi orta təhsil səviyyəsi (V-IX siniflər) üzrə şagird:**

- dinlədiyi mətnin məzmununu izah edir, ona münasibət bildirir;
- şüurlu və ifadəli oxu bacarıqları nümayiş etdirir;
- müxtəlif formalı rabitəli mətnlər qurur və təqdim edir;
- öz fikirlərini sərbəst, ardıcıl və aydın ifadə edir.
- nitq bacarıqlarını inkişaf etdirmək üçün müxtəlif mənbələrdən istifadə edir, tərcümə bacarıqları nümayiş etdirir;

### 1.2. Məzmun xətləri

Fənn üzrə məqsəd və vəzifələrin həyata keçirilməsi üçün aşağıdakı məzmun xətləri müəyyənləşdirilir:

- Dinləyib-anlama
- Danışma



Çap üçün deyil

• Oxu
• Yazı

## 1.3. Məzmun standartları

**V sinif**

*V sinfin sonunda şagird:*

• dinlədiyi mətndəki əsas fikri müəyyənləşdirir;
• nitq prosesində danışıq səslərini düzgün tələffüz edir, jest və mimikalardan məqsədəuyğun istifadə edir;
• deyəcəyi əsas fikri müəyyənləşdirir və mülahizələrini bildirir;
• mətndə tanış olmadığı sözlərin mənasını lüğətlərdən istifadə etməklə müəyyənləşdirir, orfoepik qaydalara uyğun oxuyur;
• mətndəki əsas fikrə uyğun fakt və hadisələri müəyyənləşdirir;
• müxtəlif yazı formalarını (ifadə, inşa,  hekayə) fərqləndirir;
• sait və samitlərin, mürəkkəb sözlərin yazılış qaydalarına, cümlənin sonunda və dialoqlarda durğu işarələri qaydalarına əməl edir;
• müxtəlif əməli yazılar (elan, məktub) yazır.

## Məzmun xətləri üzrə əsas və alt-standartlar

**1. Dinləyib-anlama**

*Şagird:*

1.1. Dinlədiyi fikri anladığını nümayiş etdirir.
1.1.1. Suallara cavab verir.
1.1.2. Dinlədiyi mətndəki əsas fikri müəyyənləşdirir.

**2. Danışma**

*Şagird:*

2.1. Şifahi nitq bacarıqları nümayiş etdirir.
2.1.1. Nitq prosesində sait və samitləri düzgün tələffüz edir.
2.1.2. Nitq prosesində jest və mimikalardan istifadə edir.
2.1.3. Müzakirə olunan  mövzu ilə bağlı mülahizələrini bildirir.
2.1.4. Deyəcəyi əsas fikri müəyyənləşdirir.

**3. Oxu**

*Şagird:*

3.1. Mətni mənimsədiyini nümayiş etdirir.
3.1.1. Mətndə tanış olmadığı sözlərin mənasını lüğətlərdən istifadə etməklə müəyyənləşdirir.
3.1.2. Mətndəki sözləri orfoepik qaydalara uyğun oxuyur.
3.1.3. Mətndəki əsas fikrə uyğun fakt və hadisələri müəyyənləşdirir.

**4. Yazı**

*Şagird:*

4.1. Rabitəli yazı vərdişlərinə yiyələndiyini nümayiş etdirir.
4.1.1. Müxtəlif yazı formalarını (ifadə, inşa, hekayə) fərqləndirir.
4.1.2. Topladığı fakt və məlumatlara əsasən plan tərtib edir.
4.1.3. Sait və samitlərin, mürəkkəb sözlərin yazılış qaydalarına,  cümlənin sonunda və  dialoqlarda durğu işarələri qaydalarına əməl edir.
4.1.4. Müxtəlif əməli yazılar (elan, məktub) yazır.

Çap üçün deyil

# TƏLİM RUS DİLİNDƏ APARILAN MƏKTƏBLƏRDƏ AZƏRBAYCAN DİLİNİN TƏDRİSİ PROSESİNDƏ İNTERAKTİV TƏLİM METODLARINDAN İSTİFADƏ

Təlim rus dilində aparılan məktəblərdə dövlət dili kimi Azərbaycan dilinin öyrədilməsinin səmərəliliyi tədrisin təşkilində tətbiq olunan texnologiyaların düzgün müəyyənləşdirilməsindən, onların məqsədəmüvafiq şəkildə seçilib əlaqələndirilməsindən çox asılıdır. Bu fənni tədris edərkən nəzərə almaq lazımdır ki, təlim digər dillərdə aparılan məktəblərdə Azərbaycan dilinin öyrədilməsi milli maraqları əks etdirən vacib məsələ olduğu üçün ona çox həssaslıqla yanaşılmalıdır. Digər millətlərə mənsub olan vətəndaşlara Azərbaycan dilinin öyrədilməsi prosesində öyrənənləri maraqlandıran və cəlb edən, öyrənməni asanlaşdıran, öyrədilən tədris materiallarının möhkəmliyini və davamlılığını təmin edən forma, üsul və vasitələrin düzgün seçilməsi mühüm metodik tələblər kimi diqqət mərkəzində saxlanmalıdır.

"Azərbaycan Respublikasında ümumi orta təhsilin Konsepsiyası" (Milli Kurikulumu) sənədində təlim digər dillərdə, o cümlədən rus dilində aparılan məktəblərdə Azərbaycan dili tədrisinin təşkilində aşağıda göstərilən tələblərin nəzərə alınması vacib hesab olunur:

1) Mövcud standartlar, təlim strategiyaları, resurslar və qiymətləndirmə sistemi nəzərə alınmaqla, tədris fəaliyyətinin perspektiv və cari planlaşdırılması; 2) Azərbaycan dilinin interaktiv metodlarla öyrədilməsi; 3) Kommunikativ təlim şəraitinin yaradılması, şagirdlərin cütlərlə və qrup halında işləmələrinin təmin olunması; 4) Şagirdlərin fərdi xüsusiyyətlərinin nəzərə alınması; 5) Şagirdlərin Azərbaycan dilini öyrənməyə olan marağının izlənilməsi və inkişaf etdirilməsi; 6) İ K T və yardımçı texniki vasitələrdən istifadə olunması; 7) Köməkçi didaktik vasitələrdən istifadə edilməsi; 8) Nitq inkişafı üzrə nailiyyətlərin vaxtaşırı monitorinqi və qiymətləndirilməsi.

Təlim rus dilində olan məktəblərdə şagirdlərdə dövlət dili kimi Azərbaycan dilini öyrənməyə həvəs oyatmaq, şagirdləri maraqlandıran mühit yaratmaq mühüm şərtdir.

Azərbaycan dilinin öyrədilməsində fəal təlim metodlarının seçilməsi və tətbiqi fənnin mahiyyətinin kommunikativ məqsəd daşımasından, nitq fəaliyyətinin müxtəlif növləri üzrə praktik bacarıq və vərdişlər formalaşdırmaq vəzifəsindən irəli gəlir.

Təlim rus dilində olan məktəblərin 5-ci siniflərində Azərbaycan dilinin təlimində ayrı-ayrı məzmun xətləri üzrə formalaşdırılması nəzərdə tutulan bacarıqlar öyrənmə prosesində onların qarşılıqlı şəkildə əlaqələndirilməsini, şagirdlərdə situasiyaya uyğun dialoqa girmə bacarıqlarının formalaşdırılmasını şərtləndirir ki, bu da öz növbəsində müəllim-şagird, şagird-şagird-şagirdlər ünsiyyətini zərurətə çevirir. Təcrübələr göstərir ki, ənənəvi təlim üsullarının dilin öyrədilməsinə tətbiqi arzu olunan nəticələri əldə etməyə imkan vermirdi. Beynəlxalq təcrübədə dillərin öyrədilməsində istifadə olunan təlim texnologiyalarının mənimsənilməsi və onların yaradıcı tətbiqi qarşıya qoyulmuş vəzifələrin həyata keçirilməsini asanlaşdırır.

Azərbaycan dilinin öyrədilməsi prosesinin mahiyyəti məhz qarşılıqlı fəaliyyətin, ünsiyyətin reallaşdırılması ilə sıx surətdə bağlıdır. İnteraktivlik isə "qarşılıqlı fəaliyyətə əsaslanan" deməkdir. Kurikulumda təlim digər dillərdə aparılan məktəblərdə

Çap üçün deyil

Azərbaycan dilinin tədrisində interaktiv (fəal) təlim metodlarından istifadənin metodik tələb kimi qarşıya qoyulması bu zərurətdən irəli gəlir.

İnteraktiv metodların təlim prosesində tətbiqi müəllim-şagird münasibətlərinin xarakterinə əsaslı təsir göstərir: müəllimi tədris prosesinin aparıcı siması (idarəedicisi) mövqeyindən "öyrənməyi öyrədən" mövqeyinə keçirir. Həm də burada müəllimin fəaliyyəti yalnız dərs deməklə məhdudlaşmır, bu fəaliyyət dərsə qədərki mərhələdə daha qabarıq görünür. Tədris prosesində isə o, iştirakçılardan biri kimi, təlim fəaliyyətinin təşkilatçısı, əlaqələndiricisi, istiqamətvericisi, şagirdlərin məsləhətçisi və köməkçisi vəzifələrinin icraçısı kimi çıxış edir.

Şagird isə təlim fəaliyyətinin qarşılıqlı fəaliyyət göstərən subyektlərindən biri kimi, bilikləri "hazır" şəkildə qəbul edən "passiv obyekt"dən prosesin fəal iştirakçısına – axtaran, öyrənən, tədqiq edən, bilikləri "kəşf edən"ə çevrilir.

İnteraktiv metodlardan istifadə təlim prosesində şagirdi fəallaşdırır, onu bilikləri axtarıcılıq yolu ilə əldə etməyə sövq edir, sinfin, qrupun digər şagirdləri ilə əməkdaşlıq etməyə, qarşılıqlı münasibətlər qurmağa və beləliklə də, ünsiyyətə girməyə, tədqiqat yolu ilə alınan nəticələri müzakirə etməyə, təqdimatlar hazırlamağa, oyun və yarışların fəal iştirakçısı kimi kollektiv fəaliyyət göstərməyə, çıxış etməyə təhrik edir, lazım gəldikdə mənsub olduğu qrupun maraqlarını qorumağa və müdafiə etməyə, müzakirə və problemlərin həlli prosesində onları dinləməyə alışdırır, fikir mübadiləsinə şərait yaradır. İnteraktiv metodların təlim prosesinə tətbiqi şagirdlərdə ünsiyyət şəraitini öyrənməklə dialoqa girmək, ümumiləşdirmələr aparmaq, nəticə çıxarmaq, alınmış nəticələri təqdim etmək və əsaslandırmaq bacarıqlarının formalaşdırılmasına imkan verir.

Təlim prosesində belə bir mühitin yaradılması şagirdlərin təfəkkür fəaliyyətini stimullaşdırır, idraki, hissi və psixomator fəaliyyətlərin inkişafını təmin edir, öyrənməyə motiv yaradır.

Yaradılmış problemli vəziyyət şagirdlərin intellektual imkanlarının səfərbər edilməsini şərtləndirir, şagird hissi-emosional vəziyyətin təsiri altında öyrənmə mühitinə daxil olur, seyrçi mövqedən prosesin iştirakçısına çevrilir. Bu həm də şagirdləri kollektivdə formalaşdırmaqla cəmiyyət həyatına hazırlamış olur; bu prosesdə əldə edilmiş bacarıqlardan müstəqil fəaliyyət zamanı istifadə və tətbiq etmək vərdişləri yaradır.

İnteraktiv təlim metodlarından istifadə tədris prosesində şagirdləri fəallaşdırmaqla yanaşı, onların dünyagörüşlərinin inkişafına və genişlənməsinə, şagirdlərdə məntiqi və tənqidi təfəkkürün formalaşmasına, şəxsi-iradi keyfiyyətlərin bərqərar olmasına təsir göstərir, yaradıcı təfəkkür elementlərinin reallaşdırılmasına və tətbiqinə meydan verir, davranış mədəniyyəti, qarşılıqlı hörmət hissi aşılayır, onları müstəqil qərarlar qəbul etməyə alışdırır.

Təlim rus dilində aparılan məktəblərdə Azərbaycan dili dərslərində şagirdləri fəallaşdırmaq, dilin öyrənilməsinə maraq oyatmaq, münbit öyrənmə mühiti yaratmaq üçün qeyri-standart dərs formalarından (cütlərlə, böyük və kişik qruplarla iş) istifadə faydalı hesab edilir. Bununla yanaşı, dərsin məqsədinə müvafiq olaraq kollektiv iş, fərdlərlə iş formalarından da yeri gəldikdə istifadə məqsədəuyğun hesab olunur.

Təlim rus dilində olan məktəblərdə Azərbaycan dilinin təlimi prosesində beyin

Çap üçün deyil

həmləsi, akvarium, şaxələndirmə, beşliklər, konseptual cədvəl, Venn diaqramı, metaforik düşünmə, rollu oyunlar, insert, diskussiya, ziqzaq kimi interaktiv metodlardan istifadə faydalı hesab edilir.

## FƏAL TƏLİM METODLARININ XARAKTERİK XÜSUSİYYƏTLƏRİ

1. Diqqət ilk növbədə şagird şəxsiyyətinin formalaşdırılmasına yönəlir.
2. Müəllim təlim fəaliyyətinin əlaqələndiricisi, şagirdlərin məsləhətçisi və köməkçisi kimi çıxış edir.
3. Problemin həlli prosesində şagirdlər fəal tədqiqatçı olurlar.
4. Bilik və bacarıqlar şagirdlər tərəfindən müstəqil əldə edilir.
5. Müəllim – şagird, şagird – şagird arasında əməkdaşlıq üçün şərait yaranır.
6. Dərslərin inteqrativ təşkilinə üstünlük verilir.
7. Qeyri-standart dərslərin tətbiqinə geniş yer verilir.

## FƏAL DƏRSİN PLANLAŞDIRILMASI

Təlim rus dilində olan məktəblərin 5-ci siniflərində Azərbaycan dili dərsləri planlaşdırılarkən tövsiyə olunan aşağıdakı mərhələlərin nəzərə alınmasını biz də məqsədəuyğun hesab edirik: 1) Mövzunu müəyyənləşdirmək; 2) Standartı konkretləşdirmək; 3) Dərsin məqsədini (məqsədlərini) müəyyən etmək; 4) Dərsin motivasiyasını işləyib hazırlamaq; 5) Tədqiqat sualını müəyyənləşdirmək; 6) Aparılacaq tədqiqatın mərhələlərini planlaşdırmaq və bu zaman tədqiqat üçün tapşırıqları, iş, forma və üsullarını, məlumat mənbələrini dəqiqləşdirmək; 7) Müzakirə üçün suallar hazırlamaq; 8) İdeyaları və alınacaq nəticələri qısaca ifadə etmək; 9) Dərsin hər mərhələsinə sərf olunacaq vaxtı müəyyənləşdirmək; 10) Qiymətləndirmə standartlarına əsasən vasitələr hazırlamaq; 11) Dərs üçün lazım olan resursları (təchizatı) müəyyən etmək.

## FƏAL (İNTERAKTİV) DƏRSİN MƏRHƏLƏLƏRİ

### I MƏRHƏLƏ: MOTİVASİYA VƏ PROBLEMİN QOYULMASI

Məlumdur ki, hər bir tədqiqat maraq doğuran bir məsələnin axtarılması üzərində qurulur.

İnteraktiv təlim metodlarından istifadə şagirdləri problemləri öz qüvvələri ilə həll etməyə –"kəşf" etməyə təhrik etdiyindən, birinci növbədə, "kəşf edilməli olan"ın müəyyənləşdirilməsi tələb olunur.

Şagirdin təlim fəaliyyəti zamanı onda öyrəndiklərinə maraq oyatmaq, öyrənmə prosesinin fəal iştirakçısına–tədqiqatçısına çevirmək üçün onu problemli vəziyyətlərlə, real ziddiyyətlərlə qarşılaşdırmaq mühüm əhəmiyyət kəsb edir.

Tədris prosesində şagirdləri maraqlandıracaq, onların intellektual imkanlarını səfərbər edəcək belə emosional situasiya yaratmadan onları idraki fəallığa,

Çap üçün deyil

əməkdaşlıq etməyə, problemin həlli üçün lazım gəldikdə birgə fəaliyyət göstərməyə sövq etmək çətin olur.

Şagirdin diqqətini öyrənilən məsələ üzərində mərkəzləşdirmək üçün problemin nədən ibarət olmasının xatırladılmasına ehtiyac duyulur ki, bu da tədqiqat sualının formalaşdırılması ilə nəticələnir.

Şagird belə problemli vəziyyətlərlə qarşılaşdıqda ziddiyyətləri aradan qaldırmaq üçün onun həlli yolları üzərində düşünür, fərziyyələr irəli sürür, axtarışa qoşulur, problemin həllini tapmayınca fikrini məşğul edən bu sualdan "yaxa qurtara bilmir".

Beləliklə, interaktiv dərsin I mərhələsində şagirdin diqqəti (özünün də xəbəri olmadan) problemin üzərinə elə ustalıqla yönəldilməlidir ki, bu, psixoloji amilə çevrilə bilsin, onda məsələnin həllinə maraq oyatsın.

Motivasiya zamanı suallar elə ardıcıllıqla qoyulmalıdır ki, şagird tədqiqat sualına addım-addım yaxınlaşsın, mülahizələr irəli sürməyə imkan tapsın, məlumdan naməluma doğru addımlaya bilsin.

Motivasiyanın uğurlu olması üçün nəzərə almaq lazımdır ki: 1) Motivasiya üçün seçilən material maraq doğurmalıdır; 2) Tədqiqat aparmaq və yaradıcılıq üçün imkan verməlidir; 3) Yönəldici suallar fərziyyələr irəli sürməyə həvəs oyatmalı, müxtəlif fikir və mülahizələr söyləməyə təhrik etməlidir; 4) Tədqiqat sualı standartda nəzərdə tutulan məzmun əsasında müəyyənləşdirilməli, qarşıya qoyulan məqsədin yerinə yetirilməsinə yönəldilməlidir.

Hazırladığımız vəsaitdə şagirdlərin Azərbaycan və rus dilləri üzrə məlum biliklərinə istinad edilərək, onlar öyrədilməsi nəzərdə tutulan tədris materiallarının xarakter xüsusiyyətləri ətrafında düşünməyə sövq edilir.

## II MƏRHƏLƏ: TƏDQİQATIN APARILMASI

Bu mərhələdə tədqiqat sualının aydınlaşdırılması üçün lazım olan nümunələr, faktlar toplanır, seçilir və onların üzərində araşdırma, incələmə, təhlillər aparılır. Oxunan mətn, müəllimin tərtib etdiyi iş vərəqləri, fakt və hadisələr, çalışmalar şagirdləri problemin həllinə yaxınlaşdırır. Motivasiya mərhələsində yaradılmış maraq daha da gücləndirilir və inkişaf etdirilir, fəallıq artırılır.

Tədqiqatın aparılması mərhələsində müxtəlif iş formalarından istifadə oluna bilər. Təlim rus dilində aparılan məktəblərdə Azərbaycan dilinin öyrənilməsində daha çox kollektivlə, böyük və kiçik qruplarla, cütlərlə iş formaları əlverişli hesab olunur.

Şagirdlər tədqiqat sualı ilə bağlı iş prosesində (mətn üzərində iş, qrup şəklində çalışmaların həlli və s.) yeni-yeni dil vahidləri ilə tanış olduqca, müqayisələr, tutuşdurmalar apardıqca keçmiş və yeni biliklər arasında əlaqə yaradılır, ideyalar irəli sürülür, doğru cavabların layihələri hazırlanır, təqdimatların konturları cızılır.

## III MƏRHƏLƏ: İNFORMASİYA MÜBADİLƏSİ

Şifahi və yazılı təqdimatlar problemlə bağlı ideyaların mübadiləsini reallaşdırır. Tapılan həll yollarının müxtəlifliyi ilə tanışlıq maraqlı tərəfləri cəlb edir və onlar bir-birlərinin cavablarını dinləməyə maraq göstərirlər.

Təqdimatlarda sistemsiz şəkildə olsa da, yeni biliklərin dairəsi öz ifadəsini tapmış olur.

Çap üçün deyil

Təlim rus dilində aparılan məktəblərdə təqdimatların hazırlanması və informasiya mübadiləsi də digər mərhələlər kimi, canlı nitq situasiyası yaratdığı üçün kommunikativliyi təmin edir və dilin öyrənilməsinə münbit şərait yaranır.

### IV MƏRHƏLƏ: İNFORMASİYANIN MÜZAKİRƏSİ

Bu mərhələdə məqsəd şagirdlərin şifahi və yazılı təqdimatlarını sistemləşdirmək və qaydaya salmaq, onların tədqiqat sualı ilə bağlılığını müəyyənləşdirməkdir.

Müəllimin yardımçı sualları təqdimatlar arasındakı əlaqələri üzə çıxarmağa, tədqiqat sualı ətrafında ümumiləşdirmələr aparmağa və axtarılan cavabın aydınlaşmasına, durulmasına istiqamətlənir. Müəllim müzakirəni məqsədyönlü şəkildə elə məcraya yönəldir ki, şagirdlər doğru cavabı ümumiləşdirmə mərhələsinə gəlib çatsınlar. Bu mərhələdə təfəkkür əməliyyatları daha da fəallaşır və bütün intellektual imkanlar səfərbər olunur, idraki, hissi və psixomator fəaliyyət sahələri gərginləşir.

### V MƏRHƏLƏ: NƏTİCƏ VƏ ÜMUMİLƏŞDİRMƏ

Bu elə bir mərhələdir ki, şagirdi məmnuniyyət hissi keçirməyə, həzz duyğusunu yaşamağa, gələcək yeni uğurlara ruhlandırır.

Şagirdlər tədqiqat sualına doğru cavab verildiyinə əmin olduqda tədqiqatın kulminasiya anı yaşanır. Cavablar tədqiqat sualı ilə tutuşdurulur, fərziyyələr arasında doğru olanlar nəticə ilə əlaqələndirilir, əldə olunmuş nailiyyətlərin sevinci duyulur.

Nəhayət, ümumiləşdirilmiş fikir səsləndirilir və tədqiqat sona çatır.

### VI MƏRHƏLƏ: YARADICI TƏTBİQETMƏ

Bu məqsədlə şagirdlərə müxtəlif tapşırıqlar verilir. Təlim rus dilində aparılan məktəblərdə Azərbaycan dilinin öyrənilməsi nitq fəaliyyətinin ayrı-ayrı məzmun xətləri üzrə bacarıq və vərdişlərin təkrarını, möhkəmləndirilməsini və tətbiqini tələb edir. Təbiidir ki, bu və ya digər bacarıqların birdən-birə formalaşdırılması mümkün olmur. Şagirdlərin danışma, oxu və yazı üzrə bacarıqları daim inkişaf etdirilir və davamlı şəkil alır. Əldə edilmiş bacarıqlar konkret nitq situasiyalarında tətbiq edilməklə təkmilləşdirilir və fəallaşdırılır.

### VII MƏRHƏLƏ: EV TAPŞIRIQLARI

Azərbaycan dili təlimində bacarıq və vərdişlərin formalaşdırılması və təkmilləşdirilməsi üçün ev tapşırıqları mühüm əhəmiyyətə malikdir. Şagirdlər dərsdə formalaşdırılmış nitq fəaliyyəti növlərini müxtəlif ev tapşırıqlarında tətbiq edirlər. Keçilmiş mətnləri və ya şeirləri təkrar oxumaqla yeni öyrəndikləri sözlərin mənaları üzərində bir daha düşünür, onları tələffüz edir, həmin sözlərin orfoqrafiyasına diqqət yetirir, cümlədə işlədirlər. Yaxud nitq etiketlərindən istifadə etməklə situasiyaya uyğun dialoq qurur, müvafiq dil vahidlərindən istifadə edərək əşyaları, hadisələri təsvir etməklə mətnlər qurur, təqdimatlar hazırlayır və beləliklə, dilin normalarını tətbiq edirlər.

Çap üçün deyil

## QİYMƏTLƏNDİRMƏ VƏ REFLEKSİYA

Qiymətləndirmə şagirdin öz fəaliyyətini nəzərdən keçirməsinə, qüsur və çatışmazlıqlarını aşkar etməsinə, nəticədə nöqsanların aradan qaldırılmasına kömək edir; şagirdi nailiyyətlərini izləməyə alışdırır; özünənəzarəti təmin edir; inkişaf səviyyəsini müəyyənləşdirmək imkanı yaradır.

Qiymətləndirmə müəllimə təlim işini təşkil etməyə, formalaşdırılmalı olan bacarıq və vərdişlərin səviyyəsinin qarşıya qoyulmuş məqsəd baxımından müvafiqliyini təyin etməyə, yeni bilik, bacarıq və vərdişlərin formalaşdırılması üçün münasib vaxtın yetişdiyini və fəaliyyətə başlamağın məqsədəmüvafiqliyini izləməyə imkan verir.

**Refleksiya** təlim prosesinin bütün mərhələlərini təhlil etməklə onu vahid proses kimi nəzərdən keçirməyə imkan verir. Tədqiqat zamanı şagirdin ayrı-ayrı mərhələlər üzrə keçdiyi yolu onun gözləri qarşısında yenidən canlandırmaqla fəaliyyətlərini izləmələri, fikirlərin sistemləşdirmə mexanizmini təsəvvür etmələri təşkil edilmiş olur. Təlim rus dilində aparılan məktəblərdə Azərbaycan dili təlimində qiymətləndirmə və refleksiyanı həm dərsin müxtəlif mərhələlərində, həm də bütün mərhələlər başa çatandan sonra aparmaq məqsədəuyğundur.

Təlim rus dilində olan məktəblərdə Azərbaycan dilindən fəal dərsin səmərəli təşkili və nəticənin uğurlu olmasında düzgün planlaşdırma mühüm əhəmiyyət kəsb edir. Dərsin hər bir mərhələsini aydın təsəvvür etməyən, hər mərhələnin konkret təlim məqsədini müəyyənləşdirə bilməyən müəllim uğurlu nəticələr əldə edə bilməz. Dərs planlaşdırılarkən reallaşdırılması nəzərdə tutulan standarta uyğun təlim məqsədi və ya məqsədləri müəyyənləşdirilməli və onlara uyğun iş növləri, üsul və vasitələr seçilməlidir.

## FƏNDAXİLİ VƏ FƏNLƏRARASI İNTEQRASIYA

Təlim rus dilində aparılan ümumtəhsil məktəblərində Azərbaycan dili təlimi məzmununun müəyyənləşdirilməsində, üsul və vasitələrin seçilməsində, eləcə də şagird nailiyyətlərinin izlənilməsi və qiymətləndirilməsində fəndaxili və fənlərarası inteqrasiyanın nəzərə alınması ümumpedaqoji prinsiplərdən biri kimi çıxış edir. Fəndaxili və fənlərarası inteqrasiyanın rol və əhəmiyyəti nəzərə alınmadan təlim rus dilində (həmçinin digər dillərdə) aparılan ümumtəhsil məktəblərində Azərbaycan dili təlimini təsəvvür etmək çətindir. İnteqrasiya bu fənnin tədrisinin didaktik əsasını təşkil edir, məzmun standartlarının müəyyənləşdirilməsində, məzmun xətləri üzrə bacarıqların formalaşdırılmasında ona istinad olunur. Belə ki, hər bir sinifdə ayrı-ayrı məzmun xətləri üzrə üfüqi əlaqələri nəzərə almadan şagirdlərin nitq fəaliyyətini inkişaf etdirmək və onlarda zəruru bacarıqlar formalaşdırmaq mümkün deyil.

Azərbaycan dili təlimində (digər fənlərin tədrisində olduğu kimi) inteqrasiyanın iki növündən istifadə olunması zəruri hesab olunur: fəndaxili inteqrasiya; fənlərarası inteqrasiya.

Fəndaxili inteqrasiya Azərbaycan dili təlimində məzmun xətləri arasında qarşılıqlı əlaqələri təmin etməklə dinləyib-anlama, danışma, oxu və yazı bacarıqlarının bir vəhdət halında qavranılmasına imkan yaradır. Nitq fəaliyyətinin göstərilən növləri

Çap üçün deyil

üzrə bacarıq və vərdişlərin dilin məntiqinə uyğun olaraq formalaşdırılması, əldə edilmiş biliklərin şüurlu tətbiqi fəndaxili əlaqələr nəzərə alınmaqla reallaşdırıldıqda öyrənilmiş biliklər unudulmur, davamlı olur, daha da möhkəmləndirilir, nəticədə nitqin müxtəlif situasiyalarında dil vahidlərindən məqsədəmüvafiq istifadə asanlaşır.

Fəndaxili inteqrasiya həmçinin fənn üzrə siniflərarası (şaquli) əlaqələrin məqsədyönlü qurulmasında, müvafiq bacarıqların formalaşdırılmasında varisliyin gözlənilməsini nəzərə almağı vacib didaktik tələb kimi zərurətə çevirir.

Təlim rus dilində aparılan məktəblərdə Azərbaycan dilinin təlimində fənlərarası inteqrasiyanın nəzərə alınması isə fənn üzrə müəyyən anlayışların öyrənilməsini asanlaşdırır, vaxta qənaət olunmasına imkan verir, öyrənilənlərin səmərəliliyini təmin edir. Məlum məsələdir ki, ikinci bir dilin öyrənilməsini ana dilinə istinad etmədən, şagirdin öyrəndiyi başqa bir dilin xüsusiyyətləri ilə qarşılaşdırma və analogiya aparmadan həyata keçirmək mümkün olmur. Şagirdlərin digər fənlər üzrə malik olduqları bilik, bacarıq və vərdişlər Azərbaycan dili təlimində dil üzrə yeni anlayışların mənimsənilməsi prosesini daha da intensivləşdirir, nitq fəaliyyətinin müxtəlif növləri üzrə bacarıqların təkmilləşməsinə imkan yaradır, şagirdlərin təlim yükünü azaldır.

## Şagird nailiyyətlərinin qiymətləndirilməsi

“Azərbaycan dili” fənni üzrə qiymətləndirmə Ümumtəhsil məktəblərində məktəbdaxili qiymətləndirmənin aparılmasına dair Müvəqqəti Təlimata əsasən aparılır ki, bu da Azərbaycan Respublikası təhsil nazirinin 2 sentyabr 2013-cü il tarixli 792 nömrəli əmri ilə təsdiq edilmişdir.

Qiymətləndirmə tədris prosesinin ən mühüm mərhələlərindən biri sayılır. Onun əsasında şagirdlərin müəyyən olunmuş məzmun standartlarına görə bilik və bacarıqlara nə dərəcədə yiyələnmələri səviyyəsi təyin olunur. Bu da təhsilin keyfiyyətcə yüksəldilməsinə, onun daha obyektiv və sistemli şəkildə həyata keçirilməsinə təminat verir.

Ümumtəhsil məktəblərinin yeni təhsil proqramları (fənn kurikulumları) tətbiq olunan siniflərində yeni məktəbdaxili qiymətləndirmə sistemi tətbiq olunur. Yeni məktəbdaxili qiymətləndirmə diaqnostik, formativ və summativ qiymətləndirmələrdən ibarətdir:

**1. Diaqnostik qiymətləndirmə** – bilik və bacarıqların ilkin səviyyələrini müəyyənləşdirmək məqsədilə aparılır.

Diaqnostik qiymətləndirmə, əsasən, dərs ilinin əvvəlində aparılır. Zərurət olarsa, müəllim diaqnostik qiymətləndirməni hər hansı bir mövzunun və ya bölmənin əvvəlində, şagird təhsil müəssisəsini, sinfi dəyişdikdə (şagirdin bilik və bacarıqlarının müəyyənləşdirilməsi məqsədilə) apara bilər. Diaqnostik qiymətləndirmənin nəticələrinə görə müəllim şagirdlərin bilik və bacarıqlarının ilkin səviyyələrini müəyyənləşdirməklə özünün gələcəkdəki iş fəaliyyətini də bu istiqamətdə qurur.



Çap üçün deyil

Beləliklə, diaqnostik qiymətləndirmə dərs ilinin, tədris vahidinin və dərsin əvvəlində təhsilalanların bilik və bacarıqlarının ilkin səviyyəsini müəyyənləşdirmək məqsədilə aparılır.

Diaqnostik qiymətləndirmənin üsul və vasitələri fənn müəllimi tərəfindən müəyyənləşdirilir.

Diaqnostik qiymətləndirmənin nəticələri rəsmi sənədlərdə qeyd olunmur, təhsilalan haqqında müvafiq yazılı qeydlər təhsilalanın portfoliosunda saxlanılır.

**2. Formativ qiymətləndirmə** – dərs ilinin əvvəlindən müntəzəm olaraq keçirlir. Formativ qiymətləndirmənin məqsədi təhsilalanın təlim prosesində məzmun standartlarından irəli gələn bilik və bacarıqların mənimsənilməsinə yönəlmiş fəaliyyətini izləməkdən, bu zaman qarşıya çıxan problemləri müəyyən etməkdən və onları aradan qaldırmaqdan ibarətdir.

Formativ qiymətləndirmə rəsmi qiymətləndirmə deyil.

Formativ qiymətləndirmə fənnin məzmun standartları üzrə təlim məqsədləri əsasında müəyyənləşdirilmiş qiymətləndirmə meyarlarına görə aparılır.

Müəllim qiymətləndirmə meyarlarına uyğun dörd səviyyəli rubriklər (I–IV səviyyə) hazırlayır. Zəruri hallarda rubriklər 3 və ya 5 səviyyədə tərtib oluna bilər.

Müəllim təhsilalanın fəaliyyətinin nəticəsini "Müəllim formativ qiymətləndirmə dəftəri"ndə rubrikə uyğun olaraq rum rəqəmləri (I, II, III və IV) ilə, "Məktəbli kitabçası"nda isə sözlərlə yazır.

"Müəllim formativ qiymətləndirmə dəftəri"ndə rubriklərin məzmunu və şagirdin formativ qiymətləndirilməsinə dair məlumatlar sərbəst formada aparılır.

Müəllim yarımillərin sonunda "Müəllim formativ qiymətləndirmə dəftəri" əsasında yarımil fəaliyyətinin qısa təsvirini hazırlayır və portfolioda saxlayır.

**3. Summativ qiymətləndirmə**

Summativ qiymətləndirmə kiçik və böyük olmaqla iki formada aparılır.

Summativ qiymətləndirmə rəsmi qiymətləndirmədir və nəticələri keçirildiyi tarixdə sinif jurnalında qeyd olunur.

Kiçik summativ qiymətləndirmə vasitələri fənni tədris edən müəllim, böyük summativ qiymətləndirmə vasitələri isə ümumi təhsil müəssisəsi rəhbərliyinin təşkil etdiyi komissiya tərəfindən hazırlanır.

Kiçik summativ qiymətləndirmə hər tədris vahidinin sonunda, altı həftədən gec olmayaraq müəllim tərəfindən keçirilir.

Böyük summativ qiymətləndirmə yarımillərin sonunda təhsil müəssisəsinin rəhbərliyi tərəfindən yaradılan müvafiq komissiyanın nəzarəti ilə fənni tədris edən müəllim tərəfindən aparılır.

Çap üçün deyil

Şagirdlərin kiçik və böyük summativ qiymətləndirmələrinin nəticələri illik qiymətlərinin hesablanmasında nəzərə alınır.

Kiçik və böyük summativ qiymətləndirmələrin keçirilmə vaxtı illik planlaşdırmada nəzərdə tutulur.

Kiçik və böyük summativ qiymətləndirmə vasitələri qiymətləndirmə standartlarının dörd mürəkkəblik səviyyəsinə uyğun olaraq 1–4-cü səviyyələrdə (20%-i 1-ci, 30%-i 2-ci, 30%-i 3-cü və 20%-i 4-cü səviyyəyə aid olmaqla) hazırlanır.

Kiçik summativ qiymətləndirmənin keçirildiyi gün kiçik summativ qiymətləndirmədə iştirak etməyən şagirdin sinif jurnalında adının qarşısındakı xana diaqonalla 2 yerə ayrılır və onun sürətində "q" (qaib) yazılır, məxrəci isə boş saxlanılır. Müəllim həmin şagirdlə növbəti kiçik summativ qiymətləndirmənin keçiriləcəyi tarixədək kiçik summativ qiymətləndirmə aparır və onun nəticəsi məxrəcdə qeyd edilir.

1-ci yarımildə böyük summativ qiymətləndirmədə üzrlü səbəbdən iştirak etməyən şagird dərsə qayıtdıqdan sonrakı bir ay ərzində böyük summativ qiymətləndirmədə iştirakı təmin edilir. 1-ci yarımilədə böyük summativ qiymətləndirmədə üzrsüz səbəbdən iştirak etməyən və 2-ci yarımilin ilk bir ayı ərzində iştirakı təmin olunmayan şagirdin böyük summativ qiymətləndirmə üzrə qiyməti "0" qəbul olunur.

Şagird 2-ci yarımildə üzrlü səbəbdən böyük summativ qiymətləndirmədə iştirak etmədikdə ümumtəhsil müəssisəsinin pedaqoji şurasının qərarı ilə həmin şagirdin 2-ci yarımil üzrə qiyməti onun bu yarımildə iştirak etdiyi kiçik summativ qiymətləndirmələrin nəticələrinin ədədi ortası kimi müəyyənləşdirilir. Üzrsüz səbəbdən 2-ci böyük summativ qiymətləndirmədə iştirak etməyən şagirdin böyük summativ qiymətləndirmə üzrə qiyməti "0" qəbul edilir.

Summativ qiymətləndirmədə iştirak etməyən şagirdlər üçün yeni, lakin sinif üçün istifadə olunan tapşırıqlarla eyni səviyyəli qiymətləndirmə vasitələri hazırlanır.

Şagirdin yarımillik qiyməti yarımil ərzində keçirilən kiçik summativ qiymətləndirmələrin yekun nəticələrinin 40%-i ilə, yarımillik sonunda keçirilən böyük summativ qiymətləndirmənin nəticəsinin 60%-nin cəmi əsasında aşağıdakı düsturla çıxarılır:

$$\text{və } Y = \frac{ksq_1 + ksq_2 + \cdots + ksq_n}{n} \cdot \frac{40}{100} + BSQ \cdot \frac{60}{100}$$

Burada, Y – şagirdin 1-ci və ya 2-ci yarımil üzrə qiymətini;

$ksq_1$, $ksq_2$, ... $ksq_n$ – kiçik summativ qiymətləndirmələrin nəticələri;



Çap üçün deyil

BSQ – yarımilin sonunda keçirilən böyük summativ qiymətləndirmənin nəticəsini bildirir.

Şagirdin yarımillik qiyməti çıxarılarkən yuvarlaqlaşdırma qaydası tətbiq edilir.

Şagirdin illik qiyməti aşağıdakı cədvələ uyğun hesablanılır:

| Y1 | Y2 | İllik |
|---|---|---|
| 2 | 2 | 2 |
| 2 | 3 | 3 |
| 2 | 4 | 3 |
| 2 | 5 | 4 |

| Y1 | Y2 | İllik |
|---|---|---|
| 3 | 2 | 2 |
| 3 | 3 | 3 |
| 3 | 4 | 4 |
| 3 | 5 | 4 |

| Y1 | Y2 | İllik |
|---|---|---|
| 4 | 2 | |
| 4 | 3 | |
| 4 | 4 | |
| 4 | 5 | |

Burada: Y1-1-ci yarımil üzrə qiyməti, Y2-2-ci yarımil üzrə qiyməti göstərir.

Şagirdin qiyməti düzgün cavabların maksimum bala nisbəti ilə faiz göstəricisinə uyğun müəyyənləşdirilir:

| № | Şagirdin yerinə yetirdiyi tapşırıqların faizlə miqdarı | Şagirdin qiyməti |
|---|---|---|
| 1 | [ 0% – 40%] | 2 (qeyri-kafi) |
| 2 | (40% – 60% ] | 3 (kafi) |
| 3 | (60% – 80% ] | 4 (yaxşı) |
| 4 | (80% – 100% ] | 5 (əla) |

## Məzmun standartları üzrə qiymətləndirmə

Qiymətləndirmə standartları 4 səviyyə üzrə **qiymətləndirmə sxemləri (QS)** şəklində hazırlanır.

Səviyyə – 1, ən aşağı, Səviyyə – 4 ən yüksək səviyyəni əks etdirir. Səviyyə 1 və səviyyə 2 əksər şagirdlər, səviyyə 3 və xüsusilə, səviyyə 4 isə daha istedadlı şagirdlər üçün nəzərdə tutulur.

Qiymətləndirmə sxemləri qiymətləndirmənin daha ədalətli, obyektiv aparılmasına imkan verir, etibarlılığı və ardıcıllığı təmin edir, tədrisin səmərəli təşkili üçün müəllimləri zəruri məlumatlarla təmin edir. Bu isə müəllimə imkan verir ki, konkret şəraitdə müvafiq şərtlər üzrə öz qiymətləndirmə meyarlarını müəyyənləşdirsin.

Çap üçün deyil

## 1. Dinləyib-anlama

1.1.1. Dinlədiyi mətnin məzmununu şərh edir.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Sualın məzmunu başa düşdüyünü nümayiş etdirir, suala cavab verməyə çalışır. | Sualın məzmunu başa düşdüyünü nümayiş etdirməklə sadə cümlələrə, sadə şəkildə suala cavab verə bilir. | Sualın məzmunu başa düşüb suala cavab verə bildiyini nümayiş etdirir. | Sualın məzmunu tam anlayır, suallara ətraflı cavab verir. |

1.1.2. Dinlədiyi mətndəki əsas fikri müəyyənləşdirir.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Məzmunu qismən anladığını nümayiş etdirir. | Məzmunu qismən anladığını nümayiş etdirərək, əsas fikri müəyyən etdirməyə çalışır. | Məzmunu anlamaqla, əsas fikri müəyyənləşdirməyi bacarır. | Məzmunu tam anlamaqla, dinlədiyi mətndəki əsas fikri düzgün müəyyənləşdirir. |

## 2. Danışma

2.1.1. Nitq prosesində sait və samitləri düzgün tələffüz edir.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Sait və samit səsləri tanıdığını nümayiş etdirir. | Sait və samitləri tanımaqla onların fəqli xüsusiyyətlərini anladığını nümayiş etdirir. | Sait və samit səslərin müxtəlif sözlərdə işlənmə məqamlarını və tələffüzünü fərqləndirməyi bacarır. | Sait və samit səslərin təsnifatını tam anlayır, onları düzgün lələffüz edir. |

2.1.2. Nitq prosesində jet və mimikalardan istifadə edir.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Dinlədiyi nitqi qismən anladığı mimikalarından hiss olunur, mimikalardan istifadə etməyə çalışır. | Dinlədiyini başa düşməsini mimikalarla bildirməyə çalışır. | Dinlədiyini başa düşməsini mimikalardan və jestlərdən istifadə etməklə nümayiş etdirir. | Dinlədiyini və çatdırmaq istədiyi mətni jest və mimikalardan istifadə etməklə izah edir. |

Çap üçün deyil

2.1.3. Müzakirə olunan mövzu ilə bağlı mülahizələrini bildirir.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Müzakirə olunan mövzu ilə bağlı fikirləri başa düşdüyünü nümayiş etdirir. | Müzakirə olunan mövzu ilə bağlı mülahizələrini sadə cümlələrlə istifadə etməyə çalışır. | Müzakirə olunan mövzu ilə bağlı mühalizələrini bildirməyi bacarlır. | Müzakirə olunan mövzu ilə bağlı mülahizələrini sərbəst şəkildə bildirir. |

2.1.4. Deyəcəyi əsas fikir müəyyənləşdirir.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Deyəcəyi əsas fikri qisməndə olsa anladığını nümayiş etdirir. | Deyəcəyi əsas fikri müəyyənləşdirməyə çalışır, sadə cümlələrlə fikrini bildir. | Deyəcəyi əsas fikir müəyyənləşdirə bilir, onu dinləyiciyə çatdırır. | Deyəcəyi əsas fikir müəyyənləşdirə bilir, onu sərbəst şəkildə ifadə edir. |

## 3. Oxu

3.1.1. Mətndə tanış olmadığı sözlərin mənasını lüğətlərdən istifadə etməklə müəyyənləşdirir.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Lüğətdən istifadə etməklə sözlərin mənasını tapır, bir neçəsinin mənasını öyrənir. | Lüğətdən istifadə etməklə sözlərin mənasını tapır, onları öyrənməyə çalışır. | Lüğətdən istifadə etməklə sözlərin mənalarını müəyyənləşdirir, onlardan istifadə etməyi bacarır. | Lüğətdən istifadə etməklə tanış olmadığı sözlərin mənalarını müəyyənləşdirir, nitqdə onlardan istifadə edir. |

3.1.2. Mətndəki sözləri orfoepik qaydalara uyğun oxuyur.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Mətndəki sözləri oxuyur, orfoepik qaydalarını yadına salır. | Mətndəki sözləri oxuya-oxuya opfoepik qaydaları yadına salır. | Mətindəki sözləri orfoepik qaydalara uyğun olaraq oxuyur. | Mətndəki sözləri orfoepik qaydalara tam uyğun olaraq düzgün oxuyur. |

Çap üçün deyil

3.1.3. Mətndəki əsas fikrə uyğun fakt və hadisələri müəyyənləşdirir.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Mətndəki əsas fikri müəyyənləşdirməyə cəhd edir. | Mətndəki əsas fikri müəyyənləşdirərək ona uyğun fakt və hadisələri yada salmağa çalışır. | Mətndəki əsas fikri müəyyənləşdirməklə ona uyğun fakt və hadisələri də təyin edə bilir. | Mətndəki əsas fikrə uyğun fakt və hadisələri müstəqil şəkildə müəyyənləşdirməyi bacarır. |

**4. Yazı**

4.1.1. Müxtəlif yazı formalarını *(ifadə, inşa, hekayə)* fərləndirir.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Müxtəlif yazı formalarında zəifdə olsa yaza bildiyini nümayiş etdirir. | Müxtəlif yazı formalarından istifadə etdikcə onları bir-birindən fəqləndirə bildiyini nümayiş etdiri. | Müxtəlif yazı formalarını fərqləndirməyi bacarır, onların xüsusiyyətlərini fərqləndirir. | Müxtəlif yazı formalarının xüsusiyyətlərini yaxşı bilir, onları bir-birindən fərqləndirir və hər bir növündə yazmağı bacarır. |

4.1.2. Topladığı fakt və məlumatlara əsasən plan tərtib edilir.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Öyərnəcəyi mövzuya aid yeni fakt və məlumatlar toplamağa çalışır. | Yeni mövzu ilə bağlı fakt və məlumatlar toplayıb qruplaşdırmağa cəhd edir | Topladığı fakt və məlumatlara əsasən plan tərtib etməyi bacarır. | Topladığı fakt və məlumatlara əsasən plan tərtib edib mövzuya uyğunlaşdırır. |

4.1.3. Sait və samitlərin, mürəkkəb sözlərin yazılış qaydalarına, cümlələrin sonunda və dialoqlarda durğu işarələri qaydalarına əməl edir.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Yazı yazarkən durğu işarələrindən yerində istifadə etməyə çalışır. | Yazı yazarkən sözlərdəki səslərin düzgün yazılışına, durğu işarələrinin qoyulmasına diqqət edir. | Sait və samitlərin, mürəkkəb sözlərin yazılış qaydalarına, cümlənin sonunda və dialoqlarda durğu işarələri qaydalarına əməl etməyi bacarır. | Sait və samitlərin, mürəkkəb sözlərin yazılış qaydalarına cümlənin sonunda və dialoqlarda durğu işarələri qaydalarına düzgün əməl edir, durğu işarələrini yerində işlətməyi bacarır. |

Çap üçün deyil

4.1.4. Mətndəki əməli yazılar *(elan, məktub)* yazır.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Yazısını təkmilləşdirməyə, imla yazıdan başqa növ yazılar yazmağa çalışır. | Yazısını təkmilləşdirərək əməli yazılar yazmağa, onların standart formasını öyrənməyə çalışır. | Müxtəlif əməli yazılar yazmağı bacarır – elan, məktub yazısının nə olduğunu dərk edir. | Müxtəlif yazıları– elan, məktub formalarını yazmağı bacardığını, onlardan hansı məqamda istifadə etmək lazım gəldiyini nümayiş etdirir. |

## Təlim rus dilində aparılan ümumtəhsil məktəblərinin 5-ci sinfi üçün “Azərbaycan dili”dərslik komplektinin xüsusiyyətləri

Təlim rus dilində aparılan ümumtəhsil məktəblərinin 5-ci sinfi üçün “Azərbaycan dili” dərslik komplekti (dərslik və müəllim üçün metodik vəsait) birlikdə məzmun xətləri üzrə standartda nəzərdə tutulmuş təlim nəticələrinə nail olmaq üçün müəllim və şagirdləri zəruri resurslarla təmin edir.

Dərslik komplekti fəal təlimə əsaslanan dərslərin səmərəli keçməsini təmin etmək, şagirdlərin bilik, bacarıqlarını üzə çıxarıb onlara yeni, maraqlı dərs nümunələri təqdim etmək, şagirdi maraqlandıraraq onda Azərbaycan dilinə böyük məhəbbət oyatmaq, dili həm nəzəri, həm də praktik cəhətdən öyrətmək məqsədilə tərtib edilmişdir. Bu məqsədə müvafiq olaraq yeni dərslikdə müxtəlif məzmunlu mətnlər, dil qaydalarından nümunələr, şagirdlərin marağına səbəb ola biləcək tapşırıqlar verilmişdir. Müəllim üçün metodik vəsait isə müəllimlərimizin yeni dərs modellərindən istifadəsini, hər bir dərsin səmərəli və keyfiyyətli keçilməsini təmin etmək üçündür.

5-ci sinif “Azərbaycan dili” dərsliyi 32 paraqraf, 64 dərsdən ibarətdir. Hər dərs üçün şagirdlərin yaş səviyyələrinə uyğun, onların nitqini zənginləşdirə biləcək bir mətn verilmişdir. Təlimin digər dildə aparıldığını (rus dilində) və şagirdlərin dili həm də praktik cəhətdən öyrənmək istədiklərini, bu dildə sərbəst ünsiyyət qurmağa çalışmalarını nəzərə alaraq, 5-ci sinif dərsliyində zəruri hesab edilən dil materiallarına müəyyən dərəcədə yer verilmişdir. Bu həmin dil qaydalarından bəhrələnərək nitq prosesində onları tətbiq etməklə düzgün ünsiyyət qurmaq üçündür. Şagirdlər verilmiş qaydaları sadəcə əzbərləməli deyil, müəllimin köməyi ilə bu dil materialları əsasında müstəqil cümlə qurmaq, fikrini sərbəst şəkildə ifadə etmək bacarıqlarını inkişaf etdirməlidirlər. Beləliklə, dil materialları şifahi məlumat xarakteri daşıyır, şagirdlərin rabitəli nitqlərinin inkişafına xidmət edir.

Hər bir paraqrafda kifayət qədər çalışma verilmişdir. Çalışmalar müxtəlif səpkilidir, bəziləri öyrənilən məlumatı yadda saxlayıb mənimsəmək, bəziləri şagirdlərə düzgün yazı vərdişləri aşılamaq, bəziləri rabitəli nitqi inkişaf etdirmək üçün nəzərdə tutulmuşdur. Çalışmaların çoxluğu müəllimlərin narahatlığına səbəb olmamalıdır.

Çap üçün deyil

Onların yerinə yetirilməsi sinfin səviyyəsindən – şagirdlərin Azərbaycan dilini bilmə bacarıqlarından asılıdır. Müəllimlərimiz yaxşı bilirlər ki, bəzi siniflərdə dili praktik cəhətdən çox yaxşı bilən şagirdlər təhsil alırlar. Belə siniflərdə şagirdlərə kifayət qədər məlumat vermək mümkündür. Bəzən belə siniflərdə təhsil alan şagirdlərə dərslikdəki çalışmaların miqdarı azlıq edir. Bu zaman müəllim vəsaitin sonundakı materiallardan istifadə edə bilər. Elə siniflər də var ki, orada təhsil alan şagirdlər dili praktik cəhətdən zəif bilirlər, ünsiyyət qurmaqda, fikrini müstəqil şəkildə ifadə etməkdə çətinlik çəkirlər. Belə siniflərdə işləyən müəllimlər sinfin səviyyəsini nəzərə alaraq çalışma seçimində diqqətli olmalıdırlar. Bir dərsdə bütün tapşırıqların yerinə yetirilməsi məcburi deyil. Şagirdlərə dərslikdən həmin saat üçün nəzərdə tutulmuş çalışmalar içərisindən daha müvafiq olanı seçib tövsiyə etmək (dili praktik cəhətdən zəif bilənləri nəzərə alaraq, xüsusən, şifahi çalışmalara üstünlük verməli) məqsədəuyğundur.

Məlumdur ki, Milli Kurikuluma əsasən şagirdlər yeni mövzunu dərsdə mənimsəməli, öyrənməli, evdə yaradıcı tədbiqetmə yolu ilə təkrarlamalıdırlar. Bu cəhətdən dərslikdə şagirdlər üçün seçilmiş mətnlər onların yaş səviyyələrinə uyğun, qavraya biləcəkləri şəkildədir. Mətnlərin mənimsənilməsində əsas məqsəd şagirdlərin rabitəli nitqlərini inkişaf etdirmək, onlarda müstəqil ünsiyyət qurmaq bacarığı formalaşdırmaqdır. Verilən çalışmaların bir qismi isə şagirdləri düzgün yazı vərdişlərinə alışdırmaq, savadlı yazmağı öyrətmək üçündür. Dərslikdə şagirdlərin söz ehtiyatlarını artırmaq, dili daha yaxşı və mükəmməl mənimsətmək üçün “Sözlük” və “Söz ehtiyatı”ndan istifadə edilmişdir (verilmiş sözlərin aşağı siniflərdə keçilmədiyi nəzərə alınmaqla).

Azərbaycan dili dərslik komplektində ayrı-ayrı dərslər üçün verilmiş tədris materialları bir-birini təkrar etmir, ancaq həmin materiallar qoyulmuş mövzu baxımından bir-birini tamamlayır və şagirdlərin mövzu ilə əlaqədar problemləri müxtəlif tərəflərdən görmələrinə, dərk etmələrinə istiqamətləndirilir. Dinləyib-anlama, danışma, oxu və yazı üzrə zəruri bacarıqların formalaşdırılması işi forma və məzmunca son dərəcə rəngarəng, üslubca fərqli mətnlər üzrə aparılır. Bu materialların içərisində bədii, elmi-kütləvi mətnlərlə yanaşı, uşaqların yaş və bilik səviyyələrinə uyğun nəzm nümunələri, xatirələr, lətifələr, tapmacalar, atalar sözləri və dialoqların olması təsadüfi səciyyə daşımayıb dərslərdə öyrənmə mühitini canlandıracaq emosionallığın təmin edilməsi üçün düşünülmüşdür.

Dərslik tərtib edilərkən nitq fəaliyyəti üzrə bütün bacarıqların rabitəli mətnlər əsasında formalaşdırılmasına diqqət yetirilmişdir. Uşaqların praktik dil bacarıqları üçün nəzərdə tutulmuş mətnlər əsas vəzifə ilə yanaşı, onlarda məntiqi, yaradıcı və tənqidi təfəkkürün formalaşdırılmasını da nəzərdə tutur ki, bunlarsız dilin şüurlu mənimsənilməsini həyata keçirmək mümkün deyildir. Bu işlər, eyni zamanda, ailənin, məktəbin dəyəri və insan həyatında əvəzedilməz rolu,Vətənin müqəddəs olması və onun heç bir şeylə əvəz edilə bilməməsi, mənəvi dəyərlərin dərk edilməsi və qorunub saxlanılması, insani keyfiyyətlərin təbliği və dəyərləndirilməsi, təbiətə şüurlu münasibətin insanın özünə xidmət səviyyəsində dərk edilməsi, ekologiyanın insan həyatına təsiri, heyvanlara və quşlara qayğı, ağaclara qulluq kainatın tarazlığının



Çap üçün deyil

qorunması zəruriliyi kimi problemlərin qavranılmasını hədəf alır. Bu bacarıqlar çalışmalar vasitəsilə bir daha möhkəmləndirilir, təkmilləşdirilir və inkişaf etdirilir.

Dərslik komplekti hazırlanarkən varislik nəzərə alınmış, əvvəlki siniflərdə məzmun xətləri üzrə şagirdlərin təlim nəticələri və bunlarla bağlı bacarıqların səviyyəsi təlim materiallarının xarakterində öz ifadəsini tapmışdır. Belə ki, spesifik səslərin düzgün məxrəcinin mənimsədilməsi məqsədilə dərslikdə, əsasən, içərisində spesifik səslər olan sözlərdən istifadəyə metodik prinsip kimi yanaşılmış, bununla yanaşı, müvafiq bacarıqların təkmilləşdirilməsinə kömək edəcək cəhətlər sistemli olaraq didaktik materialların xarakterində maksimum nəzərə alınmışdır.

Bundan əlavə, müxtəlif məzmun xətləri üzrə verilmiş materiallarla interferensiyanın yaradacağı çətinliklər əvvəlcədən nəzərə alındığından rus dili ilə əlaqəyə xüsusi diqqət yetirilmiş, uyğun və fərqli dil hadisələri qarşılaşdırma və müqayisəli şəkildə verilmişdir. Tədris işini planlaşdırarkən nəzərə almaq lazımdır ki, Azərbaycan və rus dillərinin tipoloji cəhətdən fərqli olmalarından doğan bir sıra xüsusiyyətlər (Azərbaycan dilində cins kateqoriyasının olmaması və bunun təsriflənmə və hallanma sistemində yaratdığı fərqliliklər, Azərbaycan dilində əlamət bildirən sözlərin xüsusi şəkli əlamətə malik olmaması, həmin sözlərin və miqdar bildirən sayların özlərindən sonra gələn sözlərlə uzlaşmaması, əvəzliklərdə olan fərqli cəhətlər) rus dilli şagirdlərdə bu dilin öyrənilməsi prosesində bir sıra çətinliklirin meydana çıxmasına səbəb olur. Tədris prosesində bunu qanunauyğunluq kimi qəbul etmək, çətinlikləri ancaq müqayisə və qarşılaşdırma yolu ilə şüurluluq əsasında aradan qaldırmağa imkan verən iş formalarına müraciət etmək lazım gəlir ki, dərslikdə bunlar nəzərə alınmışdır.

Dərsliyin metodik aparatı onun asan qavranılmasını təmin edir. Belə ki, hər bir dərs üçün verilmiş mətn və ya şeirdən sonra mətnin qavranılmasına kömək edən “sözlük”, ”söz ehtiyatı”, müxtəlif səpkili tapşırıqlar və çalışma mətnləri verilir. Dərslikdə lüğət materialının ayrı-ayrı başlıqlarla verilməsi düşünülərək edilmiş, ”söz ehtiyatı” rubrikası altında mətndəki frazeoloji vahidlər və 5-ci sinif şagirdlərinin fəal lüğəti üçün aktuallıq kəsb etməyən sözlər yerləşdirilmişdir. Bu yolla həm də dilin lüğət tərkibinin leksik və frazeoloji vahidlərdən ibarət olması ilə bağlı ilkin təsəvvür formalaşdırmaq məqsədi izlənilmişdir. Ayrıca rubrika ilə həmçinin frazeoloji vahidlərin 5-ci sinif şagirdləri tərəfindən başa düşülməsinin çətinliyi vurğulanmış, bununla belə, tədricilik yolu ilə dildə emosionallığı artıran frazeoloji vahidlərin şagirdlərin lüğətinə daxil edilməsinin zəruriliyi də diqqətə çatdırılmışdır. Frazeoloji vahidlərin zəruri lüğət minimumundan fərqləndirilməsi və tərcüməsinin verilməsinin zəruriliyi mətnin qavranılmasına kömək tələbindən doğur, digər tərəfdən, fikrin müxtəlif dil vasitələri ilə ifadəsinin mümkünlüyünü praktik şəkildə şagirdlərin nəzərinə çatdırır.

Dərslikdə atalar sözləri “Atalar sözü – sözlərin gözü” başlığı ilə verilir. Dərslikdə atalar sözlərindən tədris materialı kimi istifadə iki aspektdə reallaşdırılmışdır: birincisi, şagirdləri bilavasitə nitqin hazır vahidləri ilə tanış etmək və yeri gəldikdə onlardan şifahi və yazılı nitqdə istifadə bacarığını formalaşdırmaq, ikincisi isə atalar sözlərinin dolayı yolla şagirdlərin nitqinə daxil olması və dilin bu zəngin xəzinəsi

Çap üçün deyil

ilə şagirdlərin daha yaxından tanış olmaları üçün atalar sözlərindən çalışma mətnləri kimi istifadə edilmişdir. Atalar sözlərinin məzmununun asan qavranılması və onlardan istifadə bacarığının optimallaşmasını təmin etmək üçün hər iki formada dərsliyin sisteminə daxil edilmiş atalar sözlərinin ayrı-ayrı mətnlərin məzmunu ilə səsləşməsinə diqqət yetirilmişdir.

Dərslikdə əsas diqqət verilən məsələlərdən biri də dinləyib-anlama, danışma, oxu və yazı bacarıqlarının konkret mətnlər üzərində mərkəzləşdirilməsidir. Belə ki, hər bir mətndə işlənmiş yeni sözlər hesabına şagirdlərin lüğət ehtiyatının genişlənməsi və zənginləşdirilməsi həyata keçirilir. Lüğətin zənginləşdirilməsinə müxtəlif yollarla nail olmaq mümkündür ki, dərslikdə bu imkanlardan istifadə edilmişdir. Mətndə işlənmiş bu və ya digər sözü mənaca ona yaxın və ya əksmənalı olan sözlərlə əvəz etmək yolu ilə, məna variantları içərisindən mətndə fərqləndirilmiş sözə yaxın mənalı sözü seçib səsləndirməklə, çoxmənalı sözləri cümlələrdə ayrı-ayrı mənalarda işlətməklə, frazeoloji ifadələri leksik sinonimləri ilə əvəz etmək yolu ilə, məna variantları içərisindən mətndə fərqləndirilmiş sözə yaxınmənalı sözü seçməklə, çoxmənalı sözləri cümlələrdə müxtəlif mənalarda işlətməklə, frazeoloji ifadələri leksik sinonimləri ilə əvəz etməklə, mətn üzrə yeni öyrənilən sözləri cümlələr içərisində işlətməklə sözlərin mənasının qavranılması prosesi şüurluluq əsasında həyata keçirilir. Şagirdlərdə şüurlu oxu bacarıqlarının formalaşdırılması və mətnin məzmununun qavranılması dərslikdə müxtəlif tipli çalışmalarla reallaşdırılmışdır. Bütün çalışmalar şagirdlərdə danışma məzmun xətti ilə üzvi əlaqəni praktik yolla həyata keçirir. Mətn üzrə qoyulan sual və tapşırıqları yerinə yetirən şagird məsələyə münasibətini bildirmək üçün danışır, mülahizələrini söyləyir, fikirlərini izah edir ki, bununla da gözlənilən təlim nəticələri əldə edilmiş olur.

Dərslikdə hər bir vasitə, iş növü şagirdlərin rabitəli nitqinin inkişafına istiqamətləndirilmişdir. Odur ki, dilin istər fonetik və qrammatik normalarının, istərsə də lüğət tərkibinin praktik yolla mənimsənilməsi məhz müxtəlif janr və formalı mətnlər üzrə həyata keçirilir.

Dərslikdəki səhifə 38-40; 72-73; 117-119; 146-152-də verilmiş “Özünüzü yoxlayın” başlıqlı tapşırıqlardan isə müəllimlər sinfin dil bilmə xüsusiyyətlərinə şagirdlərin bilik və bacarıqlarının səviyyələrinə uyğun şəkildə istifadə edə bilərlər.

“Bunları bilirsinizmi?” rubrikası dərsliyin metodik aparatında təmsil olunan zəruri iş formalarından biridir. 3-cü sinifdə şagirdlər sait, samit, heca anlayışları, 4-cü sinifdə isə dilimizin lüğət tərkibi ilə bağlı ilkin təsəvvürlər əldə etmişlər. 5-ci sinifdə isə bu sahədəki təsəvvürlərin təkmilləşdirilməsi ilə yanaşı, şagirdlərin yeni nəzəri biliklərlə praktik tanışlığı davam etdirilir. Şagirdlər praktik olaraq nitq prosesində daim qarşılaşdıqları söz qruplarının müxtəlif növləri və onların işlənmə funksiyaları ilə şifahi şəkildə tanış olur, gündəlik nitqlərində rast gəldikləri dil hadisələrinin mənalarını anlamağa hazırlanırlar. Tanışlıq üçün nəzərdə tutulmuş bu materialların şərhində şagirdlərin beşinci sinfə qədərki praktik biliklərinə və təsəvvürlərinə istinad edilmişdir.

Dərsliyin xüsusiyyətlərindən danışarkən bir məsələni də qeyd etməyi zəruri hesab edirik: “İş dəftəri” dərslik komplektindən çıxarılmışdır. Dərsliyin həcmi

Çap üçün deyil

isə çalışmaların miqdarını artırmağa imkan vermir. Odur ki, dərslikdəki bəzi mətnlərin üzərində müəyyən şərti işarələrdən istifadə edilmiş, lakin bunlara aid müvafiq çalışmalar verilməmişdir. Müəllimlər bu işarələrlə fərqləndirilmiş sözlərin xüsusiyyətlərini nəzərə alaraq şagirdlərin müstəqil praktik işlərini təşkil edə bilərlər ki, burada həmin materiallara aid nümunələr veririk:

1. Mətndə üzərində ulduz işarəsi qoyulmuş aşağıdakı sözlərə yaxınmənalı sözlər tapıb cümlələrdə işlədin (səh. 9). 2. Mətndə yaşıl rəngdə verilmiş sözlərin bir-birinə münasibətini müəyyənləşdirin və özünüz də belə misallar deyin (səh. 12). 3. Şeirdə göy rəngdə verilmiş sözlərin bir-birinə münasibətini müəyyənləşdirin (səh. 16). 4. Mətndə qırmızı rəngdə verilmiş sözlərə sual verin. Sonra həmin sözlərin kökünü müəyyənləşdirin və köklərə də sual verin. Bu sualları əvvəlki suallarla müqayisə edin. Sözlərdə mənanın dəyişdiyini əsaslandırın (səh. 19-20). 5. Mətndə göy rəngdə verilmiş sözləri köçürün və tələffüzünü qarşılarında qeyd edin. Hansı sözlərin tələffüzündə çətinlik çəkdiniz (səh. 24)? 6. Mətndə yaşıl rəngdə verilmiş söz və ifadələri sinonimləri ilə əvəz edib cümlələri yenidən oxuyun (səh. 24-25). 7. Şeirdə qırmızı rəngdə verilmiş isimləri kök və şəkilçiyə ayırıb yazın. Cəm şəkilçilərindən sonra gələn şəkilçilərin altından xətt çəkin (səh. 41). 8. Mətndə yaşıl rəngdə verilmiş sözləri yaxınmənalı sözlərlə əvəz edib cümlələri yenidən oxuyun (səh. 52-53).

Müəllim üçün metodik vəsaitdə dərsliklə işləyəcək müəllimlərə kömək məqsədilə 5-ci sinif üzrə məzmun standartlarının verilməsi məqsədəuyğun hesab edilmişdir.

Vəsaitdə fəndaxili və fənlərarası inteqrasiyanın nəzərə alınması zərurəti əsaslandırılır, şagirdlərin qiymətləndirilməsinin forma və üsulları, vasitələri barədə məlumat verilir, şagird nailiyyətlərinin monitorinqi üçün müəllimlərə bir neçə qiymətləndirmə cədvəli nümunəsi təklif edilir.

"Təlim rus dilində aparılan məktəblərdə Azərbaycan dilinin tədrisi prosesində interaktiv təlim metodlarından istifadə" başlıqlı hissədə interaktiv təlim metodlarından istifadə haqqında, bu metodlardan istifadənin bir metodik tələb kimi qarşıya qoyulması zərurəti barədə məlumat verilir, tövsiyə olunan metodlar göstərilir. Burada həmçinin dərslərin planlaşdırılması mərhələləri xatırladılır, fəal dərsin quruluşu, mərhələləri bir daha yada salınır.

Müəllim üçün metodik vəsaitdə "Dərslərin illik tematik planlaşdırılması" verildikdən sonra dərslikdə 64 dərs üçün nəzərdə tutulmuş bütün mövzuların istiqamətləri şərh olunur, hər bir dərsin xüsusiyyəti, məqsəd və vəzifələri, iş üsulları, resursları, inteqrasiya imkanları göstərilir. Dərslərin quruluşu fəal dərsin quruluş modelinə uyğun ardıcıllıqla təqdim olunur, hər mərhələdə tövsiyə olunan tədris materiallarının xarakteri izah edilir.

Vəsaitin sonunda imla yazı mətnləri, lüğət üzrə imlalar, ifadə və tərcümə mətnləri, atalar sözləri, nitq etiketləri, sinifdənxaric oxu materialları müəllimlərin ixtiyarına verilmişdir.

Çap üçün deyil

## DƏRSLƏRİN İLLİK TEMATİK PLANLAŞDIRILMASI

| *Sıra* | *Mövzu* | *Saat* | *Dərslik (səh.)* | *Metodik vəsait (səh.)* | *Standart* |
|---|---|---|---|---|---|
| 1 | Diaqnostik dərs | 1 | - | 30 | 1.1.1; 2.1.3; 3.1.1; 4.1.3 |
| 2 | Birinci dərs | 1 | 5 | 31 | 1.1.1; 2.1.3; 3.1.1; 4.1.3 |
| 3 | Sevimli məktəb | 1 | 8 | 33 | 1.1.1; 1.1.2; 2.1.1; 3.1.1; 4.1.3 |
| 4 | Müəllimin sevinci | 1 | 10 | 35 | 1.1.2; 2.1.3; 3.1.1; 4.1.2; 4.1.3 |
| 5 | Sevirik səni biz | 1 | 12 | 37 | 1.1.2; 2.1.3; 3.1.2; 4.1.3 |
| 6 | Əsl həqiqət | 1 | 13 | 39 | 1.1.2; 2.1.3; 3.1.1; 4.1.1 |
| 7 | Yoldaşlıq köməyi | 1 | 17 | 41 | 1.1.1; 2.1.3; 3.1.2; 3.1.3; 4.1.1 |
| 8 | Ay aman!.. Sel apardı!.. | 1 | 19 | 43 | 1.1.2; 2.1.2; 3.1.3; 4.1.3 |
| 9 | Qız məktəbində | 1 | 22 | 45 | 1.1.1; 2.1.2; 2.1.3;<br>3.1.1; 3.1.2; 4.1.3 |
| 10 | Vətən nədir? | 1 | 25 | 47 | 1.1.1; 2.1.2; 3.1.2 ; 4.1.3 |
| 11 | Azərbaycan | 1 | 27 | 50 | 1.1.2; 2.1.2; 3.1.2; 3.1.3; 4.1.3 |
| 12 | Şirvanşahlar sarayı<br>1-ci hissə | 1 | 29 | 52 | 1.1.1; 2.1.3; 3.1.3; 4.1.3 |
| 13 | Şivanşahlar sarayı<br>2-ci hissə | 1 | 32 | 53 | 1.1.1; 2.1.1; 3.1.1; 4.1.2 |
| 14 | Saatsaz qarğa | 1 | 35 | 55 | 1.1.2; 2.1.3; 3.1.1; 4.1.2 |
| 15 | Canlı saat | 1 | 38 | 57 | 1.1.1; 2.1.1; 3.1.2; 4.1.3 |
| 16 | **KSQ** | 1 | | 58 | 1.1.1; 2.1.3; 3.1.1; 4.1.3 |
| 17 | Payız | 1 | 42 | 60 | 1.1.2; 2.1.1; 3.1.3; 4.1.3 |
| 18 | Göyçək Fatmanın nağılı | 1 | 43 | 62 | 1.1.2; 2.1.3; 3.1.1; 4.1.2 |
| 19 | Hər kəsin öz yerişi var | 1 | 48 | 64 | 1.1.2; 2.1.3; 3.1.2; 4.1.3 |
| 20 | Qızıl və ilan | 1 | 49 | 65 | 1.1.2; 2.1.1; 3.1.1; 4.1.3 |
| 21 | Qonaq | 1 | 52 | 67 | 1.1.2; 2.1.3; 3.1.2; 4.1.3 |

Çap üçün deyil

| *İnterqasiya* | *Resurslar* | *İş formaları və qiymətləndirmə* | *Sıra* |
|---|---|---|---|
| Əd.- 1.1.1; X.d.-1.1.2; 2.1.1; H.b.-3.2.2; | Test tapşırıqları | Şifahi sorğu, test, məzmun standartlarına əsasən qitmətləndirmə | 1 |
| Əd.- 1.2.1; A.t.-1.3.1; X.d.-2.1.1; H.b.-3.2.2; İn.-3.3.2; | Dərslik, dəftər, şəkillər, iş vərəqləri. | Böyük və kiçik qruplarla iş. | 2 |
| Əd.-1.2.4; X.D-4.1.1; A.t.-3.1.2; H.b.-3.1.1; İn.-3.2.3. | Dərslik, dəftər, plakat, iş vərəqləri. | Böyük və kiçik qruplarla iş. | 3 |
| Əd.-1.2.3; X.d.-3.1.4; A.t.-4.1.1; H.b.-3.2.1; İn.-3.3.2. | Dərslik, dəftər, şəkillər, iş vərəqləri. | Böyük və kiçik qruplarla iş, cütlərlə iş. | 4 |
| Əd.-1.3.2; A.t.-1.3.1; X.d.-3.1.1; İn.-3.2.3; H.b.-2.1.1. | Dərslik, dəftər, iş vərəqləri. | Böyük və kiçik qruplarla iş. | 5 |
| A.t.-1.3.1. Əd.-1.3.2; X.d.-3.1.2; İn.-3.2.3; H.b.-3.2.1; | Dərslik, dəftər, iş vərəqləri. | Böyük qrupla iş, cütlərlə iş. | 6 |
| Əd.-1.2.4; X.d.-1.1.2; İn.-3.2.2; H.b -1.2.1; A.t.-5.1.2. | Dərslik, dəftər. | Beyin həmləsi, müzakirə. | 7 |
| A.t.-1.1.1; X.d.-4.1.1; H.b.-3.2.1; F.t.-1.3.5. | Dərslik, dəftər, şəkil, internetə qoşulmuş kompyuter, www.google.az saytı. | Əqli hücum, sual-cavab, təqdimat, müzakirə. | 8 |
| Əd.-1.1.2; X.d.-2.1.2; İn.-3.2.2; H.b.-3.1.1; A.t.-1.2.2. | Dərslik, dəftər, şəkil, internetə qoşulmuş kompyuter, www.google.az saytı. | Böyük qrupla iş. məzmun standartlarına əsasən qitmətləndirmə | 9 |
| A.t.-3.1.1; H.b.-2.1.1; Əd.-2.2.1; X.d.-2.1.2; İn.-3.3.2; | Dərslik, dəftər, şəkil. | Böyük və kiçik qrupla iş. | 10 |
| Əd.-1.2.1; İn.-3.2.2; H.b.-2.2.1; A.t.-2.1.2. X.d.-3.1.2; | Dərslik, dəftər, internetə qoşulmuş kompyuter, proyektor, iş vərəqləri. | Böyük və kiçik qruplarla iş. | 11 |
| A.t.-5.1.1. Əd.-3.1.2. X.d.-4.1.3. İn.-3.2.3. H.b.-3.2.2. | Dərslik, dəftər, internetə qoşulmuş kompyuter, proyektor, iş vərəqləri. | Böyük və kiçik qruplarla iş. | 12 |
| A.t.-5.1.2. Əd.- 1.3.4. X.d.-4.1.2. İn.-3.2.3. H.b.-3.2.2. | Dərslik, dəftər, sxem. | Böyük qrupla, cütlərlə iş. | 13 |
| Əd.- 1.3.3. X.d.-3.1.4. H.b.-4.1.1. A.t.-1.2.2. İn.-3.1.3. | Dərslik, dəftər, internetə qoşulmuş kompyuter, proyektor, iş vərəqləri. | Böyük və kiçik qruplarla iş, cütlərlə iş. | 14 |
| A.t.-1.3.1. Əd.- 1.3.2. X.d.-4.1.1. H.b-4.1.1. İn.-3.2.3. | Dərslik, dəftər, zəngli saat. | Böyük qrupla, cütlərlə iş. | 15 |
| Əd.- 1.1.1; X.d.-1.1.2; 2.1.1; H.b.-3.2.2; | Test tapşırıqları | Böyük qrupla iş.Test, məzmun standartlarına əsasən qitmətləndirmə | 16 |
| A.t-1.1.1. Əd.-1.2.4. X.d.-2.1.1. H.b.-1.2.1. İn.-3.2.3. | Dərslik, dəftər, kompyuter, E.Sabitoğlunun diski, iş vərəqləri. | Böyük və kiçik qruplarla iş. məzmun standartlarına əsasən qitmətləndirmə | 17 |
| Əd.-1.3.3. X.d.-3.1.3. A.t.-1.2.1. H.b.-3.2.2. İn.-3.2.3. | Dərslik, dəftər, "Zoluşka" filminin diski, proyektor, iş vərəqi. | Böyük və kiçik qruplarla iş. | 18 |
| Əd.-1.3.3. X.d.-4.1.1. A.t.-1.3.1. H.b.-2.1.1. İn-3.2.3. | Dərslik, dəftər, DVD-pleyer, cizgi filminin diski. | Cütlərlə iş, böyük qrupla iş. | 19 |
| Əd.-1.3.4. A.t.-3.1.3. İn.-3.3.2. H.b.-3.2.1. | Dərslik, dəftər, motivasiya qurmaq üçün konfet qutusu. | Böyük qrupla iş. | 20 |
| Əd.-1.3.2.A.t.-2.1.1. İn.-3.2.2. X.d.-2.1.2. H.b.-1.2.1. | Dərslik, dəftər, iş vərəqləri. | Böyük və kiçik qruplarla iş. | 21 |

Çap üçün deyil

| | | | | | |
|---|---|---|---|---|---|
| 22 | Baba otağı | 1 | 53 | 68 | 1.1.1; 1.1.2; 2.1.3; 3.1.1; 4.1.3 |
| 23 | Ad gününün tarixçəsi | 1 | 56 | 69 | 1.1.2; 2.1.1; 3.1.3; 4.1.4 |
| 24 | Arılıqda | 1 | 58 | 71 | 1.1.2; 2.1.3; 3.1.1; 4.1.2; 4.1.3 |
| 25 | Ayı və şir | 1 | 61 | 72 | 1.1.2; 2.1.3; 3.1.1; 4.1.3 |
| 26 | Şahzadə və balaca çoban 1-ci hissə | 1 | 63 | 74 | 1.1.2; 2.1.3; 3.1.3; 4.1.3 |
| 27 | Şahzadə və balaca çoban 2-ci hissə | 1 | 65 | 76 | 1.1.1; 2.1.2; 3.1.1; 4.1.2 |
| 28 | Tanışlıq | 1 | 67 | 77 | 1.1.2; 2.1.1; 3.1.1; 4.1.3 |
| 29 | Dörd arzu | 1 | 69 | 79 | 1.1.2; 2.1.4; 3.1.3; 4.1.3 |
| 30 | Qışın sovqatı | 1 | 71 | 80 | 1.1.2; 2.1.4; 3.1.3; 4.1.3 |
| 31 | **BSQ** | 1 | - | 82 | 1.1.1; 2.1.3; 3.1.1; 4.1.3 |
| 32 | Təzə ildə | 1 | 75 | 84 | 1.1.1; 2.1.3; 3.1.2; 4.1.3 |
| 33 | Göyərçin və qarışqa | 1 | 78 | 85 | 1.1.2; 2.1.3; 3.1.1; 4.1.1; 4.1.3 |
| 34 | Əsl dost | 1 | 80 | 86 | 1.1.2; 2.1.3; 3.1.2; 4.1.3 |
| 35 | Şəhidlər xiyabanı | 1 | 82 | 88 | 1.1.2; 2.1.3; 3.1.3; 4.1.3 |
| 36 | Qaçaq Nəbi | 1 | 84 | 89 | 1.1.2; 2.1.3; 3.1.3; 4.1.3 |
| 37 | Əl | 1 | 87 | 91 | 1.1.2; 2.1.2; 3.1.2; 4.1.3 |
| 38 | Xoşbəxtlik barəsində | 1 | 89 | 93 | 1.1.2; 2.1.4; 3.1.1; 4.1.3; |
| 39 | Az danışmağın gözəlliyi | 1 | 92 | 95 | 1.1.1; 2.1.2; 3.1.2; 4.1.3; |
| 40 | Leylək yuvası 1-ci hissə | 1 | 94 | 97 | 1.1.2; 2.1.4; 3.1.1; 4.1.3 |
| 41 | Leylək | 1 | 96 | 99 | 1.1.2; 2.1.1; 3.1.1; 4.1.3; |
| 42 | Leylək yuvası 2-ci hissə | 1 | 97 | 100 | 1.1.2; 2.1.1; 3.1.1; 4.1.3; |
| 43 | Qırmızı kitab | 1 | 100 | 102 | 1.1.2; 2.1.3; 3.1.3; 4.1.3 |
| 44 | Nigarın sevinci | 1 | 103 | 103 | 1.1.2; 2.1.3; 3.1.3; 4.1.2; |
| 45 | Ürək xatirəsi | 1 | 106 | 105 | 1.1.1; 2.1.2; 3.1.2; 4.1.3; |

Çap üçün deyil

| | | | |
|---|---|---|---|
| Əd.-1.3.2. X.d.-4.1.1. A.t.-1.3.1. H.b.-2.1.1. İn.-3.2.2. | Dərslik, dəftər, DVD-Pleyer, “Qaraca qız” filminin diski, iş vərəqləri. | Böyük və kiçik qruplarla iş. məzmun standartlarına əsasən qitmətləndirmə | 22 |
| Əd.-2.2.1. X.d.-3.1.1. A.t.-1.1.1. H.b.-3.2.1. İn.-3.2.2. | Dərslik, dəftər, iş vərəqləri. | Böyük və kiçik qruplarla iş. | 23 |
| Əd.-1.3.3. X.d.-3.1.4. A.t.-1.3.1. H.b.-2.1.1. İn.-3.2.2. | Dərslik, dəftər, internetə qoşulmuş kompyuter. | Böyük və kiçik qruplarla iş. | 24 |
| Əd.-1.3.3. X.d.-2.1.1. A.t.-1.2.2. H.b.-1.2.1. İn.-3.2.2. | Dərslik, dəftər, iş vərəqləri. | Böyük və kiçik qruplarla iş. | 25 |
| Əd.-1.1.1. X.d.-4.1.1. A.t.-1.3.1. H.b.-2.1.1. İn.-3.2.2. | Dərslik, dəftər. | Böyük qrupla iş, cütlərlə iş. | 26 |
| Əd.-1.1.2. X.d.-2.1.3. A.t.-1.3.1. H.b.-2.1.1. İn.-3.2.2. | Dərslik, dəftər, iş vərəqləri. | Böyük və kiçik qruplarla iş. | 27 |
| Əd.-1.3.3. A.t.-1.3.1. H.b.-2.1.1. İn.-3.2.2. X.d.-2.1.2. | Dərslik, dəftər, iş vərəqləri, şəkillər. | Böyük və kiçik qruplarla iş. | 28 |
| Əd.-2.2.1. X.d.-4.1.2. A.t.-2.1.1. İn-1.2.3. H.b.-4.1.1. | Dərslik, dəftər, şəkillər. | Kiçik və böyük qruplarla iş. | 29 |
| Əd.-2.1.1. A.t.-1.3.1. H.b.-4.1.1. İn.-3.2.3. | Dərslik, İş dəftəri, elektron lövhə, proyektor (bunlar olmasa şəkil). | Kiçik və böyük qruplarla iş. | 30 |
| Əd. -3.1.2. İn.-3.2.2. X.d.-3.1.4. | Test tapşırıqları | Böyük qrupla iş.Test, məzmun standartlarına əsasən qitmətləndirmə | 31 |
| A.t.-1.2.2. Mus.-2.3.1. Əd.-2.2.3. İn.-3.2.2. H.b.-3.2.1. | Dərslik, dəftər, proyektor, kompyuter, mahnı diski. | Böyük qrupla iş. | 32 |
| Əd.- 1.2.2. X.d.-2.1.1. İn.-3.3.2. H.b.-1.2.1. | Dərslik, dəftər. | Cütlərlə iş, böyük qrupla iş. | 33 |
| A.d.- 2.2.2. A.t.-1.3.1. H.b-3.2.1. İn.-3.3.2 | Dərslik, dəftər, iş vərəqləri. | Cütlərlə və böyük qrupla iş. | 34 |
| A.d-2.2.1. X.d.-2.1.2. A.t.-4.1.2. İn.-3.2.3. H.b.-2.2.1. | Dərslik, dəftər, elektron lövhə, proyektor, videoçarx, iş vərəqləri. | Kiçik və böyük qruplarla iş. | 35 |
| A.t.-4.1.1. H.b.-2.2.2. A.d.-1.3.2. X.d.-3.1.4. İn.-3.3.2. | Dərslik, dəftər, kompyuter, proyektor, bədii filmin diski, iş vərəqləri. | Kiçik və böyük qruplarla iş. | 36 |
| Əd-1.2.4. X.d.-3.1.2. A.t.-2.1.1. H.b.-2.1.1. İn.-3.2.3. | Dərslik, dəftər, plakat, iş vərəqləri. | Böyük və kiçik qruplarla iş. | 37 |
| A.d.-1.2.1. X.d.-3.1.4. A.t.-1.3.1. H.b.-2.1.1. İn.-3.2.3. | Dərslik, dəftər, iş vərəqləri. | Böyük və kiçik qrupla iş. | 38 |
| Əd.-1.3.4. X.d.-3.1.4. A.t.-1.2.1. İn.-3.2.2. H.b.-3.1.1. | Dərslik, dəftər, iş vərəqləri, “Azərbaycanfilm”in 1982-ci ildə istehsal etdiyi “Nizami” filminin (rejissoru E.Quliyev) diski, “Tapmacalar” kitabı. | Böyük və kiçik qruplarla iş. | 39 |
| A.t.-1.3.1. Əd. -1.2.2. X.d.-3.1.3. İn.3.3.2. H.B-1.2.1. | Dərslik, dəftər, iş vərəqləri. | Böyük və kiçik qrupla iş. | 40 |
| A.d.-1.3.3. X.d.-3.1.2. A.t.-2.1.1. H.b.-1.2.1. İn.-3.2.3. | Dərslik, dəftər, iş vərəqləri. | Böyük və kiçik qruplarla iş. | 41 |
| A.t.-2.1.1. Əd. -1.3.3. X.d.-3.1.2. İn.-3.2.3. H.b.-1.2.1. | Dərslik, iş vərəqləri. | Böyük və kiçik qruplarla iş. | 42 |
| Əd.-1.2.2. X.d.-3.1.4. A.t.-2.1.2. H.b.-4.2.1. İn.-3.3.2. | Dərslik, dəftər, “Ayna” Uşaq Ensiklopediyaları. | Böyük qrupla, cütlərlə iş. | 43 |
| Əd.-1.3.4. A.t.-3.1.2. X.d.-3.1.3. H.b-3.2.2. İn.-3.3.2. | Dərslik, dəftər, “Fəryad” filminin diski, iş vərəqləri. | Böyük və kiçik qruplarla iş. | 44 |
| A.d.-1.3.2. X.d.-4.1.1. A.t.-1.1.1. H.b-2.2.2. İn.-3.2.2. | Dərslik, dəftər, S.Rüstəmin “Seçilmiş əsərləri” 1-ci cild, iş vərəqləri. | Böyük və kiçik qruplarla iş. | 45 |

| | | | | | |
|---|---|---|---|---|---|
| 46 | Hədiyyə | 1 | 107 | 106 | 1.1.2; 2.1.1; 3.1.3; 4.1.4; |
| 47 | Yazın hədiyyəsi | 1 | 109 | 108 | 1.1.2; 2.1.4; 3.1.1; 4.1.3; |
| 48 | Bənövşə | 1 | 111 | 109 | 1.1.2; 2.1.3; 3.1.2; 4.1.3; |
| 49 | Ağacı necə suvarırlar | 1 | 113 | 111 | 1.1.2; 2.1.3; 3.1.1; 4.1.3; |
| 50 | Dağlar | 1 | 116 | 112 | 1.1.2; 2.1.4; 3.1.2; 4.1.3; |
| 51 | **KSQ** | 1 | - | 114 | 1.1.1; 2.1.3; 3.1.1; 4.1.3 |
| 52 | Aprelin biri gələndə | 1 | 120 | 116 | 1.1.1; 1.1.2; 2.1.3; 3.1.3; 4.1.3; |
| 53 | Söz | 1 | 122 | 117 | 1.1.2; 2.1.1; 3.1.2; 4.1.3; |
| 54 | Balaca bağban 1-ci hissə | 1 | 124 | 119 | 1.1.2; 2.1.3; 3.1.1; 4.1.3; |
| 55 | Meşənin qorxusu | 1 | 127 | 120 | 1.1.2; 2.1.1; 3.1.2; 4.1.3; |
| 56 | Balaca bağban 2-ci hissə | 1 | 128 | 122 | 1.1.1; 2.1.3; 3.1.3; 4.1.1; |
| 57 | Azərbaycanın «Qırmızı kitab»ı | 1 | 131 | 123 | 1.1.1; 2.1.4; 3.1.3; 4.1.2; |
| 58 | Rəhbərin sevdiyi güllər | 1 | 134 | 125 | 1.1.2; 2.1.3; 3.1.3; 4.1.2; |
| 59 | Biri günəş, biri Heydər | 1 | 135 | 126 | 1.1.2; 2.1.2; 3.1.2; 4.1.3; |
| 60 | Neft Daşları | 1 | 137 | 128 | 1.1.2; 2.1.3; 3.1.1; 4.1.2; |
| 61 | Muzeylər | 1 | 139 | 129 | 1.1.1; 2.1.3; 3.1.3; 4.1.3; |
| 62 | Axmaq qurbağa və zanbaq | 1 | 141 | 131 | 1.1.2; 2.1.3; 3.1.2; 4.1.3; |
| 63 | İki kitab | 1 | 144 | 132 | 1.1.2; 2.1.3; 3.1.3; 4.1.3; |
| 64 | **BSQ** | 1 | - | 134 | 1.1.1; 2.1.3; 3.1.1; 4.1.3 |

Çap üçün deyil

| | | | |
|---|---|---|---|
| Əd.-1.1.3. X.d.-3.1.1. A.t.-2.1.1. H.b.-3.2.2. İn.-3.2.2. | Dərslik, dəftər, iş vərəqləri. | Böyük və kiçik qruplarla iş. | 46 |
| A.d.-2.1.2. X.d.-3.1.4. A.t. -3.1.1. H.b-3.2.1. İn.-3.3.2. | Dərslik, dəftər, plakat, iş vərəqləri. | Böyük və kiçik qruplarla iş, cütlərlə iş. | 47 |
| Əd.-1.2.4. İn.-3.3.2. H.b-3.2.2. X.d.-4.1.1. | Dərslik, dəftər, internetə qoşulmuş kompyuter. | Böyük və kiçik qruplarla iş, cütlərlə iş. | 48 |
| Əd. -1.1.2. İn.-3.2.3. X.d.-4.1.2. H.b.-1.2.1. | Dərslik, dəftər, iş vərəqləri. | Böyük qrupla və cütlərlə iş. | 49 |
| Əd.-1.2.4. A.t.-2.1.2. X.d.-3.1.2. H.b-3.2.2. İn.-3.2.3. | Dərslik, dəftər, internetə qoşulmuş kompyuter, proyek-tor, iş vərəqləri. | Böyük və kiçik qruplarla iş. | 50 |
| Əd.- 1.1.1; X.d.-1.1.2; 2.1.1; H.b.-3.2.2; | Test tapşırıqları | Böyük qrupla iş.Test, məzmun standartlarına əsasən qitmətləndirmə | 51 |
| Əd. -2.2.1. X.d.-2.1.3. A.t.-1.1.1. H.b.-3.2.2. | Dərslik, dəftər, internetə qoşulmuş kompyuter, proyek-tor, www.google.az saytı. | Böyük və kiçik qruplarla iş. | 52 |
| Əd.-1.2.4. X.d.-3.1.3. A.t.-4.1.1. İn.-3.1.3. H.b.-3.1.1. | Dərslik, dəftər, internetə qoşulmuş kompyuter, proyek-tor, iş vərəqləri. | Böyük və kiçik qruplarla iş. | 53 |
| Əd.-1.3.4. X.d.-3.1.4. A.t.-2.1.1. H.b.-1.2.1. | Dərslik, dəftər, proyektor, elektron lövhə, iş vərəqləri. | Böyük və kiçik qrupla iş. | 54 |
| Əd. -1.2.4. X.d.-2.1.1. A.t.-2.1.2 İn.-3.2.2 H.b.-4.2.1. | Dərslik, dəftər, DVd pleyer və ya proyektor, disk. | Böyük və kiçik qruplarla iş. | 55 |
| Əd.-1.2.2. A.t.-1.3.1. H.b.-1.2.1. X.d.-3.1.4. İn.-3.2.3. | Dərslik. | Böyük və kiçik qruplarla iş. | 56 |
| A.t.-2.1.2. H.b.-4.3.1. İn.-3.2.3. X.d.-3.1.3. Əd.-1.3.2. | Dərslik, dəftər, proyektor, elektron lövhə, | Böyük qrupla iş. | 57 |
| A.t.-4.1.1. X.d.-3.1.4. H.b.-2.1.2. İn.-3.2.2. Əd.-1.3.4. | Dərslik, dəftər, internetə qoşulmuş kompyuter, proyektor, elektron lövhə, iş vərəqləri. | Böyük və kiçik qruplarla iş. | 58 |
| A.t.-4.1.1. H.b.-3.2.2. İn.-3.2.3. X.d.-3.1.4. Əd.-1.3.2. | Dərslik, dəftər, proyektor | Böyük və kiçik qruplarla iş. | 59 |
| A.t.-2.1.1. H.b.-2.3.1. İn.-3.3.2. X.d.-4.1.1. | Dərslik, dəftər, proyektor, ele-ktron lövhə, disk, iş vərəqləri. | Böyük və kiçik qruplarla iş. | 60 |
| A.t.-5.1.1. Əd.-1.2.3. İn.-3.2.3. X.d.-3.1.2. H.b.-3.2.2. | Dərslik, dəftər, proyektor, elektron lövhə. | Böyük və kiçik qruplarla iş. | 61 |
| A.t.-1.2.2. İn.-3.2.3. Əd.-1.2.4. H.b.-3.2.2. X.d.-2.1.2. | Dərslik, İş dəftəri, proyektor, elektron lövhə. | Böyük və kiçik qruplarla iş. | 62 |
| Əd.- 2.1.2. X.d.-3.1.2. H.b.-3.2.1. İn.-3.3.2. | Dərslik, dəftər, iş vərəqləri. | Böyük və kiçik qruplarla iş. | 63 |
| Əd.- 1.1.1; X.d.-1.1.2; 2.1.1; H.b.-3.2.2; | Test tapşırıqları | Böyük qruplarla iş. | 64 |

Çap üçün deyil

## DƏRS 1. DİAQNOSTİK QİYMƏTLƏNDİRMƏ (1 saat)

| № | Gözlənilən təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Suallara cavab verir. | 1.1.1 | |
| 2 | Müzakirə olunan mövzu ilə bağlı mülahizələrini bildirir. | 2.1.3 | Əd.- 1.2.1; |
| 3 | Mətndə tanış olmadığı sözlərin mənasını lüğətlərdən istifadə etməklə müəyyənləşdirir. | 3.1.1 | A.t.-1.3.1;<br>X.d.-2.1.1; |
| 4 | Sait və samitlərin, mürəkkəb sözlərin yazılış qaydalarına, cümlənin sonunda və dialoqlarda durğu işarələri qaydalarına əməl edir. | 4.1.3 | H.b.-3.2.2;<br>İn.-3.3.2; |

**Dərsin forması:** Böyük qruplarla iş.
**Tədqiqat sualı:** Keçən il ərzində öyrəndiklərinizi necə xatırlayırsınız?
**Tədqiqatın aparılması:**

### ŞAHZADƏ

Şəhərə car çəkdilər ki, şahzadə uzun və uzaq səfərdən qayıdır. Şah qırmızı geyinib taxta çıxdı. Bir azdan o, dəvələrin zınqrov səsini eşitdi. Sonra qabaqda at belində gələn cavan oğlani gördü. Onun enli kürəyi, çatma qaşları vardı. Yəhərin üstündə yanpörtü oturmuşdu. İpək çalmasının ortasında yumurta boyda qayut parıldayırdı.

Atın başını tutdular. Oğlan sıçrayıb yəhərdən düşdü. Sonra şahın qarşısında diz çökdü və əlindən öpdü. *(İsmayıl Şıxlıdan)*

**1. Mətnə hansı sualı vermək olmaz?**
a) Şahzadə haradan qayıdırdı?
b) Şah nə eşitdi?
c) At belində oturan oğlan kim idi?
d) Oğlan hansı günahına görə şahın qarşısında diz çökdü?
e) Oğlan necə görünürdü?

**2. Mətndə işlənmiş sözlərdən hansı düzəltmədir?**
a) qabaqda b) enli c) çalma d) yəhər e) cavan

**3. Mətndə neçə mürəkkəb söz işlənmişdir?**
a) 1 b) 2 c) 3 d) 5 e) 4

**4. Altından xətt çəkilmiş sözü hansı ilə əvəz etmək olar?**
a) qışqırdılar b) danışdılar c) xəbər yaydılar
d) başa saldılar e) xəbər apardılar

**5. Səhv yazılmış sözlər hansı variantdadır?**
a) şəhər, dəvələr b) yaqut, oğlan c) uzaq, sonra
d) taxda, enni e) başını, öpdü

**6. Axırıncı abzasda işlənmiş çoxmənalı sözü tapın.**
a) diz b) baş c) əl d) yəhər e) cavan

**7. Mətndə işlənmiş hansı sözlərin antonimi var?**
a) enli, üstündə, uzun



Çap üçün deyil

b) şəhər, səfər, zınqırov
c) at, oğlan, kürək
d) cavan, oğlan, şah
e) çökdü, öpdü, parıldadı

**8. Sinonim olan sıranı tapın.**
a) uzun, qısa
b) qabaqda, irəlidə
c) qayıdırdı, gedirdi
d) üstündə, yanında
e) enli, ensiz

**9. "kitab" sözünün antonimini tapın.**
a) dəftər b) kitabça c) antonimi yoxdur d) jurnal e) vərəq

**10. Hansı söz eyniköklü sözlər cərgəsini tamamlayır?**
Üzlük, üzlü ... ,
a) üzüyola b) üzgüçü c) üzləmək d) üzvi e) üzümçü

## DƏRS 2. BİRİNCİ DƏRS (1 saat)

| № | Gözlənilən təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Suallara cavab verir. | 1.1.1 | |
| 2 | Müzakirə olunan mövzu ilə bağlı mülahizələrini bildirir. | 2.1.3 | Əd.- 1.2.1; |
| 3 | Mətndə tanış olmadığı sözlərin mənasını lüğətlərdən istifadə etməklə müəyyənləşdirir. | 3.1.1 | A.t.-1.3.1;<br>X.d.-2.1.1; |
| 4 | Sait və samitlərin, mürəkkəb sözlərin yazılış qaydalarına, cümlənin sonunda və dialoqlarda durğu işarələri qaydalarına əməl edir. | 4.1.3 | H.b.-3.2.2;<br>İn.-3.3.2; |

**Dərsin tipi:** İnduktiv.
**Dərsin forması:** Böyük və kiçik qruplarla iş.
**Dərsin üsulu:** Əqli hücum, təqdimatlar, müzakirə.
**Resurslar:** Dərslik, dəftər, şəkillər, iş vərəqləri.

**Motivasiya:** Müəllim stolun üstünə şəkillər qoyur. Uşaqlara müraciət edir ki, hər biri bir şəkil götürsün. Hər şagird bir şəkil götürür. Hansında şəkillər eynidirsə, onlar bir qrupda əyləşirlər. Müəllim şagirdlərə şəkillərə diqqətlə baxıb təsvir olunanları müzakirə etməyi tapşırır. Şagirdlər tapşırığı yerinə yetirirlər.

Motivasiya üçün istifadə olunan şəkillər müəllimin seçimindən asılı olaraq müxtəlif ola bilər. Məsələn, şəkillərdən birində ailə, digərində məktəb təsvir olunmuşdur; başqa bir variant: meşə kənarında çadırın yanında istirahət edən ailə şəkli, məktəbin həyətindəki idman meydançasında iki sinfin şagirdləri arasında gedən voleybol yarışı təsvir olunan şəkil.

Çap üçün deyil

**Köməkçi sual:** Şəkildə təsvir olunanlar haqqında nə deyə bilərsiniz? (1-ci qrup ailə, 2-ci qrup isə məktəb şəkli üzərində işləyir).

**Müəllim:**

– Ailə haqqında bildiklərinizi ifadə edin.

– Məktəb və məktəbin vəzifələri barədə nə deyə bilərsiniz?

**Tədqiqat sualı:** Şəkildə təsvir olunanları düzgün və anlaşıqlı şəkildə ifadə etmək üçün sizdən hansı bacarıqlar tələb olunurdu? “Savadsız adam kor kimidir” deyimini necə başa düşürsünüz?

**Tədqiqatın aparılması:** Qruplarla iş. Müəllim şagirdlərə iş vərəqləri paylayır və iş vərəqlərindəki cədvəllərin doldurulması tapşırığını verir.

*1-ci qrupun iş vərəqi*

| Ailənin tərkibi | Ailə üzvlərinin məşğuliyyəti | Ailənin vəzifələri |
|---|---|---|

*2-ci qrupun iş vərəqi*

| Məktəbinizin ünvanı | Məktəbin işçiləri | Məktəbin vəzifələri |
|---|---|---|

İş vərəqlərində verilmiş cədvəllər doldurulur. Tapşırıq yerinə yetirildikdən sonra cədvəllər lövhəyə vurulur və müzakirə başlanır. Müzakirədə ailənin və məktəbin insan həyatında rolu, məktəbin də uşaq üçün “ikinci ailə” hesab edilməsi, ailədə uşağın məktəbə hazırlığı fikirləri əsas götürülür. Müəllim şagirdlərə tədris ili qarşısında məktəbə necə hazırlaşdıqları, hansı hisləri keçirdikləri, onların yay tətili haqqında təəssüratları barədə yardımçı suallar verir:

1. Yay tətilindən hansı təəssüratlarla qayıtmısınız?
2. Nə üçün məktəbə gəlməyə tələsirdiniz?
3. Məktəbə necə hazırlaşırdınız?
4. Məktəb sizi necə qarşıladı?

Ən yaxşı cavab müəllim tərəfindən fərqləndirilir.

“Birinci dərs” mətni oxunur. Yeni sözlərin mənası izah edilir. Sözlərin mənasının izahı ilə əlaqədar, yeri gəlmişkən, müəllimlərin diqqətini bir məqama yönəltmək istərdik: Yaxşı olar ki, bütün dərslərdə yeni öyrənilən və üzərində iş aparılan sözlərin mənasının mənimsədilməsi cütlərlə iş şəklində həyata keçirilsin. Cütlərə yeni öyrənilən, yaxud möhkəmləndirilməsi nəzərdə tutulan bir və ya iki sözü müxtəlif cümlələrdə işlətmək təklif oluna bilər. Bu, yeni öyrənilən söz və ifadələrin miqdarından asılı olaraq müxtəlif variant və formalarda (yazılı və ya şifahi) təşkil oluna bilər. Belə ki, əgər sözlük və söz ehtiyatında izah olunan dil vahidlərinin sayı azdırsa, eyni söz və ya ifadə müxtəlif cütlüklərə təklif oluna bilər. Əgər sözlərin sayı çoxdursa, hər cütlük bir söz və ifadənin cümlələrdə işlədilməsi variantlarını təqdim edə bilər. Bu, şagirdlərin hamısının tədqiqata qoşulmasına şərait yaratmaqla yanaşı, eyni zamanda, öyrənilməsi nəzərdə tutulan sözlərin şagirdlərin nitqinə tez daxil olmasına təkan verəcəkdir.

Çalışma № 1-8 yerinə yetirilir. 1-ci və 2-ci çalışma üzərində iş mətnin məzmununun qavranılmasına; 3, 4, 5, 7-ci çalışmalar dilin qrammatik normaları ilə bağlı bacarıqların praktik yolla təkmilləşdirilməsinə, 6-cı çalışma lüğət ehtiyatının genişləndirilməsinə, 8-ci çalışma tərcümə bacarığının təkmilləşdirilməsi ilə yanaşı, Azərbaycan dilində cümlə qurmaq, cümlədə söz sırasının düzgün müəyyənləşdirilməsinə imkan verir.

Çap üçün deyil

**Məlumat mübadiləsi:** Şagirdlər mətndən tanış olduqları Səmədin valideynlərinin arzusunu öyrənirlər. Onun məktəbə olan sonsuz məhəbbəti ilə tanış olurlar. 4-cü sinifdən sözün quruluşu ilə bağlı biliklərini yada salaraq düzəltmə və mürəkkəb sözlərlə bağlı fikir və mülahizələrini bildirirlər.

**Müzakirə:** Səmədgilin ailəsi böyükdür. Səməd beş uşağın ən böyüyüdür. Şagirdlər balaca Səmədin məktəbə hazırlığını, onun necə böyük həvəslə məktəbə gəlməsini, müəllimini ürək döyüntüsü ilə gözləməsini, onun təmiz və aydın danışığını dinləməsini müzakirə edirlər. Savadlı olmağın insan həyatındakı roluna diqqət yönəldilir. "Savadsız adam kor kimidir" deyimi barədə mülahizələr söylənir.

Yerinə yetirilmiş tapşırıqlarda düzəltmə və mürəkkəb sözlərlə bağlı cavablar dəqiqləşdirilir. Mətndə altından xətt çəkilmiş "məktəbli" sözündəki şəkilçinin sözün mənasını dəyişdiyi təsdiq olunur.

**Nəticə:** Məktəb təlim-tərbiyə ocağıdır. Doğrudan da, savadsız adam kor kimi olur. O, ətrafında baş verən hadisələrdən lazımi nəticə çıxara bilmir, oxuyub-yaza bilmədiyindən dünyada baş verən hadisələr barədə məlumat əldə edə bilmir, dövrlə, zamanla ayaqlaşmır. Uşaqlar məktəbə ona görə gəlirlər ki, bilikli, savadlı olsunlar, gələcək həyatlarını qura bilsinlər. Əldə etdikləri savad nəticəsində özlərinə lazım olan informasiyaları əldə etsinlər, maraqları olan peşələrə yiyələnə bilsinlər. Məktəb də ailə kimi, doğmadır. Ona görə də Səməd ailəsi kimi, məktəbini də sevir.

**Yaradıcı tətbiqetmə:** Məktəb, təhsil haqqında atalar sözləri tapıb yazmaq və öyrənmək.

**Qiymətləndirmə:** Şagirdlərin fəaliyyəti müvafiq cədvələ əsasən qiymətləndirilir.

**Ev tapşırığı:** Mətnin məzmununu öyrənmək. Kiçik bir təqdimat hazırlamaq: İlk dərs gününüzü necə xatırlayırsınız?

## DƏRS 3. SEVİMLİ MƏKTƏB (1 saat)

| № | Gözlənilən təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Suallara cavab verir;<br>Dinlədiyi mətndəki əsas fikri müəyyənləşdirir | 1.1.1;<br>1.1.2 | |
| 2 | Nitq prosesində sait və samitləri düzgün tələffüz edir. | 2.1.1 | Əd.-1.2.4;<br>X.D-4.1.1; |
| 3 | Mətndə tanış olmadığı sözlərin mənasını lüğətlərdən istifadə etməklə müəyyənləşdirir | 3.1.1 | A.t.-3.1.2;<br>H.b.-3.1.1; |
| 4 | Sait və samitlərin, mürəkkəb sözlərin yazılış qaydalarına, cümlənin sonunda və dialoqlarda durğu işarələri qaydalarına əməl edir. | 4.1.3 | İn.-3.2.3. |

**Dərsin tipi:** İnduktiv.
**Dərsin forması:** Böyük və kiçik qruplarla iş.
**Dərsin üsulu:** Beyin həmləsi, müzakirə, klaster.
**Resurslar:** Dərslik, dəftər, plakat, iş vərəqləri.

Çap üçün deyil

**Motivasiya:** Müəllim lövhəyə yeni tikilmiş müasir tipli məktəb təsvir edilmiş şəkil asır. Sonra lövhədə məktəb binası sözləri yazılmış dairə şəkli çəkir.




**Köməkçi suallar:** Məktəb binası dedikdə nəyi nəzərdə tuturuq?
– Məktəb binası başqa tikililərdən nə ilə fərqlənir?

Şagirdlər müxtəlif fikirlər söylədikcə müəllim boş dairələrə sözlər yazır: (dövlətimizin qayğısı, müasir fənn kabinetləri ...)

**Tədqiqat sualı:** – Yay tətilindən qayıtdıqdan sonra məktəbiniz sizə necə təsir bağışladı?

**Tədqiqatın aparılması:** Müəllim sinfi üç qrupa bölür və qruplara iş vərəqləri paylayır.

<u>1-ci iş vərəqinin sualı:</u> Məktəbinizdə nəyi görmək istərdiniz, lakin görmədiniz?

<u>2-ci iş vərəqinin sualı:</u> Məktəbinizdəki yeniliklər sizi nə üçün sevindirir və bu yeniliklər sizə hansı imkanları verir?

<u>3-cü iş vərəqinin sualı:</u> "Vətəni qorumaq – məktəbi qorumaqdan başlayır", – deyə bilərikmi? Fikirlərinizi izah edin.

Şagirdlərin cavabları dinlənilir. Fərqli cavablar təhlil edilir. Şagirdlərin nitqində olan səhvlər düzəldilir.

"Sevimli məktəb" şeiri ifadəli oxutdurulur. Sözlükdə verilmiş çətin sözlərin mənası izah edilir. Müəllimin köməkliyi ilə şagirdlər söz ehtiyatında verilmiş sözləri cümlələrdə işlədirlər (cütlərlə iş üsulundan istifadə yerinə düşər). Bir neçə şagird şeiri nəsrə çevirərək məzmununu danışır.

Çalışma 10-11 üzərində aparılan iş sözlükdən istifadə etməklə şeirin məzmununun qavranılmasına, 12 və 13-cü çalışmalar lüğət üzərində işə, 14-cü ("Gülək və düşünək" rubrikasında verilmiş lətifə) və 15-ci (Tap görək" rubrikasındakı tapmaca) çalışmalar şagirdlərin dinləyib-anlama bacarıqlarının və onlarda məntiqi təfəkkürün inkişafına istiqamətləndirilir. Lətifənin məzmununun təhsillə, elmlə, məktəblə əlaqəsi araşdırılır, müqayisə aparılır. Şagirdlərdən elmlə, məktəblə bağlı daha hansı lətifələri bildikləri soruşulur və dinlənilir.

Çalışma 15-də verilmiş tapmacanın oxuyub-öyrənməklə dolayısı əlaqəsi açılır. Müəllim şagirdlərin qabiliyyətini yoxlamaq məqsədi ilə təhsillə, məktəblə bağlı bir neçə tapmaca da söyləyə bilər. Müəllimin vəsaitin sonunda verilmiş əlavə məlumatlardan bəhrələnmək imkanı vardır.

**Məlumat mübadiləsi:** Anamızı çox sevirik. Vətənimiz də bizə anamız qədər doğma olduğu üçün onu Ana Vətən adlandırırıq. Bəs məktəbi nə üçün özümüzə doğma hesab edib, onu Doğma məktəb adlandırırıq? Bu sual ətrafında şagirdlər arasında fikir mübadiləsi aparılır və müəllim onların fikirlərini istiqamətləndirir.

**Nəticə:** Dövlətimizin qayğısı nəticəsində Vətənimizin bütün bölgələrində yeni

Çap üçün deyil

məktəblər tikilmiş, köhnə binalar təmir edilmiş, məktəblərə yeni avadanlıqlar gətirilmişdir. Çiçəklənən Vətənimizin gündən-günə gözəlləşən qoynunda yaxşıca istirahət edən şən uşaqlar xoş əhval-ruhiyyə ilə darıxdıqları doğma məktəbə qayıdırlar. Doğma məktəb, sevimli müəllimlər də öz şagirdlərini səbirsizliklə gözləyir, onların şən səsləri üçün darıxır, sevimli şagirdlərini bir pillə də ucaltmaq üçün var qüvvələrini əsirgəmirlər.

**Yaradıcı tətbiqetmə:** Sinif otağınızı təsvir edən kiçik mətn fikirləşin və danışmağı öyrənin.

**Qiymətləndirmə:** Müvafiq cədvələ əsasən aparılır.

**Ev tapşırığı:** "Sevimli məktəb" şeirindən bir hissəni əzbərləmək. "Sözlük"dəki sözlərə aid cümlələr yazmaq.

## DƏRS 4. MÜƏLLİMİN SEVİNCİ (1 saat)

| № | Gözlənilən təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Dinlədiyi mətndəki əsas fikri müəyyənləşdirir. | 1.1.2 | |
| 2 | Müzakirə olunan mövzu ilə bağlı mülahizələrini bildirir. | 2.1.3 | Əd.-1.2.3; X.d.-3.1.4; |
| 3 | Mətndəki tanış olmadığı sözlərin mənasını lüğətlərdən istifadə etməklə müəyyənləşdirir. | 3.1.1 | A.t.-4.1.1; H.b.-3.2.1; |
| 4 | Mətndəki sözləri orfoepik qaydalara uyğun oxuyur. | 3.1.2 | |
| 5 | Topladığı fakt və məlumatlara əsasən plan tərtib edir. | 4.1.2 | İn.-3.3.2. |

**Dərsin tipi:** İnduktiv.

**Dərsin forması:** Böyük və kiçik qruplarla iş, cütlərlə iş.

**Dərsin üsulu:** Beyin həmləsi, müzakirə.

**Resurslar:** Dərslik, dəftər, şəkillər, iş vərəqləri.

**Motivasiya:** 1.Müəllim lövhədən iri bir şəkil asır. Şəkildə şagirdlərə adları tanış olan və tanış olmayan fənlərin adları yazılmış dərs kitabları təsvir edilmişdir.

| Fizika<br>7-ci sinif | Kimya<br>8-ci sinif | Cəbr<br>7-ci sinif | Ədəbiyyat<br>5-ci sinif | Riyaziyyat<br>5-ci sinif |
|---|---|---|---|---|

**Köməkçi sual:** Müəllim şagirdlərdən bu fənlərdən hansının onlara tanış olduğunu, hansının isə tanış olmadığını soruşur.

**Tədqiqat sualı:** 1.Adları çəkilən fənlərlə tanış olmaq üçün insan nə etməlidir? Bu fənləri sizə kim tədris edir?

Çap üçün deyil

Şagirdlərin cavabları dinlənilir və onların nitqində olan səhvlər düzəldilir.

**Motivasiya:** 2. “Bəxtiyar” sözünün mənasını bilirsinizmi?

**Köməkçi sual:** Bu sözün sinonimini siz yəqin ki,bilirsiniz, deyə biərsinizmi?

**Tədqiqat sualı:** 2. İnsan özünü nə zaman bəxtiyar hesab edə bilər? Necə bilirsiniz, bəs müəllimlər ən çox nə zaman özlərini bəxtiyar hesab edirlər?

**Motivasiya:** Səhhət və Sabir sözlərinin mənasını bilirsinizmi?

**Köməkçi sual:** Sabir adı eşidəndə yadınıza ilk öncə kim düşür?

**Tədqiqat sualı:** Hop-hop kimdir və onun haqqında nə bilirsiniz? Mirzə Abbasqulu və Səhhət eyni adamlardır, yoxsa fərqli?

**Qeyd.** Müəllim bu motivasiya və tədqiqat suallarından hansını seçsə, dərsini onun üzərində qura bilər. Burada müxtəlif variantlar verməkdə məqsədimiz odur ki, hər bir dərsi müxtəlif cür başlamaq olar, yalnız ona diqqət yetirilməlidir ki, nəticə qoyulan tədqiqat sualından doğsun, tədqiqat tədqiqat sualında qoyulan problemin açılmasına gətirib çıxarsın.

**Tədqiqatın aparılması:** Müəllim şagirdləri 3 qrupa bölür. Qruplara iş vərəqi paylayır. Iş vərəqlərindəki suallar üzrə cavab hazırlamaq tapşırılır.

1-ci iş vərəqinin sualı: – Ədəbiyyat dərsliyindən siz nə öyrənirsiniz?

2-ci iş vərəqinin sualı: – Aşağı siniflərdən başlayaraq siz Azərbaycanın hansı şair və yazıçıları haqqında məlumat almışsınız?

3-cü iş vərəqinin sualı: – Azərbaycan dili dərsində siz nəyi öyrənirsiniz?

Şagirdlərin cavabları dinlənilir. Nitqlərində işlətdikləri səhv ifadələr düzəldilir.

“Müəllimin sevinci” mətni oxunur. Oxu prosesində sözlərin düzgün tələffüzünə diqqət yetirilir və düzəlişlər edilir. Sözlükdəki çətin sözlərin mənası izah edilir. “Sözlük” və “Söz ehtiyatında” verilmiş sözlər cümlələrdə işlədilir. Sözlərin cümlə içərisində işlədilməsini “cütlərlə iş” formasında təşkil etmək tövsiyə olunur.

Tədqiqat çalışmalar üzərində davam etdirilir. 1, 2, 3, 4-cü çalışmalar mətnin məzmununun qavranılmasına bilavasitə xidmət edir. Bu çalışmalar üzərində iş mətnin oxusu zamanı əldə edilmiş məlumatları bir daha möhkəmləndirir, şagirdlərin fikir və mülahizələrini ifadə etmələrinə imkan yaradır.

6-cı və 9-cu çalışmalar şagirdlərin lüğət ehtiyatının zənginləşdirilməsinə və sözlərin məna imkanlarının mətnlə əlaqəli mənimsənilməsinə, 10-cu çalışma isə mətndə işlənmiş sözlərin nümunəsində düzgün tələffüz bacarıqlarının təkmilləşdirilməsini nəzərdə tutur.

5-ci və 7-ci çalışmalar üzərində iş şagirdlərin Azərbaycan dilində sözdüzəltmə imkanları ilə bağlı təsəvvürlərinin aydın olunmasında və bu yolla, eyni zamanda, sözün mənasının dərk edilməsində, həmçinin lüğət ehtiyatının zənginləşməsində əhəmiyyətli hesab olunur.

8-ci və 11-ci çalışmalar şagirdlərin yazı və tərcümə bacarıqlarının inkişafına yönəldilir ki, bu da öz növbəsində həm dilin qrammatik quruluşunun, həm də mətnin sözlüyünün mənimsənilməsinə və dolayısı ilə tədqiqat sualının açılmasına kömək edir.

11 №-li çalışmanın (Azərbaycan dilinə tərcümə) icrası zamanı ehtiyac duyulduğu halda müəllim istiqamət verməklə kömək edə bilər.

Çap üçün deyil

Beləliklə çalışmalar üzərində iş mövzu ilə bağlı şagirdlərin təsəvvürlərinin genişlənməsinə, orfoqrafik bacarıqlarının təkmilləşdirilməsinə, lüğət ehtiyatının genişlənməsinə və dəqiqləşməsinə geniş imkanlar yarada bilər.

Verilmiş atalar sözünün mətnin məzmunu ilə əlaqəsi müəyyənləşdirilir.

**Məlumat mübadiləsi:** Şagirdlər oxuduqları mətndə iki ada rast gəldilər. Bu adlar şagirdlərin hələ aşağı siniflərdə şeirlərini sevə-sevə oxuduqları müəlliflərdir. Şagirdlər M.Ə.Sabir və Abbas Səhhət haqqında bildikləri ətrafında fikir mübadiləsi aparırlar. Hər iki müəllifin xatırladıqları şeirlərindən misralar söyləyirlər. Müəllimin köməyi ilə Sabir və Səhhət sözlərinin mənasını öyrənir, bu sözlərin məşhur şairlərin təxəllüsləri olduğunu eşidirlər. Mübadilə Sabirin özünü bəxtiyar hesab etməsinin səbəbini müəyyən etməyə kömək edir.

**Nəticə:** İnsanın savadlı olması cəmiyyət üçün faydalıdır. Hər kəs bütün ömrü boyu savadını artırmalıdır. Uşaqların savadlı bir şəxsiyyət kimi yetişməsində Sabir və Səhhət kimi şair–müəllimlərimizin böyük xidmətləri olmuşdur. Mətnin məzmunu üzərində aparılan iş nəticəsində şagirdlər öyrənirlər ki, Sabir və Səhhət sözləri tanıdıqları böyük şairlərin adları deyil, bu sözlər uşaqların sevimli şairlərinin təxəllüsləridir: "Sabir" və "Hop-hop" təxəllüsü Mirzə Ələkbərin, "Səhhət" isə Mirzə Abbasqulunun təxəllüsüdür. Həmçinin mətnin qavranılması nəticəsində uşaqlar anlayırlar ki, insanın əməyi fayda verəndə və hədər getməyəndə o, özünü xoşbəxt və bəxtiyar hesab edir. Müəllimlər isə onların şagirdləri müəyyən sahələrdə uğur qazananda, dərsdə yaxşı nəticə göstərəndə, ali məktəblərə yüksək balla daxil olanda, cəmiyyət üçün faydalı işlər görəndə özlərini daha çox bəxtiyar hesab edirlər, zəhmətlərinin fayda verdiyindən məmnun qalırlar.

Müzakirə zamanı şagirdlərin şifahi nitqinin inkişaf etdirilməsi əsas götürülür.

**Yaradıcı tətbiqetmə:** Abbas Səhhət və M.Ə.Sabir haqqında qısa məlumat toplamaq.

**Qiymətləndirmə:** Müvafiq cədvələ əsasən aparılır.

**Ev tapşırığı:** Mətnin məzmununu öyrənmək.

## DƏRS 5. SEVİRİK SƏNİ BİZ (1 saat)

| № | Gözlənilən təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Dinlədiyi mətndəki əsas fikri müəyyənləşdirir. | 1.1.2 | Əd.-1.3.2; |
| 2 | Müzakirə olunan mövzu ilə bağlı mülahizələrini bildirir. | 2.1.3 | A.t.-1.3.1; |
| 3 | Mətndəki sözləri orfoepik qaydalara uyğun oxuyur. | 3.1.2 | X.d.-3.1.1; |
| 4 | Sait və samitlərin, mürəkkəb sözlərin yazılış qaydalarına, cümlənin sonunda və dialoqlarda durğu işarələri qaydalarına əməl edir. | 4.1.3 | İn.-3.2.3;<br>H.b.-2.1.1. |



Çap üçün deyil

**Dərsin tipi:** İnduktiv.

**Dərsin forması:** Böyük və kiçik qruplarla iş.

**Dərsin üsulu:** Beyin həmləsi, müzakirə, təqdimat, klaster, Venn diaqramı.

**Resurslar:** Dərslik, dəftər, iş vərəqləri.

**Motivasiya:** Müəllim lövhəyə boş dairə şəkli çəkir. Kənarda hərəkət bildirən sözlər yazır.




**Köməkçi sual:** Bu işləri hansı sənət sahibi yerinə yetirir?

Şagirdlər sxemdə oxuduqları hərəkət bildirən sözlərə əsasən "müəllim" sözünü tapırlar. Müəllim dairənin ortasına "müəllim" sözünü yazır.

**Tədqiqat sualı:** Siz öz müəlliminizi necə səciyyələndirərdiniz? Hər biriniz öz həyatınızda müəlliminizin rolunu dərk edə bilirsinizmi? Müəlliminizi ikinci ananız və ya atanız hesab edirsinizmi?

**Tədqiqatın aparılması:** Müəllim şagirdləri 3 qrupa bölüb iş vərəqləri paylayır.

<u>1-ci iş vərəqinin məzmunu:</u> – Siz müəllim olsaydınız, necə müəllim olardınız?

<u>2-ci iş vərəqinin məzmunu:</u> – Müəllimin insan həyatında rolunu nədə görürsünüz?

<u>3-cü iş vərəqinin məzmunu:</u> – Hansı peşə sahiblərinin müəllimi olur?

Şagirdlərin cavabları dinlənilir. Maraqlı cavablar fərqləndirilir.

"Sevirik səni biz" şeiri oxutdurulur, lüğətdəki sözlər izah edilir. Sonra sözlüyün mənimsədilməsi üzərində iş aparılır. Şeirdə ana ilə müəllimin adı bir çəkildiyindən müəllimin köməyi ilə uşaqlar anaya və müəllimə xas olan oxşar və fərqli cəhətləri sadalayır və müqayisə edirlər. Müqayisə Venn diaqramından istifadə ilə həyata keçirilir. Bu üsul müəllimin insan həyatında rolunu, onun ana ilə oxşar cəhətlərə malik olduğunu və ona görə də ana qədər sevildiyini dərk etməyə kömək edir.




Şagirdlər verilmiş əlamətlərdən hansının müəllimə və hansının anaya aid olduğunu ayıra bilirlər.

Tədqiqat çalışmalar üzərində davam etdirilir. 13 və 14-cü çalışmalar üzərində iş şagirdləri mövzu ilə bağlı mülahizələr yürütməyə, fikirlərini ifadə etməyə şərait



Çap üçün deyil

yaradır. 15-ci çalışma lüğət ehtiyatının şeirdə işlədilmiş “cahan” sözü hesabına zənginləşdirilməsi, mənasının mənimsənilməsi məqsədilə icra olunur.

Dilin ifadə vasitələrinə şagirdlərin diqqətini cəlb etmək üçün əvvəlki paraqraflarda başlanılmış istiqamət 16-cı çalışma vasitəsilə davam etdirilir. Şagirdlər şeirin sözlüyündə yaşıl və qırmızı rənglərlə fərqləndirilmiş sözlərin suallarını müəyyənləşdirib yazırlar və bu istiqamətli çalışmaların yerinə yetirilməsi vasitəsilə praktik şəkildə öyrənirlər ki, sözlər dildə müxtəlif vəzifələr yerinə yetirir. Praktik yolla əldə edilən məlumatlar “Bunları bilirsinizmi?” rubrikası ilə ümumiləşdirilir.

Şagirdlər ifadə etdikləri sözlər içərisindən ad, əlamət, keyfiyyət, hərəkət bildirən sözləri ayırırlar və onların nitq hissələri adlandırıldığını öyrənirlər.

**Məlumat mübadiləsi:** “Müəllim şagirdlər üçün sevimli şəxsiyyətdir” fikri şagirdlər tərəfindən müzakirə edilir. Müəllimin ana qədər sevilməsinin səbəbləri onun qayğıkeşliyi, hər bir şagird üçün ana qədər narahatlıq keçirməsi, məktəbdə ananı əvəz etməsi ilə izah olunur.

**Nəticə:** Müəllim bilik öyrədəndir. O, qayğıkeşdir, mehribandır. Ana uşağa həyat verir. Müəllim isə ona bu həyatda düzgün yol göstərir: onu ucaldır, elmin yüksək zirvəsinə qaldırır. Ona görə müəllim də ana qədər sevilir. Ona: “Sən bizim ikinci anamızsan”, – deyilir.

Ana müqəddəsdir. Müəllim də ana kimi öz şagirdlərinin üstündə əsir, onları hər bir çətinliklərdən qoruyur. Odur ki, “Müəllimlik” müqəddəs peşə hesab olunur.

Müəllimimizi də anamız qədər sevməliyik, çünki o, bu sevgiyə layiqdir.

**Yaradıcı tətbiqetmə:** “Müəllimlik müqəddəs peşədir” mövzusunda kiçik bir mətn hazırlamaq.

**Qiymətləndirmə:** Müvafiq cədvələ əsasən aparılır.

**Ev tapşırığı:** Şeiri əzbərləmək, “Sözlük”dəki sözlərə aid cümlələr yazmaq.

## DƏRS 6. ƏSL HƏQİQƏT (1 saat)

| № | Gözlənilən təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Dinlədiyi mətndəki əsas fikri müəyyənləşdirir. | 1.1.2 | A.t.-1.3.1. |
| 2 | Müzakirə olunan mövzu ilə bağlı mülahizələrini bildirir. | 2.1.3 | Əd.-1.3.2;<br>X.d.-3.1.2; |
| 3 | Mətndə tanış olmadığı sözlərin mənasını lüğətlərdən istifadə etməklə müəyyənləşdirir. | 3.1.1 | İn.-3.2.3;<br>H.b.-3.2.1; |
| 4 | Müxtəlif yazı formalarını fərqləndirir. | 4.1.1 | |
| 5 | Müxtəlif əməli yazılar (elan, məktub) yazır. | 4.1.4 | |

**Dərsin tipi:** İnduktiv.
**Dərsin forması:** Böyük qrupla iş, cütlərlə iş.
**Dərsin üsulu:** Əqli hücum, müzakirə, klaster, təqdimat

Çap üçün deyil

**Resurslar:** Dərslik, dəftər, iş vərəqləri.

**Motivasiya:** Müəllim lövhəyə "+" və "-" işarələrini yazır. Şagirdlərə tapşırır ki, müsbət və mənfi hərəkətlər barədə fikirləşsinlər.

**Köməkçi sual:** – Bu işarələrlə əlaqədar hansı sözləri yaza bilərsiniz? Şagirdlər yazırlar.

| | + | | | – | |
|---|---|---|---|---|---|
| mədənilik | | doğruluq | yalançılıq | | paxıllıq |
| səmimilik | | cəsarət | tənbəllik | | kobudluq |
| mehribanlıq | | hünər | lovğalıq | | |
| qayğıkeşlik | | qəhrəmanlıq | xəbərçilik | | qorxaqlıq |

**Köməkçi sual:** – Lövhədə yazılanlara daha hansı xüsusiyyətləri əlavə edə bilərsiniz? ("Şirin yalandan doğru həqiqət yaxşıdır" atalar sözünü necə başa düşürsünüz və bu fikirlə razılaşırsınızmı? Həqiqəti deməyə görə dostdan, yoldaşdan incimək nə dərəcədə düzgündür, buna haqq qazandırırsınızmı?)

**Tədqiqatın aparılması:** Cütlərlə iş. Cütlərə tapşırılır ki, müsbət ("+") və mənfi ("-") xüsusiyyətlər haqqında danışsınlar. Şagirdlərin cavabları dinlənilir. Müəllim hər bir cütlüyə tapşırır ki, öz parta yoldaşının xarakterik xüsusiyyətlərini yazsın. Beləliklə, şagirdlər təqdimat hazırlayırlar. Hər şagird özündə görə bilmədiyi xüsusiyyətləri eşidir. Müəllim fərqli cavabları qiymətləndirir. Şagirdlərin nitq səhvləri düzəldilir.

Sonra mətnin oxusu üzrə işə keçilir. Mətnin oxusu zamanı rast gəlinən çətin sözlər izah edilir. Sözlük və "Söz ehtiyatı"nda verilmiş sözləri şagirdlər cümlələrdə işlədirlər.

Şagirdlər aşağı siniflərdən yadlarında qalan aforizmlərdən nümunələr söyləyirlər. N.Gəncəvinin aforizmi üzərində iş aparılır. Aforizmin mətnlə əlaqəsi araşdırılır.

Tədqiqat sualı ətrafında mətnin oxusu ilə başlanan araşdırmalar çalışmalar üzərində işlə davam etdirilir. 1–6-cı çalışmaları icra etməklə şagirdlər mətnin məzmununu başa düşdüklərini nümayiş etdirirlər. 5-ci çalışmada qoyulan sual ətrafında təşkil edilən debat şagirdləri tədqiqat sualının açılmasına yaxınlaşdırır.

Dilin qrammatik təbiətinin praktik yolla mənimsənilməsi dərslikdəki 7, 8, 9-cu çalışmaların yerinə yetirilməsi ilə həyata keçirilir. Şagirdlər mətndə rast gəldikləri kim? nə? hara? suallarına cavab verən sözləri qruplaşdırıb yazırlar. Yerinə yetirilmiş çalışmanın icrası "Bunları bilirsinizmi?" rubrikası ilə tanışlıqla müşayiət olunur. Müəllimin köməyi ilə aydınlaşdırırlar ki, rus dilindən fərqli olaraq, Azərbaycan dilində insandan başqa digər canlılar nə? sualına cavab verməlidir. Şagirdlər 10-cu çalışmada rus dilində verilmiş cümlələrin Azərbaycan dilində dəqiq tərcüməsini araşdırırlar və dəftərlərinə yazırlar. Bu çalışmanın icrası şagirdlərin tərcümə bacarıqlarının inkişafına yönəldilməklə yanaşı, dolayısı ilə yenə də mətnin qavranılmasına imkan yaradır.

**Məlumat mübadiləsi:** Şagirdlər Ceyhunla İlahənin münasibətlərini müzakirə edirlər. Ceyhunun İlahəyə qarşı olan kininin səbəbini öyrənməyə çalışırlar. Mətnin oxusu zamanı Zərifənin həqiqətə göz yuma bilməməsi ilə tanışlıq, çalışmalarla bu fikrin daha da möhkəmləndirilməsi şagirdlərin "Şirin yalandan doğru həqiqət

Çap üçün deyil

yaxşıdır" fikri ətrafında fikir mübadiləsinə yeni-yeni faktlar verir, fikir mübadiləsini artırır.

Müəllim oğlanlarla qızlar arasında yarana biləcək anlaşılmazlıqları aradan götürmək məqsədilə sinifdənxaric və məktəbdənkənar tədbirlər təşkil edə bilər.

**Nəticə:** Siz məktəbə "ana məktəb" deyirsiniz. Deməli, hamınız bir ananın övladlarısınız. İllərlə eyni parta arxasında oturmaq, eyni dərsləri dinləmək, eyni müəllimlərdən mehribanlıq, səmimilik, dostluq münasibətlərinin sirlərini öyrənmək, əlbəttə, insanları bir-birinə yaxınlaşdırır. Sinifdə şagirdlər arasında mehribanlıq və səmimiyyət olarsa, şagirdlər bir-birlərinə qarşı qayğı göstərərlərsə, məktəbə gəlmək, dərsləri dinləmək və yoldaşlarınızla bir yerdə olmaq sizi fərəhləndirər, sevindirər və elm öyrənməyə ruhlandırar. Həqiqəti söyləməyə görə dostluqlar pozulmamalıdır. Belə bir ata sözümüz də var: "Əsl dost sənin eybini üzünə deyəndir". Bunu unutmamalı!

**Yaradıcı tətbiqetmə:** "Dostluq" mövzusunda kiçik inşa yazmaq.

**Qiymətləndirmə:** Müvafiq cədvələ əsasən aparılır.

**Ev tapşırığı:** Dostluq mövzusunda atalar sözü və aforizmlər tapmaq.

## DƏRS 7. YOLDAŞLIQ KÖMƏYİ (1 saat)

| № | Gözlənilən təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Suallara cavab verir. | 1.1.1 | |
| 2 | Müzakirə olunan mövzu ilə bağlı mülahizələrini bildirir. | 2.1.3 | Əd.-1.2.4; X.d.-1.1.2; |
| 3 | Mətndəki sözləri orfoepik qaydalara uyğun oxuyur; Mətndəki əsas fikrə uyğun fakt və hadisələri müəyyənləşdirir. | 3.1.2; 3.1.3 | İn.-3.2.2; H.b -1.2.1; |
| 4 | Müxtəlif yazı formalarını fərqləndirir. | 4.1.1 | A.t.-5.1.2. |

**Dərsin tipi:** İnduktiv.

**Dərsin foması:** Böyük qrupla iş.

**Dərsin üsulu:** Beyin həmləsi, müzakirə.

**Resurslar:** Dərslik, dəftər.

**Motivasiya:** Müəllim lövhəni 2 hissəyə bölür. 1-ci hissədə yazır: "Yaxşı xüsusiyyətlər", 2-ci hissədə yazır: "Pis xüsusiyyətlər".

**Köməkçi sual:** – Bu xüsusiyyətlərin hansını insanlarda görmək istərdiniz? Şagirdlərin cavabları dinlənilir.

**Tədqiqat sualı:** "Yaxşı dostu yaman gündə tanıyarlar" atalar sözünü necə başa düşürsünüz və bu fikirlə razılaşırsınızmı?

**Tədqiqatın aparılması:** Şagirdlər növbə ilə lövhədəki sütunlarda müxtəlif sözlər yazırlar.

Çap üçün deyil

**Yaxşı xüsusiyyətlər**

ласка – mehribanlıq
искренность – səmimilik
справедливость – ədalətli olmaq
ответственность – məsuliyyətli olmaq
трудолюбие – əməksevərlik
быть настоящим другом –
– yaxşı dost olmaq
быть верным – sədaqətli olmaq
старательный – çalışqan
грамотный – savadlı

**Pis xüsusiyyətlər**

kobudluq – грубость
xəsislik – скупость
əsəbilik – быть нервным
yalançılıq – лож
lovğalıq – хвастовство
oğruluq – воровство
paxıllıq – зависть
zülmkarlıq – деспотизм
tənbəllik – лень
avaraçılıq – безделье

Müəllim şagirdləri istiqamətlindirmək məqsədilə aşağıdakı sualları verir.
– Həmişə ətrafdakılara yaxşı münasibətdə olan adam haqqında nə deyirlər?
– Çox mehribandır.
– Sözün düzünü deyən, haqqı müdafiə edən adam haqqında nə deyirlər?
– Çox ədalətlidir.
– Verilən tapşırıqları vaxtında yerinə yetirən adam haqqında nə deyirlər?
– Çox məsuliyyətlidir.
– Çalışqan adamı necə adlandırırlar?
– Əməksevər.
– Dostunun, yoldaşının qayğısına qalan, lazım olanda onu tək qoymayan və müdafiə etməyi bacaran adam haqqında nə deyirlər?
– Sədaqətlidir.
– İnsanlara qarşı həmişə sərt, qaba hərəkətlər edən adam haqqında nə deyirlər?
– Kobuddur.
– Heç kimə maddi yardım göstərməyən adam haqqında nə deyirlər?
– Xəsisdir.
– Başqalarını aldatmağa çalışan adamı necə adlandırırlar?
– Yalançı.
– Başqalarının yanında özünü öyən, tərifləyən adam haqqında nə deyirlər?
– Lovğadır.
– Yaxın olduğu insana qayğı göstərən, həmişə yardım əlini uzadan, lazım gələrsə çətin anlarda dayaq duran adam haqqında nə deyirlər?
– Əsl dostdur.

Şagirdlərin cavabları dinlənilir. Fərqli cavablar qiymətləndirilir.

Bu işi böyük qruplarla təqdimat hazırlamaq yolu ilə də aparmaq faydalı olar.

“Yoldaşlıq köməyi” şeiri oxunur. Çətin sözlər izah edilir və “Sözlük” və “Söz ehtiyatı”nda verilmiş, həmçinin şeirdə şagirdlərin mənasını anlamaqda çətinlik çəkdikləri sözlərin mənimsədilməsi üçün cümlələrdə işlədilir.

Tədqiqat sualı ətrafında işlər dərslikdə verilmiş atalar sözlərinin oxutdurulması, mənalarının açılması istiqamətində davam etdirilir. Atalar sözləri ilə şeirin əlaqəsi izah

Çap üçün deyil

edilir. Atalar sözləri üzərində iş şeirdəki əsas ideyanın daha da qabarıqlaşdırılmasına imkan verir və şagirdləri tədqiqat sualına cavab tapmağa yaxınlaşdırır. Şagirdlərdən bəziləri dostluq, yoldaşlıq, yaxşılıq mövzusunda bildikləri əlavə atalar sözlərini də söyləyə bilərlər.

Tədqiqat dərslikdə dostluq mövzusunda olan Molla Nəsrəddin lətifəsinin oxusu ilə davam edir. Lətifədən çıxan nəticə haqqında fikirlər söylənir, lətifədə verilmiş "dostları əli aşağı olanda yaxşı tanımaq olur" fikri ətrafında debat təşkil olunur. Debat şagirdlərin öz fikir və mülahizələrini əsaslandırmağa, opponentlərini inandırmağa, beləliklə də, şagirdləri mövzu üzərində düşünməyə təhrik edir.

Müəllim şagirdləri "Bunları bilmək lazımdır" rubrikasında verilmiş "Görüş ədəbi" qaydaları ilə tanış edir, şagirdləri ədəbli olmağa çağırır. Şagirdlər də bildikləri digər ədəb qaydaları haqqında məlumat verirlər.

**Məlumat mübadiləsi:** Şagirdlər "Yoldaşlıq köməyi" şeirindən tanış olduqları Ənvərin düşdüyü vəziyyət, sinif yoldaşı Sərvərin ona verdiyi təsəlli, Elmanın isə qayğıkeşliyi haqqında fikir mübadiləsi aparırlar. Fikir mübadiləsində atalar sözlərindən, lətifənin məzmunundan da istifadə olunur. Müəllim bu mübadiləni məqsədyönlü aparmaqda şagirdləri istiqamətləndirir.

**Nəticə:** Plutarxın belə bir kəlamı var: "Mənə elə dost lazım deyil ki, hər şeydə mənimlə razılaşsın, mən başımı əyəndə o da əysin. Ona qalsa, mənim kölgəm də dostdur". Dostluq böyük məfhumdur. Özünə dost axtarırsansa, özün də yaxşı dost olmalısan. Doğru deyiblər ki, yaxşı dostu yaman gündə tanıyarlar. Şeirdəki Elman da belə bir dostdur. O heç bir vəd vermədən Ənvərgilə gəlir və ona dərslərində kömək edir. Elman kimi dostlar əsl dostlardır!

**Yaradıcı tətbiqetmə:** "Yoldaşı yolda tanı" başlıqlı kiçik hekayə yazın.

**Qiymətləndirmə:** Müvafiq cədvələ əsasən aparılır.

**Ev tapşırığı:** Şeiri əzbərləmək. Dostluğa aid bir neçə atalar sözü yazmaq və öyrənmək.

## DƏRS 8. AY AMAN!.. SEL APARDI!.. (1 saat)

| № | Gözlənilən təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Dinlədiyi mətndəki əsas fikri müəyyənləşdirir. | 1.1.2 | A.t.-1.1.1; |
| 2 | Nitq prosesində jest və mimikalardan istifadə edir. | 2.1.2 | X.d.-4.1.1; |
| 3 | Mətndə əsas fikrə uyğun fakt və hadisələri müəyyənləşdirir. | 3.1.3 | |
| 4 | Sait və samitlərin, mürəkkəb sözlərin yazılış qaydalarına, cümlənin sonunda və dialoqlarda durğu işarələri qaydalarına əməl edir. | 4.1.3 | H.b.-3.2.1; F.t.-1.3.5. |

Çap üçün deyil

**Dərsin tipi:** İnduktiv.

**Dərsin forması:** Böyük və kiçik qruplarla iş.

**Dərsin üsulu:** Əqli hücum, sual-cavab, təqdimat, müzakirə.

**Resurslar:** Dərslik, dəftər, şəkil, internetə qoşulmuş kompyuter, www.google.az saytı.

**Motivasiya:** Müəllim lövhədə "Qəhrəmanlıq nədir?", "Siz qəhrəmanlığı necə başa düşürsünüz?" suallarını yazır. Şagirdlərdən sualla bağlı fikirlərini söyləməyi xahiş edir. Cavablar dinlənildikdən sonra müəllim lövhədən dənizdə batan bir uşağın şəklini asır.

**Köməkçi sual:** – Bu şəkildə nə görürsünüz? (Cavablar dinlənilir).

**Tədqiqat sualı:** Sizcə, batan adamı xilas edən şəxsə qəhrəman demək olarmı?

**Tədqiqatın aparılması:** Müəllim şagirdləri üç qrupa bölür və onlara iş vərəqləri paylayır. İş vərəqlərində suallar yazılıb.

<u>1-ci iş vərəqi</u> – Xasiyyətindən və kimliyindən asılı olmayaraq, dara düşən hər bir adama kömək etmək, onu düşdüyü çətinlikdən xilas etmək lazımdır, ya yox?

<u>2-ci iş vərəqi</u> – Məktəblilər qəhrəmanlıq göstərə bilərlərmi?

<u>3-cü iş vərəqi</u> – Siz hansı hərəkətləri qəhrəmanlıq sayırsınız?

Cavablar dinlənilir. Şagirdlərin nitqində olan səhvlər aradan qaldırılır. Ən yaxşı cavab qiymətləndirilir.

"Ay aman!.. Sel apardı!.." mətni oxunur. Çətin sözlərin tərcüməsi verilir, mənasının izahı üzərində iş aparılır. Bu məqsədlə sözlər və ifadələr cümlə içərisində işlədilir. Müəllim şagirdlərə mətndə adı çəkilən kiçik Cavidin Azərbaycanın böyük şairi Hüseyn Cavid olduğunu bildirir. Dərslikdə verilmiş atalar sözünə diqqət cəlb edilir və mənası şagirdlərin fəallığı ilə izah edilir, mətnlə əlaqəsi müəyyənləşdirilir. Daha sonra N.Gəncəvidən verilmiş aforizmin oxusu təşkil olunur, aforizmlə bağlı 6-cı çalışmada qoyulan sual ətrafında müzakirə aparılır.

Tədqiqat çalışmalar üzərində davam etdirilir. 1, 2, 3, 4-cü çalışmalar mətnin məzmununun qavranılmasına istiqamətləndirilmişdir. Bu çalışmaların yerinə yetirilməsi prosesində şagirdlər mətnin məzmunu ilə əlaqədar suallara cavab verməklə, mövzu ilə bağlı fikirlərini əsaslandıraraq təqdim etməklə, mülahizələrini söyləməklə, düzgün və səhv fikirləri araşdırmaqla mətni nə şəkildə qavradıqlarını nümayiş etdirir, həmçinin sərbəst nitq bacarıqlarına yiyələnirlər. 5-ci çalışmanın icrası şagirdlərin tərcümə bacarıqlarını inkişaf etdirmək məqsədi daşıyır. Bu tapşırıq eyni zamanda, düzgün yazı bacarıqlarının təkmilləşdirilməsinə də xidmət edir.

7-ci və 9-cu çalışmalar üzərində iş şagirdlərin lüğət ehtiyatının genişləndirilməsi və fəallaşdırılması məqsədinə xidmət etməlidir.

Şagirdlərin dilin qrammatik normalarına yazılı və şifahi nitqlərində şüurlu münasibəti təmin etmək üçün onlar praktik yolla cəmlik anlayışı ilə tanış edilir, müəllimin köməyi ilə mətndən cəm şəkilçisi qəbul etmiş isimləri seçirlər.

**Məlumat mübadiləsi:** Müəllim mətndəki Cavidlə şagirdləri tanış edir. H.Cavidin gələcək həyatındakı yaradıcılığı ilə şagirdləri məlumatlandırır. Bu məqsədlə www.google.az saytından H.Cavid haqqında məlumatı və görüntüləri şagirdlərə nümayiş etdirir. Şagirdlər mətndəki Cavidlə yoldaşını müqayisə edirlər. Cavidin necə incə

Çap üçün deyil

qəlbli, fədakar, hətta düşməninə qarşı belə xeyirxah olmağını təqdir edirlər. Mübadilə zamanı atalar sözlərindən istifadə olunur, aforizmdə deyilən fikrə də istinad edilir. Mübadilə şagirdləri nəticəyə yaxınlaşdırır.

**Nəticə:** Əlbəttə, məktəblilər də qəhrəmanlıq göstərə bilərlər, Cavid kimi. İnsan yaxşılıqlar üçün doğulmuşdur. Yaxşılıq heç zaman itmir. Elə insanı digər canlılardan fərqləndirən də onun yaxşı əməlləridir. Pislik, yamanlıq etməkdən uzaq, yaxşı əməllər daşıyıcısı olmaq insanı ucaldan keyfiyyətlərdir. Sevmədiyin, hətta nifrət etdiyin adama da, lazım gələrsə, yaxşılıq etmək lazımdır. İnsan qəhrəmanlığı düşünmədən etməlidir.

**Yaradıcı tətbiqetmə:** Şagirdlərə H.Cavidin həyat və yaradıcığı mövzusunda kiçik təqdimat hazırlamaq tapşırılır. Şagirdlər ( www.google.az – H.Cavid ) saytından istifadə edə bilərlər.

**Qiymətləndirmə:** Müvafiq cədvələ əsasən aparılır.

**Ev tapşırığı:** Mətnin məzmununu danışmaq. Verilmiş aforizmi əzbərləmək.

## DƏRS 9. QIZ MƏKTƏBİNDƏ (1 saat)

| № | Gözlənilən təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Suallara cavab verir. | 1.1.1 | |
| 2 | Nitq prosesində jest və mimikalardan istifadə edir. Müzakirə oluna mövzu ilə bağlı mülahizələrini bildirir. | 2.1.2;<br>2.1.3 | Əd.-1.1.2;<br>X.d.-2.1.2; |
| 3 | Mətndə tanış olmadığı sözlərin mənasını lüğətlərdən istifadə etməklə müəyyənləşdirir;<br>Mətndəki sözləri orfoepik qaydalara uyğun oxuyur. | 3.1.1;<br>3.1.2 | İn.-3.2.2;<br>H.b.-3.1.1; |
| 4 | Sait və samitlərin, mürəkkəb sözlərin yazılış qaydalarına, cümlənin sonunda və dialoqlarda durğu işarələri qaydalarına əməl edir. | 4.1.3 | A.t.-1.2.2. |

**Dərsin tipi:** İnduktiv.

**Dərsin forması:** Böyük qrupla iş.

**Dərsin üsulu:** Beyin həmləsi, sual-cavab, rollu oyun, müzakirə.

**Resurslar:** Dərslik, dəftər, şəkil, internetə qoşulmuş kompyuter, www.google.az saytı.

**Motivasiya:** Müəllim motivasiyanı rollu-oyun vasitəsilə qura bilər. Sinfin şagirdlərindən ikisi (bir qız və bir oğlan) sadə və səliqəli məktəbli geyimində, əllərində məktəbli çantası sinfə girirlər, salamlaşıb yerlərinə keçirlər. Sonra başqa iki şagird vulqar geyimdə – qızın əlində balaca bir çanta, oğlanın əlində bir əzik-üzük kitab sinfə girirlər (qızın uzun sırğaları, qolunda bir neçə halqa qolbaq var; bahalı gödəkçəni çiyninə salmış vəziyyətdə, bahalı telefonla danışa-danışa saymaz-

Çap üçün deyil

yana sinfə girir; oğlan sürtülmüş cins şalvardadır, boynunda iri zəncir var, saqqız çeynəyə-çeynəyə içəri girərkən əda ilə əlindəki kitabı uzaqdan partanın üstünə atır).

**Qeyd.** Rollu oyunda qeyd olunanlar şəkillər vasitəsilə də nümayiş etdirilib bu istiqamətdə motivasiya qurmaq olar. (Başqa bir motivasiya: müəllim lövhədən bir şəkil asır. Şəkildə başında papaq, əlində əsa olan bir baba təsvir olunub. Babanın qarşısında balaca bir qız dayanmışdır. Köməkçi sual: Sizcə, baba bu qıza nə deyə bilər? Onu müəllim adlandıra bilərikmi? Cavablar dinlənilir).

**Köməkçi sual:** Bu şagirdlərdən hansıları məktəbdən kənarda görsəniz, onların şagird olduğunu asanlıqla söyləyə bilərsiniz?

Müəllim şagirdləri gördükləri barədə fikir söyləməyə, düşüncələrini ifadə etməyə sövq edir. Şagirdlərin danışıqlarında olan nitq səhvləri düzəldilir.

**Tədqiqat sualı:** Məktəblinin geyimi və hərəkətləri necə olmalıdır? Onun varlı və ya kasıb ailədən olduğu məktəbdə qabarıq şəkildə görünməlidirmi? Zəngin ailədən olmaq uşaqlara məktəbdə özünü istədiyi kimi aparmağa haqq verirmi?

Müəllim şagirdlər arasında rollu oyun keçirərək "Qız məktəbində" şeirini oxutdurur. Oxu prosesində şagirdlərin jest və mimikalardan istifadə bacarıqları izlənilir, tövsiyələr verilir. Çətin sözlərin mənası izah edilir. "Söz ehtiyatı"nda verilmiş sözlər cümlələrdə işlədilir. Şeirin əsas ideyasının açılması üçün Gülbaharın cavablarına diqqət yönəldilir. Müəllim şeirin müəllifinin keçən dərsdə tanış olduqları Azərbaycanın böyük şairi Hüseyn Cavid olduğunu bir daha şagirdlərin nəzərinə çatdırır. Bu məqsədlə elektron lövhədə (www.google.az – "Cavid ömrü" filmi) "Cavid ömrü" bədii filmindən fraqment nümayiş etdirməklə şagirdlərin təsəvvüründə şair Cavidin obrazını canlandırır. Böyük Cavid əfəndinin qızlar seminariyasında dərs deməsini xatırladır.

Şeirin ideyasını davam etdirmək və şagirdlərin davranış mədəniyyətində yol verdikləri nöqsanların aradan qaldırılmasına kömək məqsədilə "Bunları bilmək lazımdır" rubrikasında verilmiş "Görüş ədəbi" mətni ilə şagirdlər tanış edilir. Çətin sözlər tərcümə edilərək izah edilir. Şagirdlər də bəzi digər ədəb qaydalarını sadalayırlar.

Şagirdlərin düzgün tələffüz və şifahi nitq bacarıqlarının təkmilləşdirilməsini təmin etmək məqsədilə dialoq şəklində "Molla Nəsrəddinin oğlu" lətifəsi şagirdlərə oxutdurulur. Sonra şagirdlər lətifəni müzakirə edirlər. Müəllim onların cavablarını istiqamətləndirir.

**Məlumat mübadiləsi:** Mübadilə zamanı şagirdlər Gülbaharı xarakterik xüsusiyyətləri baxımından səciyyələndirirlər. Onlar əvvəl Gülbaharın xarici görünüşünü təsvir edirlər, daha sonra fikir və düşüncələrini dəyərləndirirlər. Müəllim onları istiqamətləndirir. O, əvvəl qızların, daha sonra oğlanların fikirlərini öyrənməyə çalışır. Fərqli cavablar qiymətləndirilir. Mübadilə zamanı Gülbaharın fikirlərinə haqq qazandırılır, onun məktəbliyə layiq keyfiyyətlərə layiq olduğu vurğulanır.

**Nəticə:** Belə bir atalar sözü var: "İnsanı geyiminə görə qəbul edirlər, ağlına görə yola salırlar". Deməli, insanları ucaldan, onları bir-birindən fərqləndirən, cəmiyyətdə layiqli yer tutmağa sövq edən onların ağlıdır. İnsan nə qədər zəngin olursa-olsun, ağlı, savadı yoxdursa, özünə heç yerdə, heç bir zaman hörmət qazanmayacaqdır.



Çap üçün deyil

Məktəb maddi zənginliyin nümayiş etdirilməsi yeri deyil, burada mənəvi zənginlik formalaşdırılmalıdır. İnsanlarda zəngin mənəviyyatın formalaşdırılmasında ailə ilə yanaşı, məktəb də məsuliyyət daşıyır.

**Yaradıcı tətbiqetmə:** Elmə, biliyə aid atalar sözü tapıb yazmaq. Şeirin məzmunu əsasında dialoq qurmaq.

**Qiymətləndirilmə:** Müvafiq cədvələ əsasən aparılır.

**Ev tapşırığı:** Şeirin məzmununu öyrənmək. Kim istəsə, əzbərləyə də bilər.

## DƏRS 10. VƏTƏN NƏDİR? (1 saat)

| № | Gözlənilən təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Suallara cavab verir. | 1.1.1 | A.t.-3.1.1; |
| 2 | Nitq prosesində jest və mimikalardan istifadə edir. | 2.1.2 | H.b.-2.1.1; |
| 3 | Mətndəki sözləri orfoepik qaydalara uyğun oxuyur. | 3.1.2 | Əd.-2.2.1;<br>X.d.-2.1.2; |
| 4 | Sait və samitlərin, mürəkkəb sözlərin yazılış qaydalarına, cümlənin sonunda və dialoqlarda durğu işarələri qaydalarına əməl edir. | 4.1.3 | İn.-3.3.2; |

**Dərsin tipi:** İnduktiv.

**Dərsin forması:** Böyük və kiçik qrupla iş.

**Dərsin üsulu:** Əqli hücum, müzakirə, təqdimat, klaster, Venn diaqramı.

**Resurslar:** Dərslik, dəftər, şəkil.

**Motivasiya:** Müəllim lövhədən Azərbaycanın gözəl güşələrindən biri təsvir olunmuş şəkil asır və bu şeiri söyləyir:

**1.** Torpağı – türbət .
Suları – şərbət.
Günəşi – məlhəm.
Ayrılığı – qəm,
Azərbaycanım!

**2.** Aranı, dağı
Tərlan oylağı.
Könlüm çırağı,
Qızılgül bağı
Azərbaycanım!

**3.** Qızları dilbər,
Oğulları ər.
Odum, ocağım,
Ana qucağım.
Qalsam, həyatım,
Ölsəm, torpağım–
Azərbaycanım.

**M.Dilbazi**

Çap üçün deyil

**Köməkçi sual:** Şeirdə nədən bəhs edilir?

Cavablar dinlənilir. Müəllim şagirdlərin tələffüzünə diqqət yetirir.

**Tədqiqat sualı:** Müəllim şaxələnmədən istifadə edərək lövhədə “Vətən” kəlməsini yazır. Sonra suallarla müraciət edir: Gördüyünüz bu kəlmə sizə nə deyir? Vətən sizin üçün nədir?




**Tədqiqatın aparılması:** Müəllim şagirdləri qruplara bölür və iş vərəqləri paylayır.

1-ci iş vərəqi: Sizin üçün Vətən haradır?

2-ci iş vərəqi: Nə üçün Vətəni sevməli və qorumalıyıq?

3-cü iş vərəqi: Xalq, insan, el, pələng, camaat, qoşun, ordu, əhali, köynək, pəncərə, əlcək, corab, qayçı sözlərindən hansı kəmiyyətcə çoxluq bildirir? Cümlələrdə işlədin.

Şagirdlər onların hazırlıqlarına ayrılmış vaxt başa çatdıqdan sonra işlərini təqdim edirlər. Hər təqdimatdan sonra şagirdlər “Vətən” kəlməsinin ətrafındakı dairəciklərdə alınan sözləri yazırlar. Nəticədə belə bir cədvəl alınmalıdır.




Bu cədvəlin alınmasında müəllimin köməyi vacibdir. Sözlər rus dilinə tərcümə edilir, cümlə daxilində işlədilir. Fərqli cavablar qiymətləndirilir.

Müəllim “Vətən nədir?” mətnini oxutdurmaq üçün 3 şagirdi lövhəyə çağırır. Onların arasında rol bölgüsü keçirir (aparıcı, Həsən baba, Elşən). Mətn oxunur. Çətin sözlər izah edilir. “Sözlük” və “Söz ehtiyatı”ndakı sözlər cümlədə işlədilir. Atalar sözü şagirdlərə oxutdurulur, mənası izah edilir. Bir neçə şagird vətən mövzusunda atalar sözləri söyləyir (əvvəlki siniflərdə bu mövzuda atalar sözləri keçilmişdir). Müəllim kömək məqsədilə bir neçə atalar sözünü xatırlada bilər.

1. Vətənə gəldim, imana gəldim.
2. Uğrunda ölən varsa – vətəndir və s.

Tədqiqat çalışmalar vasitəsilə davam etdirilir. 4-cü çalışmanın tələbinə uyğun olaraq müəllimin köməyi ilə şagirdlər debata qoşularaq Vətənin müqəddəsliyini aydınlaşdırmağa çalışırlar. Vətəni ana ilə müqayisə edirlər. Vətən ilə ana arasında oxşar və fərqli cəhətləti söyləyirlər. Müəllim Venn diaqramından istifadə edir.

Çap üçün deyil




Dərslikdəki bütün çalışmalar bu və ya digər tərəfdən mövzunun dərkinə imkan və şərait yaradır. 3, 4, 5, 7, 8, 9-cu çalışmaların hər biri şagirdləri vətən mövzusu üzərində düşündürür, onun müqəddəsliyinin dərk edilməsinə gətirib çıxarır. Müəllim şagirdlərin diqqətini 8-ci çalışmaya yönəldir. Çalışmanı yerinə yetirmək üçün müəllim şagirdlərə müxtəlif peşə sahələrinin adlarını yazdırır və tapşırır ki, həmin peşə sahiblərinin vəzifələrini təsvir etsinlər.

Müəllim → elm öyrədir
Həkim → müalicə edir
Mühəndis → layihələr verir
Zabit → torpağı qoruyur
Alim → elmi axtarışlar edir
İnşaatçı → tikir
Memar → yaradır
Bağban → torpağı gülüstana çevirir

→ Vətənə xidmət edir

Nəticədə məlum olur ki, hamı Vətənə xidmət edir.

Müəllim bu çalışmaların hər birini bir qrupa tapşırmaqla təqdimat hazırlanmasını da təklif edə bilər. Çalışma 10 şagirdlərin cümlə qurmaq bacarıqlarının təkmilləşdirilməsinə və lüğətin fəallaşdırılmasına, həmçinin düzəltmə sözlər hesabına genişləndirilməsinə, 11-ci çalışma isə dilin qrammatik təbiətinin praktik yolla dərk edilməsinə istiqamətləndirilmişdir.

**Məlumat mübadiləsi:** Şagirdlər Həsən baba ilə Elşənin dialoqundan Vətən, Vətən torpağı, vətəndaş, xalq, müqəddəs sözlərinin leksik mənasını öyrənirlər. Müəllimin köməyi ilə bu sözləri müqayisə edirlər. Bu sözlər arasındakı əlaqələri aydınlaşdırırlar. Həmin sözlərə yaxın mənalı sözləri seçməklə cümlədə işlədirlər və rus dilinə tərcümə edirlər. Mübadilə zamanı–"Yurdum, yuvam, məskənimsən, Anam, doğma vətənimsən, Azərbaycan! Azərbaycan!" misraları səsləndirilir. Həm mətnin oxusu, həm də atalar sözü və çalışmalar üzərində iş şagirdlərin vətənin müqəddəsliyinin səbəbini dərk etmələrinə kömək edir.

**Nəticə:** Azərbaycan kəlməsi bizim üçün doğmadır, əzizdir. Biz öz vətənimizlə fəxr edə bilərik. Vətənimiz günü-gündən böyüyür, gözəlləşir. Artıq dünyanın elə bir yeri yoxdur ki, orada Azərbaycanı tanımasınlar. Bu da bizi çox sevindirir. Vətən bizim hər şeyimiz, varlığımız, döyünən ürəyimizdir. Vətən yoxdursa, biz də yoxuq. Şair gözəl deyib: "Vətən mənim bu günüm
Sabahkı toy-düyünüm
Haqqım var ki, öyünüm

Çap üçün deyil

Azərbaycan deyəndə.
Ürəklərdə döyünüm
Azərbaycan deyəndə!”

**Yaradıcı tətbiqetmə:** Şagirdlərə tapşırılır ki, vətənə aid atalar sözü, bayatılar toplayıb sinifdə yoldaşlarına təqdim etsinlər.

**Qiymətləndirmə:** Müvafiq cədvələ əsasən aparılır.

**Ev tapşırığı:** “Mən fəxr edirəm ki, azərbaycanlıyam” mövzusunda kiçik bir inşa yazmaq.

## DƏRS 11. AZƏRBAYCAN (1 saat)

| № | Gözlənilən təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Dinlədiyi mətndəki əsas fikri müəyyənləşdirir. | 1.1.2 | Əd.-1.2.1; |
| 2 | Nitq prosesində jest və mimikalardan istifadə edir. | 2.1.2 | İn.-3.2.2;<br>H.b.-2.2.1; |
| 3 | Mətndəki sözləri orfoepik qaydalara uyğun oxuyur;<br>Mətndəki əsas fikrə uyğun fakt və hadisələri müəyyənləşdirir. | 3.1.2<br>3.1.3 | A.t.-2.1.2. |
| 4 | Sait və samitlərin, mürəkkəb sözlərin yazılış qaydalarına, cümlənin sonunda və dialoqlarda durğu işarələri qaydalarına əməl edir. | 4.1.3 | X.d.-3.1.2; |

**Dərsin tipi:** İnduktiv.

**Dərsin forması:** Böyük və kiçik qruplarla iş.

**Dərsin üsulu:** Əqli hücum, müzakirə, təqdimat.

**Resurslar:** Dərslik, dəftər, internetə qoşulmuş kompyuter, proyektor, iş vərəqləri.

**Motivasiya:** Müəllim internet şəbəkəsindən (www.google.az/samedvurgun) istifadə etməklə S.Vurğunun “Azərbaycan” şeirinin klipini işıqlandırır. Burada Azərbaycanın müxtəlif guşələrinin təsvirini göstərir.

**Köməkçi sual:** Necə bilirsiniz, gördüyünüz çarxda təsvir olunan bu gözəlliklər haradadır? (Cavablar dinlənilir).

**Tədqiqat sualı:** Aşağıdakı şeir parçasında ifadə olunmuş fikri necə başa düşürsünüz? (Müəllim şeir parçasını səsləndirir)

Bir nəğmədi, bir şeirdi,
Dinəndə Vurğun deyirdi,
Füzulidi, Üzeyirdi,
Şəhriyardı Azərbaycan!

**Tədqiqatın aparılması:** Müəllim şagirdlərə aşağıdakı şeiri oxuyur və təhlil etməyi tövsiyə edir:

Yenilməyən qüdrətin var,

Çap üçün deyil

Böyük adın, şöhrətin var,
Gözəl, azad Vətənimiz.
Elləri şad Vətənimiz. Z.Cabbarzadə

Şagirdlər qruplara bölünür. Müəllim onlara iş vərəqləri paylayır və bildirir ki, təhlil zamanı müasir həyatdakı yeniliklərdən nümunələr göstərilsin.

1-ci iş vərəqi: "Yenilməyən qüdrətin var" – misrası ilə şair nə demək istəmişdir?

2-ci iş vərəqi: "Böyük adın, şöhrətin var" – misrası ilə şair nə demək istəmişdir?

3-cü iş vərəqi: "Ağızlarda söhbətin var" – misrası ilə şair nə demək istəmişdir?

Cavablar dinlənilir və fərqli cavablar qiymətləndirilir.

Tədqiqat "Azərbaycan" şeirinin oxusu ilə davam edir. Oxu zamanı sözlərin düzgün tələffüzünə diqqət yetirilir, nöqsanlar düzəldilir. Çətin sözlər tərcümə edilir. Şagirdlər lüğətdə verilmiş sözləri və ifadələri cümlələrdə işlədirlər. Şeirdə bəzi sözlər vardır ki, həmin sözlərə sinonim tapılır. Şeirdə S.Vurğun, Füzuli, Şəhriyar kimi şairlərin adı çəkilir. Böyük bəstəkarımız Üzeyir Hacıbəyov yada salınır. Şagirdlər bu şairlər haqqında bildiklərini danışır, Üzeyir Hacıbəyovun bəstəkar olduğunu söyləyirlər. Müəllim onları istiqamətləndirir. Bəzi şagirdlər bu şairlərin yaradıcılığından bildikləri nümunələr də söyləyirlər.

Şeirdə həmçinin Şəki, Şuşa kimi əsrarəngiz məkanların adı çəkilir. Müəllim şagirdlərin yadına aşağı siniflərdə öyrəndikləri Şəki, Şuşa haqqındakı mətnləri salır. Şagirdlər bildiklərini danışırlar.

Çalışmalar üzərində iş şagirdlərin vətənimizlə qürur duymalarına, fəxarət hissi keçirmələrinə, vətənpərvərlik duyğularının alovlanmasına gətirib çıxarmalıdır.

**Məlumat mübadiləsi:** "Beynəlmiləl təbiətli,
Bir diyardır Azərbaycan" – misraları ətrafında fikir mübadiləsi aparılır. Bizim vətənimizdə həmişə müxtəlif xalqların nümayəndələri yaşayıblar. Xalqımız çox qonaqpərvərdir. Təlim qeyri-Azərbaycan dilində olan məktəblərdə azərbaycanlılarla yanaşı, ruslar, ləzgilər, gürcülər və başqa xalqların da övladları təhsil alırlar. Onlar Azərbaycan vətəndaşları kimi dilimizi sevə-sevə öyrənirlər. Müəllim fikir mübadiləsində şagirdləri "beynəlmiləl təbiətli" kəlməsinin təhlilinə yönəldir.

Vətənimiz Azərbaycan haqqında bir çox şairlərimiz şeirlər yazıblar. Bunların içərisində Hüseyn Arifin "Azərbaycan" şeirinin də xüsusi yeri vardır. Şeirdə şair Azərbaycanı həzin musiqiyə, gözəl şeirə bənzətmiş, məcaziliyə geniş yer verərək Azərbaycanla canlı bir insan kimi danışmışdır.

**Nəticə:** Azərbaycan bizim sazımız-sözümüz, şeirimiz-musiqimiz, keçmişimiz-bugünümüzdür. Azərbaycan deyəndə Üzeyir, Şəhriyar, S.Vurğun kimi onlarla dahi vətən övladları yada düşür. Onlar Vətəni ucaltmış, bütün dünyada tanıtmışlar. Hər bir şagird onlardan nümunə götürməli, vətənin çiçəklənməsi üçün əlindən gələni etməlidir ki, bir zamanlar onların da adı vətən kəlməsi ilə yanaşı çəkilsin.

**Yaradıcı tətbiqetmə:** "Çiçəklənən yurdumuz" mövzusunda kiçik inşa yazmaq.

**Qiymətləndirmə:** Müvafiq cədvələ əsasən aparılır.

**Ev tapşırığı:** Şeiri əzbərləmək, əzbər öyrənə bilməyən şagirdlər nəsrə çevirib danışa bilərlər.

Çap üçün deyil

## DƏRS 12. ŞİRVANŞAHLAR SARAYI (1 saat)

| № | Gözlənilən təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Suallara cavab verir. | 1.1.1 | A.t.-5.1.1. |
| 2 | Müzakirə olunan mövzu ilə bağlı mülahizələrini bildirir. | 2.1.3 | Əd.-3.1.2.<br>X.d.-4.1.3. |
| 3 | Mətndəki əsas fikrə uyğun fakt və hadisələri müəyyənləşdirir. | 3.1.3 | İn.-3.2.3.<br>H.b.-3.2.2. |
| 4 | Sait və samitlərin, mürəkkəb sözlərin yazılış qaydalarına, cümlənin sonunda və dialoqlarda durğu işarələri qaydalarına əməl edir. | 4.1.3 | |

**Dərsin tipi:** İnduktiv.

**Dərsin forması:** Böyük və kiçik qruplarla iş.

**Dərsin üsulu:** Əqli hücum, müzakirə, sual-cavab, təqdimat.

**Resurslar:** Dərslik, dəftər, internetə qoşulmuş kompyuter, proyektor, iş vərəqləri.

**Motivasiya:** Müəllim proyektor vasitəsi ilə lövhədə “İçərişəhər” filmini göstərir (google.az-içerişeher,Youtube).

**Köməkçi sual:** Gördüyünüz bu kadrlar paytaxtımız Bakının hansı hissəsindəndir?

Cavablar dinlənilir.

**Tədqiqat sualı:** Şirvanşahlar sarayının hansı memar tərəfindən tikilməsi barədə məlumatınız varmı? Şirvanşahlar sarayı hansı hökmdar tərəfindən tikdirilib? Şirvanşahlar sarayının nə məqsədlə tikildiyi barədə nə deyə bilərsiniz?

**Tədqiqatın aparılması:** Müəllim şagirdləri 3 qrupa bölür və iş vərəqləri paylayır.

<u>1-ci iş vərəqinin məzmunu:</u> – Bakının tarixi haqqında nə bilirsiniz? Bakının ilk adı necə olmuşdur?

<u>2-ci iş vərəqinin məzmunu:</u> – İçərişəhərdə hansı tarixi abidələr yerləşir?

<u>3-cü iş vərəqinin məzmunu:</u> – Bakıda ən qədim tarixi abidə hansıdır? Onun haqqında nə bilirsiniz?

Şagirdlərin cavabları dinlənilir. Müəllim şagirdlərin nitqindəki səhvləri düzəldir. Onların fikrini istiqamətləndirir.

Tədqiqat “Şirvanşahlar sarayı” mətninin oxusu ilə davam etdirilir. Çətin sözlər izah edilir. “Söz ehtiyatı”ndakı sözlər ayrıca cümlələrdə işlədilir.

1, 2, 3, 4-cü çalışmalar bilavasitə mətnin məzmununun qavranılmasına xidmət edir, bunun vasitəsilə şagirdlərdə həm də danışma bacarığının inkişafına şərait yaranır. Şagirdlər mətnə aid verilmiş suallara cavab verirlər. Cavablardan aydın olur ki, mətnin məzmunu yaxşı qavranılıb. Müəllim bayatını oxutdurur. Bayatı ilə mətnin məzmunu arasındakı bağlılıq şagirdlərə aydınlaşdırılır. Şagirdlər mətndə verilmiş sarı boşluqlarda sözləri yerləşdirirlər.

5, 6, 7, 10-cu çalışmalar şagirdlərin lüğət ehtiyatının genişlənməsinə və fəallaşdırılmasına (Mətndə qırmızı rəngdə verilmiş birləşmələr bir sözlə, yaşıl rəngdə verilmiş sözlər sinonimləri ilə əvəz edilir, mətndəki antonim sözlərə diqqət yeti-

Çap üçün deyil

rilir), 8, 9, 11, 12-ci çalışmalar isə dilin qrammatik normalarının mənimsədilməsinə istiqamətləndirilmişdir.

"Bunları bilirsinizmi?" rubrikasındakı qaydalara əsasən şagirdlər mətndən xüsusi isimləri tapır və həmin sözləri cümlələrdə işlədirlər.

Tapşırıqların yerinə yetirilməsində müəllimin yönəldici köməyinə ehtiyac duyulur. 12-ci çalışma tərcümə bacarıqlarının inkişafına kömək edir.

**Məlumat mübadiləsi:** Şagirdlər tarixi abidəmiz olan Şirvanşahlar sarayının tikilmə tarixi ilə tanış olduqdan sonra Şirvanşah İbrahim, onun oğlu Xəlillüllah şahın mənfi və müsbət xüsusiyyətlərini təhlil edirlər. Müəllimin yardımçı sualları onları istiqamətləndirir.

Şagirdlər Şirvanşahlar sarayını tikən memar Əli ilə tanış olur, sarayın tikilmə tarixi ilə bağlı maraqlı məlumat əldə edirlər. Müəllim onlara daha bir məlumat verə bilər ki, memar Əli Moskvadakı Kremlin tikintisində iştirak etmiş, lakin knyaz tərəfindən öldürülmüşdür. Çünki knyaz ikinci belə gözəl bir sarayın tikilməsini və Kremlin gizli yollarının kiminsə bilməsini istəməmişdi.

**Nəticə:** Tarixi abidələrimiz bizim keçmişimizdir. Biz onları öyrənməsək, qorumasaq, tariximizi unudarıq. Tariximizi bilmək isə bizim gələcəyimizin inkişafı üçün vacibdir. Öyrəndik ki, Şirvanşahlar sarayı Şirvanşah İbrahimin oğlu Xəlillüllah şah tərəfindən tikdirilib. Onun memarı isə Memar Əli olub.

**Yaradıcı tətbiqetmə:** Tarixi abidələrimizdən biri haqqında əlavə məlumat toplamaq.

**Qiymətləndirmə:** Müvafiq cədvələ əsasən aparılır.

**Ev tapşırığı:** Mətnə aid plan tərtib etmək və plan əsasında məzmunu danışmaq.

## DƏRS 13. ŞİRVANŞAHLAR SARAYI 2-ci hissə (1 saat)

| № | Gözlənilən təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Nitq prosesində sait və samitləri düzgün tələffüz edir. | 2.1.1 | A.t.-5.1.2. |
| 2 | Mətndə tanış olmadığı sözlərin mənasını lüğətlərdən istifadə etməklə müəyyənləşdirir. | 3.1.1 | Əd.- 1.3.4.<br>X.d.-4.1.2. |
| 3 | Topladığı fakt və məlumatlara əsasən plan tərtib edir. | 4.1.2 | İn.-3.2.3.<br>H.b.-3.2.2. |
| 4 | Sait və samitlərin, mürəkkəb sözlərin yazılış qaydalarına, cümlənin sonunda və dialoqlarda durğu işarələri qaydalarına əməl edir. | 4.1.3 | |

**Dərsin tipi:** İnduktiv.
**Dərsin forması:** Böyük qrupla, cütlərlə iş.
**Dərsin üsulu:** Əqli hücum, sual-cavab, müzakirə, təqdimat.
**Resurslar:** Dərslik, dəftər, sxem.



Çap üçün deyil

**Motivasiya:** Müəllim lövhədə belə bir sxem çəkir:

Şəhər → ağ, qara, içəri

Şəhər → yaxın, qırmızı, bayır

Şəhər → qoruq, cənub, uzaq

**Köməkçi sual:** 1. Verilmiş ifadələrdən hansına siz danışıq və söhbətlərdə rast gəlmişsiniz?

2. Şirvanşahlar sarayının yerləşdiyi yer bu ifadələrin hansına uyğun gəlir?

Cavablar dinlənilir.

**Tədqiqat sualı:** Bəlkə, kiminsə məlumatı var, Şirvanşahlar sarayının üzərində onu tikən memarın adı yazılıbmı?

**Tədqiqatın aparılması:** Müəllim səs assosiasiyasından istifadə edərək şagirdlərə suallar verir.

1. İçərişəhər Bakının hansı hissəsində yerləşir?
2. Qara şəhər Bakının hansı hissəsində yerləşir?
3. Bura nə üçün Qara şəhər adlanırdı?
4. Şəhərin hansı hissəsi indi Ağ şəhər adlanır?
5. Hal-hazırda Ağ şəhəri hansı yeniliklər gözləyir?
6. Bayır şəhər haradadır?
7. Bu ərazi nə üçün belə adlanır?
8. Şirvanşahlar sarayı neçə ilə tikilib?
9. Azərbaycanda daha hansı memarları tanıyırsınız?
10. Bakı şəhərindəki hansı memarlıq abidələrinin adını çəkə bilərsiniz?

Cavablar dinlənilir. Fərqli cavablar qiymətləndirilir. Şagirdlərin cavabları müəllim tərəfindən istiqamətləndirilir, səhvlər düzəldilir.

“Şirvanşahlar sarayı” mətninin 2-ci hissəsi oxutdurulur. Çətin sözlər və ifadələrin tərcüməsi verilir və mənaları izah edilir. “Sözlük” və “Söz ehtiyatı”nda olan söz və ifadələr cütlərlə iş formasında cümlələrdə işlədilərək mənimsədilir.

Tədqiqat çalışmalar üzərində davam edir. 14, 15, 17, 19-cu çalışmalar mətnin məzmununun dərk edilməsinə və şagirdlərin məntiqi təfəkkürünü inkişaf etdirməklə nitq bacarıq və vərdişlərinin təkmilləşdirilməsinə istiqamətləndirilmişdir. 15-ci çalışma həmçinin fakt və məlumatlar əsasında plan tərtib edə bilmək bacarığının inkişafına yönəldilir. Şagirdlər mətnə əsasən tərtib olunmuş planın ardıcıllığındakı uyğunsuzluqları müəyyənləşdirir, düzgün variantı tərtib edirlər. Bu iş növü həm də şagirdlərin tənqidi təfəkkürünün formalaşmasına imkan verir.

Şagirdlərin məntiqi təfəkkürünün və rabitəli nitq vərdişlərinin inkişafı istiqaməti 16, 19 və 21-ci çalışmalarla reallaşdırılır. Bəzi cümlələr tərcümə edilir.

Xalq şairi S.Rüstəmin “Azərbaycana gəlsin” şeiri düzgün intonasiyaya əməl etməklə oxutdurulur. Çətin sözlər tərcümə edilir. Şeirin məzmunu ilə “Şirvanşahlar sarayı” mətninin məzmunu arasındakı bağlılıq müəllimin köməyi ilə araşdırılır və izah edilir. Düzgün yazı bacarıq və vərdişlərinin inkişafı 22, 23-cü çalışmalarla həyata keçirilir.

**Məlumat mübadiləsi:** Şagirdlər əvvəl Xəlillüllah şahın xarakterini, onun memara qarşı münasibətini, daha sonra memar Əlinin xarakterini, onun ağıllı və

Çap üçün deyil

düşünülmüş hərəkətlərini müzakirə edirlər. Müzakirə zamanı müəllimin yardımçı sualları şagirdləri istiqamətləndirir. Mübadilə sarayın üzərindəki ayənin həm də memarın adı olduğunu təsdiqləyir.

**Nəticə:** Qədim Bakımızda Şirvanşahlar sarayı kimi bir çox tarixi abidələrimiz var ki, biz bu abidələrimizi, qədim Bakımızı qoruyub saxlamalıyıq. Bunun üçün lazım olan hər şeyi etməliyik.

Bu abidələrin tikilməsində sənətkarlar, memarlar iştirak etmiş, müxtəlif çətinliklərlə üzləşmiş, bəziləri faciəli şəkildə öldürülmüş, bəziləri isə mükafatlandırılmışlar. Mətndə adı çəkilən memar Əli də sonda layiq olduğu qiyməti alır. Məlum olur ki, memar Əli şahın göstərişinə əsasən öz adını sarayın üzərində yazmasa da, xeyirdua ayəsinin vasitəsilə bunu faktik olaraq reallaşdırmışdır. Deməli, belə möhtəşəm sarayları ancaq Memar Əli kimi ağıllı insanlar tikə bilərlər. Odur ki, belə saraylar əsrlərin üzərindən adlayıb bu günümüzə qədər gəlib çatmışdır.

**Yaradıcı tətbiqetmə:** Tarixi abidələrimiz haqqında təqdimatlar hazırlamaq.

**Qiymətləndirmə:** Müvafiq cədvələ əsasən aparılır.

**Ev tapşırığı:** "Azərbaycana gəlsin" şeirinin tövsiyə olunan bəndlərini əzbərləmək.

## DƏRS 14. SAATSAZ QARĞA (1 saat)

| № | Gözlənilən təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Dinlədiyi mətndəki əsas fikri müəyyənləşdirir. | 1.1.2 | Əd.- 1.3.3.<br>X.d.-3.1.4. |
| 2 | Müzakirə olunan mövzu ilə bağlı mülahizələrini bildirir. | 2.1.3 | H.b.-4.1.1. |
| 3 | Mətndə tanış olmadığı sözlərin mənasını lüğətlərdən istifadə etməklə müəyyənləşdirir. | 3.1.1 | A.t.-1.2.2. |
| 4 | Topladığı fakt və məlumatlara əsasən plan tərtib edir. | 4.1.2 | İn.-3.1.3. |

**Dərsin tipi:** İnduktiv.

**Dərsin forması:** Böyük və kiçik qruplarla iş, cütlərlə iş.

**Dərsin üsulu:** Əqli hücum, müzakirə, sual-cavab.

**Resurslar:** Dərslik, dəftər, internetə qoşulmuş kompyuter, proyektor, iş vərəqləri.

**Motivasiya:** Elektron lövhədə "Qar kraliçası" cizgi filmindən kadrlar göstərilir. (google.az - Snejnaya koroleva, Youtube)

**Köməkçi sual:** 1.Gördüyünüz bu kadrlar hansı filmdəndir? Filmdə hansı quşları gördünüz?

2. Kadrlarda gördüyünüz qarğaya daha hansı nağıllarda rast gəlmişsiniz?
3. Qarğa necə quşdur?

**Tədqiqat sualı:** Necə düşünürsünüz, qarğa və saat arasında hər hansı bir əlaqə ola bilərmi?

Çap üçün deyil

**Tədqiqatın aparılması:** Şagirdlər 3 qrupa bölünür və şagirdlərə iş vərəqləri paylanır.

1-ci iş vərəqinin məzmunu: – Qarğalar haqqında nə bilirsiniz? Bu quşların faydası çoxdur, yoxsa zərəri?

2-ci iş vərəqinin məzmunu: – Nə üçün həmişə mənfi xasiyyətli adamlar qarğaya bənzədilir? Mülahizələrinizi yazın.

3-cü iş vərəqinin məzmunu: – "Qarğa özünü quş bilir, xəşil özünü aş" atalar sözünü necə izah etmək olar? Qarğanın zahiri görünüşünü təsvir edin.

Şagirdlər bir neçə dəqiqə hazırlaşdıqdan sonra cavabları təqdim edirlər. Fərqli cavablar qiymətləndirilir.

"Saatsaz qarğa" mətni oxudulur. Müəllimin köməyi ilə çətin sözlər tərcümə edilir. "Söz ehtiyatı"ndakı sözlərin mənası üzərində iş aparılır, sonra cütlüklər mənası izah olunan sözlər və ifadələri cümlə daxilində işlədirlər.

Çalışmalar üzərində iş seçilmiş alt-standartların reallaşdırılmasına, məqsədə nail olmağa şərait yaradır. 1, 3, 4-cü çalışmalar bilavasitə mətnin məzmununun qavranılmasına, suallara cavab tapılmasına, bununla həm də mətndəki əsas fikrin müəyyənləşdirilməsinə, dolayısı ilə şifahi nitq bacarıq və vərdişlərinin inkişafına yönəldilir. Müəllimin köməyi ilə mətnə aid plan tərtib edilir. Şagirdlər mətni oxuduqdan sonra orada verilmiş məzmunla əlaqəsi olmayan artıq cümlələri tapırlar. Dərslikdəki "Qarğa" lətifəsinin oxusu sinifdə emosional əhvalı-ruhiyyə yaradır, yorğunluğu aradan qaldırır. Lətifə ilə mətn arasındakı əlaqə müəyyənləşdirilir. Dərslikdəki tapmacalarla mövzu əlaqələndirilir. Tapmacaların cavabları tapılır.

Birləşmələrin tərcüməsində yol verilmiş səhvlərin tapılıb düzəldilməsi və dəqiq tərcümənin müəyyənləşdirilməsi şagirdlərdə tərcümə bacarıqlarını inkişaf etdirir.

**Məlumat mübadiləsi:** Şagirdlər tədqiqat apararkən qarğa haqqında lazımi bilgilər əldə etdiklərindən mətnin məzmunu üzərində fikir mübadiləsinə artıq hazır olurlar. Müəllim onları istiqamətləndirir.

**Nəticə:** Mətndən çıxan nəticəyə görə nəinki ev quşlarına, gözəl quşlara, hətta heç kimin sevmədiyi qarğalara da qayğı göstərmək lazımdır. Çünki qarğaların da təbiətin bütövlüyünün qorunmasında öz yeri var. İnsan Yer üzünün ən qüvvətli, güclü canlısıdır. Deməli, bütün digər canlıların insanın köməyinə böyük ehtiyacı var.

Şagirdlər bu mətndə saatın tez-tez xarab olmasına qarğanın səbəb olması barədə məlumat əldə edir, onun qəribəliklərindən biri kimi evdəki saatla oynaması vasitəsilə qarğa ilə daha yaxından tanış olurlar. Uşaqlara maraqlı görünən "Saatsaz qarğa" başlığı aydınlaşır.

**Yaradıcı tətbiqetmə:** Qarğaya aid müxtəlif lətifələr, tapmacalar var. Onlardan bir neçəsini tapıb oxumaq.

**Qiymətləndirmə:** Müvafiq cədvələ əsasən aparılır.

**Ev tapşırığı:** Mətnin məzmununu danışmaq.

Çap üçün deyil

## DƏRS 15. CANLI SAAT (1 saat)

| № | Gözlənilən təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Suallara cavab verir. | 1.1.1 | A.t.-1.3.1. |
| 2 | Nitq prosesində sait və samitləri düzgün tələffüz edir. | 2.1.1 | Əd.- 1.3.2.<br>X.d.-4.1.1. |
| 3 | Mətndəki sözləri orfoepik qaydalara uyğun oxuyur; | 3.1.2 | H.b-4.1.1. |
| 4 | Sait və samitlərin, mürəkkəb sözlərin yazılış qaydalarına, cümlənin sonunda və dialoqlarda durğu işarələri qaydalarına əməl edir. | 4.1.3 | İn.-3.2.3. |

**Dərsin tipi:** İnduktiv.
**Dərsin forması:** Böyük qrupla, cütlərlə iş.
**Dərsin üsulu:** Əqli hücum, sual-cavab, müzakirə.
**Resurslar:** Dərslik, dəftər, zəngli saat.
**Motivasiya:** Müəllim zəngli saatı işə düşmək üçün tənzimləyir. Saatın zəngi səslənir.

**Köməkçi sual:** Eşitdiyiniz bu zəng səsi ilə sizi dərsə səsləyən zəng səsi arasında hansı fərq var? (Cavablar dinlənilir).

**Tədqiqat sualı:** Zəng səslərinin insan həyatında rolu varmı?

Müəllim cütlərə kartoçkalar paylayır. Kartoçkaların sualları aşağıdakılardır:

1. Hansı zəng səsi səni oyadır?
2. Hansı zəng səsi səni tələsdirir?
3. Hansı zəng səsi səni qorxudur?
4. Hansı zəng səsi sənə təsir etmir?
5. Sən nə vaxt zəng səsinə sevinirsən?
6. Sən nə vaxt zəng səsinə kədərlənirsən?
7. Hansı quşların səsi sənə zəng səsini xatırladır?

Cavablar dinlənilir. Fərqli cavablar qiymətləndirilir.

Tədqiqat dərslikdəki “Canlı saat” mətninin şagirdlərə oxutdurulması ilə davam edir. Mətnin məzmunu üzərində iş aparılır. Çətin sözlər izah edilir. Şagirdlərin tələffüzündəki nöqsanlar düzəldilir, yeni tələffüz bacarıqlarının formalaşdırılmasına başlanılır. Şagirdlərə dilin qrammatik normalarının mənimsədilməsi işi sual cümlələri qurmaq və onları düzgün yaza bilmək şəklində aparılır. Şagirdlər mətnin məzmununa dair suallar verirlər. Müəllim çalışır ki, suallar məntiqi olsun. Dilin qrammatik normalarının praktik yolla mənimsədilməsi 13-cü çalışma üzərində işlə davam edir. Şagirdlər mətndə müxtəlif formalarda işlənən isimlər üzərində müşahidə aparır, cümlədə sözlərin bir-biri ilə əlaqələndirilməsi üçün xüsusi şəkilçilərə ehtiyac duyulduğunu praktik yolla mənimsəyirlər. Praktik bacarıqların inkişafına dərslikdəki 14-cü çalışmanın icrası kömək edir. Çalışmanı icra edərkən şagirdlər məna tələbinə

Çap üçün deyil

görə müvafiq hal şəkilçilərini artıraraq cümlələri yazırlar. Şagirdlər sözün formasını dəyişən belə şəkilçilərin hal şəkilçiləri adlandırıldığını da öyrənirlər.

**Məlumat mübadiləsi:** Şagirdlər Orxanın xarakterik xüsusiyyətlərini təhlil etmək məqsədilə fikir mübadiləsi aparırlar. Bəziləri Orxanı tənbəl, məsuliyyətsiz, bəziləri isə qayğıkeş, xoşrəftar adlandırır. Müzakirə prosesində müəllimin istiqamətverici rolu nəzərə çarpır. Heyvanların və quşların insan həyatındakı roluna diqqət yetirilir.

**Nəticə:** İnsanlar heyvanları, quşları sevməli, onlara qayğı göstərməlidirlər. Heyvanlar, quşlar bizim təbiətin sərvətidir. Lakin hər bir şəxs öz işinə də məsuliyyətlə yanaşmalıdır. Xeyirxah hərəkət etmək yaxşıdır, lakin bu zaman digər işləri buna qurban vermək olmaz.

**Yaradıcı tətbiqetmə:** Xeyirxah hərəkət edən zaman nədəsə səhvə yol vermişsinizmi? Kiçik bir dialoq qurun.

**Qiymətləndirmə:** Müvafiq cədvələ əsasən aparılır.

**Ev tapşırığı:** Mətnin məzmununu öz sözlərinizlə qısaca yazın.

## DƏRS 16. KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ (1 saat)

| № | Gözlənilən təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Suallara cavab verir. | 1.1.1 | Əd. -3.1.2. |
| 2 | Nitq prosesində sait və samitləri düzgün tələffüz edir. | 2.1.1 | X.d.-3.1.4. |
| 3 | Müzakirə olunan mövzu ilə bağlı mülahizələrini bildirir. | 2.1.3 | X.d.-3.1.4. |
| 4 | Mətndəki sözləri orfoepik qaydalara uyğun oxuyur; | 3.1.2 | |
| 5 | Mətndəki əsas fikrə uyğun fakt və hadisələri müəyyənləşdirir. | 3.1.3 | İn.-3.2.2 |
| 6 | Sait və samitlərin, mürəkkəb sözlərin yazılış qaydalarına, cümlənin sonunda və dialoqlarda durğu işarələri qaydalarına əməl edir. | 4.1.3 | |

**Dərsin forması:** Böyük qruplarla iş.
**Tədqiqat sualı:** Öyrəndiklərinizi necə xatırlayırsınız?
**Tədqiqatın aparılması:**

### KİÇİK SUMMATİV QİMƏTLƏNDİRMƏ
### BƏNÖVŞƏ

Torpağı da, xəzəlləri də qar örtmüşdü. Cığırlarda, tarlalarda nə quşların, nə də cüyürlərin izi görünürdü. Hava bir az isinmişdi. Talanın kənarındakı daş qar örtüyünü atmışdı. Onun üzərindən bənövşə boylanırdı. Bu zərif çiçək daşın torpaq



Çap üçün deyil

dolmuş yarığında boy atmışdı.

Daşın ətrafında __________ quş izi vardı. Çoxlu qırqovul, çatıldimdik və başqa quşlar bu zərif çiçəyə baxmağa gəlmişdilər. Onlar bənovşəyə maraqla baxır, sanki onun keşiyini çəkirdilər.

Talada xeyli dayandım, bənövçənin ləçəklərinə baxdım. Elə bil ki, quşlar bahara tələsən bu incə çiçəyin qüdrətindən zövq alırdılar. Ona hətta insan da həsəd aparardı.

**1. Mətnin birinci abzasında işlənmiş əlamət bildirən sözlər hansı variantdadır?**

a) torpaq, xəzəl, cığır
b) ılıq, zərif, çılpaq
c) daş, ətraf, şüa
d) quşlar, cüyürlər, ağaclar
e) örtük, kənarındakı, zərif

**2. Mətnin ikinci abzasında işlənmiş neçə söz cəm şəkilşisi qəbul etmişdir?**

a) 4 b) 3 c) 2 d) 1 e) 5

**3. Mətndə işarələnmiş sözlərdən hansında şəkilçilər fərqli tələffüz edilir?**

a) 1, 2, 3 b) 3, 4, 5 c) 1, 4, 5 d) 2, 3, 4 e) 1, 3, 6

**4. Mətnin birinci abzasında işlənmiş hansı sözü "yayırdı" sözü ilə əvəz etmək olar?**

a) örtmüşdü b) görünürdü c) səpələyirdi
d) boylanırdı e) isinmişdi

**5. Altından xətt çəkilmiş cümlədə isimlər hansı haldadır?**

a) Adlıq, yiyəlik
b) Yönlük, yerlik
c) Təsirlik, çıxışlıq
d) Yönlük, təsirlik
e) Yiyəlik, yönlük

**6. Hansı sözləri həm xüsusi, həm ümumi isim kimi işlətmək olar?**

a) xəzəl, torpaq
b) bənövşə, günəş
c) çiçək, zərif
d) quş, qırqovul
e) insan, ləçək

**7. Mətnə hansı sualı vermək olmaz?**

a) Cığırlarda cüyürlərin, quşların izi nə üçün görünmürdü?
b) Bənövşə haradan boylanırdı?
c) Hansı quşlar çiçəyə baxmağa gəlmişdilər?
d) Müəllif bahar fəslini necə təsvir edir?
e) Quşların, heyvanların, hətta insanların da həsəd apardığı çiçək hansıdır?

**8. Mətndəki ağ boşluqda hansı ifadəni yazmaq olmaz?**

a) saysız-hesabsız b) çoxlu c) xeyli d) çox e) az

Çap üçün deyil

**9. Mətn neçənci şəxsin dilindən söylənilir?**

a) I şəxs, tək b) I şəxs, cəm c) II şəxs, tək
d) II şəxs, cəm e) III şəxs, tək

**10. Altından xətt çəkilmiş sözün yerində hansı ifadəni yazsaq məzmun dəyişməz?**

a) torpağın b) çiçəyin c) daşın d) yarpağın e) qarın

## DƏRS 17. PAYIZ (1 saat)

| № | Gözlənilən təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Dinlədiyi mətndəki əsas fikri müəyyənləşdirir. | 1.1.1 | A.t-1.1.1. |
| 2 | Mətndəki sözləri orfoepik qaydalara uyğun oxuyur; | 3.1.2 | Əd.-1.2.4.<br>X.d.-2.1.1. |
| 3 | Mətndəki əsas fikrə uyğun fakt və hadisələri müəyyənləşdirir. | 3.1.3 | H.b.-1.2.1. |
| 4 | Sait və samitlərin, mürəkkəb sözlərin yazılış qaydalarına, cümlənin sonunda və dialoqlarda durğu işarələri qaydalarına əməl edir. | 4.1.3 | İn.-3.2.3. |

**Dərsin tipi:** İnduktiv.

**Dərsin forması:** Böyük və kiçik qruplarla iş.

**Dərsin üsulu:** Əqli hücum, sual-cavab, müzakirə, təqdimat.

**Resurslar:** Dərslik, dəftər, kompyuter, E.Sabitoğlunun diski, iş vərəqləri.

**Motivasiya:** Müəllim E.Sabitoğlunun bəstələdiyi "Payız gəldi" mahnısını səsləndirir.

**Köməkçi sual:** Səslənən bu mahnıda hansı fəsil təsvir edilmişdir?

Cavablar dinlənilir.

**Tədqiqat sualı:** Payız fəsli deyəndə ilk yadınıza düşən nə olur? Payız sizdə hansı duyğular oyadır?

**Tədqiqatın aparılması:** Müəllim şagirdləri qruplara bölür. Qruplara yarpaqlar paylayır və tapşırığı səsləndirir:

– Gördüyünüz yarpaqlar haqqında fikirlərinizi ifadə edin.

<u>1-ci qrup:</u> – yaşıl rəngli yarpaq haqqında fikirlərinizi ifadə edin (bölüşün).

<u>2-ci qrup:</u> – sarı rəngli yarpaq haqqında fikirlərinizi ifadə edin (bölüşün).

<u>3-cü qrup:</u> – qaraya çalan, tünd yaşıl rəngli yarpaq haqqında fikirlərinizi ifadə edin (bölüşün).

Qruplara vaxt verilir. Sonra şagirdlər təqdimat hazırlayıb, təqdim edirlər.

1-ci qrupun üzvləri yaz fəsli haqqında danışır.

2-ci qrupun üzvləri payız fəsli haqqında danışır.

3-cü qrupun üzvləri qış fəsli haqqında danışır.



Çap üçün deyil

Fərqli cavablar qiymətləndirilir. Təqdimat zamanı şagirdlər şeir, tapmaca, lətifə söyləyə bilərlər. Müəllim aşağı sinifdə öyrənilənləri də xatırlada bilər.

Tədqiqat "Payız" şeirinin oxutdurulması ilə davam etdirilir. Şeirin hər beyti şagirdlərin fəallığı ilə təhlil edilir. Müəllimin köməyi ilə şagirdlər payızın əlamətlərinə əlavələr edə bilərlər. Şeirin sözlüyü üzərində iş aparılır. Lüğətin mənimsədilməsi işi cütlərlə aparılır. Hər cüt ona təqdim olunan sözü və ya ifadəni cümlələrdə işlədir. Cavablar dinlənilir, lazım gəldikdə düzəlişlər edilir, məsləhət verilir.

Müəllim qruplarla işə keçir. Hər qrupa ayrılıqda "Payızda meyvə bağlarımız" mövzusunda təqdimat hazırlamaq tapşırılır. Cavablar dinlənilir. Müzakirələrdə təqdimatlarda öz əksini tapan müsbət cəhətlər qiymətləndirilir və həmin xüsusiyyətlərə diqqət yetirmək tövsiyə olunur.

Daha sonra qruplar "Payızda heyvanlar və quşlar" mövzusunda hazırladıqları dialoqun təqdimatına başlayırlar. Qrupların nümayəndələrinin hazırladıqları dialoq canlı şəkildə təqdim edilir. Müəllim və digər qrupların üzvləri tərəfindən dinlənilir. Qrupların cavabları qiymətləndirilir.

Dərslikdəki çalışmalar üzərində iş şagirdlərdə rabitəli nitq, hər hansı mövzu barədə fakt və hadisələri qruplaşdırıb planlı şəkildə təqdim etmək, mövzu ilə bağlı mülahizələr söyləmək, fikirlərini əsaslandırmaq bacarığını inkişaf etdirir, şifahi nitqdə düzgün intonasiya və orfoepik normaların əhəmiyyətini dərk etməyə şərait yaradır. Yazılı təqdimatlar hazırlamaq, müxtəlif tapşırıqları yazılı şəkildə yerinə yetirməklə şagirdlər dilin qrammatik normalarını yazılı nitqlərində şüurlu tətbiq vərdişlərinə yiyələnirlər.

Şagirdlər dərslikdə verilmiş tapmacaların cavabını tapırlar. Özləri də əlavə tapmacalar söyləyirlər. Tapmacaların cavablarının payızla əlaqəsi müəyyənləşdirilir. Bir neçə atalar sözü də söylənilir.

**Məlumat mübadiləsi:** Şagirdlər şeirin məzmunu, icra edilmiş tapşırıqlar, şəxsi müşahidələri və tapmacalar əsasında payızın xüsusiyyətləri haqqında fikir yürüdürlər.

**Nəticə:** 11 iqlim qurşağının 9-u Azərbaycanın–Vətənimizin payına düşür. Buna görə də Vətənimiz hər fəsildə gözəldir. Payız fəslinin isə xüsusi gözəllikləri var. Vətənimizin payızı rəssam fırçasından çıxmış tablonu xatırladır. Tanrı bu diyarı yaradarkən xəsislik etməmiş, yer üzündə olan rənglərin hamısından istifadə etmişdir. Bol məhsullu payız özünün bərəkəti ilə də fərqlənir. Gəlin bu bərəkətin qədrini bilək. Fəsillərin bizə bəxş etdiyi gözəlliyi, bərəkəti qiymətləndirməyi bacaraq.

**Yaradıcı tətbiqetmə:** "Payızın rəngləri" mövzusunda inşa yazmaq.

**Qiymətləndirmə:** Müvafiq cədvələ əsasən aparılır.

**Ev tapşırığı:** Payız fəslinə aid atalar sözü, tapmacalar, şeir tapmaq və sinifdə yoldaşlarına təqdim etmək.

Çap üçün deyil

## DƏRS 18. GÖYÇƏK FATMANIN NAĞILI (1 saat)

| № | Gözlənilən təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Dinlədiyi mətndəki əsas fikri müəyyənləşdirir. | 1.1.2 | Əd.-1.3.3.<br>X.d.-3.1.3. |
| 2 | Müzakirə olunan mövzu ilə bağlı mülahizələrini bildirir. | 2.1.3 | A.t.-1.2.1.<br>H.b.-3.2.2. |
| 3 | Mətndə tanış olmadığı sözlərin mənasını lüğətlərdən istifadə etməklə müəyyənləşdirir. | 3.1.1 | İn.-3.2.3. |
| 4 | Topladığı fakt və məlumatlara əsasən plan tərtib edir. | 4.1.2 | |

**Dərsin tipi:** İnduktiv.

**Dərsin forması:** Böyük və kiçik qruplarla iş.

**Dərsin üsulu:** Əqli hücum, təqdimat, müzakirə.

**Resurslar:** Dərslik, dəftər, "Zoluşka" filminin diski, proyektor, iş vərəqi.

**Motivasiya:** Müəllim şagirdlərə lövhədə "Zoluşka" rus xalq nağılı əsasında çəkilmiş filmdən fraqmentlər nümayiş etdirir.

**Köməkçi sual:** 1. Gördüyünüz fraqmentlər hansı nağıldandır? Bu nağılda nədən bəhs edilir?

2. Hansı Azərbaycan xalq nağıllarını oxumuşsunuz?

Cavablar dinlənilir

**Tədqiqat sualı:** Hansı Azərbaycan xalq nağılında kadrlarda gördüyünüz hadisələrə bənzər əhvalatlar təsvir olunur? Görəsən, niyə qız təndirdə gizlənib?

**Tədqiqatın aparılması:** Şagirdlər qruplara bölünür. Onlara iş vərəqləri paylanır.

1-ci iş vərəqinin məzmunu: – Azərbaycan nağılları hansı ifadələrlə başlayır? Hansı Azərbaycan nağıl qəhrəmanlarını tanıyırsınız? Bildiyiniz nümunələri yazın..

2-ci iş vərəqinin məzmunu: – Azərbaycan nağılları hansı ifadələrlə bitir? Xoşunuza gələn Azərbaycan nağıl qəhrəmanlarının adlarını yazın.

3-cü iş vərəqinin məzmunu: – Yadınıza salın, Azərbaycan nağıllarında nağılı oxuyanları maraqlandırmaq üçün başqa hansı cümlələr, ifadələr işlədilir (məsələn, qırx gün, qırx gecə...)? Bildiyiniz Azərbaycan nağıl qəhrəmanlarının adlarını yazın.

Şagirdlərə təqdimata hazırlaşmaq üçün vaxt verilir. Hazırlıq zamanı müəllim şagirdləri istiqamətləndirir. Müəyyən olunmuş vaxtda onlar hazırladıqları cavabları təqdim edirlər.

Tədqiqat mətn üzrə işlə davam etdirilir. Nağıldan ixtisarla verilmiş mətn oxunur. Çətin sözlər izah edilir. Lüğət üzrə iş aparılır: sözlər və ifadələr ayrı-ayrı cümlələrdə işlədilir. Atalar sözləri ilə mətn arasında əlaqə araşdırılır. Mətnin məzmununu daha yaxşı mənimsətmək məqsədilə dərslikdəki planla tanışlıqdan sonra hər bir qrupa ayrıca plan tərtib etmək tapşırığı verilir. Cavablar dinlənilir.

Dərslikdəki 1, 2, 3, 4, 5 nömrəli çalışmalar mətnin məzmununun qavranılmasına və şagirdlərin danışma bacarığının inkişafına istiqamətləndirilmişdir. Bu tapşırıqlar həmçinin şagirdlərdə mühakimə bacarığının formalaşmasına, nitqdə məntiqi

Çap üçün deyil

ardıcıllığın gözlənilməsi, mövzu ilə bağlı fakt və hadisələri qruplaşdıraraq təqdim etmə bacarığının təkmilləşdirilməsinə də stimul yaradır.

Məlumdur ki, Azərbaycan dilinin ən çətin mənimsənilən orfoqrafiya qaydalarından biri sonu "q" samiti ilə bitən sözlərin yazılışı ilə əlaqədar qaydadır. Bu qaydanın öyrədilməsi ana dilli məktəblərdə olduğu kimi, təlim rus dilində aparılan məktəblərdə Azərbaycan dilinin təlimində də ciddi çətinliklər yaradır. Odur ki, bu qaydanın mənimsədilməsi üzərində davamlı iş aparılması tələb olunur. Bu sözlərin yazılışına şagirdlərin diqqətini cəlb etmək üçün xüsusi fərqləndirmələrdən istifadə olunur. Bu dərsdə mətndə qırmızı rənglə fərqləndirilmiş söz üzərində şagirdlərin müşahidəsi təşkil olunur, onların gəldikləri qənaətlər dinlənir və müvafiq qayda ilə şagirdlər sadə şəkildə tanış edilir. 8-ci və 11-ci çalışmanı yerinə yetirərkən şagirdlər sonu"q" samiti ilə yazılan sözlərlə praktik şəkildə qarşılaşdırılır və şagirdlər istər-istəməz bu qaydanın tətbiqi üzərində düşünməli olurlar. Dərslikdəki 7-ci çalışma lüğətin təmizliyi üzərində iş aparmaq üçün nəzərdə tutulmuşdur.

Dərslikdəki lətifənin (çalışma nömrə 9) oxusu dərsdəki gərginliyi azaldır, emosional əhvali-ruhiyyə yaradır. Lətifədən çıxan nəticənin oxunmuş nağılla əlaqəsi müəyyənləşdirilir.

**Məlumat mübadiləsi:** Mətnin məzmunu ilə tanışlıqdan sonra şagirdlər "Zoluşka"dakı əhvalatlara bənzər hadisələrə "Göyçək Fatmanın nağılı"nda rast gəlindiyi barədə ümumiləşdirmə aparırlar. Göyçək Fatma ilə Zoluşka arasında oxşar və fərqli cəhətləri müqayisə edirlər.Yer üzündə Xeyirin Şər üzərində qələbəsinə inamlarını bildirməklə bağlı fikir yürüdülür.

**Nəticə:** "Yalan ayaq tutar, yeriməz" atalar sözü əbəs yerə işlədilməyib. Hər kəs çalışmalıdır ki, xeyirxah işlər görsün, heç kimə pislik etməsin, yalan danışmasın. Çünki yalan sözün ömrü qısa olar. İnsan başqasının bədbəxtliyi üzərində öz xoşbəxtliyini qurmağa çalışmamalıdır. Bunun axırı peşmanlıq olur.

**Yaradıcı tətbiqetmə:** Azərbaycan xalq nağıllarından birinin haqqında qısaca məlumat verin.

**Qiymətləndirmə:** Müvafiq cədvələ uyğun aparılır.

**Ev tapşırığı:** Nağılın məzmununu danışmaq; müəllimin tövsiyə etdiyi sözlərə aid cümlələr yazmaq.

Çap üçün deyil

## DƏRS 19. HƏR KƏSİN YERİŞİ VAR (1 saat)

| № | Gözlənilən təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Dinlədiyi mətndəki əsas fikri müəyyənləşdirir. | 1.1.2 | Əd.-1.3.3.<br>X.d.-4.1.1. |
| 2 | Müzakirə olunan mövzu ilə bağlı mülahizələrini bildirir. | 2.1.3 | A.t.-1.3.1.<br>H.b.-2.1.1. |
| 3 | Mətndəki sözləri orfoepik qaydalara uyğun oxuyur. | 3.1.2 | İn-3.2.3. |
| 4 | Sait və samitlərin, mürəkkəb sözlərin yazılış qaydalarına, cümlənin sonunda və dialoqlarda durğu işarələri qaydalarına əməl edir. | 4.1.3 | |

**Dərsin tipi:** İnduktiv.

**Dərsin forması:** Cütlərlə iş, böyük qrupla iş.

**Dərsin üsulu:** Əqli hücum, müzakirə, rollu oyun.

**Resurslar:** Dərslik, dəftər, DVD-pleyer, cizgi filminin diski.

**Motivasiya:** Müəllim elektron lövhədə “Mosfilm”in istehsal etdiyi “Tısbağa və dovşan” filmindən fraqmentlər nümayiş etdirir.

**Köməkçi sual:** Filmdə gördüyünüz hadisəni Azərbaycan dilində danışa bilərsinizmi?

Şagirdlərin cavabları dinlənilir. Nitq səhvləri müəllim tərəfindən düzəldilir.

**Tədqiqat sualı:** “Başqasının ayaqqabısını geyinmək olar, ancaq onun yerişini yerimək olmaz” məsəlini necə başa düşürsünüz?

**Tədqiqatın aparılması:** Müəllim cütlərlə iş aparır. Hər cütə müxtəlif peşə sahiblərinin gördüyü işi təsvir edən şəkillər paylanır (dərzi tikiş tikən zaman, rəssam şəkil çəkən zaman və s.). Müəyyən vaxtdan sonra şagirdlərin təqdimatı dinlənilir. Təqdimat zamanı şagirdlərin nitq səhvləri düzəldilir. Müəllimin “Əgər gördüyünüz peşə sahibləri bacarmadıqları işlə məşğul olsaydılar, nələr baş verərdi?” – sualı şagirdlər tərəfindən cavablandırılır. Fərqli cavablar qiymətləndirilir.

Tədqiqat sualı ətrafında iş dərslikdəki təmsilin oxusu üzərində davam etdirilir. Müəllimin göstərişi ilə dərslikdəki “Hər kəsin öz yerişi var” şeiri rollar üzrə oxunur. Şagirdlər şeirin məzmununu nəsrə çevirərək danışırlar. “Sözlük” və “Söz ehtiyatı”ndakı çətin söz və ifadələrin mənaları izah edilir. Söz və ifadələrin şagirdlərin lüğətinə daxil edilməsi, fəallaşdırılması məqsədilə ənənəvi qaydada cütlərlə iş formasında onların cümlələrdə işlədilməsi həyata keçirilir.

Dərslikdəki 15, 16 nömrəli çalışmalar təmsilin məzmununu mənimsətmək məqsədi ilə yerinə yetirilir. 13, 14, 17, 18-ci çalışmaların icrası dilin qrammatik normaları ilə bağlı şifahi və yazılı nitq bacarıqlarının təkmilləşdirilməsinə xidmət edir.

“Tap görək” rubrikasındakı tapmacaların cavablarının tapılması şagirdlərin məntiqi təfəkkürlərinin inkişafına imkan verir. Tapmacalar mövzu ilə əlaqələndirilir.

**Məlumat mübadiləsi:** Müəllim şagirdlərə təmsil janrı barədə məlumat verdikdən sonra şagirdlər insanlara məxsus xüsusiyyətlərin şeirdəki tısbağa və dovşana aid



Çap üçün deyil

edilməsi ilə əlaqədar həmin heyvanların hərəkətlərini müzakirə edirlər. Qeyd edilir ki, tısbağa öz imkanlarını düzgün qiymətləndirmir və dovşanla bəhsə girir. Bu iddia faciəli sonluğa gətirib çıxarır. Ona görə də belələri haqqında deyilir: Başqasının ayaqqabısını geyinmək olar, ancaq onun yerişini yerimək olmaz.

**Nəticə:** Həyatda hər kəs öz yerində olmalıdır. Yaxşı bacardığı işlə məşğul olmalıdır ki, nəticədə xalqına, vətəninə fayda gətirsin. Əbəs yerə babalarımız deməyiblər: "Ördək qazın yerişini yerimək istədi, öz yerişini də itirdi". Hərə özünə, tanrının ona verdiyi imkanlara uyğun yaşam tərzi seçməlidir. Lüzumsuz yerə kiminləsə bəhsə girmək, ona oxşamağa çalışmaq həmişə faydalı olmur. Hətta bəzən oxuduğunuz təmsildəki tısbağa kimi hər şeyi, hətta özünü də itirir.

**Yaradıcı tətbiqetmə:** Bu mövzuya aid atalar sözləri tapmaq.

**Qiymətləndirmə:** Müvafiq cədvələ əsasən aparılır.

**Ev tapşırığı:** Təmsilin məzmununu danışmaq. "Sözlük"dəki sözlərə aid cümlələr qurub yazmaq.

## DƏRS 20. QIZIL VƏ İLAN (1 saat)

| № | Gözlənilən təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Dinlədiyi mətndəki əsas fikri müəyyənləşdirir. | 1.1.2 | Əd.-1.3.4. |
| 2 | Nitq prosesində sait və samitləri düzgün tələffüz edir. | 2.1.1 | A.t.-3.1.3. |
| 3 | Mətndə tanış olmadığı sözlərin mənasını lüğətlərdən istifadə etməklə müəyyənləşdirir. | 3.1.1 | İn.-3.3.2.<br>H.b.-3.2.1. |
| 4 | Sait və samitlərin, mürəkkəb sözlərin yazılış qaydalarına, cümlənin sonunda və dialoqlarda durğu işarələri qaydalarına əməl edir. | 4.1.3 | |

**Dərsin tipi:** İnduktiv.

**Dərsin forması:** Böyük qrupla iş.

**Dərsin üsulu:** Əqli hücum, sual-cavab, klaster, müzakirə.

**Resurslar:** Dərslik, dəftər, motivasiya qurmaq üçün konfet qutusu.

**Motivasiya:** Müəllim əlində konfet qutusu sinfə daxil olur. Şagirdlərə bu konfet qutusu ilə bağlı bir əhvalat danışır: "Dünən qonşumun uşaqları bir konfet qutusunun içindəkilərini belə bölüşdürdülər. Bacı dedi ki ,bu qutunun içindəkilərini dörd yerə bölmək lazımdır: ata, ana, mən və sən. Qardaş isə qutudakıları belə bölür: ata konfet yeməyi sevmir, ana onsuz da öz payını mənə verəcək, belə çıxır ki, konfetin 3 hissəsi mənim, 1 hissəsi isə sənindir.

**Köməkçi sual:** Sizcə, qardaş konfetləri düzgün böldü? Onun bu hərəkətinə münasibətiniz necədir ?

Cavablar dinlənilir. Şagirdlərin düzgün cümlə qurmaq bacarığına nəzarət edilir.

**Tədqiqat sualı:** "Artıq tamah daş yarar, daş qayıdıb baş yarar" atalar sözünü

Çap üçün deyil

necə başa düşmək lazımdır?

**Tədqiqatın aparılması:** Müəllim lövhədə boş dairə şəkli çəkərək, ətrafında bu sözləri yazır:

– Bu xüsusiyyətlərə malik olan insanları necə adlandırmaq olar?

Şagirdlərdən "tamahkar" kəlməsini almaq məqsədilə müəllim həmin sözün rus dilindəki qarşılıqlarını işlədə bilər.

Bütün sinfə verilən suallar:

– İnsanlarda olan müsbət xüsusiyyətlər hansılardır?

Müəllim "xeyirxahlıq, mehribanlıq, ədalətlilik, əliaçıqlıq, səmimiyyət, doğruçuluq, gözütoxluq" kimi sözləri şagirdlərdən eşitməyə çalışır.

– İşlətdiyiniz bu sözlərə əksmənalı sözlər deyə bilərsinizmi?

Şagirdlər "paxıllıq, kobudluq, zalımlıq, xəsislik, riyakarlıq, yalançılıq, acgözlük" sözlərini tapırlar. Müəllim bu sözlərin tərcümələrini də tapmağı tapşırır.

– "Acgözlük" sözünü necə başa düşürsünüz? Hansı insanlara "acgöz" deyilir? Nə üçün?

– "Zalımlıq" sözünü necə başa düşürsünüz?

Cavablar dinlənilir. Şagirdlərin cümlə qurmaq bacarığına fikir verilir. Fərqli cavablar qiymətləndirilir.

Dərslikdən "Qızıl və ilan" mətni oxutdurulur. Çətin söz və ifadələr izah edilir. Lüğət üzrə iş aparılır.

Dərslikdəki 1-ci çalışma üzrə işləyərkən şagirdlər mətnin məzmununu qavradıqlarını nümayiş etdirir, mətndəki fakt və hadisələrdən çıxış edərək qoyulan sualla bağlı mülahizələrini bildirirlər. 7-ci və 10-cu çalışmaların icrası şagirdlərin məntiqi təfəkkürünün inkişafına yönəldilir. 8 və 9-cu çalışmaların yerinə yetirilməsi sonu "q" samiti ilə yazılan sözlərin orfoqrafiyasının möhkəmləndirilməsini nəzərdə tutur. 4, 6 və 10-cu çalışmalar şagirdlərin lüğətinin genişləndirilməsinə istiqamətləndirilir.

**Məlumat mübadiləsi:** Şagirdlər odunçu və ilan arasında olan münasibətdə nəyin yaxşı, nəyin pis olduğunu müzakirə edir və bu hadisəni həyatda gördükləri və rast gəldikləri hər hansı bir hadisə ilə müqayisəli şəkildə təhlil edirlər. Odunçunun oğlunun tamahkarlığının nəticəsinin qanunauyğun olduğu barədə fikir yürüdürlər.

**Nəticə:** "Artıq tamah baş yarar" atalar sözünü əsas götürərək belə nəticəyə gəlmək olar ki, həyatda hər kəs başqalarına qarşı ədalətli, səmimi, xeyirxah, obyektiv olmalıdır ki, hamı ona hörmət etsin. Gözütox insanlar cəmiyyətdə hamı üçün dəyərlidir. Acgözlər, paxıllar, tamahkarlar isə heç kəs tərəfindən sevilmir, hamı onlardan uzaq olmağa çalışır. Onlardan heç kəsə xeyir gəlməz.

**Yaradıcı tətbiqetmə:** Mətndəki hadisəyə oxşar bir əhvalat fikirləşin.

**Qiymətləndirmə:** Müvafiq cədvələ uyğun aparılır.

**Ev tapşırığı:** Nağılın məzmununu danışmaq.

Çap üçün deyil

## DƏRS 21. QONAQ (1 saat)

| № | Gözlənilən təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Dinlədiyi mətndəki əsas fikri müəyyənləşdirir. | 1.1.2 | Əd.-1.3.2.<br>A.t.-2.1.1. |
| 2 | Müzakirə olunan mövzu ilə bağlı mülahizələrini bildirir. | 2.1.3 | İn.-3.2.2.<br>X.d.-2.1.2. |
| 3 | Mətndəki sözləri orfoepik qaydalara uyğun oxuyur. | 3.1.2 | H.b.-1.2.1. |
| 4 | Sait və samitlərin, mürəkkəb sözlərin yazılış qaydalarına, cümlənin sonunda və dialoqlarda durğu işarələri qaydalarına əməl edir. | 4.1.3 | |

**Dərsin tipi:** İnduktiv.
**Dərsin forması:** Böyük və kiçik qruplarla iş.
**Dərsin üsulu:** Beyin həmləsi, müzakirə, klaster.
**Resurslar:** Dərslik, dəftər, iş vərəqləri.

**Motivasiya:** Müəllim proyektor vasitəsilə lövhədə güllü-çiçəkli, ağaclı bağlar təsvir olunmuş müxtəlif slaydlar nümayiş etdirir.

**Köməkçi sual:** Gördüyünüz bu ağacların belə böyüməsinə, çiçəkləyib bəhər verməsinə, görəsən, nə qədər vaxt tələb edilir?

**Tədqiqat sualı:** "Arifə bir işarə, qanmaza min toppuz" atalar sözündə nəyə işarə edilir?

**Tədqiqatın aparılması:** Müəllim əvvəl dərslikdə verilmiş "Qonaq" mətnini şagirdlərə oxutdurur. Sözlükdə verilmiş çətin sözlərin izahı verilir. Lüğət üzrə iş aparılır. Sonra şagirdlər 3 qrupa bölünür və onlar dərslikdən müəllimin təklif etdiyi çalışmalar üzərində işləyirlər:

<u>1-ci qrup:</u> çalışma №- 11, 12;
<u>2-ci qrup:</u> çalışma №- 13; 14
<u>3-cü qrup:</u> çalışma №- 15, 16.

Verilmiş vaxt başa çatdıqdan sonra şagirdlər işlərini təqdim edirlər. Fərqli cavablar qiymətləndirilir.

**Məlumat mübadiləsi:** Şagirdlər mətnlə tanış olduqdan sonra Gündüz və Kamilin qonağa olan münasibətini müzakirə edirlər. Müəllimin köməyi ilə şagirdlər balaca qonağın səhv hərəkətləri haqda fikir mübadiləsi aparırlar. Gündüzün qonağın səhv hərəkətlərinə eyhamla işarə etməsi, onu dolayısı ilə utandırmasına münasibət bildirilir.

**Nəticə:** Xalqımızın qonaqpərvərliyi dillər əzbəridir. Gələn qonağa hörmət elimizin adətidir. Qonağın istəyini, arzusunu yerinə yetirməyi, ona lazımi qayğı göstərməyi özümüzə həmişə borc bilmişik. Lakin söhbət təbiətə biganəlikdən, ona zərər yetirməkdən gedərsə, biz buna imkan verməməliyik və səhv hərəkətlərə yol verənləri heç olmasa Gündüz kimi utandırmalıyıq. Hətta çox sevdiyimiz, gəlişinə sevindiyimiz qonağa da bunu başa salmalı, səhvini mədəni formada ona çatdırmalıyıq. Səhvini bir

Çap üçün deyil

işarə ilə başa düşən insanlar haqqında deyilir: “Arifə bir işarə, qanmaza min toppuz”. Ancaq elə insanlar var ki, onları tənqid etsən belə səhvlərini başa düşmürlər.

“Bağa baxarsan, bağ olar, baxmazsan, dağ olar” atalar sözünün əbəs yerə deyilmədiyi də xatırladılır.

**Yaradıcı tətbiqetmə:** Təbiətə qayğı mövzusunda atalar sözləri, tapmacalar, lətifələr, əfsanələr tapmaq.

**Qiymətləndirmə:** Müvafiq cədvələ əsasən aparılır.

**Ev tapşırığı:** Mətnin məzmununu danışmaq. “Sözlük”dəki sözlərə aid cümlələr qurub yazmaq.

## DƏRS 22. BABA OTAĞI (1 saat)

| № | Gözlənilən təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Suallara cavab verir;<br>Dinlədiyi mətndəki əsas fikri müəyyənləşdirir. | 1.1.1<br>1.1.2 | Əd.-1.3.2.<br>X.d.-4.1.1. |
| 2 | Müzakirə olunan mövzu ilə bağlı mülahizələrini bildirir. | 2.1.3 | A.t.-1.3.1.<br>H.b.-2.1.1. |
| 3 | Mətndə tanış olmadığı sözlərin mənasını lüğətlərdən istifadə etməklə müəyyənləşdirir. | 3.1.1 | İn.-3.2.2. |
| 4 | Sait və samitlərin, mürəkkəb sözlərin yazılış qaydalarına, cümlənin sonunda və dialoqlarda durğu işarələri qaydalarına əməl edir. | 4.1.3 | |

**Dərsin tipi:** İnduktiv.

**Dərsin forması:** Böyük və kiçik qruplarla iş.

**Dərsin üsulu:** Əqli hücum, təqdimat, müzakirə.

**Resurslar:** Dərslik, dəftər, DVD-Pleyer, “Qaraca qız” filminin diski, iş vərəqləri.

**Motivasiya:** Müəllim elektron lövhədə “Qaraca qız” filmindən şagirdlərin bu dərsdə keçəcəkləri mətnin məzmununu əks etdirən hissəni işıqlandırır.

**Tədqiqat sualı:** Gördüyünüz bu kadrlardan siz nə başa düşdünüz? “Dostun yoxdur, axtar, tapdın qoru” atalar sözü ilə gördüyünüz kadrlar arasında əlaqə varmı?

Cavablar dinlənilir. Müəllim şagirdləri istiqamətləndirir.

**Tədqiqatın aparılması:** Müəllim şagirdləri 3 qrupa bölür. Mətni əvvəldən 3 hissəyə bölən müəllim onun məzmununu ayrı-ayrı qruplara oxutdurur. Hər qrupla oxuduqları hissənin məzmunu üzərində iş aparılır, çətin söz və ifadələr aydınlaşdırılır. Müəllim bir qrupla işlərkən çalışmalıdır ki, digər qrupları da məşğul etmək məqsədilə onları müzakirəyə cəlb etsin. Qarşı qruplar suallar da hazırlaya bilərlər.

Mətnin məzmununu tam mənimsətmək məqsədilə müəllim dərslikdəki çalışmaları qruplaşdıraraq, hər qrupa ayrılıqda müvafiq çalışmaları yerinə yetirməyi tapşırır:

1-ci iş vərəqinin tapşırığı: -1, 4, 9 nömrəli çalışmalar

2-ci iş vərəqinin tapşırığı: - 2, 5, 7 nömrəli çalışmalar



Çap üçün deyil

3-cü iş vərəqinin tapşırığı: - 3, 6, 10 nömrəli çalışmalar

Qruplar öz tapşırıqlarını yerinə yetirirlər. Fərqli cavablar qiymətləndirilir. Bütün siniflə birlikdə lövhədə 8 nömrəli tapşırıq yerinə yetirilir.

**Məlumat mübadiləsi:** Şagirdlər "Qaraca qız" filmindən gördükləri fraqmentlərdən, dərslikdə oxuduqları mətndən balaca Tutunun həyatı ilə tanış olur, onun hansı mühitdə yaşadığını aydınlaşdırır və onunla Hüseynqulu ağanın qızı Ağca xanımın həyatını müqayisə edərək fikir mübadiləsi aparırlar. Uşaqlar Ağca xanımın zəngin ailədə böyüməsinə baxmayaraq, Qaraca qızla dostluğunu qorumaq istəyini xüsusi vurğulayırlar. Müzakirə zamanı müəllim onları istiqamətləndirir və "Qaraca qız" hekayəsindən şagirdlərin bilmədikləri və görmədikləri hadisələrlə onları yığcam şəkildə tanış edir.

**Nəticə:** Uşaqlar yer üzünün ən saf, təmiz, məsum varlıqlarıdır. Onlar həyata xoşbəxt olmaq üçün gəliblər. Çox təəssüflər olsun ki, düşdüyü mühitdən asılı olaraq bəzən uşaqlar bədbəxtliklərlə qarşılaşır, aciz qalır və hər şeydən məhrum olurlar. Bütün insanlar belə uşaqlara kömək etməli, onları həyatın çətin sınaqlarından qorumalıdır. Bütün xoşbəxt uşaqlar isə öz həyatlarına görə onlara həyatda dəstək olan insanlara təşəkkür etməli və xoşbəxtliklərinin qədrini bilməlidirlər.

Anasının etirazlarına və zəngin ailədə böyüməsinə baxmayaraq, hekayədəki Ağca xanımın kasıb bir qızla dostluq etməsi, dostu üçün narahat olması və onu qorumaq istəyi müsbət hadisədir. Ağca xanımla Tutunun dostluğu və bir-birinə sədaqətindən nümunə götürmək lazımdır. "Dostun yoxdur, axtar, tapdın qoru" atalar sözü belə məqamlara aiddir. Ağca xanımın dostu yox idi, o, Tutu ilə dostlaşdı, sonra isə bu dostluğu qorumağa çalışdı.

**Yaradıcı tətbiqetmə:** "Qaraca qız" filmini axıradək izləməli və ya "Qaraca qız" hekayəsini tapıb oxumalı.

**Qiymətləndirmə:** Müvafiq cədvələ əsasən aparılır.

**Ev tapşırığı:** Mətnin məzmununu öyrənmək və danışmaq.

Çap üçün deyil

## DƏRS 23. AD GÜNÜNÜN TARİXÇƏSİ (1 saat)

| № | Gözlənilən təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Dinlədiyi mətndəki əsas fikri müəyyənləşdirir. | 1.1.2 | Əd.-2.2.1.<br>X.d.-3.1.1. |
| 2 | Nitq prosesində sait və samitləri düzgün tələffüz edir. | 2.1.1 | A.t.-1.1.1.<br>H.b.-3.2.1. |
| 3 | Mətndəki əsas fikrə uyğun fakt və hadisələri müəyyənləşdirir. | 3.1.3 | İn.-3.2.2. |
| 4 | Müxtəlif əməli yazılar (elan, məktub) yazır. | 4.1.4 | |

**Dərsin tipi:** İnduktiv.

**Dərsin forması:** Böyük və kiçik qruplarla iş.

**Dərsin üsulu:** Beyin həmləsi, BİBÖ, müzakirə, təqdimat.

**Resurslar:** Dərslik, dəftər, iş vərəqləri.

**Motivasiya:** Müəllim əlində bir şamdanla sinfə daxil olur. Şamdandakı şamı yandırır. Hamı təəccüblənir.

**Köməkçi sual:** Kim deyə bilər, şamı nə zaman, hansı məqsədlərlə yandırırlar?

Cavablar dinlənilir. Müəllim kömək edir. Şagirdlərin nitqindəki nöqsanlar düzəldilir.

**Tədqiqat sualı:** İndiki kimi ad günlərinin keçirilməsi ideyası hansı xalqa məxsusdur? Bəs ad günlərində tortun üzərində şam yandırmaq adətinin tarixini və mənasını bilirsinizmi?

**Tədqiqatın aparılması:** Müəllim şagirdləri 3 qrupa bölür və qruplara iş vərəqləri paylanır.

1-ci iş vərəqinin tapşırığı: – Ad günündə yanan şamı necə təqdim edirlər? Ad gününün atributlarını sadalayın.

2-ci iş vərəqinin tapşırığı: – Qədim türklərdə ad qoyma mərasimi barədə nə bilirsiniz? Eşitdiyiniz və ya bildiyiniz mərasim barədə qısa məlumat verin.

3-cü iş vərəqinin tapşırığı: – Ad gününün ən sevimli anı haqqında qısa məlumat verin.

Şagirdlər təqdimatlar hazırlayırlar və təqdim edirlər. Müəllim onları istiqamətləndirir.

Tədqiqat sualına cavab axtarışı məqsədilə şagirdlər dərslikdən "Ad gününün tarixçəsi" mətnini oxuyurlar. "Sözlük" və "Söz ehtiyatı"nda verilmiş sözlər, ifadələr izah edilir, cümlələrdə işlədilir.

Mövzunun yaxşı mənimsənilməsi üçün tədqiqat çalışmalar üzərində davam etdirilir. 11, 12, 13 nömrəli çalışmalar şifahi; 14, 15, 16, 17, 18 nömrəli çalışmalar yazılı yerinə yetirilir. Bütün çalışmalar mətndə verilmiş informasiyanın qavranılmasına, şagirdlərin fakt və hadisələri müəyyənləşdirə bilmək qabiliyyətlərinin formalaşdırılmasına, mövzu ilə bağlı fikirlərini yazılı və şifahi formada ifadə edə bilmək bacarığının inkişafına istiqamətləndirilir.

**Məlumat mübadiləsi:** Şagirdlər dərslikdəki mətnlə tanış olduqdan sonra müəllimin köməyi ilə hər bir ölkənin ad gününü keçirmə ənənəsi haqqında bildikləri məlumatları çatdırmağa çalışırlar. Müəllim fikir mübadiləsi zamanı BİBÖ üsulundan istifadə edir.

**Nəticə:** Hər bir xalqın öz milli adət-ənənəsi vardır. Ad günlərinin keçirilməsi də belə ənənələrdəndir. Müxtəlif ölkələrdə ad günlərini müxtəlif cür qeyd edirlər. Lakin ad gününün keçirilməsi uşaqlar üçün xüsusi əhəmiyyət kəsb edir. Bu mərasimlərdə uşaqlar sevinir, şənlənir, valideynlər isə uşaqlarını xoşbəxt görmək istəyərək onların qəlbinə dəymirlər. Öz ad günlərindəki bayram əhval-ruhiyyəsi uzun müddət uşaqların hafizəsində qalır, unudulmur.

**Yaradıcı tətbiqetmə:** Ən yaxın adamın ad gününü təbrik etmək məqsədilə açıqca düzəldin və təbriklər yazın. Təbrikin məzmunundakı səhvləri müəllim düzəldə bilər.

Çap üçün deyil

**Qiymətləndirmə:** Müvafiq cədvələ əsasən aparılır.
**Ev tapşırığı:** Mətnin məzmununu öyrənmək və danışmaq.

## DƏRS 24. ARILIQDA (1 saat)

| № | Gözlənilən təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Dinlədiyi mətndəki əsas fikri müəyyənləşdirir. | 1.1.2 | Əd.-1.3.3.<br>X.d.-3.1.4. |
| 2 | Müzakirə olunan mövzu ilə bağlı mülahizələrini bildirir. | 2.1.3 | A.t.-1.3.1.<br>H.b.-2.1.1. |
| 3 | Mətndə tanış olmadığı sözlərin mənasını lüğətlərdən istifadə etməklə müəyyənləşdirir. | 3.1.1 | İn.-3.2.2. |
| 4 | Topladığı fakt və məlumatlara əsasən plan tərtib edir. Sait və samitlərin, mürəkkəb sözlərin yazılış qaydalarına, cümlənin sonunda və dialoqlarda durğu işarələri qaydalarına əməl edir. | 4.1.2;<br>4.1.3 | |

**Dərsin tipi:** İnduktiv.
**Dərsin forması:** Böyük və kiçik qruplarla iş.
**Dərsin üsulu:** Beyin həmləsi, təqdimat, müzakirə.
**Resurslar:** Dərslik, dəftər, internetə qoşulmuş kompyuter.
**Motivasiya:** Müəllim internetdən götürülmüş ( www.google.az) arı haqqında animasiyanı şagirdlərə nümayiş etdirir. Uşaqlar bu filmdə arıların iş fəaliyyətini əyani şəkildə görürlər.
**Köməkçi sual:** 1. Arıların insan həyatında rolu nədən ibarətdir?
2. Arının sizi sancmasından qorxursunuzmu?
Cavablar dinlənilir. Müəllim tərəfindən istiqamətləndirilir.
**Tədqiqat sualı:** Arı ailələri haqqında nə bilirsiniz? "Arıların beçə verməsi" haqqında eşitmişsinizmi? Bu, necə baş verir?
**Tədqiqatın aparılması:** Müəllim qoyduğu suallara cavab almaq məqsədi ilə şagirdləri 3 qrupa bölür və onlara iş vərəqləri paylayır.
<u>1-ci iş vərəqinin tapşırığı:</u> – Arıların hansı növləri var? Bu haqda qısa məlumat verin.
<u>2-ci iş vərəqinin tapşırığı:</u> – Arı balının faydası haqqında nə bilirsiniz?
<u>3-cü iş vərəqinin tapşırığı:</u> – "Arı qəhrin çəkməyən, balın qədrini bilməz" atalar sözünün mənasını izah etməyə çalışın.
Şagirdlər təqdimatlar hazırlayırlar və təqdim edirlər. Cavablar dinlənilir və fərqli cavablar qiymətləndirilir. Tədqiqat sualı ətrafında axtarışlar davam edir.
"Arılıqda" mətnini müəllim hissə-hissə qruplara oxutdurur və tərcümə etdirir.

Çap üçün deyil

Sonra "Sözlük" və "Söz ehtiyatı" üzrə iş aparılır.

1, 2, 3-cü çalışmaların icrası mətnin məzmununun qavranılmasına, 3, 4, 5-ci çalışmalar lüğət ehtiyatının genişləndirilməsinə, 6, 7, 8, 9-cu çalışmalar dilin qrammatik normalarının mənimsənilməsinə və düzgün yazı bacarıqlarının təkmilləşdirilməsinə şərait yaradır.

Cümlədə sözlərin əlaqələnməsi barədə şagirdlərin təsəvvürlərinin durulması üçün "Bunları bilirsinizmi?" rubrikası vasitəsilə ismin halları, onların xüsusiyyətləri, sualları və şəkilçiləri haqqında şagirdlərə sadə izahat verilir. Müəllimin göstərişi ilə şagirdlər mətndən isimləri seçirlər və hansı halda işləndiyini qeyd edirlər. Müəllim şagirdləri istiqamətləndirir.

**Məlumat mübadiləsi:** Şagirdlər mətni oxuduqdan sonra Qaraca qız və Ağca xanımla daha yaxından tanış olurlar. Onların münasibətlərini təhlil edirlər. Təhlil zamanı müəllim onların fikirlərini Qaraca qızın işgüzarlığına, zirəkliyinə yönəltməyə çalışır. Uşaqlar arı ailələrinin bölünməsi ilə bağlı da fikir mübadiləsi edirlər.

**Nəticə:** Şagirdlər "Arılıqda" mətnində Tutu və Ağca xanımla tanış olduqları kimi, arıların həyatı ilə bağlı da müəyyən məlumatlar əldə edirlər. İnsan həyatı üçün qiymətli qida məhsulu hazırlayan arıların "beçə verməsi" barədə Piri kişinin izahatı maraq doğurur və yaddaşlara həkk olunur. Həmçinin uşaqlar öyrənirlər ki, arıları incitməsən və onlardan qorxmasan, arılar adamı sancmazlar.

**Yaradıcı tətbiqetmə:** İnternet şəbəkəsindən arılar haqqında məlumat toplamaq.

**Qiymətləndirmə:** Müvafiq cədvələ əsasən aparılır.

**Ev tapşırığı:** Mətnin məzmununu danışmaq.

## DƏRS 25. AYI VƏ ŞİR (1 saat)

| № | Gözlənilən təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Dinlədiyi mətndəki əsas fikri müəyyənləşdirir. | 1.1.2 | Əd.-1.3.3.<br>X.d.-2.1.1. |
| 2 | Müzakirə olunan mövzu ilə bağlı mülahizələrini bildirir. | 2.1.3 | A.t.-1.2.2.<br>H.b.-1.2.1. |
| 3 | Mətndə tanış olmadığı sözlərin mənasını lüğətlərdən istifadə etməklə müəyyənləşdirir. | 3.1.1 | İn.-3.2.2. |
| 4 | Sait və samitlərin, mürəkkəb sözlərin yazılış qaydalarına, cümlənin sonunda və dialoqlarda durğu işarələri qaydalarına əməl edir. | 4.1.3 | |

**Dərsin tipi:** İnduktiv.

**Dərsin forması:** Böyük və kiçik qruplarla iş.

**Dərsin üsulu:** Əqli hücum, müzakirə, təqdimat.

**Resurslar:** Dərslik, dəftər, iş vərəqləri.



Çap üçün deyil

**Motivasiya:** Müəllim uşaqlara maraqlı bir lətifə danışır: "Şir, canavar, tülkü ova çıxırlar. Onlar öküz, qoyun və toyuq ovlayırlar. Şir deyir:

– Canavar qardaş, sən yaxşı bölə bilirsən. Ovu böl.

Canavar deyir: – Şir sağ olsun, öküz sənin, qoyun mənim, toyuq da tülkünün.

Bu bölgü şirə xoş gəlmir. O, canavarı parçalayır. Növbə tülküyə çatır. Şir deyir:

– Tülkü, bəlkə, ovu sən böləsən!?

Tülkü cavab verir: – Şir sağ olsun! Öküz sənin səhər yeməyin, qoyunu naharda yeyərsən, toyuq da şam yeməyin olsun.

Şir gülərək deyir: – Belə bölgünü haradan öyrənmisən?

Tülkü cavab verir: – Parçalanan canavardan.

Şagirdlər diqqətlə qulaq asırlar".

**Köməkçi sual:** 1. Eşitdiyiniz lətifədə daha hiyləgər hansı heyvan çıxış etdi?
2. Bu heyvanlara hansı əsərlərdə rast gəlmişsiniz?

Cavablar dinlənilir.

**Tədqiqat sualı:** Adı çəkilən hər üç heyvanın hansı xüsusiyyətləri var? Onlar nəyin rəmzi hesab olunurlar?

**Tədqiqatın aparılması:** Müəllim şagirdləri 3 qrupa bölür və onlara iş vərəqləri paylayır.

<u>1-ci iş vərəqin tapşırığı:</u> – Şirin səciyyəvi xüsusiyyətlərini sadalayın. Zahiri görünüşünü bir neçə cümlə ilə təsvir edin.

<u>2-ci iş vərəqin tapşırığı:</u> – Canavarın səciyyəvi xüsusiyyətlərini sayın. Zahiri görünüşünü bir neçə cümlə ilə təsvir edin.

<u>3-cü iş vərəqin tapşırığı:</u> – Tülkünün səciyyəvi xüsusiyyətlərini sayın. Zahiri görünüşünü bir neçə cümlə ilə təsvir edin.

Şagirdlər təqdimatlar hazırlayırlar. Müəllim onlara qulaq asır. Müəllimin göstərişi ilə qruplar bir-birinə sual verə bilər, tapmacalar söyləyə bilər. Fərqli cavablar qiymətləndirilir.

Tədqiqat "Ayı və şir" təmsilinin oxutdurulması ilə davam edir. Çətin sözlər izah edilir. Müəllimin köməyi ilə uşaqlar şeiri nəsrə çevirib danışırlar.

Çalışmalar üzərində işi müəllim qruplarla da təşkil edə bilər:

<u>1-ci qrup:</u> çalışma №- 12; 16.

<u>2-ci qrup:</u> çalışma №- 13; 15.

<u>3-cü qrup:</u> çalışma №- 18; 19.

Qruplara təqdimat hazırlamaq üçün vaxt verilir. Vaxt başa çatandan sonra liderlər cavabları təqdim edirlər və müzakirə başlanır. Cavablar dinlənir, fəal işləyən qrupun üzvlərini qiymətləndirmək olar.

14-cü çalışma üzərində iş bütün siniflə aparılır. Şagirdlər təklif olunan mövzu ilə bağlı fəal müzakirəyə qoşulurlar. Sonra 17 və 20-ci çalışmalar şifahi yerinə yetirilir.

**Məlumat mübadiləsi:** Şagirdlər şeiri nəsrə çevirib danışdıqdan sonra adı çəkilən heyvanların hansı insanların ümumiləşmiş obrazı olması haqqında fikir mübadiləsi aparırlar. Müəllimin köməyi ilə bir daha təmsilin başqa janrlardan fərqini öyrənirlər.

**Nəticə:** Şagirdlər belə nəticəyə gəlirlər ki, hiyləgərlik heyvanda olduğu kimi, insanlarda da ən mənfi xüsusiyyətdir. Doğrudur, bəzən insanlar hiyləgərliklə həyatda

Çap üçün deyil

nəyəsə nail olurlar. Lakin bu müvəffəqiyyətin ömrü qısa olur. Hiyləgərliyin üstü açılanda insana zərər gətirir. İnsan ətrafındakıların gözündən düşür, hörməti azalır.

**Yaradıcı tətbiqetmə:** Heyvanlara aid tapmacalar, atalar sözləri tapmaq.

**Qiymətləndirmə:** Müvafiq cədvələ əsasən aparılır.

**Ev tapşırığı:** Şeirin məzmununu danışmaq.

## DƏRS 26. ŞAHZADƏ VƏ BALACA ÇOBAN (1 saat)

| № | Gözlənilən təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Dinlədiyi mətndəki əsas fikri müəyyənləşdirir. | 1.1.2 | Əd.-1.1.1.<br>X.d.-4.1.1. |
| 2 | Müzakirə olunan mövzu ilə bağlı mülahizələrini bildirir. | 2.1.3 | A.t.-1.3.1.<br>H.b.-2.1.1. |
| 3 | Mətndəki əsas fikrə uyğun fakt və hadisələri müəyyənləşdirir. | 3.1.3 | İn.-3.2.2. |
| 4 | Sait və samitlərin, mürəkkəb sözlərin yazılış qaydalarına, cümlənin sonunda və dialoqlarda durğu işarələri qaydalarına əməl edir. | 4.1.3 | |

**Dərsin tipi:** İnduktiv.

**Dərsin forması:** Böyük qrupla iş, cütlərlə iş.

**Dərsin üsulu:** Əqli hücüm, sual-cavab, müzakirə, təqdimat, rollu oyun.

**Resurslar:** Dərslik, dəftər.

**Motivasiya:** Rollu oyun. Müəllim əvvəlcədən dərs dediyi sinifdə hər hansı bir şagirdin hansısa bir musiqi alətində çalmağı bacardığı ilə maraqlanır. Uşaqlardan biri skripka çalmağı bacarır. Müəllim həmin şagirddən bir musiqi nömrəsini ifa etməyi xahiş edir. Şagird ifa edir. Başqa bir şagird də alətdə ifa etmək istəyir, amma onda alınmır. Üçüncü şagird isə ona xoş gəlsin deyə, onun daha yaxşı ifa etməsini söyləyir.

**Köməkçi sual:** Sizcə, hər hansı bir işi bacarmayan adama yalandan "Sən bu işin əsl ustasısan" demək düzgündürmü?

**Tədqiqat sualı:** Başqasına xoş gəlmək üçün yalan söyləmək necə xüsusiyyətdir? Belə hərəkət etmək nə dərəcədə düzgündür?

**Tədqiqatın aparılması:** Tədqiqat dərslikdəki "Şahzadə və balaca çoban" mətnin oxusu üzərində işlə başlanır. Mətn oxudulur, tərcümə edilir. "Sözlük" və "Söz ehtiyatı"ndakı yeni sözlərin mənası izah edilir. Yeni öyrənilmiş sözlər və ifadələrin cümlələrdə işlədilməsi cütlərlə iş formasında aparılır. Sonra çalışmalar üzrə işə keçilir.

Çalışmalar üzərində iş qruplarla aparılsa, daha yaxşı olar:

1-ci qrup: çalışma № 1; 3.



Çap üçün deyil

2-ci qrup: çalışma № 1; 4.

3-cü qrup: çalışma № 1; 5.

Bu tapşırıqların təqdimatından və müzakirəsindən sonra müəllim bütün sinfə müraciət edir:

– Hər hansı bir məqamda yalan söyləmək olarmı? Əgər siz birinə xoş gəlmək üçün həqiqəti gizlətmişsinizsə, həmin hadisəni xatırlayın və yoldaşlarınıza danışın. Şagirdlərə düşünmək üçün vaxt verilir. Ən maraqlı əhvalat dinlənilir. Şagirdlər nə üçün bu cür hərəkət etmələri fikrini əsaslandırmağa çalışırlar. Danışarkən yol verilən nitq sahvlərinə düzəlişlər edilir. Öz fikrini düzgün şəkildə ifadə edən şagirdin cavabı qiymətləndirilə bilər.

Müəllim sonu "q" ilə yazılan sözlərlə bağlı qaydanı şagirdlərin yadına salmaq üçün tapmaca xarakterli sözlərlə onlara müraciət edir (Məsələn: saçımızı daradığımız əşya–?). Şagirdlərin cavabları əsasında qayda praktik yolla xatırladılır və bütün siniflə 6-cı çalışma şifahi şəkildə yerinə yetirilir. Deyilən sözlərin yazılışı ilə əlaqədar qaydanın praktik şəkildə mənimsədilməsi üçün əvvəlcə "Bunları bilirsinizmi?" rubrikasında olan məlumata diqqət cəlb edilir. Sonra 6-cı çalışma yazılı şəkildə icra edilir. Bu orfoqrafik qaydanın mənimsədilməsi çalışmalarla möhkəmləndirilir. Vaxt qalarsa, 2 və 7-ci çalışmalar şifahi şəkildə bütün siniflə aparıla bilər. Müəllim istəsə, həmin çalışmalar üzərində işi də qruplarla təşkil edə bilər. Ancaq bu zaman bütün qruplar eyni çalışma üzərində işləməlidir.

**Məlumat mübadiləsi:** Şagirdlər mətndəki şahzadənin həmişə tərifli sözlər eşidərək lovğa böyüdüyünü, hamıdan ağıllı olduğunu başqalarına sübut etmək istədiyini müzakirə edirlər. Lovğanın, özündən razılığın pis əlamət olduğu fikrinə gəlirlər.

**Nəticə:** Hansı məqamda olursa-olsun, insan həmişə düz danışmalıdır. Yersiz tariflər insanın xarakterini dəyişə, onu özündən razı hala sala bilər. "Doğru söz baş ucalığıdır" atalar sözü hamımıza örnək olmalıdır. Şərq müdriklərindən birinin belə bir kəlamı var: "Bacarmadığın bir işə görə səni təriflsəsələr, ələ salmış olarlar". Yalan tərifə aldanmayın!

**Yaradıcı tətbiqetmə:** Mətnin məzmunu əsasında "Lovğalıq yaxşı xüsusuyyət deyil" mövzusunda inşa yazmaq.

**Qiymətləndirmə:** Müvafiq cədvələ əsasən aparılır.

**Ev tapşırığı:** Mətnin məzmununu öyrənmək.

Çap üçün deyil

## DƏRS 27. ŞAHZADƏ VƏ BALACA ÇOBAN 2-ci hissə (1 saat)

| № | Gözlənilən təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Suallara cavab verir | 1.1.1 | Əd.-1.1.2.<br>X.d.-2.1.3. |
| 2 | Nitq prosesində jest və mimikalardan istifadə edir. | 2.1.2 | |
| 3 | Mətndə tanış olmadığı sözlərin mənasını lüğətlərdən istifadə etməklə müəyyənləşdirir. | 3.1.1 | A.t.-1.3.1.<br>H.b.-2.1.1. |
| 4 | Topladığı fakt və məlumatlara əsasən plan tərtib edir; | 4.1.2 | İn.-3.2.2. |

**Dərsin tipi:** İnduktiv.

**Dərsin forması:** Böyük və kiçik qruplarla iş.

**Dərsin üsulu:** Əqli hücum, müzakirə, təqdimat, sual-cavab.

**Resurslar:** Dərslik, dəftər, iş vərəqləri.

**Motivasiya:** Müəllim şagirdlərə belə bir əhvalat danışır: Məktəbimizdəki siniflərdən birində bir oğlan "əla" qiymətlərlə oxuyurdu. Müəllimləri onu yaxşı oxuduğuna və bilikli olduğuna görə çox tərifləyirdilər. O qədər ona inanırdılar ki, hətta bəzi təkrar mövzuları ondan soruşmadan da illik qiymət yazırdılar. Oğlan müəllimlərin tərifindən, ona olan rəğbətindən istifadə edərək özündən razı halda gəzir, sinif yoldaşları ilə hesablaşmır, lovğalanırdı. Get-gedə uşaqlar bu lovğa oğlandan kənar gəzməyə başladılar. Müəllimlərin ona olan etimadından sui-istifadə edən oğlan isə tədriclə dərslərinə də müntəzəm hazırlaşmır, həqiqi əlaçılıqdan uzaqlaşırdı. Beləliklə, o, sinifdə həm müəllimlərin, həm də şagirdlərin ona olan etibarını və hörmətini itirdi.

**Köməkçi sual:** 1.Sizcə, həmin şagird düzgün hərəkət etmişdi? Onun hörmətdən düşməsinə səbəb nə idi?

2. Əgər dostlarınızdan biri sizin səhv hərəkətinizi üzünüzə desə, ondan razı qalardınız, yoxsa inciyərdiniz?

**Tədqiqat sualı:** Siz kimi özünüzə əsl dost hesab edərdiniz: sözün düzünü üzünüzə deyəni, yoxsa sizi yalandan tərifləyənləri?

**Tədqiqatın aparılması:** Müəllim şagirdləri 3 qrupa bölüb iş vərəqləri paylayır. Hər iş vərəqində şagirdləri düşünməyə sövq edən suallar yazılıb.

<u>1-ci iş vərəqinin sualı:</u> Sözü qorxmadan üzə demək necə hərəkətdir? Belə adamlara münasibətiniz necə olar?

<u>2-ci iş vərəqinin sualı:</u> Lovğalıq nədir, onu necə başa düşürsünüz? Özündən razı olan adamlara münasibətiniz necədir?

<u>3-cü iş vərəqinin sualı:</u> Yaltaq adamlara və yalan danışanlara münasibətiniz necədir?

Şagirdlər bu suallar ətrafında düşünüb təqdimatlar hazırlayırlar.

Təqdimatlar dinlənilir. RNİ üzərində iş aparılır.

"Şahzadə və balaca çoban" mətninin 2-ci hissəsi oxutdurulur. Məzmunu üzərində iş aparılır. "Sözlük" və "Söz ehtiyatı"ndakı sözlərin mənası mənimsədilir. Sinifdə



Çap üçün deyil

çalışma 8, 10, 11 şifahi, çalışma № 9 yazılı şəkildə yerinə yetirilir. Şagirdlərin söz ehtiyatını artırmaq məqsədi ilə dərslikdəki çalışma №13 yerinə yetirilir. Müəllim çalışma 12 və 13 üzərində işi qruplarla da apara bilər.

**Məlumat mübadiləsi:** Şagirdlər oxuduqları mətndən öyrəndilər ki, yalandan bir başqasına xoş gəlmək məqsədilə onu tərifləmək, bacarıqsız olduğun halda, bacarıqlı olduğunu demək yanlış hərəkətdir. Balaca çoban kimi həmişə sözün düzünü demək insana hörmət gətirər. "Həyatda ləyaqətli yaşamaq üçün "yalan"dan uzaq olmaq, həmişə doğru danışmaq, sözün düzünü demək lazımdır" fikri üzərində fikir mübadiləsi aparılır.

**Nəticə:** Cəmiyyətin doğru danışan, düzgün əməlləri ilə başqalarına nümunə insanlara ehtiyacı vardır. Doğru danışmaqla çox insanları bəladan qurtarmaq olar. Özündən razı, lovğa adamlar cəmiyyətimizi öz davranışları ilə korlayırlar. Şagirdlər də çalışmalıdırlar ki, həmişə düzgün danışsınlar, heç vaxt müəllimlərini, valideynlərini aldatmasınlar. Sinif yoldaşlarından birində özündən razılıq hissi yaranarsa, ona həqiqəti desinlər, yalandan üzünə tərifləməsinlər. Başa düşsünlər ki, birinin yanlış hərəkətini vaxtında onun üzünə deməklə, yalanın üstünü açmaqla kimisə sonrakı faciələrdən qurtarmaq olar.

**Yaradıcı tətbiqetmə:** "Yalançı dostun olunca, yaman düşmənin olsun" atalar sözünə münasibətinizi yazılı şəkildə bildirin.

**Qiymətləndirmə:** Müvafiq cədvələ əsasən aparılır.

**Ev tapşırığı:** Mətnin məzmununu danışmaq, "Sözlük"dəki sözlərə aid cümlələr yazmaq.

## DƏRS 28. TANIŞLIQ (1 saat)

| № | Gözlənilən təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Dinlədiyi mətndəki əsas fikri müəyyənləşdirir. | 1.1.2 | Əd.-1.3.3. |
| 2 | Nitq prosesində sait və samitləri düzgün tələffüz edir. | 2.1.1 | A.t.-1.3.1.<br>H.b.-2.1.1. |
| 3 | Mətndə tanış olmadığı sözlərin mənasını lüğətlərdən istifadə etməklə müəyyənləşdirir. | 3.1.1 | İn.-3.2.2.<br>X.d.-2.1.2. |
| 4 | Sait və samitlərin, mürəkkəb sözlərin yazılış qaydalarına, cümlənin sonunda və dialoqlarda durğu işarələri qaydalarına əməl edir. | 4.1.3 | |

**Dərsin tipi:** İnduktiv.
**Dərsin forması:** Böyük və kiçik qruplarla iş.
**Dərsin üsulu:** Beyin həmləsi, təqdimat, müzakirə.
**Resurslar:** Dərslik, dəftər, iş vərəqləri, şəkillər.
**Motivasiya:** Müəllim lövhədən 2 şəkil asır. 1-ci şəkildə yanındakı oğlanın



Çap üçün deyil

badalaq vurması nəticəsində yıxılan qız, o birində isə yıxılan qıza kömək edən, onu qaldırmağa cəhd edən oğlan şəkli təsvir olunmuşdur (Müəllim bunu rollu oyun vasitəsilə də təşkil edə bilər).

**Yardımçı sual:** Bu oğlanlardan hansı düzgün hərəkət edir?

**Tədqiqat sualı:** İnsanın tərbiyəli olması onun hərəkətlərindən hiss olunurmu? Özündən kiçikləri incitmək tərbiyəsizlik hesab oluna bilər, ya yox?

**Tədqiqatın aparılması:** Müəllim şagirdləri 3 qrupa bölür. Hər qrupa suallar yazılmış iş vərəqləri paylayır.

1-ci iş vərəqinin sualı: Uşaqlar ədəbli olmağı necə və harada öyrənməlidirlər?

2-ci iş vərəqinin sualı: Adətən, ədəbsiz insanlara münasibət necə olur?

3-cü iş vərəqinin sualı: Əgər məktəbdəki uşaqlar bir-birləri ilə pis davranarlarsa, məktəbdə oxumaq maraqlı olarmı?

Qrupların cavabları dinlənilir. Ən yaxşı cavab fəqrləndirilir. Qruplar bir-birlərinin cavablarını qiymətləndirə bilərlər.

Tədqiqat dərslikdəki "Tanışlıq" mətni üzərində davam etdirilir. Oxu prosesində şagirdlərin düzgün intonasiya ilə və orfoepik tələblərə əməl etməklə oxumalarına diqqət yetirilir. Yeni söz və ifadələr cümlələrdə işlədilməklə mənimsədilir. Sonra çalışmalar üzrə işə keçilir. Dərslikdəki 1-ci, 2-ci və 4-cü çalışmalar üzərində işi həm qruplarla, həm də bütün siniflə təşkil etmək olar. Qruplarla işləyərkən qrupların hər biri çalışmaların hər üçü üzərində araşdırma aparır və təqdimat hazırlayır. Ola bilər ki, sinfin səviyyəsindən asılı olaraq, müəllim çalışmaların hərəsini bir qrupa tapşıra bilər. Bütün bunlar müəllimin məsələyə yanaşmasından asılıdır. 3, 6 və 7-ci çalışmalar dilin qrammatik quruluşunun mənimsədilməsi ilə bağlı bacarıqların təkmilləşdirilməsini nəzərdə tutduğundan bu çalışmaların yazılı icra edilməsi məqsədəuyğun olar. Müəllimin tövsiyəsi ilə qruplardan hər biri bir çalışma üzərində işləyir:

1-ci qrup: çalışma № 3.

2-ci qrup: çalışma № 6.

3-cü qrup: çalışma № 7.

Təqdimatlar nəzərdən keçirilir, nöqsanlar varsa, düzəldilir, izahat işi aparılır.

Dərslikdəki 5 №-li çalışma şifahi olaraq yerinə yetirilir.

**Məlumat mübadiləsi:** Mətndə təsvir edilən hadisənin iştirakçılarına aid xüsusiyyətlər təhlil edilir. Qasımın dəcəl, böyüklərin sözünə baxmayan bir oğlan olduğu, balacaları da incitdiyi haqqında şagirdlərin fikirləri dinlənilir. Dəcəl uşaqların sinifdə özlərini aparmalarına, məktəbdəki bəzi uşaqların intizamsız hərəkətlərinə 5-ci çalışma üzərindəki müzakirədən çıxış edərək münasibət bildirilir. Şagirdlər məktəb daxilində və məktəbdənkənar yerlərdə nizam-intizam qaydaları barədə müzakirə aparır, fikirlərini bölüşürlər.

**Nəticə:** Başqalarını, xüsusən yaşca özündən kiçik olanları incitmək, ətrafdakıları narahat etmək ədəbsizlikdir. Əgər məktəbyaşlı bir uşaq bunu edir və heç kimin tərbiyəvi sözlərini eşitmək istəmirsə, bu, çox pis haldır. Səhvini başa düşən, intizamsızlıq etməyin insanlara zərər gətirdiyini dərk edən uşaqlarla isə dostluq münasibəti yaratmaq da olar. Çünki səhvini başa düşüb etiraf edən şəxs gələcəkdə



Çap üçün deyil

ləyaqətli insan ola biləcəkdir.

**Yaradıcı tətbiqetmə:** Tərbiyəvi mövzuda atalar sözləri toplamaq

**Qiymətləndirmə:** Müvafiq cədvələ əsasən aparılır.

**Ev tapşırığı:** Mətnin məzmununu öyrənmək, sinif yoldaşları ilə birlikdə mətnin məzmununu səhnələşdirmək. "İgid ağzını açmaz, əlini açar" atalar sözünün mənasını izah etmək.

## DƏRS 29. DÖRD ARZU (1 saat)

| № | Gözlənilən təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Dinlədiyi mətndəki əsas fikri müəyyənləşdirir. | 1.1.2 | Əd.-2.2.1. X.d.-4.1.2. |
| 2 | Deyəcəyi əsas fikri müəyyənləşdirir. | 2.1.4 | A.t.-2.1.1. |
| 3 | Mətndəki əsas fikrə uyğun fakt və hadisələri müəyyənləşdirir. | 3.1.3 | İn-1.2.3. H.b.-4.1.1. |
| 4 | Sait və samitlərin, mürəkkəb sözlərin yazılış qaydalarına, cümlənin sonunda və dialoqlarda durğu işarələri qaydalarına əməl edir. | 4.1.3 | |

**Dərsin tipi:** İnduktiv.

**Dərsin forması:** Kiçik və böyük qruplarla iş.

**Dərsin üsulu:** Beyin həmləsi, müzakirə, təqdimat.

**Resurslar:** Dərslik, dəftər, şəkillər.

**Motivasiya:** Müəllim lövhədən 4 şəkil asır. Hər şəkildə müəyyən bir fəsil təsvir olunub.

**Köməkçi sual:** 1. Dörd rəqəmi ilə hansı hadisələri əlaqələndirirsiniz?
2. Bu şəkillər nə barədə söhbət gedəcəyindən xəbər verir?

**Tədqiqat sualı:** Görəsən, niyə hər birimiz ayrı-ayrı fəsilləri daha çox sevirik? Bu barədə düşünmüsünüzmü? Bütün il uzunu yalnız bir fəsil olsa, həyat maraqlı olarmı?

**Tədqiqatın aparılması:** Müəllim sinfi 4 qrupa bölür və hər qrupu bir fəslin adı ilə adlandırır: qış, yaz, yay, payız. Qrupun üzvlərinə təmsil etdikləri fəslin xüsusiyyətlərini yazmaq tapşırılır. İş vərəqləri paylanır. Şagirdlər fikirlərini yazırlar.

Təqdimatlar dinlənilir. Cavablarda olan nitq səhvləri düzəldilir. Maraqlı cavablar fərqləndirilir.

Bu mərhələdən sonra "Dörd arzu" mətni üzərində iş aparılır. Oxu prosesində şagirdlərin düzgün intonasiya və orfoepik tələblərə əməl etməklə oxusuna diqqət yetirilir. Yeni söz və ifadələr cümlələrdə işlədilməklə mənimsədilir. Sonra çalışmalar üzrə işə keçilir.

Sinifdə dərslikdəki 9, 13, 14-cü çalışmalar qruplarla şifahi şəkildə yerinə yetirilir.

Yerinə yetirilmiş çalışmaların təqdimatından sonra dərslikdə verilmiş:

Çap üçün deyil

Üçü bizə yağıdır,
Üçü cənnət bağıdır,
Üçü yığıb gətirir
Üçü vurub dağıdır – tapmacasının cavabı və məzmunu üzərində iş aparılır.

“Bunları bilirsinizmi?” rubrikasındakı “Sifət” haqqındakı sadə məlumat praktik şəkildə şagirdlərə mənimsədilir. Məlumatı möhkəmləndirmək məqsədilə 15, 16, 17, 19-cu çalışmalar qruplarla yazılı şəkildə icra edilir:

1-ci qrup: çalışma № 15; 19.
2-ci qrup: çalışma № 16; 19.
3-cü qrup: çalışma № 17; 19.

**Məlumat mübadiləsi:** “Yaxşı il baharından məlum olar” atalar sözü təhlil edilir. Şagirdlər bu barədə fikirlərini müzakirə edirlər. “Dörd karandaş” şeirinin məzmunu üzərində fikir mübadiləsi aparılır.

**Nəticə:** İlin bütün fəsilləri gözəldir. Hər fəslin günləri həyatımızın bir parçasıdır. Heç biri o birisinə bənzəmir. İnsan yaşadığı müddətdə bütün fəsillərin gözəlliyini və ya ağrı-acısını duyur. Əgər ilin bütün günləri qış kimi, yaxud da yay kimi keçsə idi, onda hər şey maraqsız olardı. Ana təbiət insanları düşünüb və onların həyatını rəngarəng etmək üçün fəsilləri yaradıb. Təbiətin bir parçası olan insanlar da müxtəlif xasiyyətli, xarakterlidir. Görünür, hər bir insan öz ruhuna, təbiətinə yaxın olan fəsli sevir, həmin fəsildə özünü yaxşı hiss edir.

**Yaradıcı tətbiqetmə:** “Sən nə yamansan, a buz”, yaxud “Bahar, qoy suların gurhagur axsın..” mövzularından biri üzrə (başlıqlı) inşa yazmaq.

**Qiymətləndirmə:** Müvafiq cədvələ əsasən aparılır.

**Ev tapşırığı:** İlin fəsillərinə aid atalar sözləri, tapmacalar tapıb öyrənmək.

## DƏRS 30. QIŞIN SOVQATI (1 saat)

| № | Gözlənilən təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Dinlədiyi mətndəki əsas fikri müəyyənləşdirir. | 1.1.2 | Əd.-2.1.1. |
| 2 | Deyəcəyi əsas fikri müəyyənləşdirir. | 2.1.4 | A.t.-1.3.1. |
| 3 | Mətndəki əsas fikrə uyğun fakt və hadisələri müəyyənləşdirir. | 3.1.3 | H.b.-4.1.1. |
| 4 | Sait və samitlərin, mürəkkəb sözlərin yazılış qaydalarına, cümlənin sonunda və dialoqlarda durğu işarələri qaydalarına əməl edir. | 4.1.3 | İn.-3.2.3. |

**Dərsin tipi:** İnduktiv.
**Dərsin forması:** Kiçik və böyük qruplarla iş.
**Dərsin üsulu:** Beyin həmləsi, müzakirə, təqdimat, sual-cavab.



Çap üçün deyil

**Resurslar:** Dərslik, İş dəftəri, elektron lövhə, proyektor (bunlar olmasa şəkil).

**Motivasiya:** Müəllim proyektoru işə salır. Şagirdlər elektron lövhədə 1-ci videogörüntüdə qış mənzərəsinə tamaşa edirlər. Qar dənəciklərinin aramla torpağın üzərinə düşməsinə, Yer üzünün ağappaq qarla örtülməsinə tamaşa edirlər. 2-ci videogörüntüdə isə yaz fəslinin mənzərəsi, torpağın canlanması, quşların cəh-cəh səsi nümayiş etdirilir. 3-cü dəfə isə müəllim bol nemətlərin təsviri verilmiş slayd nümayiş etdirir. (Bunlar olmasa mənzərələrin şəkli də verilə bilər).

**Köməkçi sual:** 1.Bu gördükləriniz arasında hansı əlaqə ola bilər?
2. Nə üçün əvvəl qış fəslinin təsviri verildi?

**Tədqiqat sualı:** Sizcə, qışın digər fəsillərə təsiri nədən ibarətdir? “Sovqat” sözünün mənasını bilirsinizmi? Qış insanlara sovqat gətirə bilərmi?

**Tədqiqatın aparılması:** Şagirdlər verilən suallar ətrafında fikirləşməyə başlayırlar. Müəllim onları 3 qrupa ayıra bilər. Hər qrupa tədqiqat aparmaq üçün suallar yazılmış iş vərəqləri paylayır.

1-ci iş vərəqinin sualı: Qış fəsli bolluq, bərəkətli il olacağını xəbər verə bilərmi?

2-ci iş vərəqinin sualı: Qış fəslində insanlar isti ölkələrə hər hansı bir səbəbdən uça bilməyən köçəri quşlara necə qayğı göstərə bilər?

3-cü iş vərəqinin sualı: Qış fəsli ən çox nə ilə insanların yadında qalır?

Şagirdlərin nitq səhvlərində düzəlişlər aparılır. Ən yaxşı təqdimat müəllim tərəfindən fərqləndirilir. Hər qrupun işi özləri və yoldaşları tərəfindən qiymətləndirilir.

Dərslikdəki “Qışın sovqatı” şeiri oxutdurulur. “Sözlük” və “Söz ehtiyatı”ndakı sözlər üzərində iş aparılır. Şagirdlər şeirin məzmununu öz sözləri ilə danışırlar. Sinifdə çalışma № 1, 3, 4, 5, 6, 7 şifahi, 8, 9, 10-cu çalışmalar isə qruplarla iş formasında yazılı şəkildə yerinə yetirilir. Bu çalışmaların hər üçü əlamət bildirən sözlərlə bağlı dil materiallarını təkrar etdirmək məqsədi daşıyır.

**Məlumat mübadiləsi:** Şagirdlər “Qışın qarı – yayın barı” atalar sözü haqqında mülahizələrini bildirir, şeirin məzmunu ilə atalar sözünün mənasını arasındakı əlaqəni müzakirə edirlər.

**Nəticə:** Qış fəsli ən soyuq, ən sərt fəsil olsa da, biz onu məhsuldar adlandıra bilərik. Çünki qış fəslində torpağın aldığı bol su qar şəklində ona yayacan kifayət edir. Torpağın məhsuldar, canlı olmasına şərait yaradır. Ona görə də təsadüfi deyil ki, atalarımız “Qışın qarı – yayın barı” demişlər. Hər bir ildə məhsulun bol olması qışın necə keçməsindən də asılıdır. Əgər qışda bolluca qar yağarsa, həmin il bol məhsul gözlənilir. Odur ki, bol məhsuldan xəbər verən qar qışın insanlara sovqatı hesab olunur.

**Yaradıcı tətbiqetmə:** Qış fəsli haqqında başqa atalar sözləri tapmaq.

**Qiymətləndirmə:** Müvafiq cədvələ əsasən aparılır.

**Ev tapşırığı:** Şeirin bir hissəsini əzbərləmək. “Sözlük”dəki sözlərə aid bir neçə cümlə yazmaq.

Çap üçün deyil

## DƏRS 31. BÖYÜK SUMMATİV QİYMƏTLƏNDİRMƏ (1 saat)

| № | Gözlənilən təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Suallara cavab verir. | 1.1.1 | |
| 2 | Müzakirə olunan mövzu ilə bağlı mülahizələrini bildirir. | 2.1.3 | Əd. -3.1.2. |
| 3 | Mətndəki sözləri orfoepik qaydalara uyğun oxuyur. | 3.1.2 | |
| 4 | Mətndəki əsas fikrə uyğun fakt və hadisələri müəyyənləşdirir | 3.1.3 | İn.-3.2.2. |
| 5 | Müxtəlif yazı formalarını fərqləndirir. | 4.1.1 | X.d.-3.1.4. |
| 6 | Sait və samitlərin, mürəkkəb sözlərin yazılış qaydalarına, cümlənin sonunda və dialoqlarda durğu işarələri qaydalarına əməl edir. | 4.1.3 | |

**Dərsin forması:** Böyük qruplarla iş.
**Tədqiqat sualı:** Birinci yarımil ərzində öyrəndiklərinizi necə xatırlayırsınız?
**Tədqiqatın aparılması:**

### BÖYÜK SUMMATİV QİYMƏTLƏNDİRMƏ №1
### QONAQ

Tahir anası ilə kəndə, xalasıgilə qonaq gəlmişdi. Kəndin çox gözəl vaxtı idi. Xüsusən yay fəsli olduğundan çiçəklərin ətri, quşların cəh-cəhi adamı ________ . Ağacların budaqları meyvələrin ağırlığından əyilib az qala yerə dəyirdi.

Kənd həyatı Tahirin çox xoşuna gəlmişdi. O, xalası uşaqları ilə bağda meyvə dərir, çaya çimməyə gedir, rəngbərəng kəpənəklər tuturdu. Tahir uzun bir kəndir tapıb özü üçün yelləncək də qurmuşdu. Hava çox isti olanda ağacların sərin kölgəsində uşaqlar yellənirdi.

**1. Mətnə hansı sualı vermək olmaz?**

a) Tahir kənddə nə işlə məşğul olurdu?
b) Tahir kəndirdən necə istifadə etdi?
c) Hansı meyvə ağacı bar gətirmişdi?
d) Yelləncəkdə kim yellənirdi?
e) Tahir hansı fəsildə kəndə qonaq gəldi?

**2. Mətnin I abzasında neçə düzəltmə söz gizlənmişdir?**

a) 3 b) 2 c) 1 d) 4 e) 5

**3. Mətndə işlənmiş hansı sözü ip sözü ilə əvəz etmək olar?**

a) vaxt b) fəsil c) rəngarən d) kəndir e) kölgə

**4. Rus dilində verilmiş sözlərin mənalarına uyğun gələn ifadələrdən hansı düz işlənməmişdir?**

a) От тяжести плодов- meyvələrin ağırlığından
b) Разноцветные бабочки- rəngbərəng kəpənəklər
c) Пение птиц – quşların cəh-cəhi

Çap üçün deyil

d) Длинная веревка- uzun ip
e) Холодный день – sərin kölgə

**5. Mətndəki ağ boşluqda hansı ifadəni yazmaq olar?**
a) təəccübləndirirdi
b) heyran edirdi
c) kədərləndirirdi
d) sevindirirdi
e) ürəyini sıxırdı

**6. İnsan anlayışını bildirən düzəltmə isim hansı variantdadır?**
a) xalamgil b) Tahir c) anası d) uşaqlarla e) qonaq

**7. Bu sözlərdən biri xüsusi isim kimi də işlənə bilər.**
a) quş b) çiçək c) kəpənək d) meyvə e) kölgə

**8. Hansı söz isim deyil?**
a) özü b) yelləncək c) ağırlıq d) kəpənək e) həyat

**9. Altından xətt çəkilmiş şəkilçilərin düzgün ardıcıllığını göstərin.**
a) Yerlik, yiyəlik, yönlük, çıxışlıq
b) Çıxışlıq, yönlük, yerlik, yiyəlik
c) Mənsubiyyət, yerlik, yönlük, yiyəlik
d) Yiyəlik, mənsubiyyət, təsirlik, yiyəlik
e) Yönlük, yerlik, mənsubiyyət, yiyəlik

**10. "Salaməleyküm" sözünün qarşılığında hansı sözü işlətmək lazımdır?**
a) Xoş gördük
b) Necəsiz
c) Əleyküməssalam
d) Sağ olun
e) Xudahafiz

**1. §1-8 ad, əlamət, miqdar, hərəkət-nitq hissələri, isim- sualları, insan, camlı, cansız yer.**
Tək, cəm-lar,lər
Ümumi, xüsusi, böyük hərflə yer.
Hal şəkilçiləri haqda

**2.§ 9-15**
sonu q-nın ğ ya keçməsi.
Hallar və şəkilçiləri, sualları
Sonu k-nın y-ya keçnməsi
Sifət əlamət və keyfiyyət bildirir.

**3. §16-25**
Zahiri görünüş: rəng, ölşü, forma, həcm, keyfiyyət gözlə görünməyən daxili xüsusiyyətlət.
əlamət və keyfiyyət
miqdar və keyfiyyət
say, suallar.

Çap üçün deyil

**4. § 26-31**
əvəzlik: şəxs, işarə, sual
o, bu,-vergülün qoyulması
5. İllik

## DƏRS 32. TƏZƏ İLDƏ (1 saat)

| № | Gözlənilən təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Suallara cavab verir. | 1.1.1 | A.t.-1.2.2. |
| 2 | Müzakirə olunan mövzu ilə bağlı mülahizələrini bildirir. | 2.1.3 | Mus.-2.3.1. |
| 3 | Mətndəki sözləri orfoepik qaydalara uyğun oxuyur. | 3.1.2 | Əd.-2.2.3. |
| 4 | Sait və samitlərin, mürəkkəb sözlərin yazılış qaydalarına, cümlənin sonunda və dialoqlarda durğu işarələri qaydalarına əməl edir. | 4.1.3 | İn.-3.2.2.<br>H.b.-3.2.1. |

**Dərsin tipi:** İnduktiv.
**Dərsin forması:** Böyük qrupla iş.
**Dərsin üsulu:** Əqli hücum, təqdimat, müzakirə.
**Resurslar:** Dərslik, dəftər, proyektor, kompyuter, mahnı diski.
**Motivasiya:** Müəllim "Yeni il gəlir" mahnısını səsləndirir. Şagirdlər sinfə daxil olduqca bu mahnının sədaları altında yerlərinə əyləşirlər.
**Köməkçi sual:** Mahnının sözləri sizə nəyi xatırladır?
Cavablar dinlənilir.
Mahnı bitdikdən sonra elektron lövhədə Yeni ilin atributlarının təsviri göstərilir. Onların içində Yeni ilə aid olmayan bəzi əşyaların da təsviri verilib (Məsələn, bəzənmiş küknar ağacı, oyuncaqlar, Şaxta baba, Qar qız, hədiyyə torbasının şəkilləri içərisində Yeni ilə aid olmayan səməni, şəkərbura, paxlava, Novruz xonçası, tonqal və s. şəkillər də verilir.)
**Tədqiqat sualı:** Şəkildə gördüklərinizin eşitdiyiniz mahnı ilə nə əlaqəsi var? Şəkillərdən hansının Yeni illə əlaqəsi yoxdur? Bunlar hansı bayramın atributlarıdır?
**Tədqiqatın aparılması:** Müəllim sinfə belə bir təkliflə müraciət edir: "Təzə ildən nə gözləyirsiniz? Fikirlərinizi bir neçə cümlə ilə təqdim edin".
Şagirdlər işə başlayırlar. Təqdimatlar hazır olduqdan sonra müəllim onları dinləməyə hazır olduğunu bildirir. Təqdimatlar dinlənildikcə, şagirdlər də əlavələrini edə bilərlər. Ən yaxşı təqdimat fərqləndirilir. Şagirdlər bir-birlərini qiymətləndirə bilərlər.
İ.Tapdığın "Təzə ildə" şeiri ifadəli oxutdurulur. Şeirin məzmununu şagirdlərdən biri nəsrə çevirərək danışır. "Sözlük" və "söz ehtiyatı"ndakı sözlər mənimsədilir. Sinifdə dərslikdəki 1, 3 nömrəli çalışmalar şifahi; 4, 5 isə yazılı şəkildə yerinə yetirilir.



Çap üçün deyil

“Bunları bilirsinizmi?” bölməsindəki məlumatlar praktik yolla mənimsədilir. Məlumatı möhkəmləndirmək məqsədilə dərslikdəki 7, 8 nömrəli çalışmalar icra edilir.

**Məlumat mübadiləsi:** “Qarlı qış barlı olar” atalar sözünün mənası müzakirə edilir. Hər təzə il gəldikdə insan qəlbinin yeniləşməsi, gələcəyə ümidlə baxmaq inamının artması fikirləri üzərində mübadilə aparılır.

**Nəticə:** İnsan üzünə doğan hər bir günün qədrini bilməlidir. Ömrün nurlu səhərləri, hər günün isə öz zəfəri olur. Yeni hər günümüz bizim üçün hansısa bir işin başlanğıcıdır. Ümid etməliyik ki, təzə il Vətənimizin qüdrətini daha da artıracaq, xoş niyyətlər tezliklə həyata keçəcəkdir.

**Yaradıcı tətbiqetmə:** İnternetdən istifadə edərək müxtəlif ölkələrdə (hər şagird bir ölkədə) yeni ilin qarşılanması adəti-ənənəsi üzrə təqdimat hazırlamaq.

**Qiymətləndirmə:** Müvafiq cədvəllərdən birinə əsasən aparılır.

**Ev tapşırığı:** Dərslikdəki “Təzə ildə” şeirinin əzbər öyrənilməsi, 6 nömrəli çalışmanı yerinə yetirmək.

## DƏRS 33. GÖYƏRÇİN VƏ QARIŞQA (1 saat)

| № | Gözlənilən təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Dinlədiyi mətndəki əsas fikri müəyyənləşdirir. | 1.1.2 | Əd.- 1.2.2.<br>X.d.-2.1.1. |
| 2 | Müzakirə olunan mövzu ilə bağlı mülahizələrini bildirir. | 2.1.3 | A.t.-1.3.1. |
| 3 | Mətndə tanış olmadığı sözlərin mənasını lüğətlərdən istifadə etməklə müəyyənləşdirir. | 3.1.1 | İn.-3.3.2.<br>H.b.-1.2.1. |
| 4 | Sait və samitlərin, mürəkkəb sözlərin yazılış qaydalarına, cümlənin sonunda və dialoqlarda durğu işarələri qaydalarına əməl edir. | 4.1.3 | |

**Dərsin tipi:** İnduktiv.

**Dərsin forması:** Cütlərlə iş, böyük qrupla iş.

**Dərsin üsulu:** Beyin həmləsi, müzakirə.

**Resurslar:** Dərslik, dəftər.

**Motivasiya:** Müəllim sinfə belə bir atalar sözü ilə müraciət edir: “Yaxşılıq yerdə qalmaz.”

**Köməkçi sual:** Bu atalar sözünün mənasını izah edə bilərsinizmi?

Şagirdlərin cavabları dinlənilir.

**Tədqiqat sualı:** Bu atalar sözünü hansı məqamlarda işlətmək olar?

**Tədqiqatın aparılması:** Müəllim şagirdlərə cütlərlə işləməyi tövsiyə edir. Hər cütə tapşırır ki, həyatda rastlaşdıqları elə bir hadisəni təsvir etsinlər ki, bu atalar

Çap üçün deyil

sözünün işlədilməsi mümkün olsun. Şagirdlər işləməyə başlayırlar. Cütlər müxtəlif hadisələri nəql edirlər. Elə etməlidirlər ki, söylədikləri hadisənin sonu həmin atalar sözü ilə bitsin. Müəllim onların nitqlərinə, fikirlərini ifadə etmək bacarığına nəzarət edir. Onların cavablarını istiqamətləndirir. Ən yaxşı cavablar qiymətləndirilir.

Dərslikdəki "Göyərçin və qarışqa" mətni üzərində iş aparılır. Dilin lüğət tərkibinin mənimsənilməsi üçün dərslikdəki "Sözlük" və "Söz ehtiyatı" üzərində iş aparılır. Mətnin məzmununun mənimsədilməsi üçün dərslikdəki çalışma 1, 2, 3, 4, 6, 7 nömrəli çalışmalar icra edilir. Dil materiallarını möhkəmlətmək məqsədilə dərslikdəki 8, 9 nömrəli çalışmalar yazılı şəkildə yerinə yetirilir.

**Məlumat mübadiləsi:** Şagirdlər göyərçinlə qarışqanın dostluq tarixçəsini müzakirə edirlər. Yaxşılığın yerdə qalmadığı fikrini təsdiq edirlər. "Yaxşı dost yaman gündə tanınar" atalar sözünün də bu mətnin məzmunu ilə bağlılığı müzakirə edilir.

**Nəticə:** Hər kəs həyatında başqalarına yaxşılıq etməyi bacarmalıdır. Hamının əməli yaxşılığa yönəlsə, yaşamaq da mənalı olar.

Yaxşılığa yaxşılıq hər kişinin işidir,
Yamanlığa yaxşılıq ər kişinin işidir.

**Yaradıcı tətbiqetmə:** Başqasına yaxşılıq etmək barədə bədii ədəbiyyatdan hansı əsərləri oxumusunuz (rus dilində və xarici ədəbiyyatdan da olar)? Bu barədə danışın.

**Qiymətləndirmə:** Müvafiq cədvələ əsasən aparılır.

**Ev tapşırığı:** Mətnin məzmununu öyrənmək.

## DƏRS 34. ƏSL DOST (1 saat)

| № | Gözlənilən təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Dinlədiyi mətndəki əsas fikri müəyyənləşdirir. | 1.1.2 | A.d.- 2.2.2. |
| 2 | Müzakirə olunan mövzu ilə bağlı mülahizələrini bildirir. | 2.1.3 | A.t.-1.3.1. |
| 3 | Mətndəki sözləri orfoepik qaydalara uyğun oxuyur. | 3.1.2 | H.b-3.2.1. |
| 4 | Sait və samitlərin, mürəkkəb sözlərin yazılış qaydalarına, cümlənin sonunda və dialoqlarda durğu işarələri qaydalarına əməl edir. | 4.1.3 | İn.-3.3.2 |

**Dərsin tipi:** İnduktiv.
**Dərsin forması:** Cütlərlə və böyük qrupla iş.
**Dərsin üsulu:** Beyin həmləsi, müzakirə, təqdimat.
**Resurslar:** Dərslik, dəftər, iş vərəqləri.
**Motivasiya:** Müəllim lövhəyə boş dairə şəkli çəkir. Dairənin kənarında dairənin içərisində yazılacaq sözü izah edən köməkçi cümlələr yazır.

Çap üçün deyil

1. Sənə hər zaman kömək edir;
2. Səni hamıdan yaxşı başa düşür;
3. Hər bir sirrini ona danışa bilərsən;
4. Həmişə onunla olmaq sənin üçün maraqlıdır.

**Köməkçi sual:** – Bu dairədə hansı söz yazıla bilər?

Uşaqlar düşünüb "dost" sözünü tapırlar.

**Tədqiqat sualı:** "Dost" sözü sizin üçün nə deməkdir? Bu sözü eşitdikdə hansı hisləri keçirirsiniz? "Dostunu mənə de, sənin kim olduğunu deyim" atalar sözü nəyə işarədir?

**Tədqiqatın aparılması:** Müəllim cütlərlə iş aparır. Sinifdəki şagirdlərin sayına görə cütlüklər ayırıb, onlara fərdi iş tapşırır. Hər cütlüyə eyni mövzuda tapşırıq verir: Hərə öz dostunu təsvir etsin. "Dostumun mənim həyatımda yeri" haqqında təqdimat hazırlamaq. Cütlər bu tapşırıq əsasında iş aparır, öz mülahizələrini əsaslandırmağa çalışırlar. Müəllim onların cavablarını dinləyir, nitq səhvlərində düzəlişlər aparır. Ən yaxşı təqdimatlar fərqləndirilir.

Dərslikdəki "Əsl dost" mətni rollar üzrə oxutdurulur. Məzmunu üzərində iş aparılır. Sinifdə dərslikdəki 1, 3, 4 nömrəli çalışmalar şifahi, 2, 5, 6 nömrəli çalışmalar yazılı şəkildə yerinə yetirilir. Mətndəki oğlanın nəyi əsl dost adlandırmasının səbəbi açıqlanır. Mətnin mövzusunun Azərbaycanın işğal olunmuş bölgələrindən birində baş verən hadisə ilə bağlı olduğu məlum olur. "Sözlük" və "Söz ehtiyatı"ndakı sözlər mənimsədilir.

**Məlumat mübadiləsi:** Şagirdlər mətndən öyrənirlər ki, vaxtilə Elvinin əzizləyərək bəslədiyi göyərçin – Ciğalı əsl dosta çevrilib onu ölümdən qurtarır. Şagirdlər heyvanların və quşların da insanlara sədaqətli, vəfalı olduğuna əmin olurlar. "Təbiətdəki canlıları qorumaq lazımdır: onların insanlara faydası çoxdur" fikri də şagirdlər tərəfindən müzakirə edilir.

**Nəticə:** Dostluq böyük qüvvədir! Hətta heyvanlara və ya quşlara dostluq münasibəti göstərsən, əvəzsiz qalmaz. Bütün canlıların diqqətə və qayğıya ehtiyacı vardır. Torpaqlarımızı işğal etmiş mənfur qonşulardansa, şüursuz canlılar daha sədaqətlidir. Heç olmazsa, onlar yaxşılığın əvəzini qaytara bilirlər. Əgər göyərçin Ciğalının ayıqlığı olmasa idi, Elvin də qəddar düşmənlərin qurbanı ola bilərdi. Bizi əhatə edən canlı aləm diqqətdən kənarda qalmamalıdır. Hər bir uşaq heyvanlara və quşlara qayğı göstərməlidir. Çünki təbiət bizim ümumi evimizdir!

**Yaradıcı tətbiqetmə:** "Mənim balaca dostum" mövzusunda kiçik bir mətn fikirləşmək. Balaca dost ya ev heyvanı, ya da evdə bəslənilən hər hansı bir quş ola bilər. Əgər sizin "dostunuz" yoxdursa, bədii ədəbiyyatdan buna bənzər bir süjet seçib danışmaq olar.

**Qiymətləndirmə:** Şagirdlərin təqdimatları, şifahi və yazılı cavabları müvafiq cədvəllər üzrə qiymətləndirilir.

**Ev tapşırığı:** Mətnin məzmununu danışmaq, çalışma 7, 8 üzərində işləmək.

Çap üçün deyil

## DƏRS 35 ŞƏHİDLƏR XİYABANI (1 saat)

| № | Gözlənilən təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Dinlədiyi mətndəki əsas fikri müəyyənləşdirir. | 1.1.2 | A.d-2.2.1. X.d.-2.1.2. |
| 2 | Müzakirə olunan mövzu ilə bağlı mülahizələrini bildirir. | 2.1.3 | A.t.-4.1.2. |
| 3 | Mətndəki əsas fikrə uyğun fakt və hadisələri müəyyənləşdirir. | 3.1.3 | İn.-3.2.3. H.b.-2.2.1. |
| 4 | Sait və samitlərin, mürəkkəb sözlərin yazılış qaydalarına, cümlənin sonunda və dialoqlarda durğu işarələri qaydalarına əməl edir. | 4.1.3 | |

**Dərsin tipi:** İnduktiv.

**Dərsin forması:** Kiçik və böyük qruplarla iş.

**Dərsin üsulu:** Beyin həmləsi, müzakirə, təqdimat.

**Resurslar:** Dərslik, dəftər, elektron lövhə, proyektor, videoçarx, iş vərəqləri.

**Motivasiya:** Müəllim elektron lövhədə Şəhidlər Xiyabanı təsvir edilmiş videoçarxı təqdim edir. (Əgər elektron lövhə yoxdursa, lövhədən Şəhidlər Xiyabanı təsvir edilmiş şəkil asmaq da olar).

**Köməkçi sual:** Bu şəkildə hara təsvir edilib?

Şagirdlər cavab verirlər. Müəllim şagirdlərin sözləri düzgün tələffüz etmələrinə diqqət edir.

**Tədqiqat sualı:** Deyə bilərsinizmi, şəhərimizin ən hündür yerində niyə əbədi məşəl yanır? Onun tarixi haqqında nə bilirsiniz? Hər bir sinfə aid dərsliklərinizdə müəyyən mövzular Şəhidlər Xiyabanına, 20 Yanvar şəhidlərinə həsr olunur. Necə düşünürsünüz, bu materiallar verilməsə, biz tariximizi unutmarıq ki?

**Tədqiqatın aparılması:** Müəllim qruplar üçün suallar yazılmış iş vərəqləri hazırlayır. Sinfi 4 qrupa bölür. İş vərəqləri paylanır.

<u>1-ci iş vərəqinin tapşırığı:</u> Şəhidlər Xiyabanı haqqında nə bilirsiniz? Yazın.

<u>2-ci iş vərəqinin tapşırığı:</u> Siz Şəhidlər Xiyabanında olubsunuzmu? Orada olarkən, hansı hisləri keçirmişsiniz? Bu barədə yazın.

<u>3-cü iş vərəqinin tapşırığı:</u> Daha hansı yerlərə xiyaban deyirlər? Nə üçün haqqında söhbət açdığınız yer Şəhidlər Xiyabanı adlanır?

<u>4-cü iş vərəqinin tapşırığı:</u> Sizcə, hansı insanlara şəhid deyirlər? Hər vəfat etmiş insana şəhid demək olarmı? Tanıdığınız, yaxud haqqında eşitdiyiniz bir şəhid haqqında yaza bilərsiniz.

Şagirdlər suallar əsasında təqdimatlar hazırlayırlar. Hər qrupun lideri təqdimatları ilə sinfi tanış edir. Proses təqdimatların müzakirəsi ilə yekunlaşdırılır. Fərqli və məzmunlu təqdimatlar müəllim tərəfindən rəğbətləndirilir.

Dərslikdəki "Şəhidlər Xiyabanı" şeiri oxunur. Rabitəli nitqin inkişafı (RNİ) üzərində iş aparılır. "Sözlük" və "Söz ehtiyatı"ndakı sözlərin və ifadələrin



Çap üçün deyil

mənası izah edilir, mənimsədilir. Dərslikdəki çalışma 3, 4 üzərində iş aparılır. Dil materiallarını təkrar etmək məqsədilə çalışma 6, 7 yerinə yetirilir.

**Məlumat mübadiləsi:** Müəllim şagirdlərə şeirdən verilmiş aşağıdakı misralara münasibət bildirmələrini tapşırır :

Yurduma göz dikənə
Etirazımdır mənim,
Heç zaman pozulmayan
Alın yazımdır mənim
Şəhidlər Xiyabanı.

Şagirdlər torpaqlarımıza göz dikən, onun 20%-dən çox hissəsini işğal edən düşmənlərimizə qarşı vuruşmuş Azərbaycan igidlərinin uyuduğu Şəhidlər Xiyabanı barədə fikirlərini bildirirlər. Bu Xiyabanın mərdlər məkanı, XX əsrin faciəsini bütün dünyaya bəyan edən müqəddəs bir yer olduğu qənaətinə gəlirlər. Misraların məcazi mənada işlənmələrinə baxmayaraq, hamımızın daxili aləmini əks etdirməsi fikrini söyləyirlər.

**Nəticə:** Azərbaycan qədim ölkədir. Bu ölkəni indiyə qədər göz bəbəyi kimi qoruyub bizə çatdıran ulu babalarımız tarixi keçmişimizi yaradanlardır. İndi də torpaqlarımızın qorunmağa, müdafiə olunmağa ehtiyacı var. Çünki mənfur düşmən hələ də torpaqlarımızdan gözünü çəkmir. Bu işdə qəhrəman oğul və qızlarımızın fədakarlıqları əvəzedilməzdir. Tarixi yaradan qəhrəmanlarımızdır. XX əsrin ən böyük faciələrini yaşamış Azərbaycan xalqı indi Şəhidlər Xiyabanında əbədi yuxuya getmiş qəhrəman oğul və qızlarının xatirəsini həmişə əziz tutur. Şəhidlər Xiyabanı bizim müqəddəs and yerimizə çevrilib. Bu müqəddəs məkan bizim şanlı tariximizin ən unudulmaz səhifəsidir.

**Yaradıcı tətbiqetmə:** Şəhidlər Xiyabanı barədə təqdimat hazırlamaq.

**Qiymətləndirmə:** Müvafiq cədvələ əsasən aparılır.

**Ev tapşırığı:** Şeiri əzbər öyrənmək.

## DƏRS 36. QAÇAQ NƏBİ (1 saat)

| № | Gözlənilən təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Dinlədiyi mətndəki əsas fikri müəyyənləşdirir. | 1.1.2 | A.t.-4.1.1. |
| 2 | Müzakirə olunan mövzu ilə bağlı mülahizələrini bildirir. | 2.1.3 | H.b.-2.2.2. |
| 3 | Mətndəki əsas fikrə uyğun fakt və hadisələri müəyyənləşdirir. | 3.1.3 | A.d.-1.3.2.<br>X.d.-3.1.4. |
| 4 | Sait və samitlərin, mürəkkəb sözlərin yazılış qaydalarına, cümlənin sonunda və dialoqlarda durğu işarələri qaydalarına əməl edir. | 4.1.3 | İn.-3.3.2. |

Çap üçün deyil

**Dərsin tipi:** İnduktiv.
**Dərsin forması:** Kiçik və böyük qruplarla iş.
**Dərsin üsulu:** Beyin həmləsi, müzakirə
**Resurslar:** Dərslik, dəftər, kompyuter, proyektor, bədii filmin diski, iş vərəqləri.

**Motivasiya:** Müəllim "Atları yəhərləyin" filmindən Qaçaq Nəbinin obrazını elektron lövhədə işıqlandırır.

**Köməkçi sual:** Gördüyünüz bu obraz kimdir və onun haqqında nə bilirsiniz?

Şagirdlər onun filmin qəhrəmanı olduğunu güman etdiklərini söyləyirlər.

**Tədqiqat sualı:** Sizcə, nə üçün bu obraz filmin qəhrəmanı seçilmişdir? Filmdə adını eşitdiyiniz qəhrəman haqqında nə bilirsiniz? Necə düşünürsünüz, Qaçaq Nəbi tarıxi şəxsiyyətdir, yoxsa dastan qəhrəmanı?

Şagirdlərin cavabları dinlənilir.

**Tədqiqatın aparılması:** Bütün dərs boyu səsi azaldılmış "Atları yəhərləyin" filmindən seçilmiş kadrlar nümayiş etdirilir. Bu, şagirdlərin yaddaşında Qaçaq Nəbi surətinin həkk olunması üçündür.

Müəllim şagirdləri 3 qrupa bölür. Hər qrupa suallar yazılmış iş vərəqləri paylanır.

1-ci iş vərəqinin sualı: Sizcə, Nəbiyə xalq qəhrəmanı demək olarmı? Nə üçün?

2-ci iş vərəqinin sualı: Xalq qəhrəmanı adı necə insanlara verilir?

3-cü iş vərəqinin sualı: Gördükləriniz əsasında Nəbinin xarici görünüşünü təsvir edə bilərsinizmi?

Təqdimatlar dinlənilir. Qruplar bir-birlərini qiymətləndirirlər.

Dərslikdəki mətnin məzmunu oxutdurulur. "Sözlük" və "Söz ehtiyatı" üzərində iş aparılır. Məzmunu mənimsətmək məqsədilə dərslikdəki 1-5-ci çalışmalar şifahi, çalışma nömrə 6 yazılı şəkildə yerinə yetirilir. Dil materiallarını təkrar etmək məqsədilə dərslikdəki 8, 10-cu çalışmalar yazılı surətdə icra edililr.

**Məlumat mübadiləsi:** Şagirdlər Qaçaq Nəbi haqqında öyrəndiklərini müzakirə edirlər. Qaçaq Nəbini başqa xalq qəhrəmanları ilə müqayisə edirlər. "Qaçaq Nəbi" dastanı haqqında aldıqları yeni məlumatlar əsasında fikir yürüdürlər.

**Nəticə:** Azərbaycan – qəhrəmanlar diyarıdır. Vətənimizin bugünkü xoş günləri igidlərimizin ağılasığmaz qəhrəmanlığı, mərdliyinin nəticəsidir. Məhz igid qəhrəmanlarımız torpağımızı əsrlərlə qoruyub qiymətli miras kimi bizə çatdırmışlar. Qaçaq Nəbi də belə qəhrəmanlardandır. Artıq üç əsrdir ki, onun adı xalqın dillər əzbəridir. Biz çox xoşbəxt xalqıq ki, indi də Vətənimizin təəssübünü çəkən, onu mühafizə edib qoruyan, daha da gözəlləşdirən Nəbi kimi igid qəhrəmanlarımız var.

**Yaradıcı tətbiqetmə:** Kütləvi informasiya vasitələrinin, mətbuatın köməyindən istifadə etməklə Azərbaycan qəhrəmanlarından bir neçəsi haqqında məlumat toplamaq.

**Qiymətləndirmə:** Müvafiq cədvələ əsasən aparılır.

**Ev tapşırığı:** Dərslikdəki "Qaçaq Nəbi" mətninin məzmununu öyrənmək və danışmaq.

Çap üçün deyil

## DƏRS 37. ƏL (1 saat)

| № | Gözlənilən təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Dinlədiyi mətndəki əsas fikri müəyyənləşdirir. | 1.1.2 | Əd-1.2.4.<br>X.d.-3.1.2. |
| 2 | Nitq prosesində jest və mimikalardan istifadə edir. | 2.1.2 | A.t.-2.1.1. |
| 3 | Mətndəki sözləri orfoepik qaydalara uyğun oxuyur. | 3.1.2 | H.b.-2.1.1. |
| 4 | Sait və samitlərin, mürəkkəb sözlərin yazılış qaydalarına, cümlənin sonunda və dialoqlarda durğu işarələri qaydalarına əməl edir. | 4.1.3 | İn.-3.2.3. |

**Dərsin tipi:** İnduktiv.
**Dərsin forması:** Böyük və kiçik qruplarla iş.
**Dərsin üsulu:** Əqli hücum, klaster, təqdimat, müzakirə.
**Resurslar:** Dərslik, dəftər, plakat, iş vərəqləri.
**Motivasiya:** Müəllim lövhəyə belə bir plakat asır.




Sonra bir tapmaca səsləndirir:

Ətlə sümük balta sapı,
Beş barmağı, bir budağı.
Al deyəndə açılar,
Ver deyəndə yumular.

Müəllim deyir:

– Plakatda dairənin ortasına tapmacanın cavabını yazmalıyıq. Sizcə, bu nədir?

Şagirdlər müəllimin köməyi ilə tapmacanın cavabını tapırlar və “əl” sözü dairənin içərisinə yazılır.

**Tədqiqat sualı:** “Yumruq” sözünün mənasını izah edə bilərsinizmi? “Güc çatmaz gücümüzə vermişiksə əl-ələ” misralarında ifadə olunan fikir necə izah olunmalıdır?

**Tədqiqatın aparılması:** Müəllim sinfi 3 qrupa bölür. Hər qrupa iş vərəqləri paylayır. Vərəqlərdə tapmacalar yazılıb. Müəllim bu tapmacaların cavablarını tapıb, mənalarını izah etməyi tapşırır.

<u>1-ci iş vərəqinin tapşırığı:</u> Bir ağacım var – bir gövdəsi, beş budağı,
Hər budaqda bir sədəf.

Ağac, gövdə, budaq, sədəf sözləri hansı sözlərin yerinə işlənmişdir?

(Ağacın insan qolu, gövdənin insan əli, budağın insan barmaqları, sədəfin isə dırnaqlar olduğu aydınlaşır).

<u>2-ci iş vərəqinin tapşırığı:</u> Mən aşiq, yüz yer aşar,

Çap üçün deyil

Basılmış yüz il yaşar,
Budağın kənarında
On kotan yüz yer aşar.

3-cü iş vərəqinin tapşırığı: Bir ananın beş balası,
Zəhmət çəkir gecə-gündüz hamısı.

Şagirdlərin cavabları dinlənilir. Əlin insan həyatındakı roluna diqqət yetirilir.

R.Yusifoğlunun "Əl" şeiri ifadəli oxutdurulur. "Sözlük" və "Söz ehtiyatı"ndakı lüğət izah olunur, cümlələrdə işlədilməklə mənimsədilir.

Çalışmalar üzərində iş qruplarla aparılır.

1-ci qrup: çalışma № 11.
2-ci qrup: çalışma № 12.
3-cü qrup: çalışma № 14; 17.

Çalışmaların icrası başa çatdıqdan sonra müzakirəsi təşkil olunur, düzgün nəticələr müəyyənləşdirilir. Bu mərhələdən sonra müəllim şagirdlərin rabitəli şifahi nitq bacarıqlarının inkişafını izləmək üçün 13-cü çalışma əsasında fərdi iş aparır, bir neçə şagird dinlənilir, nitq səhvləri düzəldilir. Şagirdlərdə əməyə, zəhmətə hörmət, həmçinin əməksevərlik hislərinin aşılanması Nizaminin dərslikdə verilmiş aforizminin oxusu və mənasının açılması ilə həyata keçirilir. Aforizm oxunduqdan sonra müəllim sinfə müraciət edərək aforizmdən çıxan nəticə barəsində şagirdlərin mülahizələrini dinləyir, onları istiqamətləndirir. Bu işi müəllim qrupların hər birinin aforizm üzrə təqdimat hazırlaması yolu ilə də həyata keçirə bilər.

15-ci çalışmada qoyulmuş tapşırıq bütün siniflə aparılır. Şeirdən götürülmüş misralardakı fikrin qavranılması tədqiqat sualına cavabın tapılmasına imkan yaradır.

Dərslikdəki digər çalışmalar üzərində iş yenə də qruplarla aparılır.

1-ci qrup: çalışma № 16; 19.
2-ci qrup: çalışma № 18; 22.
3-cü qrup: çalışma № 20; 21.

Çalışmaların qruplarla yerinə yetirilməsi dərslikdə mövzu ilə bağlı verilmiş müxtəlif istiqamətli çalışmaların tez yerinə yetirilməsini təmin etməklə yanaşı, şagirdlərin qarşılıqlı işləməsini, işin icrası üçün birlikdə məsuliyyət daşımasını, həmçinin qrup fəaliyyətinin stimullaşdırılmasını da təmin etmiş olur. Çalışmaların yerinə yetirilməsi prosesində tədqiqat sualına cavab axtarışı ilə yanaşı, dilin orfoepik, orfoqrafik və qrammatik normalarının yazılı və şifahi şəkildə mənimsədilməsi, müvafiq bacarıqların formalaşdırılması və təkmilləşdirilməsi vəzifəsi də davamlı olaraq həyata keçirilir.

**Məlumat mübadiləsi:** Şeirin məzmununa uyğun olaraq insan əlinin nələrə qadir olması haqqında fikir mübadiləsi aparılır. "Əl mərd olar, göz namərd" atalar sözü təhlil edilir. Mübadilə zamanı Nizaminin hikmətli sözlərindən çıxarılan nəticəyə də diqqət yetirilir. Mübadilə insanın öz əlinin zəhmətilə ucaldığı barədə yekun fikrə gəlməyə yönəldilir.

**Nəticə:** Uşaqlıqdan əlimizi zəhmətə alışdırmalıyıq ki, arzuladığınız hər şeyi əldə etməyi bacaraq. Əl zəhmətin rəmzidir, əl qurub yaradır. Çalışmalıyıq ki, əllərimiz yalnız yaxşı əməlləri həyata keçirməyə, faydalı işlər görməyə alışsın.



Çap üçün deyil

Ancaq unutmamalıyıq ki, tək əldən səs çıxmaz. Odur ki, vətən və xalq üçün xe - yirli işlər görmək, "dağı dağ üstə qoymaq" üçün qüvvələrimizi birləşdirməli, əl-ələ verməliyik. Biz birləşsək, birgə hərəkət etsək, bizə heç kimin gücü çatmaz. Bunu heç zaman unutmamalıyıq!

**Yaradıcı tətbiqetmə:** "Bacarıqlı əllər?" mövzusunda kiçikhəcmli inşa yazmaq. "Əl" sözü işlənən ifadələr tapıb yazmaq. Məsələn: əl çəkmək, əldən düşmək, əlini üzmək...

**Qiymətləndirmə:** Müvafiq cədvələ uyğun aparılır.

**Ev tapşırığı:** "Əl" şeirini əzbərləmək.

## DƏRS 38. XOŞBƏXTLİK BARƏSİNDƏ (1 saat)

| № | Gözlənilən təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Dinlədiyi mətndəki əsas fikri müəyyənləşdirir. | 1.1.2 | A.d.-1.2.1.<br>X.d.-3.1.4. |
| 2 | Deyəcəyi əsas fikri müəyyənləşdirir. | 2.1.4 | A.t.-1.3.1. |
| 3 | Mətndə tanış olmadığı sözlərin mənasını lüğətlərdən istifadə etməklə müəyyənləşdirir. | 3.1.1 | H.b.-2.1.1. |
| 4 | Sait və samitlərin, mürəkkəb sözlərin yazılış qaydalarına, cümlənin sonunda və dialoqlarda durğu işarələri qaydalarına əməl edir. | 4.1.3 | İn.-3.2.3. |

**Dərsin tipi:** İnduktiv.

**Dərsin forması:** Böyük və kiçik qrupla iş.

**Dərsin üsulu:** Beyin həmləsi, müzakirə, klaster.

**Resurslar:** Dərslik, dəftər, iş vərəqləri.

**Motivasiya:** Müəllim sinfə gəlib şagirdlərlə görüşür, onlara belə bir əhvalat danışır: "Bir dəfə Xoşbəxtlik yolla gedirmiş. Çox yorulubmuş. Birdən çox acıqlı, hər şeydən narazı, hirsli bir adama rast gəlir. Xoşbəxtlik ondan xahiş edir ki, onu qucağına alsın, çünki çox yorulub, gedə bilmir. Həmin adam daha da hirslənir, kobud şəkildə özünün də yorulduğunu bildirir. Xoşbəxtlik ondan üz döndərib yoluna davam edir. Bir qədər getdikdən sonra çox mehriban, hamıya yaxşılıq etməyə çalışan, xoşxasiyyətli bir adama rast gəlir. Xoşbəxtlik ondan da xahiş edir ki, çox yorulub, onu qucağına alıb mənzil başına çatdırsın. Bu adam çox böyük məmnuniyyətlə razı olur, sevinir ki, başqasına kömək etmək imkanı əlinə düşüb. O gündən Xoşbəxtlik həmin xeyirxah adamı heç tərk etmir."

**Yardımçı sual:** – Sizcə, Xoşbəxtlik niyə mehriban adamı indiyədək tərk etmir?

Cavablar dinlənilir, müəllim şagirdlərin cavablarını istiqamətləndirir, onların nitq səhvlərinə düzəlişlər edir.

**Tədqiqat sualı:** Xoşbəxtlik nədir ki, insanlar sevdiklərinə həmişə onu arzulayırlar? Xoşbəxtliyi əldə etmək üçün nə etmək lazımdır?

Çap üçün deyil

**Tədqiqatın aparılması:** Müəllim uşaqları 3 qrupa ayırır. Hər qrupa iş vərəqi paylayır.

<u>1-ci iş vərəqinin tapşırığı:</u> Dairədə yazılmış cümləyə uyğun fikirlərinizi yazın.




<u>2-ci iş vərəqinin tapşırığı:</u> Dairədə yazılmış cümləyə uyğun fikirlərinizi yazın.




<u>3-cü iş vərəqinin tapşırığı:</u> Dairədə yazılmış cümləyə uyğun fikirlərinizi yazın.




Şagirdlər iş vərəqlərində fikirlərini yazırlar. Qrupun lideri təqdimatı oxuyur. Qruplar bir-birlərinin fikirlərinə münasibət bildirirlər. Müəllim onların nitqlərindəki səhvlərin aradan qaldırılmasında iştirak edir. Ən fəal qrupun nümayəndələri qiymətləndirilir.

Dərslikdəki "Xoşbəxtlik barəsində" mətni üzərində iş aparılır. Məzmunu mənimsədilir, "Sözlük" və "Söz ehtiyatı"ndakı söz və ifadələrin mənası izah edilir.

Dərslikdəki 1, 2-ci çalışmalar mətnin məzmununun qavranılması üçün sinifdə şifahi olaraq yerinə yetirilir. Sonra müəllim qruplarla işə keçir və 4, 5, 7 nömrəli çalışmalar üzərində iş aparılır:

<u>1-ci qrup:</u> çalışma № 5 .

<u>2-ci qrup:</u> çalışma № 4.

<u>3-cü qrup:</u> çalışma № 7.

Çalışmaların icrası üçün ayrılmış vaxt başa çatdıqdan sonra mübadilə və müzakirə təşkil olunur. Dərslikdəki 8 və 10-cu çalışmaların yerinə yetirilməsini "akvarium" iş üsulundan istifadə ilə də həyata keçirmək olar. 11-ci çalışma yazılı yerinə yetirilir.

**Məlumat mübadiləsi:** "Xoşbəxtlik insanın öz əlindədir" fikri əsasında şagirdlər fikir mübadiləsi aparırlar. Xoşbəxtliyi insanların müxtəlif cür anlamaları haqqında mətnlə bağlı düşündüklərini yoldaşları ilə müzakirə edirlər.

Çap üçün deyil

**Nəticə:** Biz azad və müstəqil bir ölkədə yaşayırıq. Belə cəmiyyətdə yaşayan insanlar ona görə xoşbəxtdirlər ki, onların hüquqları müdafiə edilir, hər bir insana düşündüyünü deyə bilmək imkanı yaradılır. Mətndən çıxan nəticə budur ki, xoşbəxtlik azad, müstəqil, müharibəsiz bir şəraitdə sağlam yaşayıb, istədiyin, bacardığın işlə məşğul olmaqdır. Hər birimizin xoşbəxt olmağa haqqımız var. Bunu başa düşmək lazımdır ki, xoşbəxtliyi insana vermirlər, onu əldə etmək üçün çalışmaq, zəhmət çəkmək lazımdır.

**Yaradıcı tətbiqetmə:** "Xoşbəxtliyi nədə görürəm?", yaxud:
"Xoşbəxtlik hər kəsin öz əlindədir,
İşində-gücündə, əməlindədir" mövzusunda inşa yazmaq.

**Qiymətləndirmə:** Müvafiq cədvələ əsasən aparılır.

**Ev tapşırığı:** Mətnin məzmununu danışmaq.

## DƏRS 39. AZ DANIŞMAĞIN GÖZƏLLİYİ (1 saat)

| № | Gözlənilən təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Dinlədiyi mətndəki əsas fikri müəyyənləşdirir. | 1.1.2 | Əd.-1.3.4.<br>X.d.-3.1.4. |
| 2 | Müzakirə olunan mövzu ilə bağlı mülahizələrini bildirir. | 2.1.3 | A.t.-1.2.1.<br>İn.-3.2.2. |
| 3 | Mətndəki sözləri orfoepik qaydalara uyğun oxuyur. | 3.1.2 | H.b.-3.1.1. |
| 4 | Sait və samitlərin, mürəkkəb sözlərin yazılış qaydalarına, cümlənin sonunda və dialoqlarda durğu işarələri qaydalarına əməl edir. | 4.1.3 | |

**Dərsin tipi:** İnduktiv.

**Dərsin forması:** Böyük və kiçik qruplarla iş.

**Dərsin üsulu:** Əqli hücum, təqdimat, müzakirə.

**Resurslar:** Dərslik, dəftər, iş vərəqləri, "Azərbaycanfilm"in 1982-ci ildə istehsal etdiyi "Nizami" filminin (rejissoru E.Quliyev) diski, "Tapmacalar" kitabı.

**Motivasiya:** Dərsin əvvəlində müəllim elektron lövhədə "Nizami" filmindən fraqment nümayiş etdirir. Şagirdlər ekranda Nizaminin obrazını görürlər. Müəllim nümayişi dayandırır və şagirdlərə bir neçə tapmaca söyləyir:

1. "Adı var, özü yox".
2. "Odda yanmaz, suda batmaz".
3. "Quş yuvasından çıxdı, geri dönə bilmədi".
4. " Nə əli var, nə ayağı,
   Nə başı var, nə qulağı
   Gah ağladar, gah güldürər".

Şagirdlər müəllimin köməyi ilə tapmacaların cavabını tapırlar. Məlum olur ki, tapmacaların cavabı "söz"dür.

Çap üçün deyil

**Köməkçi sual:** – Fikirlərimizi ifadə etmək, düşüncələrimizi dilə gətirmək üçün nədən istifadə edirik?

Şagirdlərin cavabları dinlənilir. Onlara istiqamət verilir. Fərqli cavablar qiymətləndirilir.

**Tədqiqat sualı:** Sözün insan həyatında rolu nədən ibarətdir? “Hər kəs öz dilinin altında gizlənib” fikrini necə başa düşmək lazımdır?

**Tədqiqatın aparılması:** Müəllim şagirdləri 3 qrupa bölür və onlara iş vərəqləri paylayır. İş vərəqlərində atalar sözləri verilmişdir. Müəllim sinfinin səviyyəsindən asılı olaraq variantlardan hansını istəsə seçə bilər:

1-ci iş vərəqinin məzmunu: –Nə zaman deyirlər: “Söz sahibi ölsə də, söz qalar” (yaxud: “Dilinin altına bir balaca qənd qoysaydın, yaxşı olardı”).

2-ci iş vərəqinin məzmunu: – “Söyləyənə baxma, söylədiyinə bax!” (yaxud: “Ağzından dürr tökülür”) ifadəsi nə zaman işlədilir?

3-cü iş vərəqinin məzmunu: – “Söz var el içində, söz var ev içində” (yaxud : “Sözünü balla kəsim”) ifadəsi hansı məqamda işlədilir?

Müəllim şagirdlərə tapşırır ki, verilmiş atalar sözlərinin məzmununu və hansı məqsədlə söyləndiyini izah etsinlər. Şagirdlər təqdimat hazırlayırlar və müəllim onları istiqamətləndirir. Müəllim şagirdlərin nitqindəki nöqsanları düzəldir. Bəzi sözləri tərcümə edir. Sonra fərqli cavabları qiymətləndirir.

Müəllim filmdən Nizami Gəncəvinin şeir söylədiyi fraqmenti nümayiş etdirir və şairin “Az danışmağın gözəlliyi” şeirinin təqdim olunmasına keçid edir. Şeir oxudulur və müəllimin köməyi ilə hər misra ayrıca təhlil edilir. Çətin sözlər tərcümə edilir. 12, 13, 15, 16-cı çalışmalar üzərində iş bir daha şeirin məzmununun qavranılmasına, şagirdlərin şeirdən çıxan nəticə və “söz”lə bağlı mülahizələr söyləmələrinə imkan verir. Şairin şeirdə sözü nə ilə müqayisə etdiyi aydınlaşır. Şagirdlər özləri də xoş sözlər söyləməyə çalışırlar. 17, 19, 20-ci çalışmalar üzərində iş qruplarla təşkil olunur.

1-ci qrup: çalışma № 19; 21.
2-ci qrup: çalışma № 17; 21.
3-cü qrup: çalışma № 20; 21.

Çalışmaların nəticələri müzakirə edildikdən sonra yorğunluğu aradan qaldırmaq və sinifdə emosional şərait yaratmaq üçün dərslikdəki lətifə oxunur. Lətifənin və şeirin məzmunu arasında əlaqə müəllimin istiqamətləndirməsi ilə müəyyənləşdirilir.

Dərslikdəki 18-ci çalışma üzərində iş şagirdlərdə tərcümə və dilin qrammatik normalarının tətbiqi bacarıqlarının inkişafına yönəldilir. Verilmiş çalışmalar yerinə yetirilir.

**Məlumat mübadiləsi:** Müəllim belə bir cümlə işlədir: ”Onun maraqlı söhbətlərindən doymaq olmurdu.” Sonra işlətdiyi cümlə ilə “az danışmağın gözəlliyi” ifadəsi arasında fikir mübadiləsi situasiyasını yaratmağa çalışır və buna nail olur. Şagirdlər öz fikirlərini aydınlaşdırmağa çalışırlar.

**Nəticə:** Ona görə “hər kəs öz dilinin altında gizlənib” deyirlər ki, ağzını açıb danışan hər bir kəs işlətdiyi sözlərlə savadını, mərifətini, dünyagörüşünü, bir sözlə, kimliyini büruzə verir.

Belə bir atalar sözü də var: “Söyləyənə baxma, söylədiyinə bax”. Əlbəttə,

Çap üçün deyil

söylənilən sözün ifadə etdiyi mənadan çox şey asılı olur. Doğrudan da, elə söz var ki, onu eşitmək kifayərdir ki, bütün küsülülər barışsın, elə sözlər də var ki, onu eşidəndə, əksinə dava-dalaş daha da qızışar. "Söz var kəsər savaşı, söz var kəsdirər başı" atalar sözü də sözün insan həyatındakı rolunu göstərir.

Bəzən gözəl danışığa işarə ilə belə ifadələr işlədilir: "Ağzından dürr tökülür", yaxud acı danışan insanlara – "Dilinin altına bir balaca qənd qoy" da deyilir. Deməli, danışıqdan, fikirlərin çatdırılmasında istifadə olunan sözdən çox şey asılıdır. Bunu unutmaq olmaz!

**Yaradıcı tətbiqetmə:** "Söz"ə aid atalar sözləri və tapmacalar, deyimlər, yaxud mənalı aforizmlər toplamaq.

**Qiymətləndirmə:** Müvafiq cədvələ uyğun aparılır.

**Ev tapşırığı:** Şeiri əzbər öyrənmək.

## DƏRS 40. LEYLƏK YUVASI (1 saat)

| № | Gözlənilən təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Dinlədiyi mətndəki əsas fikri müəyyənləşdirir. | 1.1.2 | A.t.-1.3.1. |
| 2 | Deyəcəyi əsas fikri müəyyənləşdirir. | 2.1.4 | |
| 3 | Mətndə tanış olmadığı sözlərin mənasını lüğətlərdən istifadə etməklə müəyyənləşdirir. | 3.1.1 | Əd. -1.2.2.<br>X.d.-3.1.3. |
| 4 | Sait və samitlərin, mürəkkəb sözlərin yazılış qaydalarına, cümlənin sonunda və dialoqlarda durğu işarələri qaydalarına əməl edir. | 4.1.3 | İn.3.3.2.<br>H.B-1.2.1. |

**Dərsin tipi:** İnduktiv.

**Dərsin forması:** Böyük və kiçik qrupla iş.

**Dərsin üsulu:** Beyin həmləsi, təqdimat, müzakirə.

**Resurslar:** Dərslik, dəftər, iş vərəqləri.

**Motivasiya:** Müəllim lövhədə belə bir atalar sözü yazır: "Hər quşa öz yuvası doğmadır."

**Köməkçi sual:** 1. Bu atalar sözünün mənasını izah etməyə çalışın.
2. Hüseyn Arifin 4-cü sinifdə oxuduğunuz –
Gəlin təbiəti biz də düşünək,
O, özü hər şeyi düşünən kimi" misraları yadınızdadırmı?

Cavablar dinlənilir. Müəllim onları istiqamətləndirir.

**Tədqiqat sualı:** Təbiət haqqında düşünmək lazımdırmı? Təbiət haqqında düşünmək insanların özləri üçün, yoxsa təbiət üçün lazımdır?

**Tədqiqatın aparılması:** Müəllim verdiyi sualın cavabını almaq məqsədilə şagirdləri 3 qrupa bölür və iş vərəqləri paylayır.



Çap üçün deyil

1-ci iş vərəqinin sualı: Köçəri quşlar haqqında nə bilirsiniz?

2-ci iş vərəqinin sualı: Qışda da bizi tərk etməyən quşlar hansılardır? Onlar haqqında nə bilirsiniz?

3-cü iş vərəqinin sualı: Ən hündür yerlərdə yuva quran, ucalığı, yüksəkliyi sevən quşlar hansılardır?

Şagirdlər təqdimat hazırlayır və bildiklərini təqdim edirlər. Müəllim onları istiqamətləndirir. Fərqli cavabları qiymətləndirir.

"Leylək yuvası" mətninin 1-ci hissəsi oxutdurulur. Çətin sözlər izah edilir.

Hər qrup ayrı-ayrılıqda mətnin məzmununa dair 4-cü çalışmadakı tapşırığa əsasən suallar hazırlayır və bir-birinə təqdim edir. Müəllim onları istiqamətləndirir. Sonra hər 3 qrupa 3 nömrəli çalışmanı yerinə yetirmək tapşırılır. Qrupların cavabları dinlənilir.

"Bunları bilirsinizmi?" rubrikasındakı məlumata diqqət cəlb edilir. Dilin qrammatik normasının praktik yolla mənimsədilməsi say bildirən sözlərdən istifadəyə istiqamətləndirilir. Məlumat üzrə işdə ana dili ilə əlaqə yaradılır. Sayların orfoqrafiyasının mənimsədilməsi və müvafiq bacarıqların təkmilləşdirilməsi məqsədilə dərslikdəki 5, 7, 8-ci çalışmalar qruplarla yerinə yetirilir. Cavablar dinlənilir. 9-cu çalışma şagirdlərin lüğət ehtiyatının dəqiqləşdirilməsinə, 10-cu çalışma mühakimə yürütmək bacarıqlarının və linqvistik təfəkkür formalaşdırılmasına yönəldilir. 10-cu çalışma "akvarium" və ya müzakirə formasında da təşkil oluna bilər.

**Məlumat mübadiləsi:** Şagirdlər "Leylək yuvası" mətninin 1-ci hissəsini oxuduqdan sonra Nurlanın xasiyyəti ilə tanış olurlar. Onun necə xoşxasiyyət, ürəyiyumşaq, tərbiyəli oğlan olduğunun şahidi olurlar. Nurlanın hərəkətlərini müzakirə edərək quşlara qayğının vacibliyini bir daha yada salırlar. Sonra "Bunları bilirsinizmi?" rubrikasındakı say haqqında məlumatla bağlı da fikir yürüdülür. Bu zaman müəllim onları istiqamətləndirir.

**Nəticə:** Heyvanlara, quşlara qayğı həmişə lazımdır. Çünki onlar bizim vətənimizin sərvətidir. Bu sərvəti qorumaq, onun qədrini bilmək hər bir vətəndaşın borcudur. Biz təbiəti qorumaqla, onun qayğısına qalmaqla, nəticədə özümüzü qorumuş oluruq. Çünki insan özü də təbiətin bir parçasıdır.

**Yaradıcı tətbiqetmə:** Maraqlı "oxuyan quşlar" haqqında informasiya toplamaq.

**Qiymətləndirmə:** Müvafiq cədvələ əsasən aparılır.

**Ev tapşırığı:** Mətnin məzmununu danışmaq, "Sözlük"dəki sözlərə aid cümlələr yazmaq.

Çap üçün deyil

## DƏRS 41. LEYLƏK (1 saat)

| № | Gözlənilən təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Dinlədiyi mətndəki əsas fikri müəyyənləşdirir. | 1.1.2 | A.d.-1.3.3.<br>X.d.-3.1.2. |
| 2 | Müzakirə olunan mövzu ilə bağlı mülahizələrini bildirir. | 2.1.3 | A.t.-2.1.1. |
| 3 | Mətndəki sözləri orfoepik qaydalara uyğun oxuyur. | 3.1.2 | H.b.-1.2.1. |
| 4 | Sait və samitlərin, mürəkkəb sözlərin yazılış qaydalarına, cümlənin sonunda və dialoqlarda durğu işarələri qaydalarına əməl edir. | 4.1.3 | İn.-3.2.3. |

**Dərsin tipi:** İnduktiv
**Dərsin forması:** Böyük və kiçik qruplarla iş.
**Dərsin üsulu:** Əqli hücum, sual-cavab, müzakirə.
**Resurslar:** Dərslik, dəftər, iş vərəqləri.

**Motivasiya:** Müəllim şagirdlərə müəyyən yerlərini ixtisar etməklə bir şeir oxuyur.

1

Uzun ayaqlı quşdur
Quyruğu topa, gödək.
Upuzun dimdiyi var,
Ondan qorxur ilanlar.

2

Xeyirli bir quşdur o
Dənlənir çöllərdə tək
Yazda bizə qonaqdır,
Qışda hara getsə də,
Yenə qayıdacaqdır.

3

Boş qalmış yuvasını
Tapıb ora qonacaq,
Yenə də dimdiyini
Şaqqıldadacaq şaq-şaq.

**Köməkçi sual:** Eşitdiyiniz bu şeirdə hansı quşdan söhbət gedir? Əlamətlərə diqqət yetirsəniz, onu asan müəyyən edərsiniz.

Müxtəlif cavablar verilir. Müəllim köməyi ilə "leylək" sözü alınır.

**Tədqiqat sualı:** Leyləyin insanlara faydası varmı?

**Tədqiqatın aparılması:** Müəllim şagirdləri qruplara bölür və hər qrupa iş vərəqləri paylayır.

<u>1-ci iş vərəqinin tapşırığı:</u> Leyləyin xarici görünüşünü təsvir edin.
<u>2-ci iş vərəqinin tapşırığı:</u> Leyləyin faydasından danışın.
<u>3-cü iş vərəqinin tapşırığı:</u> Hansı quşu leyləyə oxşadırsınız? Onun haqqında yazın və danışın.

Şagirdlər təqdimatlar hazırlayırlar və təqdim edirlər. Fərqli cavablar qiymətləndirilir.

Dərslikdəki "Leylək" şeiri oxutdurulur. "Sözlük" və"Söz ehtiyatı"ndakı sözlər izah edilir, cümlələrdə işlədilməklə mənimsədilir.

Çalışma nömrə 12, 18, 19, 20 üzərində şifahi iş aparılır. Bu işlər şagirdlərin lüğət ehtiyatının genişləndirilməsinə və dəqiqləşdirilməsinə xidmət edir. 11, 13, 14-cü çalışmalar qruplarla aparılır. Nəticələr təhlil edilir, düzgün variantlar müəyyənləşdirilir.

Çap üçün deyil

17-ci çalışma yazılı yerinə yetirilir. Bu çalışmanın yerinə yetirilməsində məqsəd şagirdlərin cümlə qurmaq və sayların orfoqrafiyası ilə bağlı bacarıqlarının təkmilləşdirilməsidir.

**Məlumat mübadiləsi:** Şagirdlər "Leylək" şeiri ilə tanış olduqdan sonra onu başqa quşlarla müqayisə edirlər: Leyləklər insanlardan qorxmurlar, ona görə də yuvalarını daha çox insan məskənlərinə yaxın yerlərdə, evlərin damında qururlar. Leyləklər yuvalarını hətta 20-30 ilə qədər qoruyub saxlaya bilirlər.

**Nəticə:** Qara leyləklər (onlara hacıleylək də deyirlər) "Qırmızı kitab"a düşən quşlardandır. Onlar təbiətin yaratdığı möcüzələrdən biridir. Bu quşların qəribəliyi ondadır ki, hara gedirlərsə getsinlər, qayıdanda yenə də öz yuvalarını axtarıb-tapırlar və orada bala çıxarırlar. Belə bir inam da var ki, leyləklər yuva qurduqları evə xoşbəxtlik gətirir. Əksər ölkələrdə onlara müqəddəs quşlar kimi baxırlar.

Bir çox quşlar kimi, leyləklər həm də ziyanvericilərlə məhv etməklə insanlara fayda verir.

**Yaradıcı tətbiqetmə:** Daha hansı quşları tanıyırsınız? Hərə bir quş haqqında ətraflı məlumat toplayıb təqdim etsin.

**Qiymətləndirmə:** Müvafiq cədvələ əsasən aparılır.

**Ev tapşırığı:** Şeiri əzbərləmək. Şeirdəki bir neçə sözə aid cümlə yazmaq.

## DƏRS 42. LEYLƏK YUVASI 2-ci hissə (1 saat)

| № | Gözlənilən təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Dinlədiyi mətndəki əsas fikri müəyyənləşdirir. | 1.1.2 | A.t.-2.1.1. |
| 2 | Nitq prosesində sait və samitləri düzgün tələffüz edir. | 2.1.1 | Əd. -1.3.3.<br>X.d.-3.1.2. |
| 3 | Mətndə tanış olmadığı sözlərin mənasını lüğətlərdən istifadə etməklə müəyyənləşdirir. | 3.1.1 | İn.-3.2.3. |
| 4 | Sait və samitlərin, mürəkkəb sözlərin yazılış qaydalarına, cümlənin sonunda və dialoqlarda durğu işarələri qaydalarına əməl edir. | 4.1.3 | H.b.-1.2.1. |

**Dərsin tipi:** İnduktiv.

**Dərsin forması:** Böyük və kiçik qruplarla iş.

**Dərsin üsulu:** Əqli hücum, təqdimat, müzakirə.

**Resurslar:** Dərslik, iş vərəqləri.

**Motivasiya:** Müəllim şagirdlərə kiçik bir hekayə danışır: "Yolda iri bir it hürürdü. İt qorxunc görünürdü. Balaca pişik itin qorxusundan hasara sığınmışdı. O, yolu keçə bilmirdi. Kənarda 2 oğlan dayanıb bu mənzərəni seyr edirdi. Pəncərədən bunu görən qadın tez küçəyə çıxdı. İti qovandan sonra oğlanların üstünə qışqırdı:

Çap üçün deyil

– Ayıb olsun sizə!

– Niyə bizə ayıb olur ki? Axı biz heç nə etməmişik, – deyə oğlanlar təəccübləndilər.

**Köməkçi sual:** Doğrudan da, uşaqların günahı nədə idi?

Cavablar dinlənilir. Müəllim istiqamətləndirir.

**Tədqiqat sualı:** Heyvanlara, quşlara necə qayğı göstərilməlidir? Bütün heyvanlara, quşlara qayğı göstərmək lazımdırmı? (Əgər canavarlar qoyun sürülərinə hücum edib, insanlara zərər vurursa, ona da qayğı göstərmək lazımdırmı? Siçanlar taxıl zəmilərinə ziyan vurursa, bəs onda necə?)

**Tədqiqatın aparılması:** Müəllim sualına cavab almaq məqsədilə şagirdləri qruplara bölür və iş vərəqləri paylayır.

1-ci iş vərəqinin sualı: Heyvanlara necə qayğı göstərmək lazımdır?

2-ci iş vərəqinin sualı: Quşlara necə qayğı göstərmək lazımdır?

3-cü iş vərəqinin sualı: Təbiətə necə qayğı göstərmək lazımdır?

Təqdimat üçün vaxt verilir. Vaxtın tamamında şagirdlər yazdıqlarını təqdim edirlər. Müəllim dinləyir. Səhvləri düzəldir. Fərqli cavablar qiymətləndirilir.

Müəllim mətni hissələrə bölərək oxumaq üçün qruplara tapşırır. Mətn oxunur, tərcümə edilir. Çətin sözlər izah edilir. Çalışma nömrə 1, 2, 3, 4, 5, 6, 11, 14, 15 üzərində şifahi, 7, 8, 9, 10, 12, 13 üzərində yazılı iş aparılır. Müəllim çalışmaları qruplar arasında bölüb işlədə də bilər. Bu zaman hansı qrup daha fəal iştirak edərsə, qiymətləndirilə bilər. Çalışma nömrə 14-ün yerinə yetirilməsi debat formasında aparılmalıdır.

**Məlumat mübadiləsi:** Şagirdlər "Leylək yuvası" mətninin 1-ci hissəsindən tanış olduqları Nurlanın kefinin pozulmasının səbəbini öyrəndiklərindən artıq onun xarakterindəki digər cəhətləri də aşkara çıxarır, Nurlanın heyvanlara, quşlara qarşı diqqətini müzakirə edirlər. Müəllimin köməyi ilə şagirdlər nəinki Nurlanın, hətta onun atasının, digər fəhlələrin də müsbət cəhətlərini təhlil edirlər.

**Nəticə:** İnsanı digər canlılardan fərqləndirən onun ağlı və bacarığıdır. İnsanı ucaldan onun əməlləridir. İnsan yer üzünün ən ali varlığıdır. Buna görə də özündən zəiflərə, ondan asılı olanlara qarşı diqqətli olmalıdır; faydalı heyvan və quşları qorumalı, onların çoxalması qayğısına qalmalıdır. İnsanlara zərər yetirən ziyanvericələrlə isə qanun çərçivəsində mübarizə aparılmalıdır.

**Yaradıcı tətbiqetmə:** Gördüyünüz hər hansı bir xeyirxah iş haqqında inşa yazın.

**Qiymətləndirmə:** Müvafiq cədvələ əsasən aparılır.

**Ev tapşırığı:** Mətnin məzmunu üzrə ifadə yazmaq.

Çap üçün deyil

## DƏRS 43. QIRMIZI KİTAB (1 saat)

| № | Gözlənilən təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Dinlədiyi mətndəki əsas fikri müəyyənləşdirir. | 1.1.2 | Əd.-1.2.2.<br>X.d.-3.1.4. |
| 2 | Müzakirə olunan  mövzu ilə bağlı mülahizələrini bildirir. | 2.1.3 | A.t.-2.1.2. |
| 3 | Mətndə tanış olmadığı sözlərin mənasını lüğətlərdən istifadə etməklə müəyyənləşdirir. | 3.1.1 | H.b.-4.2.1. |
| 4 | Sait və samitlərin, mürəkkəb sözlərin yazılış qaydalarına,  cümlənin sonunda və  dialoqlarda durğu işarələri qaydalarına əməl edir. | 4.1.3 | İn.-3.3.2. |

**Dərsin tipi:** İnduktiv.

**Dərsin forması:** Böyük qrupla, cütlərlə iş.

**Dərsin üsulu:** Əqli hücum, sual-cavab, müzakirə, təqdimat.

**Resurslar:** Dərslik , dəftər, "Ayna" Uşaq Ensiklopediyaları.

**Motivasiya:** Müəllim sinfə "Uçaq ensiklopediyası"nın bir neçə nümunəsini gətirir (Bütün məktəb kitabxanalarında var).

**Köməkçi sual:** Gördüyünüz bu kitablar haqqında nə bilirsiniz?

Cavablar dinlənilir. Müəllim istiqamətləndirir.

**Tədqiqat sualı:** O, hansı kitabdır ki, orada nəsli kəsilmək təhlükəsi olan heyvan, quş və bitkilərin adları qeyd olunmuş, onlar haqqında məlumat verilmişdir? "Təbiət bizim ümumi evimizdir" fikrini necə başa düşmək lazımdır?

**Tədqiqatın aparılması:** Müəllim qoyduğu sualın cavabını almaq məqsədilə sinifdəki qruplara əlindəki "Uşaq ensiklopediyası"nı paylayır və tapşırıq verir.

– Hər bir qrup qarşısındakı kitab haqqında təqdimat hazırlasın.

Şagirdlərə təqdimat üçün vaxt verilir. Müəyyən vaxtdan sonra qrupların təqdimatları dinlənilir və nitqlərindəki nöqsanlar düzəldilir. Fərqli cavablar qiymətləndirilir.

Müəllim şagirdləri yeni mövzu ilə tanış etmək üçün onlara sualla müraciət edir.

Şagirdlər müxtəlif cavablar verirlər.

"Qırmızı kitab" mətnini müəllim şagirdlərə hissə-hissə oxutdurur. Çətin sözləri izah edir. Bəzi cümlələr tərcümə edilir. 17, 18, 19-cu çalışmalar şifahi şəkildə bütün siniflə, yaxud da qruplarla yerinə yetirilə bilər.

<u>1-ci qrup:</u> çalışma № 17.

<u>2-ci qrup:</u> çalışma № 18.

<u>3-cü qrup:</u> çalışma № 19.

20-ci çalışma debat formasında aparılmalıdır. Müəllim "Turac" şeirini şagirdlərə oxutdurur. Çətin sözlər izah edilir. Digər çalışmalar qruplarla işdə aşağıdakı şəkildə qruplaşdırıla bilər.

Çap üçün deyil

1-ci qrup: çalışma № 22; 24.
2-ci qrup: çalışma № 28, 27.
3-cü qrup: çalışma № 25, 26.

Dili praktik cəhətdən yaxşı bilən şagirdlərdən bir neçəsi şeiri öyrənib əzbər söyləyə bilər. Dili zəif bilənlər isə şeirin məzmununu danışa bilər.

**Məlumat mübadiləsi:** Şagirdlər adları "Qırmızı kitab"a düşən heyvanlar, quşlar və bitkilər haqqında eşitdiklərini, bildiklərini yoldaşlarına çatdırmaq məqsədilə fikir mübadiləsi aparırlar. Müəllim bəzi əlavə məlumatları onlara çatdırır. Bu zaman o, internet səhifələrindən götürdüyü slaydlardan istifadə edə bilər.

**Nəticə:** "Təbiət bizim ümumi evimizdir" demişlər. Hər bir insan öz evini qorumalı, onun qədrini bilməlidir. Təbiəti qorumasaq, o, bizi bütün nemətlərdən məhrum edər. Bizim Vətənimizin fauna və florası çox zəngindir. Əfsuslar olsun ki, brakonyerlər, meşə quldurları fauna və floramızın bizə bağışladığı sərvəti mənimsəməyə, özəlləşdirməyə çalışırlar. Biz belələrinə qarşı amansız olmalıyıq.

Bu məqsədlə nəsli kəsilmək təhlükəsi olan heyvan, quş və bitkilərin adları qeyd olunmuş, onlar haqqında məlumat verilmiş, beləliklə, təbiətə qarşı insanları diqqətli olmağa səsləyən kitablar yaranmışdır ki, bu kitablar həyəcan rəmzi sayılan "Qırmızı kitab" adlanır.

**Yaradıcı tətbiqetmə:** "Təbiət bizim ümumi evimizdir" mövzusunda təqdimat hazırlamaq.

**Qiymətləndirmə:** Müvafiq cədvələ əsasən aparılır.

**Ev tapşırığı:** Mətnin məzmununu öyrənmək.

## DƏRS 44. NİGARIN SEVİNCİ (1 saat)

| № | Gözlənilən təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Dinlədiyi mətndəki əsas fikri müəyyənləşdirir. | 1.1.2 | Əd.-1.3.4. |
| 2 | Müzakirə olunan mövzu ilə bağlı mülahizələrini bildirir. | 2.1.3 | A.t.-3.1.2.<br>X.d.-3.1.3. |
| 3 | Mətndəki əsas fikrə uyğun fakt və hadisələri müəyyənləşdirir. | 3.1.3 | H.b-3.2.2. |
| 4 | Topladığı fakt və məlumatlara əsasən plan tərtib edir; | 4.1.2 | İn.-3.3.2. |

**Dərsin tipi:** İnduktiv .
**Dərsin forması:** Böyük və kiçik qruplarla iş.
**Dərsin üsulu:** Əqli hücum, təqdimat, müzakirə.
**Resurslar:** Dərslik, dəftər, "Fəryad" filminin diski, iş vərəqləri.
**Motivasiya:** Müəllim elektron lövhədə Ceyhun Mirzəyevin çəkdiyi "Fəryad" filmindən fraqmentləri nümayiş etdirir.

Çap üçün deyil

**Tədqiqat sualı:** Gördüyünüz bu kadrlarda hansı müharibədən söhbət açılır? Bu müharibəni bitmiş hesab etmək olarmı?

Cavablar dinlənilir. Müəllim onları istiqamətləndirir.

**Tədqiqat sualı:** 1988-ci ildən davam edən Qarabağ savaşında məqsəd nədir?

**Tədqiqatın aparılması:** Müəllim sualına cavab almaq məqsədilə şagirdləri 3 qrupa bölür və onlara iş vərəqləri paylayır.

<u>1-ci iş vərəqinin tapşırığı:</u> Üzdəniraq qonşularımız olan ermənilərin torpaqlarımızı ələ keçirməkdə əsas məqsədi nədir? Bu haqda qısa məlumat verin.

<u>2-ci iş vərəqinin tapşırığı:</u> Xocalı faciəsi nə zaman baş vermişdir? Bu faciə nə ilə nəticələnmişdir? Xocalı faciəsi zamanı Milli qəhrəman adına layiq görülmüş oğullarımızdan kimləri tanıyırsınız?

<u>3-cü iş vərəqinin tapşırığı:</u> Şuşa şəhərinin işğalı nə vaxt baş vermişdir və bu işğalla ermənilər nəyə nail olmuşlar?

Müəllim hər qrupa yaxınlaşaraq məsləhətlərini verir. Verilən vaxt tamam olduqdan sonra şagirdlər hazırladıqları işləri təqdim edirlər. Müəllim onları istiqamətləndirir və fərqli cavabları qiymətləndirir.

Müəllim “Nigarın sevinci” mətnini hissə-hissə qruplardakı şagirdlərə oxutdurur və sözlükdəki çətin sözləri izah edir. Müəllimin göstərişi ilə qruplar bir-birinə mətn əsasında suallar verə bilər, mətni hissələrə bölərək hər hissəni adlandıra bilərlər. Müəllim şagirdləri istiqamətləndirir və daha fəal qrup üzvlərini qiymətləndirir.

Tədqiqat mətn əsasında hazırlanmış çalışmalar üzərində davam edir: 1, 2, 4, 5, 6 nömrəli çalışmalar şifahi; 4, 8, 9 nömrəli çalışmalar qruplarla iş formasında yazılı yerinə yetirilir.

**Məlumat mübadiləsi:** Şagirdlər mətnlə tanış olduqdan sonra babanın dərdinin, ananın nisgilinin, Nigarın sevincinin səbəbini müzakirə edirlər. Şagirdlər mətnin məzmunu ilə dərsin əvvəlində baxdıqları “Fəryad” filmindən kadrların məzmunu arasında yaxınlığı müqayisə edirlər. Xocalı faciəsi zamanı xalqımızın başına gətirilən fəlakətlər haqqında fikirlərini bölüşürlər.

**Nəticə:** Xocalı faciəsi bizim qan yaddaşımızdır. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı dəstələri Xankəndi şəhərində yerləşdirilmiş 366-cı motoatıcı alayını köməyi ilə Xocalı şəhərini işğal etdilər. 2500 nəfər əhali yaxınlıqdakı Ağdam rayonuna qaça bildi. Bu qırğının nəticəsində 613 nəfər həlak oldu: uşaqlar–63 nəfər; qadınlar–106 nəfər; qocalar–70 nəfər; 8 ailə tamamilə məhv edildi; 25 uşaq hər iki valideynini itirdi: 130 uşaq valideynlərindən birini itirdi; 187 nəfər yaralandı. Yüzlərlə Xocalı sakini əsir götürülmüş və itkin düşmüşdür. Azərbaycanın Milli Məclisi hər il fevralın 26-nı “Xocalı soyqırımı günü” elan etmişdir. Doğma yurdlarından didərgin düşmüş və Azərbaycanın 48 rayonuna səpələnmiş Xocalı sakinləri ölkənin ərazi bütövlüyünün bərpa edilməsi ümidi ilə yaşayırlar.

Düşmənlər bu gün bizim torpaqlarımızı müvəqqəti olaraq işğal etmişlər. Lakin biz bu işğalla heç cür razılaşa və barışa bilmərik. Odur ki, bizim üçün müharibə hələ davam edir və qabaqdadır: torpaqlarımız azad olan günə qədər!

**Yaradıcı tətbiqetmə:** Xocalı faciəsini əks etdirən şəkillər çəkmək və prezentasiya hazırlamaq.

Çap üçün deyil

**Qiymətləndirmə:** Müvafiq cədvələ əsasən aparılır.
**Ev tapşırığı:** Mətnin məzmununu danışmaq.

## DƏRS 45. ÜRƏK XATİRƏSİ (1 saat)

| № | Gözlənilən təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Suallara cavab verir. | 1.1.1 | A.d.-1.3.2.<br>X.d.-4.1.1. |
| 2 | Nitq prosesində jest və mimikalardan istifadə edir. | 2.1.2 | A.t.-1.1.1. |
| 3 | Mətndəki sözləri orfoepik qaydalara uyğun oxuyur. | 3.1.2 | H.b-2.2.2. |
| 4 | Sait və samitlərin, mürəkkəb sözlərin yazılış qaydalarına, cümlənin sonunda və dialoqlarda durğu işarələri qaydalarına əməl edir. | 4.1.3 | İn.-3.2.2. |

**Dərsin tipi:** İnduktiv.
**Dərsin forması:** Böyük və kiçik qruplarla iş.
**Dərsin üsulu:** Əqli hücum, sual-cavab, müzakirə, təqdimat.
**Resurslar:** Dərslik, dəftər, S.Rüstəmin "Seçilmiş əsərləri" 1-ci cild, iş vərəqləri.
**Motivasiya:** Müəllim şagirdlərə şeir söyləyir:

"Ey insanlar! Asta gəzin torpaq üstə bahar çağı.
Torpaq altda yüz-yüz, min-min ürək yatar,
Yox-yox, hələ sağalmayıb, anaların sinə dağı.
Torpaq altda yatanların əməlləri həyatdadır.
Ey insanlar! Ayıq olun! Sayıq olun!
Dünən yerdə, göydə qopan tufanları xatırlayın,
İnsanlığı xilas edən insanları xatırlayın!
Xatırlayın, xatırlayın! Yenə, yenə xatırlayın!
Dönə-dönə xatırlayın!
Dönə-dönə xatırlayın!
S. Rüstəm.

**Köməkçi sual:** Şeirdə nədən bəhs edilir?
Cavablar dinlənilir. Müəllim kömək edir.
Bəzi çətin sözləri müəllim izah edə bilər:

Sinə dağı – горе
əməllər – деяния
ayıq, sayıq – бдительный
tufan – метель
xatırlayın - вспоминайте

**Tədqiqat sualı:** Hansı insanları yaddan çıxarmaq olmaz? Kimlər unudulmur?

Çap üçün deyil

**Tədqiqatın aparılması:** Müəllim şagirdləri 3 qrupa bölür və hər qrupa iş vərəqi paylayır.

1-ci iş vərəqinin sualı: Hansı insanlar heç bir zaman unudulmur?

2-ci iş vərəqinin sualı: Hansı insanlar unutmağı bacarır?

3-cü iş vərəqinin sualı: Unudulmayan insanlardan kimləri tanıyırsınız?

Müəllim hər bir qrupa yaxınlaşaraq onları istiqamətləndirir. Verilən vaxt başa çatdıqdan sonra şagirdlər hazırladıqları işləri təqdim edirlər. Müəllim şagirdlərin səhvlərini düzəldir. Fərqli cavablar qiymətləndirilir.

Müəllim şagirdlərə “Ürək xatirəsi” şeirini oxutdurur. Onların tələffüzlərindəki səhvləri düzəldir, çətin sözləri izah edir. Şeirin hər bəndini bir qrupa verərək nəsrə çevirməyi tapşırır. Şagirdlər şeiri nəsrə çevirərək öz sözləri ilə danışırlar.

Çalışmalar qruplar arasında bölüşdürülür:

1-ci qrup: çalışma № 10, 14, 19;

2-ci qrup: çalışma № 11, 14, 16;

3-cü qrup: çalışma № 13, 14, 17.

Cavablar müəllim tərəfindən qiymətləndirilir.

**Məlumat mübadiləsi:** Şagirdlər şeirlə tanış olduqdan sonra belə fikir mübadiləsi aparırlar ki, təkcə qəhrəmanlar deyil, həm də Vətənin gələcəyi naminə gecəsini-gündüzünə qatan əmək qəhrəmanlarını, Azərbaycanı dünyada tanıtmağa çalışan insanları da unutmaq olmaz.

**Nəticə:** Vətənimiz Azərbaycan öz varı-dövləti ilə həmişə xaricilərin diqqətini cəlb etmişdir. Buna görə də torpağımıza əsrlər boyu hücumlar olmuşdur. Vətənimizin qəhrəman oğulları onu qorumağa çalışmışlar. Belə oğulları unutmaq olarmı? Əlbəttə, yox! Təkcə şəhid qəhrəmanlar deyil, vətən yolunda, onun çiçəklənməsi yolunda zəhmət çəkən, onun dünyada layiqli yerini tutması üçün əllərindən gələni edən, bütün varlığı ilə onu qoruyan insanlar xatırlanmağa layiqdir.

**Yaradıcı tətbiqetmə:** Qəhrəmanlıq, igidlik haqqında atalar sözü tapıb yazmaq.

**Qiymətləndirmə:** Müvafiq cədvələ əsasən aparılır.

**Ev tapşırığı:** Şeiri əzbərləmək.

## DƏRS 46. HƏDİYYƏ (1 saat)

| № | Gözlənilən təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Dinlədiyi mətndəki əsas fikri müəyyənləşdirir. | 1.1.2 | Əd.-1.1.3.<br>X.d.-3.1.1. |
| 2 | Nitq prosesində sait və samitləri düzgün tələffüz edir. | 2.1.1 | A.t.-2.1.1. |
| 3 | Mətndəki əsas fikrə uyğun fakt və hadisələri müəyyənləşdirir. | 3.1.3 | H.b.-3.2.2.<br>İn.-3.2.2. |
| 4 | Müxtəlif yazı formalarını (ifadə, inşa, hekayə) fərqləndirir. | 4.1.1 | |

Çap üçün deyil

**Dərsin tipi:** İnduktiv.

**Dərsin forması:** Böyük və kiçik qruplarla iş.

**Dərsin üsulu:** Beyin həmləsi, təqdimatlar, müzakirə.

**Resurslar:** Dərslik, dəftər, iş vərəqləri.

**Motivasiya:** Müəllim sinfə belə bir atalar sözü ilə müraciət edir: ”Ana balasına baxar, özünü oda yaxar”.

**Köməkçi sual:** Bu atalar sözünün mənasını necə başa düşürsünüz?

Cavablar dinlənilir. Müəllim kömək edir.

**Tədqiqat sualı:** Anaların məhəbbətini siz necə hiss edirsiniz?

**Tədqiqatın aparılması:** Müəllim şagirdləri 3 qrupa bölür və hər qrupa tapşırıq yazılmış iş vərəqləri paylayır.

<u>1-ci iş vərəqinin məzmunu:</u> “Mənim anam ...” sözləri ilə başlayan bir neçə cümlədən ibarət kiçikhəcmli hekayə qurmaq.

<u>2-ci iş vərəqinin məzmunu:</u> “Anam hər gün ...” sözləri ilə başlayan bir neçə cümlədən ibarət kiçikhəcmli hekayə qurmaq.

<u>3-cü iş vərəqinin məzmunu:</u> “ Anam mənə ...” sözləri ilə başlayan bir neçə cümlədən ibarət kiçikhəcmli hekayə qurmaq.

Şagirdlər onlara verilmiş vaxt müddətində tapşırığı yerinə yetirirlər. Təqdimatlar dinlənilir. Müəllim şagirdlərin tələffüzündə olan nöqsanları düzəldir. Fərqli cavablar qiymətləndirilir.

Müəllim şagirdlərə “Hədiyyə” şeirini oxutdurur. “Sözlük”də və “Söz ehtiyatı”nda verilmiş sözlərin izahını verir. Həmin sözlər ayrıca cümlələrdə işlədilir. Sonra çalışmalar üzərində iş aparılır. Çalışmalar qruplara paylanıla da bilər:

<u>1-ci qrup:</u> çalışma № 1, 5; 8.

<u>2-ci qrup:</u> çalışma № 2, 9; 8.

<u>3-cü qrup:</u> çalışma № 4, 10; 8.

Müəllim qrupların üzvləri içərisində fərqli cavabları qiymətləndirir.

Müəllim Nizaminin aforizmi ilə şagirdləri tanış edir və çalışır ki, şagirdlər dərk edərək misraların mənasını izah etsinlər.

**Məlumat mübadiləsi:** Şagirdlər “Hədiyyə” şeiri ilə tanış olduqdan sonra “Anadan əziz, yenə anadır” atalar sözünü təhlil edirlər. Ananın müqəddəsliyini bir daha təsdiqləyirlər. Ananı sevindirməyin nə qədər asan olması haqqında fikir mübadiləsi aparırlar. Çünki ana övladının kiçicik nailiyyətinə də sevinir.

**Nəticə:** Dünyada anadan doğma, anadan əziz heç nə ola bilməz. O, öz balasına görə ən çətin işlərin də öhdəsindən gələ bilər. Əbəs yerə deməyiblər ki, cənnət anaların ayaqları altındadır. Anaları sevin, onları qoruyun!

**Yaradıcı tətbiqetmə:** “Mənim sevimli anam” mövzusunda kiçik inşa yazmaq.

**Qiymətləndirmə:** Müvafiq cədvələ əsasən aparılır.

**Ev tapşırığı:** Şeiri əzbərləmək.

Çap üçün deyil

## DƏRS 47. YAZIN HƏDİYYƏSİ (1 saat)

| № | Gözlənilən təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Dinlədiyi mətndəki əsas fikri müəyyənləşdirir. | 1.1.2 | A.d.-2.1.2.<br>X.d.-3.1.4. |
| 2 | Deyəcəyi əsas fikri müəyyənləşdirir. | 2.1.4 | A.t. -3.1.1. |
| 3 | Mətndə tanış olmadığı sözlərin mənasını lüğətlərdən istifadə etməklə müəyyənləşdirir. | 3.1.1 | H.b-3.2.1. |
| 4 | Sait və samitlərin, mürəkkəb sözlərin yazılış qaydalarına, cümlənin sonunda və dialoqlarda durğu işarələri qaydalarına əməl edir. | 4.1.3 | İn.-3.3.2. |

**Dərsin tipi:** İnduktiv.
**Dərsin forması:** Böyük və kiçik qruplarla iş, cütlərlə iş.
**Dərsin üsulu:** Beyin həmləsi.
**Resurslar:** Dərslik, dəftər, plakat, iş vərəqləri.
**Motivasiya:** Müəllim lövhədən plakat asır. Plakatda böcəklər təsvir olunmuşdur.
**Köməkçi sual:** Şəkildə nə görürsünüz? Böcəklərin həyatda rolu nədən ibarətdir? Cavablar dinlənilir. Müəllim kömək edir.
**Tədqiqat sualı:** Böcəklər özlərini xoşbəxt hesab edə bilərmi? Buna inanırsınızmı?
**Tədqiqatın aparılması:** Müəllim verdiyi sualın cavabını almaq məqsədilə şagirdlərə suallarla müraciət edir.

1. Meşədə hansı heyvanlar yaşayır?
2. Meşədə hansı quşlar yaşayır?
3. Meşədə hansı ağaclar olur?
4. Böcəklərin meşə sakinlərinə hansı xeyri var?
5. İnsanların yazda, yayda tez-tez rast gəldikləri böcəklər hansılardır?
6. Hansı böcəklər haqqında cizgi filmləri çəkilmişdir?

Fərqli cavablar qiymətləndirilir.

Müəllim mətni şagirdlərə oxutdurur. Çətin sözlər izah edilir, cümlələrdə işlədilir.

11-18 nömrəli çalışmalar üzərində iş aparılır. Müəllim cütlərlə iş aparmaq məqsədi ilə hər çalışmanı bir cütlüyə tapşırır. Çalışmanı yerinə yetirmək üçün müəyyən vaxt ayırır. Müəyyən vaxt keçdikdən sonra cütlüklər təqdimat edirlər. Fərqli cavablar qiymətləndirilir (Əgər sinifdə şagirdlərin sayı çox olarsa, müəllim bu və digər çalışmanı iki-üç cütlüyə təklif edə bilər). Sonra 19-cu çalışmada qoyulmuş tapşırıq əsasında debat təşkil olunur. Şagirdlər “Yazın hədiyyəsi” və “Xoşbəxtlik nədir” mətnlərində oxuduqları, eyni zamanda çalışmalar üzrə işləyərkən əldə etdikləri məlumatlar əsasında öz fikirlərini əsaslandırmağa çalışırlar. Sayla bağlı qrammatik normanın praktik yolla mənimsədilməsini və bununla bağlı şagirdlərin nitq səhvlərini aradan qaldırmaq məqsədilə verilmiş 20-ci çalışma yazılı şəkildə yerinə yetirilir.

**Məlumat mübadiləsi:** Şagirdlər mətnlə tanış olduqdan sonra xoşbəxtliyin

Çap üçün deyil

var-dövlətdə və gözəllikdə deyil, onun ancaq doğma vətən torpağında olduğu fikri ilə razılaşaraq fikir mübadiləsi aparırlar. Mübadilə zamanı şagirdlər hətta kiçik böcəyi "xarıbülbül" çiçəyi ilə də müqayisə edə bilərlər. Çünki bu çiçək də heç bir torpaqda bitmir, ancaq doğma vətən torpağında bitir. (Böcəyi qaratikan kolunu özünə vətən hesab edən və ona qovuşanda özünü xoşbəxt hesab edən bülbüllə də müqayisə etmək olar). Müəllim müzakirə zamanı şagirdlərə kömək edə bilər. Onları istiqamətləndirir: "Özüm qürbətdəyəm, gözüm vətəndə", yaxud "Qürbətdə keçən ömür, ömür sayılmaz".

**Nəticə:** Kiçik işıldaquş öz balaca qəlbi ilə, bütün varlığı ilə vətən torpağına bağlıdır; həyatının, yaşayışının mənasını onda görür. Bütün insanlar da havasını udduqları, suyunu içdikləri ana torpağı sevməli, onu qorumalıdır. Oxuduğumuz mətndə müəllif balaca işıldaquşun dili ilə deyir ki, əsl xoşbəxtliyin səbəbi vətənə, elə bağlılıqdadır. Belə bir atalar sözümüz var: "Gözsüz yaşamaq olar, vətənsiz yox", yaxud əbəs yerə deyilmir ki, "Vətənə gəldim, imana gəldim".

**Yaradıcı tətbiqetmə:** Heyvanlar, quşlar, ağaclar haqqında əfsanələr tapmaq və danışmaq.

**Qiymətləndirmə:** Müvafiq cədvələ əsasən aparılır.

**Ev tapşırığı:** Mətnin məzmunu üzrə ifadə yazmaq.

## DƏRS 48. BƏNÖVŞƏ (1 saat)

| № | Gözlənilən təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Dinlədiyi mətndəki əsas fikri müəyyənləşdirir. | 1.1.2 | Əd.-1.2.4. |
| 2 | Müzakirə olunan mövzu ilə bağlı mülahizələrini bildirir. | 2.1.3 | İn.-3.3.2. |
| 3 | Mətndəki sözləri orfoepik qaydalara uyğun oxuyur | 3.1.2 | H.b-3.2.2. |
| 4 | Sait və samitlərin, mürəkkəb sözlərin yazılış qaydalarına, cümlənin sonunda və dialoqlarda durğu işarələri qaydalarına əməl edir. | 4.1.3 | X.d.-4.1.1. |

**Dərsin tipi:** İnduktiv.

**Dərsin forması:** Böyük və kiçik qruplarla iş, cütlərlə iş.

**Dərsin üsulu:** Beyin həmləsi, müzakirə, təqdimat.

**Resurslar:** Dərslik, dəftər, internetə qoşulmuş kompyuter.

**Motivasiya:** Müəllim lövhədə gözəl təbiət təsvirləri, güllər, çiçəklər, bağçalar təsvir edilmiş slaydlar nümayiş etdirir.

**Köməkçi sual:** 1. Slaydlarda nə gördünüz və bu kadrlar sizə necə təsir edir?

2. 4-cü sinifdə bənövşə haqqında oxuduğunuz mətn yadınızdadırmı? Ona necə ad vermişdilər? ("Bəzəkli bənövşə" adı xatırlanmalıdır)

Cavablar dinlənilir. Müəllim istiqamətləndirir.

Çap üçün deyil

**Tədqiqat sualı:** İnsanların könlünü oxşayan, xeyirdə və şərdə həmişə onların yanında olan, insanları sevindirən çiçəklər, güllər haqqında nə bilirsiniz? Necə bilirsiniz, görəsən, bənövşənin boynu niyə həmişə əyri olur?

**Tədqiqatın aparılması:** Müəllim qoyduğu suala cavab tapmaq məqsədilə şagirdləri qruplara ayırır. Hər qrupa çiçək, gül şəkilləri paylayır və tapşırır ki, gördükləri çiçəyi və ya gülü təsvir etsinlər və onun haqqında bildiklərini danışsınlar. Şagirdlərə verilən vaxt tamam olduqdan sonra onlar qızılgül, qərənfil, bənövşə, yasəmən, lalə, nərgizgülü, zanbaq, çobanyastığı, xarıbülbül haqqında məlumat verirlər. Şagirdlər çiçəkləri, gülləri təsvir etməli, onlar haqqında yaranmış rəvayətləri, əfsanələri yada salmalıdırlar. Hafizəsi güclü və dili nisbətən yaxşı bilən şagirdlər şeir də söyləyə bilər. Müəllim fərqli cavabları qiymətləndirir. Şagirdlər danışan zaman slaydlardan istifadə edə bilərlər.

Müəllim şagirdlərə "Bənövşə" şeirini oxutdurur. "Sözlük" və "Söz ehtiyatı"nda olan sözləri izah edir. Çalışmalar üzərində iş cütlərlə aparılır. Müəllim hər cütlüyə dərslikdəki çalışmalardan birini icra etməyi tapşırır və vaxt ayırır. Vaxt tamam olanda şagirdlər çalışmaları təqdim edirlər. Təqdimat zamanı digər cütlüklər dinləməli və yoldaşlarına kömək etməli, yol verilmiş səhvlərini düzəltməlidirlər. Sinifdə yarış keçirilir. Qalib cütlük qiymətləndirilir. Çalışma 9 bütün siniflə icra edilir.

**Məlumat mübadiləsi:** Şagirdlər güllər, çiçəklər haqqında məlumat əldə etdikdən sonra çiçəklərin insan sağlamlığına, onun əhvalı-ruhiyyəsinə olan təsirdən danışırlar. İnsanların çiçəklərə, güllərə sevgisinin nəticəsidir ki, hətta evlərdə, iş yerlərində, sinif otaqlarında dibçəklərdə güllər saxlanılır. Bu çiçəklərdən hərəsi insana hər hansı (müsbət və ya mənfi cəhətdən) təsirə malikdir: ona görə də çiçəkləri sevdiyimiz kimi, onlar haqqında müəyyən məlumata da malik olmalıyıq (ola bilər ki, hər hansı bir çiçək çox gözəldir, ancaq hansı bir cəhətdən isə insan sağlamlığına mənfi təsir edir)

**Nəticə:** Azərbaycan torpağı bitkilərlə olduqca zəngindir. Təsadüfi deyilmir ki, torpağımızın altı da, üstü də qızıldır. Ölkəmizdə dərman bitkilərinin 1000-dən çox növü var. Belə bir ifadə xalq arasında geniş yayılmışdır: "Həkimin üç silahı var: söz, bitki və bıçaq." Qədim zamanlardan bəri insanlar dərman bitkilərini yüksək qiymətləndirmişlər. Dərman bitkiləri əgər insanları müalicə edirsə, çiçəklər, güllər insanların ruhunu oxşayır, qəlbini fərəhləndirir. Bənövşə çiçəklərin ən zərifidir. Bənövşə həm də yazın rəmzlərindən hesab olunur. Deyirlər, bənövşə həmişə həsrət çəkir, boynunu büküb yol gözləyir, ona görə də onun boynu həmişə əyri olur. Şair deyir: Ayrılıqmı çəkib, boynu əyridir,

Heç yerdə görmədim düz bənövşəni.

**Yaradıcı tətbiqetmə:** Adını çəkmədiyimiz, bizə az tanış olan güllər və ya çiçəklərin insanların sağlamlığına təsiri haqqında internet səhifələrindən məlumat toplayıb, təqdimat hazırlamaq.

**Qiymətləndirmə:** Müvafiq cədvəllərə əsasən aparılır.

**Ev tapşırığı:** Şeiri əzbərləmək.

Çap üçün deyil

## DƏRS 49. AĞACI NECƏ SUVARIRLAR (1 saat)

| № | Gözlənilən təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Dinlədiyi mətndəki əsas fikri müəyyənləşdirir. | 1.1.2 | Əd. -1.1.2. |
| 2 | Müzakirə olunan mövzu ilə bağlı mülahizələrini bildirir. | 2.1.3 | İn.-3.2.3.<br>X.d.-4.1.2. |
| 3 | Mətndə tanış olmadığı sözlərin mənasını lüğətlərdən istifadə etməklə müəyyənləşdirir. | 3.1.1 | H.b.-1.2.1. |
| 4 | Sait və samitlərin, mürəkkəb sözlərin yazılış qaydalarına, cümlənin sonunda və dialoqlarda durğu işarələri qaydalarına əməl edir. | 4.1.3 | |

**Dərsin tipi:** İnduktiv.
**Dərsin forması:** Böyük qrupla və cütlərlə iş.
**Dərsin üsulu:** Əqli hücum, təqdimat, müzakirə.
**Resurslar:** Dərslik, dəftər, iş vərəqləri.
**Motivasiya:** Müəllim şagirdlərə bir neçə atalar sözü söyləyir:
1. “Ağac bar verdikcə başını aşağı əyər”.
2. “Ağac böyüdükcə suyu çox aparar”.
3. “Ağac dibindən su içər”.
4. “Ağac əkənə rəhmət oxunar”.
5. “Ağac meyvəni dəyənə qədər böyüdər”.
6. “Ağac sınanda budaq nəyə gərəkdir!?”
7. “Ağac yaş ikən əyilməsə, əyilməz”.
8. “Ağacı qurd öz içindən yeyər”.

**Köməkçi sual:** Söylənilən atalar sözləri nədən bəhs edir?
Cavablar dinlənilir.
**Tədqiqat sualı:** Babalarımız nə üçün ağacı belə dəyərləndirmişlər?

**Tədqiqatın aparılması:** Babalarımızın ağaca verdiyi dəyərin səbəbini öyrənmək məqsədilə müəllim əvvəl söylədiyi atalar sözlərini cütlüklərə paylayır və həmin atalar sözlərinin mənasını təhlil etməyi şagirdlərə tapşırır. Müəyyən vaxtdan sonra cütlüklər hazırladıqları cavabları təqdim edirlər. Müəllim onları istiqamətləndirir. Fərqli cavablar qiymətləndirilir.

**Dərsliklə iş:** Müəllim şagirdlərə “Ağacı necə suvarırlar?” mətnini oxutdurur, çətin sözləri izah edir. Çalışmalar üzərində iş aparılır. Çalışmaların yerinə yetirilməsində bütün sinif iştirak etməlidir. 10, 11, 12, 13, 15 nömrəli çalışmalar cütlərə təqdim olunur (müəllim hər bir cütə məsləhət bildiyi çalışmanı təklif edir). Şagirdlər təqdimatların müzakirəsi zamanı bir-birinin səhvlərini düzəldə bilərlər.

Müəllim şagirdlərin yazı bacarıqları üzrə işi qruplar şəklində aparır:
<u>1-ci qrup:</u> çalışma № 16; 14.
<u>2-ci qrup:</u> çalışma № 17; 14.

Çap üçün deyil

<u>3-cü qrup:</u> çalışma № 18; 14.

Şagirdlərin tərcümə bacarıqlarının inkişafı və Azərbaycan dilində münasib dil forma və vasitələrinə bələdlik səviyyəsinin izlənilməsi üçün 14-cü çalışmanı yerinə yetirmək qruplardan hər birinə təklif edilir.

Çalışma 19-da verilən "Meşələr" şeiri ifadəli oxunur. Çətin sözlər tərcümə edilir. Şagirdlər şeiri nəsrə çevirib danışırlar. Şeir üzərində iş "Meşələrimiz" mövzusunda təqdimat hazırlamağa kömək edir. Sonra şeirdə cəmdə işlənmiş isimlər və əlamət bildirən sözlərlə bağlı çalışmalar yerinə yetirilir.

**Məlumat mübadiləsi:** Şagirdlər müəllimin köməyi ilə əməyin insan həyatındakı böyük rolu mövzusunda fikir mübadiləsi aparırlar. Çalışma 16 üzərində işləyərkən şagirdlər təqdimat hazırlayırlar. Onlardan hər biri öz bağlarında və ya yay fəslində qonaq getdikləri rayon və kəndlərimizdə ağac əkmək kimi faydalı bir işlə məşğul olduqlarını qeyd edirlər. Hətta şagirdlərdən bəziləri bağda işlədiyi zaman babasından öyrəndiyi məsləhətləri də yoldaşlarına çatdırır.

**Nəticə:** Babalarımızdan belə bir məsəl qalıb: "Torpaq deyər: öldür məni, dirildim səni". Süfrələrimizin neməti olan çörək gücünü torpaqdan alır, torpaq isə qədir-qiymətini çörəkdə tapır. Çörək torpağa borclu, torpaq çörəyə minnətdardır. Ona görə də müqəddəs andımızda "çörək" və "torpaq" müqəddəs hesab olunur. Torpaq vətəndir. Torpağını qoruyan Vətənini qoruyar. Biz torpağımızı sevməli, onu qorumalıyıq. Torpaqda əkilən hər ağacın, hər kolun qədrini bilməliyik. Çünki onlar bizim həyat mənbəyimizdir – oksigendir. Ulu Dədə Qorqud deyir: "Əgər torpağı əkib-becərmirsənsə, onu qorumağa dəyməz, yox əgər onu qorumursansa, əkib-becərməyə dəyməz".

**Yaradıcı tətbiqetmə:** Əmək, zəhmət mövzusunda atalar sözü və tapmacalar toplamaq.

**Qiymətləndirmə:** Müvafiq cədvələ əsasən aparılır.

**Ev tapşırığı:** Mətnin məzmununu danışmaq.

## DƏRS 50. DAĞLAR (1 saat)

| № | Gözlənilən təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Dinlədiyi mətndəki əsas fikri müəyyənləşdirir. | 1.1.2 | Əd.-1.2.4. |
| 2 | Deyəcəyi əsas fikri müəyyənləşdirir. | 2.1.4 | A.t.-2.1.2. |
| 3 | Mətndəki sözləri orfoepik qaydalara uyğun oxuyur. | 3.1.2 | X.d.-3.1.2.<br>H.b-3.2.2. |
| 4 | Sait və samitlərin, mürəkkəb sözlərin yazılış qaydalarına, cümlənin sonunda və dialoqlarda durğu işarələri qaydalarına əməl edir. | 4.1.3 | İn.-3.2.3. |

**Dərsin tipi:** İnduktiv.

**Dərsin forması:** Böyük və kiçik qruplarla iş.



Çap üçün deyil

**Dərsin üsulu:** Əqli hücum, təqdimat, müzakirə.

**Resurslar:** Dərslik, dəftər, internetə qoşulmuş kompyuter, proyektor, iş vərəqləri.

**Motivasiya:** Müəllim proyektor vasitəsilə geniş ekranda S.Vurğunun portretini nümayış etdirir və eyni zamanda "Windows Media" proqramı vasitəsi ilə şairin "Azərbaycan" şeirindən bir parçanı səsləndirir. Şairin öz ifasında "Bahar" şeirini də səsləndirmək olar.

**Köməkçi sual:** Uşaqlar, bu şəkil və eşitdiyiniz şeir parçası haqqında nə deyə bilərsiniz?

Alınan cavablar lövhəyə yazılır. Şagirdlərin fikirləri ümumiləşdirilir.

**Tədqiqat sualı:** "Bir qonağam bu dünyada, Bir gün ömrüm gedər bada" misralarında ifadə olunan fikri necə başa düşürsünüz?

**Tədqiqatın aparılması:** Müəllim şagirdləri 3 qrupa bölür.

1-ci iş vərəqinin sualı: Şairin doğulduğu yer Azərbaycanın hansı ərazisində yerləşir? Bu haqda danışın. S.Vurğun sağ olsaydı, ona hansı sualı verərdiniz?

2-ci iş vərəqinin sualı: Şairin yaradıcılığı haqqında nə bilirsiniz? Qısaca təqdimat hazırlayın. S.Vurğun sağ olsaydı, ona hansı sualı verərdiniz?

3-cü işçi vərəqinin sualı: Böyük şairimiz S.Vurğun öz vətənini, doğma Azərbaycanı canından artıq sevirdi. Bunu şairin hansı misraları ilə əsaslandıra bilərsiniz? S.Vurğun sağ olsaydı, ona hansı sualı verərdiniz?

Şagirdlər kompyuterlə işləyirlərsə, aşağıdakı saytlara girib təqdimat hazırlaya bilərlər.

www.samedvurgun.com/az/sozler; www.samedvurgun.com/az/sekiller;
www.samedvurgun.com/az/kitablar; www.samedvurgun.com/az/serler

Şagirdlər internet səhifələrində təqdim edilmiş suallar ətrafında axtarışlar aparır və 3-5 dəqiqə ərzində təqdimat hazırlayırlar. Fərqli cavablar qiymətləndirilir.

"Dağlar" şeiri şagirdlərə oxutdurulur. Sözlükdəki sözlər izah edilir, cümlələrdə işlədilir. Şeirin məzmunu üzərində iş aparılır. Şeir təhlil edilir. Təhlil zamanı müəllim şagirdləri istiqamətləndirir.Şeirin məzmununun qavranılması üçün işlər 1, 2, 4-cü çalışmalar üzərində davam etdirilir. 5 və 9-cu çalışmalar şagirdlərin lüğətinin genişləndirilməsinə yönəldilir. Çalışmaların bir neçəsinin icrası qruplarla iş formasında təşkil olunur. Müəllim çalışmaları qruplara paylayır:

1-ci qrup: çalışma № 3; 6.
2-ci qrup: çalışma № 7; 6.
3-cü qrup: çalışma № 8; 6.

Şagirdlərin təqdimatları müzakirə olunandan sonra 10-cu çalışma əsasında debat təşkil olunur.

Tapmacanın cavabının ismin halları üzrə dəyişməsi şagirdlərin orfoqrafik bacarıqlarının təkmilləşdirilməsi məqsədini daşıyır.

Müəllim ismin hallarını təkrarlayır. Oxunan "Dağlar" şeirindən müxtəlif hallarda olan isimlər seçilir və ayrıca cümlələrdə işlədilir.

**Məlumat mübadiləsi:** Şagirdlər şairin vətəninə olan sonsuz məhəbbətini



Çap üçün deyil

"Azərbaycan" şeirindən sonra onun "Dağlar" şeirindən öyrənirlər. Sonra şair Səmədlə müəllim Səmədi müqayisə edirlər.

**Nəticə:** "Dağ dağa qovuşmaz, adam adama qovuşar,"
"Dağlar qarıynan, torpaq varıynan,"
"Dağlar nə qədər uca ola, üstündən yollar aşar" – demiş babalarımız.

Uca dağlar öz əzəməti ilə həmişə vətənin simvoluna çevrilib. Keçilməz qalaya çevrilib vətənin arxasında dayanıb, onu yağılardan qoruyub. Onları aşıb torpaqlarımızı zəbt etmək elə də asan olmayıb. Ona görə də dağlar vüqarımızdır, dəyanətimizdir. Uca dağlar bizim sevincimizə şərik olmuş, faciələrimizin şahidi olmuşdur. Elə buna görə də şairimiz dağları düz ilqarlı adlandırmışdır. Şair özünün timsalında insanları dağlarla müqayisə etmişdir. İnsan ötəridir, ona görə də bu dünyada gəldi-gedərdir. İnsan doğulur, yaşlaşır, ölür. Ancaq dağlar insanlar kimi gəldi-gedər deyil. Dağlar S.Vurğun kimi çox insanları qonaq edir, onlara ilham verir, yola salır. Özü isə yenilməz qala kimi daim məğrur dayanır.

**Yaradıcı tətbiqetmə:** "Düz ilqarlı bizim dağlar" mövzusunda kiçik inşa yazmaq.
**Qiymətləndirmə:** Müvafiq cədvələ əsasən aparılır.
**Ev tapşırığı:** Şeiri əzbər öyrənmək.

## DƏRS 51. KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ (1 saat)

| № | Gözlənilən təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Suallara cavab verir. | 1.1.1 | Əd.-3.1.2. |
| 2 | Müzakirə olunan mövzu ilə bağlı mülahizələrini bildirir. | 2.1.3 | X.d.-3.1.4. |
| 3 | Mətndəki sözləri orfoepik qaydalara uyğun oxuyur. | 3.1.2 | |
| 4 | Mətndəki əsas fikrə uyğun fakt və hadisələri müəyyənləşdirir. | 3.1.3 | İn.-3.2.2. |
| 5 | Sait və samitlərin, mürəkkəb sözlərin yazılış qaydalarına, cümlənin sonunda və dialoqlarda durğu işarələri qaydalarına əməl edir. | 4.1.3 | |

**Dərsin forması:** Böyük qruplarla iş.
**Tədqiqat sualı:** Öyrəndiklərinizi necə xatırlayırsınız?
**Tədqiqatın aparılması:**

### KİÇİK SUMMATİV QİMƏTLƏNDİRMƏ № 2
### ALMA AĞACI

Məktəbin həyətində Vüsalla birlikdə basdırdığımz alma ağacı hələ çox körpə idi. Çəhrayı çiçəkləri yenicə tökülmüşdü. Ancaq birdən gözləmədiyimiz halda havalar

Çap üçün deyil

soyudu. Axşama yaxın şaxta düşməyə başladı. Məktəbin həyətindəki bütün alma ağacları bizdən sanki kömək istəyirdi. Sinfimizin bütün şagirdləri təşvişə düşdülər. Qərara gəldik ki, səhərə qədər qalıb, bağçanın keşiyini çəkək. Basdırdığımız ağaclardan xeyli aralı tonqal yandırdıq. Hər tərəfi tüstü bürüdü. Ocaqlar səhərə kimi kəndin üstünü işıqlandırdı. Gülünü yenicə tökmüş ağacları şaxtadan beləcə qoruduq. Səhər yenə günəş dağların arasından boylandı. Bahar quşlarının şən səsi ətrafa yayıldı. Hər şey öz qaydasında idi. Ağaclarımızı şaxta vurmamışdı.

*Qılman İlkindən*

**1. Mətndə əlamət bildirən sözlər hansı variantdadır?**
a) körpə, basdırdığımız, bütün
b) çəhrayı, həyətindəki, şən
c) xeyli, yenicə, birlikdə
d) gözləmədiyimiz, sanki, üstünü
e) tökmüş, şən, şaxta
**2. Altından xətt çəkilmiş sözü aşağıdakılardan hansı ilə əvəz etmək olar?**
a) bəslədiyimiz
b) qulluq etdiyimiz
c) əkdiyimiz
d) becərdiyimiz
e) baxdığımız
**3. Aşağıdakı sözlərdən hansının tələffüz forması düzgün göstərilməmişdir?**
a) birlikdə [ birrikdə]
b) ağac [ağaç]
c) şaxta [şaxda]
d) halda [xalda]
e) çiçək [çiçəx]
**4. Mətndə neçə mürəkkəb söz işlənmişdir?**
a) 2  b) 3  c) 4  d) 1  e) yoxdur
**5. Verilmiş birləşmələrdən hansının birinci tərəfi sifətdir?**
a) Gözləmədiyimiz halda
b) Günəş şüaları
c) Həyətindəki ağaclar
d) Bütün ağaclar
e) Yenicə tökülmüş
**6. Mətnə hansı sualı vermək olmaz?**
a) Alma ağacıı kim əkmişdi?
b) Ağacların çiçəkləri nə üçün töküldü?
c) Nəyi qərara gəldik?
d) Alma ağacının budaqlarını nə üçün yandırdılar?
e) Ağacları qurumaqdan necə qoruduq?
**7. Hansı cümlədə “böyük” sözü necə? Sualına cavab verir?**
a) Böyük tökəni kiçik yığar.



Çap üçün deyil

b) Böyüyə hörmət edərlər.
c) Böyük danışanı kiçik götürər.
d) Böyük insan əməlindən tanınar.
e) Böyük-böyük danışmaq olmaz.

**8. Rəng bildirən sifət, həm də ad bildirir?**

a) qırmızı b) göy c) sarı d) yaşıl e) mavi

**9. İsimdən əmələ gələn sifət hansı variantdadır?**

a) çəhrayı b) həyətdəki c) soyuq d) bütün e) əvvəlki

## DƏRS 52. APRELİN BİRİ GƏLƏNDƏ (1 saat)

| № | Gözlənilən təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Suallara cavab verir;<br>Dinlədiyi mətndəki əsas fikri müəyyənləşdirir. | 1.1.1;<br>1.1.2 | Əd. -2.2.1.<br>X.d.-2.1.3. |
| 2 | Müzakirə olunan mövzu ilə bağlı mülahizələrini bildirir. | 2.1.3 | A.t.-1.1.1. |
| 3 | Mətndəki əsas fikrə uyğun fakt və hadisələri müəyyənləşdirir. | 3.1.3 | H.b.-3.2.2. |
| 4 | Sait və samitlərin, mürəkkəb sözlərin yazılış qaydalarına, cümlənin sonunda və dialoqlarda durğu işarələri qaydalarına əməl edir. | 4.1.3 | |

**Dərsin tipi:** İnduktiv.
**Dərsin forması:** Böyük və kiçik qruplarla iş.
**Dərsin üsulu:** Beyin həmləsi, müzakirə, suallar, təqdimatlar.
**Resurslar:** Dərslik, dəftər, internetə qoşulmuş kompyuter, proyektor, www.google.az saytı.

**Motivasiya:** Müəllim elektron lövhədə proyektor vasitəsilə "Bizim Cəbiş müəllim" filmindən (www.google.az – Bizim Cəbiş müəllim (film 1969) – 4-cü dəqiqə fraqmenti) bir fraqmenti nümayiş etdirir. (youtube.com)

**Köməkçi sual:** Bu filmdəki şagirdlər hansı düzgün olmayan, səhv hərəkətlərə yol verdilər?

Şagirdlərin cavabları dinlənilir. Müəllim onların fikirlərinə diqqətlə yanaşır. Müəllim şagirdlərin düzgün cümlə qurmaq bacarıqlarına nəzarət edir.

**Tədqiqat sualı:** Sizcə, müəllimi aldatmaq olarmı?

**Tədqiqatın aparılması:** Tədqiqat dərslik üzərində işlə başlanır. Müəllim tədqiqat sualına cavab tapmaq üçün mətni şagirdlərə oxudurur. Onların cümlələri ifadəli oxumalarına fikir verir. "Sözlük" və "Söz ehtiyatı"ndakı sözlərin mənaları izah edilir. Sonra sinif 3 qrupa bölünür. Mətni mənimsətmək məqsədilə qruplar üzrə iş aparılır. Hər qrupa fərdi iş verilir:



Çap üçün deyil

1-ci qrup: 1, 6 №-li çalışmalar
2-ci qrup: 2, 7 №-li çalışmalar
3-cü qrup: 3, 4 №-li çalışmalar.

Şagirdlər çalışmaları yerinə yetirdikdən sonra onları təqdim edirlər. Cavablar qiymətləndirilir. Sonra 5-ci çalışma əsasında şagirdlər debata qoşulurlar.

Müəllim şagirdlərin diqqətini yeni dil qaydaları ilə praktik tanışlığa cəlb etmək üçün 7-ci çalışmadan keçid kimi istifadə edir. 8 №-li çalışma bütün siniflə qruplarla yerinə yetirilir. Hər qrup bir şəxs əvəzliyini hallar üzrə dəyişib yazırlar. Müəllim onların fəaliyyətinə nəzarət edir. "Bunları bilirsinizmi" rubrikası vasitəsilə şəxs əvəzlikləri şagirdlərə praktik yolla xatırladılır. Şəxs əvəzlikləri ilə praktik tanışlıq, nitqdə onlardan yerli-yerində istifadə bacarıqlarının formalaşdırılması 9, 10-cu çalışmalarla bir daha möhkəmləndirilir.

**Məlumat mübadiləsi:** Şagirdlər aldatmağın mənfi cəhət olduğunu müzakirə edirlər. "Yalan söz üz qızardar" atalar sözünün mətnin məzmunu ilə bağlı olduğu fikrinə gəlirlər.

**Nəticə:** Zarafat etmək istədiyin adamla münasibətini əvvəlcədən müəyyənləşdirmək lazımdır. Özündən yaşca böyük insanlarla xoşagəlməz zarafat etmək yolverilməzdir. Xüsusən də bu sənin müəllimindirsə. Hər şeyi əvvəlcədən ölçüb-biçmək, öz xeyrin naminə kiməsə yalan satmaq pis hərəkətdir. İnsan yaşa dolduqda uşaqlıqda buraxdığı səhvin acısını çəkir. Gülüş günündə zarafatla öz yaşıdlarını aldatmaq isə insanın əhvalını yaxşılaşdırır, bu artıq bir ənənəyə çevrilmişdir.

**Yaradıcı tətbiqetmə:** Gülüş günü ilə bağlı bir neçə zarafat xatırlayıb danışın.
**Qiymətləndirmə:** Müvafiq cədvələ əsasən aparılır.
**Ev tapşırığı:** Mətnin məzmununu danışmaq.

## DƏRS 53. SÖZ (1 saat)

| № | Gözlənilən təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Dinlədiyi mətndəki əsas fikri müəyyənləşdirir. | 1.1.2 | Əd.-1.2.4.<br>X.d.-3.1.3. |
| 2 | Müzakirə olunan mövzu ilə bağlı mülahizələrini bildirir. | 2.1.3 | A.t.-4.1.1. |
| 3 | Mətndəki sözləri orfoepik qaydalara uyğun oxuyur. | 3.1.2 | İn.-3.1.3.<br>H.b.-3.1.1. |
| 4 | Sait və samitlərin, mürəkkəb sözlərin yazılış qaydalarına, cümlənin sonunda və dialoqlarda durğu işarələri qaydalarına əməl edir. | 4.1.3 | |

**Dərsin tipi:** İnduktiv.
**Dərsin forması:** Böyük və kiçik qruplarla iş.
**Dərsin üsulu:** Əqli hücum, müzakirə, təqdimatlar. BİBÖ

Çap üçün deyil

**Resurslar:** Dərslik, dəftər, internetə qoşulmuş kompyuter, proyektor, iş vərəqləri.

**Motivasiya:** Müəllim elektron lövhədə "Şah İsmayıl Xətai" sənədli filmindən Xətainin görüntüləri olan hissəni nümayiş etdirir: (Google.az şah İsmayıl Xətai -- Youtube)

**Köməkçi sual:** Bu görüntülərdə tez-tez hansı tarixi şəxsiyyətin adı çəkilir? Onun haqqında nə bilirsiniz?

Şagirdlərin cavabları dinlənilir. Müəllim onları istiqamətləndirərək Xətai sözünü alır.

**Tədqiqat sualı:** Böyük sərkərdə və dövlət xadimi Şah İsmayıl Xətainin həm də gözəl və mənalı şeirlər yazdığını bilirdinizmi? Bilmək istəyirsinizsə, biz onun hansı mövzuda yazdığı əsərlə tanış olacağıq, bu tapmacanın cavabını tapın:

Adı var, özü yox. (söz kəlməsi alınır)

**Tədqiqatın aparılması:** Sinif 3 qrupa bölünür. Hər qrupa iş vərəqləri paylanır. Hər iş vərəqində bir atalar sözü yazılıb. Şagirdlərə atalar sözlərinin mənalarını izah etmək təklif olunur.

1-ci iş vərəqinin sualı: 1. Söz qılıncdan itidir. 2. Sözü uzadarsan, bəsdir, – deyərlər.

2-ci iş vərəqinin sualı: 1. Sözünü bilməyənə aşağı başda da yer yoxdur. 2. Söz götürənin, yer oturanındır.

3-cü iş vərəqinin sualı: 1. Söz var el içində, söz var ev içində. 2. Saqqalım yoxdur, sözüm keçmir.

Şagirdlər təqdimata hazırlaşırlar. Fikirlərini düzgün şəkildə ifadə etmək üçün müəllim onlara istiqamət verir. Maraqlı təqdimatlar qiymətləndirilir.

Dərslikdəki "Söz" şeiri ifadəli şəkildə oxutdurulur. Çətin söz və ifadələrin mənası izah edilir. Şifahi olaraq dərslikdəki 11, 12, 13, 14, 16 №-li çalışmalar yerinə yetirilir.

Dilin qrammatik normalarını mənimsətmək və möhkəmlətmək məqsədilə qruplarla iş formasında çalışma № 17, 18, 19, 21 üzərində yazılı iş aparılır. Şagirdlər praktik şəkildə işarə əvəzlikləri ilə tanış edilirlər. Şifahi və yazılı nitqlərində tez-tez işlətdikləri bu sözlərin işarə məqsədilə işləndiyinə diqqət yetirirlər. Məlumatın mənimsədilməsi məqsədilə 22-ci çalışma bütün siniflə yerinə yetirilir.

**Məlumat mübadiləsi:** "Atalar sözü - sözlərin gözü" rubrikasında verilmiş atalar sözlərinin mənaları müzakirə edilir. Çalışma № 20-də verilmiş tapmacanın cavabı haqqında məlumat mübadiləsi aparılır.

**Nəticə:** Söz çox qiymətli bir xəzinədir. Ağızdan çıxan sözü heç vaxt geri qaytarmaq olmaz. Ona görə də bir sözü deməzdən əvvəl düşünmək, götür-qoy etmək, "sözü ağzında bişirmək" lazımdır. Çünki "söz ağzından çıxanacan sənindir". Danışanda gərək sözü yerində işlətməyə çalışasan ki, yersiz sözə görə utanmayasan. Böyük şairimiz Məhəmməd Füzuli sözü canla eyniləşdirmiş, "söz candır" demişdir. Nizami Gəncəvi isə təzə sözü köhnə qızılla müqayisə etmiş, sözün daha qiymətli olduğu fikrini söyləmişdir: Söz sərrafı söylədi: Söz qızılın naxşıdır.

**Yaradıcı tətbiqetmə:** Söz haqqında başqa atalar sözləri tapmaq olar.

**Qiymətləndirmə:** Müvafiq cədvələ əsasən aparılır.

**Ev tapşırığı:** Şeirin məzmununu danışmaq.

Çap üçün deyil

## DƏRS 54. BALACA BAĞBAN (1 saat)

| № | Gözlənilən təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Dinlədiyi mətndəki əsas fikri müəyyənləşdirir. | 1.1.2 | Əd.-1.3.4.<br>X.d.-3.1.4. |
| 2 | Müzakirə olunan mövzu ilə bağlı mülahizələrini bildirir. | 2.1.3 | A.t.-2.1.1.<br>H.b.-1.2.1. |
| 3 | Mətndə tanış olmadığı sözlərin mənasını lüğətlərdən istifadə etməklə müəyyənləşdirir. | 3.1.1 | |
| 4 | Sait və samitlərin, mürəkkəb sözlərin yazılış qaydalarına, cümlənin sonunda və dialoqlarda durğu işarələri qaydalarına əməl edir. | 4.1.3 | |

**Dərsin tipi:** İnduktiv.

**Dərsin forması:** Böyük və kiçik qrupla iş.

**Dərsin üsulu:** Əqli hücum, müzakirə, təqdimatlar.

**Resurslar:** Dərslik, dəftər, proyektor, elektron lövhə, iş vərəqləri.

**Motivasiya:** Müəllim elektron lövhədə 2 slayd nümayiş etdirir. 1-ci slaydda yamyaşıl, üzərində meyvələr olan ağacların təsviri verilib. 2-ci slaydda isə tək-tük qurumuş budaqları ilə seçilən ağacları olan bağın təsviri verilmişdir.

**Köməkçi sual:** Gördüklərinizi təsvir edə bilərsinizmi? Şagirdlər gördüklərini təsvir edirlər. Müəllim onların nitq səhvləri ortaya çıxarsa, düzəlişlər edir.

**Tədqiqat sualı:** "Əkiblər yemişik, əkirik yesinlər" atalar sözündə ifadə olunan fikir necə başa düşülməlidir? Slaydda gördüyünüz hansı bağın sahibi olmaq istərdiniz? Səfalı və gözəl bağın sahibi olmaq üçün nə etmək lazımdır?

**Tədqiqatın aparılması:** Suallara cavab tapmaq məqsədilə müəllim sinfi 3 qrupa bölür. Onlara iş vərəqləri paylayır. Hər iş vərəqində bir atalar sözü yazılıb. Şagirdlərə atalar sözünün mənasını izah etmək tapşırığı verilir.

<u>1-ci iş vərəqinin tapşırığı:</u> Bağ sahibsiz olmaz.

<u>2-ci iş vərəqinin tapşırığı:</u> Bağ salan barın yeyər.

<u>3-cü iş vərəqinin tapşırığı:</u> Bağa baxarsan bağ olar, baxmazsan dağ olar.

Şagirdlər təqdimata hazırlaşırlar. Sonra tapşırıqları təqdim edirlər. Fərqli təqdimatlar qiymətləndirilir.

Dərslikdəki "Balaca bağban" mətninin 1-ci hissəsi oxudulur. Məzmunu üzərində iş aparılır. "Sözlük" və "Söz ehtiyatı"nın mənimsədilməsi üçün müvafiq izahat işi aparılır, sözlük cümlələrdə işlədilir.

Mətnin məzmununu məminsətmək məqsədilə çalışma № 1 şifahi şəkildə icra edilir. 2-ci çalışma düşündüklərini sərbəst şəkildə ifadə etmək bacarığını inkişaf etdirmək məqsədinə xidmət edir. Tərcümə bacarığının inkişafı 4, 9-cu çalışmalarla reallaşdırılır. 7, 8, 9-cu çalışmalar lüğətin genişləndirilməsi və fəallaşdırılmasına, 3, 5-ci çalışmalar isə dilin qrammatik normalarının mənimsədilməsi və durğu işarələrindən istifadə, düzgün yazı bacarıqlarının formalaşdırılmasına imkan verir.

Çap üçün deyil

Müəllim o, bu əvəzliklərindən sonra vergül işarəsinin qoyulması barədə qaydanı şagirdlərə praktik şəkildə başa salır, 5-ci çalışma vasitəsilə mənimsəmə həyata keçirilir.

**Məlumat mübadiləsi:** Ağaclara qulluq etmək, onlara qayğı ilə yanaşmaq, vaxtlı-vaxtında calaq işlərini aparmaq, onları düzgün suvarmaq kimi məsələlər ətrafında fikir mübadiləsi aparılır.

**Nəticə:** Təbiəti qorumaq, ekologiyanı təmiz saxlamaq, ətraf aləmdə atmosferin oksigenlə zəngin olmasını təmin etmək məqsədilə ağacları qorumaq, onların sayını çoxaltmaq, meşə zolaqlarını genişləndirmək lazımdır. Hər kəs heç olmasa bir ağac əkib ona qulluq etsə, təbiətə, nəticədə özünə çox xeyir vermiş olar. Bağbanlıq şərəfli sənətdir. "Bağbansız bağ olmaz" deyiblər. Ona görə də bu sənəti öyrənmək, onu inkişaf etdirmək lazımdır.

**Yaradıcı tətbiqetmə:** "Ağaclara qulluq insanın özünə qulluqdur?" mövzusunda kiçik bir inşa yazmaq.

**Qiymətləndirmə:** Müvafiq cədvələ əsasən aparılır.

**Ev tapşırığı:** "Sözlük"dəki sözlərə aid cümlələr yazmaq.

## DƏRS 55. MEŞƏNİN QORXUSU (1 saat)

| № | Gözlənilən təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Dinlədiyi mətndəki əsas fikri müəyyənləşdirir. | 1.1.2 | Əd. -1.2.4.<br>X.d.-2.1.1. |
| 2 | Nitq prosesində sait və samitləri düzgün tələffüz edir. | 2.1.1 | A.t.-2.1.2<br>İn.-3.2.2 |
| 3 | Deyəcəyi əsas fikri müəyyənləşdirir. | 2.1.4 | |
| 4 | Mətndəki sözləri orfoepik qaydalara uyğun oxuyur. | 3.1.2 | H.b.-4.2.1. |
| 5 | Sait və samitlərin, mürəkkəb sözlərin yazılış qaydalarına, cümlənin sonunda və dialoqlarda durğu işarələri qaydalarına əməl edir. | 4.1.3 | |

**Dərsin tipi:** İnduktiv.

**Dərsin forması:** Böyük və kiçik qruplarla iş.

**Dərsin üsulu:** Əqli hücum, təqdimat, müzakirə.

**Resurslar:** Dərslik, dəftər, DVd pleyer və ya proyektor, disk.

**Motivasiya:** Müəllim elektron lövhədə "Meşəyə insan gəlir"("Azərbaycanfilm") cizgi filmini göstərir.

**Köməkçi sual:** Ekranda gördüklərinizi öz sözlərinizlə təsvir edə bilərsinizmi?

Şagirdlər gördükləri mənzərəni təsvir edirlər. Müəllim onların nitq səhvlərində düzəlişlər edir.

**Tədqiqat sualı:** Sizcə, nəyə görə meşə sakinləri insanın gəlişindən qorxuya

Çap üçün deyil

düşüblər? İnsanın meşəyə necə zərəri dəyə bilər?

**Tədqiqatın aparılması:** Bu suallar ətrafında sərbəst düşünmək məqsədilə sinif 3 qrupa bölünür. Hər qrupa iş vərəqləri paylanır. Şagirdlər işçi vərəqlərində verilən suallar ətrafında təqdimat hazırlayırlar.

<u>1-ci iş vərəqinin sualı:</u> Meşələrin təbiətə nə kimi xeyri ola bilər?

<u>2-ci iş vərəqinin sualı:</u> Meşələri qorumaq nə üçün lazımdır?

<u>3-cü iş vərəqinin sualı:</u> Təbiətin qoynunda olarkən insanlar nələrə əməl etməlidirlər?

Şagirdlərə təqdimatlara hazırlaşmaq üçün xüsusi vaxt ayrılır. Vaxt tamam olduqda təqdimatlar dinlənilir. Hər qrup digərinin cavabına öz münasibətini bildirib əlavələr edə bilər. Fərqli təqdimat edənlər qiymətləndirilir.

Dərslikdəki "Meşənin qorxusu" şeiri ifadəli şəkildə oxunur. Şagirdlərin danışıq səslərini düzgün tələffüz etmələrinə, orfoepik qaydalara uyğun şəkildə oxumalarına diqqət yetirilir. Şeirin məzmununu mənimsətmək məqsədilə dərslikdəki 10, 11, 12, 16 nömrəli çalışmalar üzərində iş aparılır.

Dil materiallarını təkrar etmək, şagirdlərin düzgün yazı bacarıqlarını möhkəmləndirmək üçün 13, 14, 17 nömrəli çalışmalar üzərində iş aparılır. Şagirdlərin düzgün tələffüz bacarıqlarının təkmilləşdirilməsi və nitqlərində hazır ifadələrdən, atalar sözlərindən istifadə imkanlarının genişləndirilməsi 14 və 18-ci çalışmalarla həyata keçirilir. Çalışmanın mətnində verilmiş atalar sözlərindəki səhvlər düzəldilir.

**Məlumat mübadiləsi:** Şagirdlər təbiətin ən gözəl güşələrindən biri sayılan meşələrin qorunması, onların təmiz saxlanması, qoynunda dincələrkən təhlükəsizlək qaydalarına əməl etməyin zəruri olması haqqında fikir mübadiləsi aparırlar. Müəllimin təqdim etdiyi "Meşəyə od düşəndə quru da yanar, yaş da" atalar sözünün mənası müzakirə edilir.

**Nəticə:** Təbiət bizim ümumi evimizdir. Onun hər bir guşəsi bizim üçün əzizdir. Onu qorumalı, qədir-qiymətini bilib, mühafizə etməliyik. Təbiətin qoynunda dincələrkən, ehtiyatsızlıq üzündən törədilən kiçik bir xəta böyük bəlaya (yanğına) səbəb ola bilər. Meşələri məhv etmək, qırmaq olmaz: kəsilən hər bir ağac insan üçün ən zəruri həyat mənbəyi olan oksigenin oğurlanmasıdır. Oksigensiz həyat yoxdur!!! Unutmaq olmaz ki, təbiətə qayğı, meşələrin qorunması insanlığa qayğıdır!

**Yaradıcı tətbiqetmə:** Meşələrin faydası barədə internet şəbəkəsindən məlumat toplamaq; "Meşələr, meşələr, doğrudan da, siz
Yayda da, qışda da bir baharsınız!" mövzusunda kiçik inşa yazmaq.

**Qiymətləndirmə:** Müvafiq cədvələ əsasən aparılır.

**Ev tapşırığı:** Şeiri əzbərləmək.

Çap üçün deyil

## DƏRS 56. BALACA BAĞBAN 2-ci hissə (1 saat)

| № | Gözlənilən təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Suallara cavab verir. | 1.1.1 | Əd.-1.2.2. |
| 2 | Müzakirə olunan mövzu ilə bağlı mülahizələrini bildirir. | 2.1.3 | A.t.-1.3.1.<br>H.b.-1.2.1. |
| 3 | Mətndəki əsas fikrə uyğun fakt və hadisələri müəyyənləşdirir. | 3.1.3 | X.d.-3.1.4.<br>İn.-3.2.3. |
| 4 | Müxtəlif yazı formalarını (ifadə, inşa, hekayə) fərqləndirir | 4.1.1 | |

**Dərsin tipi:** İnduktiv.

**Dərsin forması:** Böyük və kiçik qruplarla iş.

**Dərsin üsulu:** Əqli hücum, təqdimat, müzakirə, sual-cavab, rollu oyun.

**Resurslar:** Dərslik.

**Motivasiya:** Müəllim “Balaca bağban” mətnindən tanış olduqları babanı və nəvəni şagirdlərin yadına salır. Onları təsvir etməyi xahiş edir.

**Köməkçi sual:** “Hər iş öz ustadı əlində asandır” atalar sözünün “Balaca bağban” mətni ilə əlaqəsi varmı?

Şagirdlər öz fikirlərini söyləyirlər. Hər kəsin cavabı diqqətlə dinlənilir. Lazım gələrsə, müəllim tərəfindən düzəliş xarakterli müdaxilələr edilir.

**Tədqiqat sualı:** Sizcə, Kərim baba bağbanlığın sirrini Araza öyrədə biləcəkmi?

**Tədqiqatın aparılması:** Müəllim şagirdləri 3 qrupa bölür. Tədqiqat sualına cavab yazmaq üçün şagirdlərə iş vərəqləri paylanır. Şagirdlər öz fikirlərini yazırlar. Ən maraqlı təqdimatlar müəllim tərəfindən fərqləndirilir.

Şagirdlər “Balaca bağban” mətninin 2-ci hissəsi ilə tanış olurlar. Babanın Araza bağbanlığın sirlərini öyrətməsi haqqında dərslikdən məlumat alırlar. Mətnin məzmununu mənimsətmək məqsədilə çalışma 1, 2, 6 üzərində iş aparılır. Şagirdlər deyilənləri və mətndən çıxardıqları nəticəni Nizaminin hikmət xəzinəsindən verilmiş aforizmlə əlaqələndirirlər. 6-cı çalışma üzərində iş vasitəsilə şagirdlərin diqqəti həm də nitqdə sual əvəzliklərinin roluna yönəldilir. “Bunları bilirsinizmi?” rubrikasındakı sual əvəzlikləri haqqında verilmiş sadə məlumat şagirdlərin diqqətinə çatdırılır.

Şagirdlərin tərcümə bacarığını inkişaf etdirmək məqsədilə 4, 8-ci çalışmalar yerinə yetirilir. 7-ci çalışma qruplarla iş formasında icra etdirilir. Şagirdlərin zehni gərginliyini azaltmaq məqsədilə çalışma 10-dakı lətifənin üzərində iş aparılır. Lətifə rollar üzrə oxutdurulur (Sinfin səviyyəsinə - dili bilmək bacarığına görə lətifəni səhnələşdirmək də olar. Əyani şəkildə göstərilən lətifənin məzmununu daha yaxşı qavranılır). Dilin qrammatik normalarına diqqət yetirmək məqsədilə lətifədə işlənmiş əvəzliklər sadalanır. Say bildirən sözlər seçilib səsləndirilir (çalışma 11).

**Məlumat mübadiləsi:** Dərslikdə verilmiş atalar sözlərinin mənaları müzakirə olunur. Bu atalar sözlərinin mətnin məzmunu ilə bağlılığı haqqında fikir mübadiləsi



Çap üçün deyil

aparılır. Nizaminin hikmət xəzinəsindən verilmiş aforizmlər təhlil edilir.

**Nəticə:** "Babalar əkiblər yemişik, biz də əkərik, gələcək nəsillər yeyər" fikri əməksevər insanlara aiddir. Hər vicdanlı zəhmətkeş öz bacarığını gənc nəslə öyrətməkdən yorulmamalıdır və bunu vicdan borcu hesab etməlidir. Cavanlar da yaşlı nəslin bildikləri və əldə etdikləri təcrübəni öyrənməyə maraq göstərməli, öyrəndiklərini daha da təkmilləşdirməlidirlər. Doğrudan da, təcrübə ən qiymətli mirasdır. Bu mirasa isə ancaq əməksevərlik, yaxşı işlər görmək, insanlara faydalı olmaq istəyi və arzusu ilə yiyələnmək olar.

**Yaradıcı tətbiqetmə:** Hər şagird qulluq etdiyi otaq bitkisi, gül-çiçəklər, ağac və ya kol haqqında danışsın.

**Qiymətləndirmə:** Müvafiq cədvələ əsasən aparılır.

**Ev tapşırığı:** Dərslikdəki çalışma nömrə 5 üzərində işləmək (kiçik ev inşası yazmaq.)

## DƏRS 57. AZƏRBAYCANIN "QIRMIZI KİTAB"I (1 saat)

| № | Gözlənilən təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Deyəcəyi əsas fikri müəyyənləşdirir. | 2.1.4 | A.t.-2.1.2.<br>H.b.-4.3.1. |
| 2 | Mətndə tanış olmadığı sözlərin mənasını lüğətlərdən istifadə etməklə müəyyənləşdirir. | 3.1.1 | İn.-3.2.3.<br>X.d.-3.1.3. |
| 3 | Mətndəki sözləri orfoepik qaydalar uyğun oxuyur. | 3.1.2 | Əd.-1.3.2. |
| 4 | Topladığı fakt və məlumatlara əsasən plan tərtib edir; | 4.1.2 | |
| 5 | Sait və samitlərin, mürəkkəb sözlərin yazılış qaydalarına, cümlənin sonunda və dialoqlarda durğu işarələri qaydalarına əməl edir. | 4.1.3 | |

**Dərsin tipi:** İnduktiv.

**Dərsin forması:** Böyük qrupla iş.

**Dərsin üsulu:** Əqli hücum, sual-cavab, müzakirə.

**Resurslar:** Dərslik, dəftər, proyektor, elektron lövhə,

**Motivasiya:** Müəllim proyektorda internet səhifələrindən əldə etdiyi nadir bitkilərin, ağacların, heyvanların şəkillərini slaydlarla şagirdlərə göstərir.

Yardımçı sual: Təbiətin gördüyünüz bu sərvətlərinə harada rast gəlmişsiniz?

Şagirdlərin cavabları dinlənilir.

**Tədqiqat sualı:** "Nadir" sözünün mənasını necə başa düşürsünüz və bu sözdən biz harada, nə zaman istifadə edirik?

**Tədqiqatın aparılması:** Müəllim bütün siniflə işləyərək müxtəlif suallarla şagirdlərə müraciət edir:

Çap üçün deyil

1. Nadir ağaclar dedikdə nə başa düşürsünüz?
2. Hansı ağaclar nadir sayılır?
3. Nadir heyvanlar dedikdə nə başa düşürsünüz?
4. Hansı heyvanlar nadir sayılır?
5. Nadir quşlar dedikdə nə başa düşürsünüz?
6. Hansı quşlar nadir sayılır?
7. Nadir bitkilər, çiçəklər dedikdə nə başa düşürsünüz?
8. Hansı bitkilər, çiçəklər nadir sayılır?

Şagirdlər suallara cavab verirlər. Müəllim adlarını yaddan çıxardıqları heyvan, bitki, quş və ağacları şagirdlərin yadına salır, onları istiqamətləndirir. Sonra fərqli cavablar qiymətləndirilir.

Şagirdlər dərslikdəki "Azərbaycanın "Qırmızı kitabı" mətnini hissə-hissə oxuyurlar. "Sözlük" və "Söz ehtiyatı"nda verilmiş çətin sözlər izah edilir.

Çalışma nömrə 12, 13, 14 üzərində iş aparılır. Uşaqlar "Bunları bilirsinizmi?" rubrikasından sayla tanış olduqlarından çalışma nömrə 15 üzərində işləyirlər. Çalışma 16-da sözlərin quruluşca növləri, 19-da ("onlar" əvəzliyini müxtəlif hallarda işlədərək ) əvəzlik mövzusu ilə bağlı bacarıqlar təkrarlanır, təkmilləşdirilir. Çalışma 18, 20-dəki cümlələr tərcümə edilir.

"Yadda saxlayın" rubrikasında verilmiş sözlər şagirdlərin diqqətini orfoepiya və orfoqrafiya qaydalarına, yazılı və şifahi nitqlərində müvafiq qaydalara əməl etməyin vacibliyinə yönəldir.

**Məlumat mübadiləsi:** Şagirdlər adları "Qırmızı kitab"a düşən vətənimizin sərvətləri ilə tanış olduqdan sonra bu sərvətlərin necə qorunması mövzusunda fikir mübadiləsinə qoşulurlar. Meşə quldurlarına, brakonyerlərə, icazəsiz ovçulara qarşı hansı tədbirlərin görülməsini müzakirə edirlər. Hərə bir fikir söyləyir. Müəllimin məsləhəti və şagirdlərin istəyi ilə qərara alınır ki, "Təbiətə yardım" dərnəyi yaratsınlar. Bu dərnəyə əvvəl yaşıdlarını, sonra isə digər məktəbliləri də cəlb etsinlər.

**Nəticə:** Təbiəti qorumaq hər bir vətəndaşın borcudur. Təbiəti qorumaq təkcə ağacları kəsməmək, heyvanları öldürməmək, quşları ovlamamaq demək deyil. Təbiəti qorumaq həm də ağac əkmək, quşların, heyvanların sayını artırmaq, gülləri, çiçəkləri, yaşıllıqları öz şəxsi məqsədlərinə görə tələf etməməkdir. Arzumuz "Qırmızı kitab"ı "Yaşıl kitab"la əvəz etməkdir.

**Yaradıcı tətbiqetmə:** Təklif olunan "təbiətə yardım" dərnəyinin proqramını tərtib etmək.

**Qiymətləndirmə:** Müvafiq cədvələ əsasən aparılır.

**Ev tapşırığı:** Kökü kəsilən bir heyvan, ağac, çiçək, quş, bitki haqqında məlumat toplamaq.

Çap üçün deyil

## DƏRS 58. RƏHBƏRİN SEVDİYİ GÜLLƏR (1 saat)

| № | Gözlənilən təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Dinlədiyi mətndəki əsas fikri müəyyənləşdirir. | 1.1.2 | A.t.-4.1.1.<br>X.d.-3.1.4. |
| 2 | Müzakirə olunan mövzu ilə bağlı mülahizələrini bildirir. | 2.1.3 | |
| 3 | Mətndə tanış olmadığı sözlərin mənasını lüğətlərdən istifadə etməklə müəyyənləşdirir. | 3.1.1 | H.b.-2.1.2.<br>İn.-3.2.2. |
| 4 | Topladığı fakt və məlumatlara əsasən plan tərtib edir; | 4.1.2 | Əd.-1.3.4. |
| 5 | Sait və samitlərin, mürəkkəb sözlərin yazılış qaydalarına, cümlənin sonunda və dialoqlarda durğu işarələri qaydalarına əməl edir. | 4.1.3 | |

**Dərsin tipi:** İnduktiv.

**Dərsin forması:** Böyük və kiçik qruplarla iş.

**Dərsin üsulu:** Əqli hücum, rollu oxu, müzakirə, təqdimat.

**Resurslar:** Dərslik, dəftər, internetə qoşulmuş kompyuter, proyektor, elektron lövhə, iş vərəqləri.

**Motivasiya:** Müəllim proyektor vasitəsilə “Heydər Əliyev və uşaqlar” sənədli filmini nümayiş etdirir.

**Köməkçi sual:** Kadrlarda kimi görürsünüz? Onun haqqında nə bilirsiniz?

Şagirdlər müəllim tərəfindən verilmiş suallara cavab verirlər.

**Tədqiqat sualı:** Ümummilli liderimiz Heydər Əliyevi niyə “uşaqların dostu” adlandırmaq olar?

**Tədqiqatın aparılması:** Müəllim şagirdləri 3 qrupa bölür və hər qrupa iş vərəqləri payalyır.

1-ci iş vərəqinin sualı: H.Əliyevin ictimai fəaliyyəti haqqında nə bilirsiniz?

2-ci iş vərəqinin sualı: H.Əliyevin uşaqlar üçün etdiyi hansı xeyirxahlıqlar haqqında məlumatınız var?

3-cü iş vərəqinin sualı: Baxdığınız kadrlarda daha çox diqqətinizi nə cəlb etdi?

Tapşırığın yerinə yetirilməsində müəllim şagirdləri istiqamətləndirir, onlara bildiklərini xatırladır. Şagirdlər onlara verilmiş vaxt başa çatdıqdan sonra hazırladıqları cavabları təqdim edirlər. Cavablar dinlənilir. Fərqli cavablar qiymətləndirilir.

“Rəhbərin sevdiyi güllər” mətni rollar üzrə oxunur. Çətin sözlər izah edilir. Çalışma nömrə 1, 2 üzərində iş mətnin məzmununun qavranılmasına istiqamətləndirilmişdir. 3, 4-cü çalışmalar lüğət üzərində işə, 5, 6, 7, 8-ci çalışmalar dilin qrammatik təbiətinin dərk edilməsinə xidmət edir. Müəllimin bu çalışmalar üzərində işi qruplar şəklində təşkil etməsi tövsiyə olunur. 8-ci çalışma şagirdlərdə linqvistik təfəkkür elementlərinin formalaşdırılmasına, həmçinin mühakimə qabiliyyətinin inkişafına imkan verir.

**Məlumat mübadiləsi:** Şagirdlər H.Əliyev haqqında çəkilmiş filmlə oxuduqları

Çap üçün deyil

mətni müqayisə edirlər. Onlar ulu öndərimizin uşaqlara olan sonsuz məhəbbətindən söhbət açır, onun təbiətə, gözəlliyə necə böyük marağını müqayisə edirlər.

**Nəticə:** Biz ulu öndərimizin bizə miras qoyduğu vətənə, xalqa, təbiətə məhəbbətindən nümunə götürməliyik. Ulu öndər həmişə uşaqları sevmiş, onları vətənimizin sabahı adlandırmışdır.

**Yaradıcı tətbiqetmə:** H.Əliyevin uşaqlar, gənclər haqqında söylədiyi aforizmlərdən bir neçəsini toplayıb yazmaq.

**Qiymətləndirmə:** Müvafiq cədvələ əsasən aparılır.

**Ev tapşırığı:** H.Əliyev haqqında planlı təqdimat etmək.

## DƏRS 59. BİRİ GÜNƏŞ, BİRİ HEYDƏR (1 saat)

| № | Gözlənilən təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Dinlədiyi mətndəki əsas fikri müəyyənləşdirir. | 1.1.2 | A.t.-4.1.1.<br>H.b.-3.2.2. |
| 2 | Nitq prosesində jest və mimikalardan istifadə edir. | 2.1.2 | İn.-3.2.3.<br>X.d.-3.1.4. |
| 3 | Mətndəki sözləri orfoepik qaydalara uyğun oxuyur. | 3.1.2 | Əd.-1.3.2. |
| 4 | Sait və samitlərin, mürəkkəb sözlərin yazılış qaydalarına, cümlənin sonunda və dialoqlarda durğu işarələri qaydalarına əməl edir. | 4.1.3 | |

**Dərsin tipi:** İnduktiv.
**Dərsin forması:** Böyük və kiçik qruplarla iş.
**Dərsin üsulu:** Əqli hücum, klaster, müzakirə, təqdimat.
**Resurslar:** Dərslik, dəftər, proyektor
**Motivasiya:** Müəllim elektron lövhədə belə bir slayd işıqlandırır.




**Köməkçi sual:** Burada nə təsvir olunmuşdur? Cavablar dinlənilir.

**Tədqiqat sualı:** Nə üçün H.Əliyev cənablarının şəkli məhz günəşlə birlikdə təsvir olunmuşdur?

**Tədqiqatın aparılması:** Verdiyi suala cavab almaq məqsədilə şagirdləri 3 qrupa



Çap üçün deyil

bölür və onlara iş vərəqləri paylayır.

1-ci iş vərəqinin sualı: Günəşin əhəmiyyəti (insanlara, bütün canlı və cansız təbiətə) nə ilə müəyyənləşir, ölçülür?

2-ci iş vərəqinin sualı: H. Əliyevin Azərbaycan üçün həyata keçirdiyi böyük layihələrdən hansı barədə məlumatınız var?

3-cü iş vərəqinin sualı: Günəşlə H.Əliyevin oxşar və fərqli cəhətlərini cədvəldə yerləşdirin.

| Oxşar cəhətlər | Fərqli cəhətlər |
| --- | --- |

Uşaqlar hazırladıqları cavabları təqdim edirlər. Təqdimat zamanı şagirdlər bir-birlərinə kömək edə bilərlər. Cavablar dinlənilir və qiymətləndirilir.

Müəllim "Biri günəş, biri Heydər" şeirini şagirdlərə oxutdurur. Çətin sözləri izah edir. Sonra çalışmalar üzərində iş aparılır. Çalışma 9, 10, 13, 14, 16, 17 üzərində şifahi iş aparıla bilər. Bunlardan 10, 16, 17-ci çalışmalar lüğət üzərində iş aparılması üçün nəzərdə tutulmuşdur. 15, 18-ci çalışmalar yazılı icra edilməlidir. Bu çalışmalar şagirdlərin orfoqrafik bacarıqlarının təkmilləşdirilməsinə və dilin qrammatik təbiətinin qavranılmasına imkan yaradır.

**Məlumat mübadiləsi:** Şagirdlər şeiri oxuduqdan sonra tədqiqat zamanı apardıqları oxşar və fərqli cəhətlərlə şeirin məzmunu arasındakı yaxınlığı qeyd edirlər. Bir daha adını eşitdikləri, əməllərindən xəbərdar olduqları, haqqında ancaq müsbət xüsusiyyətlər oxuduqları "sevimli Baba" adlandırdıqları H.Əliyevin əməllərini, yaratdıqlarını müzakirə edirlər.

**Nəticə:** Ümummilli liderimiz H.Əliyev Azərbaycan xalqı üçün qürur mənbəyidir. Heydər baba bizim fəxrimizdir. O, xalqımızın xoşbəxt yaşaması, uşaqların xoşbəxt gələcəyi üçün əlindən gələni əsirgəməmişdir. H.Əliyev Azərbaycanın gələcək inkişafı üçün bir sıra böyük layihələrə (Bakı – Ceyhan kimi) imza atmışdır. vətənimizin üzərini qara buludlar alanda (20 Yanvar faciəsi baş verən zaman; ölkədə vətəndaş müharibəsi təhlükəsi yaşanan zaman) ulu öndər vətənin göylərində bir günəş kimi doğdu və canından artıq sevdiyi xalqının köməyinə gəldi. Ulu öndər deyirdi: "Mən ömrümün qalan hissəsini xalqıma bağışlayıram". Biz bütün həyatımız boyu ona rəhmət diləməli və minnətdar olmalıyıq.

**Yaradıcı tətbiqetmə:** H.Əliyev haqqında təqdimat hazırlamaq.

**Qiymətləndirmə:** Müvafiq cədvələ əsasən aparılır.

**Ev tapşırığı:** Şeiri əzbərləmək.

Çap üçün deyil

## DƏRS 60. NEFT DAŞLARI (1 saat)

| № | Gözlənilən təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Dinlədiyi mətndəki əsas fikri müəyyənləşdirir. | 1.1.2 | A.t.-2.1.1. |
| 2 | Müzakirə olunan mövzu ilə bağlı mülahizələrini bildirir. | 2.1.3 | H.b.-2.3.1. |
| 3 | Mətndə tanış olmadığı sözlərin mənasını lüğətlərdən istifadə etməklə müəyyənləşdirir. | 3.1.1 | İn.-3.3.2.<br>X.d.-4.1.1. |
| 4 | Topladığı fakt və məlumatlara əsasən plan tərtib edir. | 4.1.2 | |

**Dərsin tipi:** İnduktiv.
**Dərsin forması:** Böyük və kiçik qruplarla iş.
**Dərsin üsulu:** Beyin həmləsi, təqdimat, müzakirə.
**Resurslar:** Dərslik, dəftər, proyektor, elektron lövhə, disk, iş vərəqləri.
**Motivasiya:** Müəllim proyektor vasitəsilə şagirdlərə “İnsan məskən salır” filmindən kadrlar nümayiş etdirir.
**Köməkçi sual:** Kim deyə bilər, filmin adını nə üçün “İnsan məskən salır” qoymuşlar?
Cavablar dinlənilir. Müəllim istiqamətləndirir.
**Tədqiqat sualı:** Bakıya dünya şöhrəti gətirən nefti niyə “qara qızıl” adlandırırlar?
**Tədqiqatın aparılması:** Müəllim sualına cavab almaq məqsədilə şagirdləri 3 qrupa bölür və hər qrupa iş vərəqləri paylayır.

<u>1-ci iş vərəqinin sualı:</u> Neft insanlara nə üçün lazımdır?

<u>2-ci iş vərəqinin sualı:</u> Abşeronun hansı rayonlarından neft çıxarılır?

<u>3-cü iş vərəqinin sualı:</u> Dəmir estakadalar üzərində salınmış dünya şöhrətli şəhər hansıdır? Bu şəhər haqqında nə bilirsiniz?

Müəllim hər qrupa ayrı-ayrılıqda yaxınlaşır və onları istiqamətləndirir. Şagirdlər verilmiş vaxt başa çatdıqdan sonra hazırladıqları cavabları təqdim edirlər. Fərqli cavablar qiymətləndirilir.

Şagirdlər müəllimin tapşırığı ilə “Neft daşları” mətnini oxuyurlar. Mətn rollar üzrə oxutdurulur. Çətin sözlər izah edilir. Çalışma 1, 2, 4 şifahi şəkildə yerinə yetirilir. Sonra müəllim yazılı çalışma aparmaq üçün 5, 6, 8-ci çalışmaları qruplara təqdim edir. Çalışmaların yerinə yetirilməsinə ayrılan vaxt başa çatandan sonra təqdimatlar müzakirə olunur, dəqiqləşdirmələr aparılır. Sözlərin cümlədə əlaqələnməsi imkanlarının xatırlatmaq üçün 9-cu çalışma icra etdirilir.

**Məlumat mübadiləsi:** Şagirdlər bir az əvvəl “İnsan məskən salır” filmindən gördükləri kadrla oxuduqlarını müqayisə edirlər. Neftçilərimizin ağır əməyini qiymətləndirərək onların göstərdikləri fədakarlıqları xüsusi olaraq vurğulayırlar.

Çap üçün deyil

Sonra müəllimin köməyi ilə Neft daşları və neftçilərimiz haqqında çəkilmiş filmləri xatırlayırlar.

**Nəticə:** Azərbaycan neftinin şöhrəti dünyada məşhurdur. Açıq dənizdə ilk dəfə 1948-ci ildə Azərbaycanda neft çıxarılmasına başlanılmışdır. Azərbaycan nefti 1941-1945-ci illərdə Böyük vətən müharibəsinin, demək olar ki, taleyini həll etdi. Bakının göndərdiyi neftlə təchiz olunan sovet hərbi təyyarələri düşmənin başına od-alov ələyirdi. Bakı neftinin sayəsində Hitler Almaniyası az bir zamanda Berlinə qədər geri oturduldu. Neftçilərimizin gecəsini gündüzünə qataraq çəkdikləri zəhmət hədər getmədi. Bu qalibiyyətdən ən çox Azərbaycanın payına haqq düşməli olduğu halda, Bakı şəhərinə heç "qəhrəman şəhər" adı da verilmədi.

Artıq neftimizin sahibi özümüzük. Çıxarılan neftin gətirdiyi milyonlarla, milyardlarla vəsait ölkəmizin iqtisadiyyatının dirçəldilməsinə, respublikamızda yeni-yeni uzunömürlü layihələrin həyata keçirilməsinə yönəldilir. Doğrudan da, neft əsl qızıldır, bəlkə, qızıldan da qiymətlidir. Biz həmişə neftçilərimizlə fəxr etmişik.

**Yaradıcı tətbiqetmə:** Kimin ailəsində və ya qohumlarında neftçi varsa, ondan məlumat toplayıb təqdimat hazırlamaq.

**Qiymətləndirmə:** Müvafiq cədvələ əsasən aparılır.

**Ev tapşırığı:** Mətnin məzmununu plan əsasında danışmaq.

## DƏRS 61. MUZEYLƏR (1 saat)

| № | Gözlənilən təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Müzakirə olunan mövzu ilə bağlı mülahizələrini bildirir. | 2.1.3 | A.t.-5.1.1. |
| 2 | Mətndəki əsas fikrə uyğun fakt və hadisələri müəyyənləşdirir. | 3.1.3 | Əd.-1.2.3.<br>İn.-3.2.3. |
| 3 | Sait və samitlərin, mürəkkəb sözlərin yazılış qaydalarına, cümlənin sonunda və dialoqlarda durğu işarələri qaydalarına əməl edir. | 4.1.3 | X.d.-3.1.2. |
| 4 | Müxtəlif əməli yazılır (elan, məktub) yazır. | 4.1.4 | H.b.-3.2.2. |

**Dərsin tipi:** İnduktiv.
**Dərsin forması:** Böyük və kiçik qruplarla iş.
**Dərsin üsulu:** Əqli hücum, sual-cavab, müzakirə.
**Resurslar:** Dərslik, dəftər, proyektor, elektron lövhə.
**Motivasiya:** Müəllim proyektor vasitəsillə elektron lövhədə müxtəlif sənət əsərləri nümayiş etdirir. Bunların içərisində rəsm əsərləri, zərgərlik məmulatları, xalçalar, məişət əşyaları və geyimlər vardır.
**Köməkçi sual:** Ekranda gördükləriniz nədir? Yadınızdadırmı, Azərbaycan



Çap üçün deyil

xalçaçılıq sənətinin nadir incisi olan Şeyx Səfi xalçası harada saxlanılır?

Müəllimin köməyi ilə şagirdlər gördüklərini sadalayırlar və suala cavab verirlər. (bu barədə 4-cü sinifdə məlumat alıblar)

**Tədqiqat sualı:** Gördükləriniz xalqımızın milli dəyərləridir. Bu dəyərləri biz necə qorumalıyıq ki, onlarla gələcək nəsillər də tanış olsunlar? Şeyx Səfi xalçası kimi nadir incilərimiz muzeylərdə saxlanmasa idi, bugünkü nəsillər onlar haqqında necə məlumat əldə edə bilərdilər?

**Tədqiqatın aparılması:** Müəllim verdiyi suala cavab almaq məqsədilə bütün siniflə işləyərək suallar verir:

1) Yuxarıda adı çəkilən sənət əsərlərini necə qorumaq lazımdır?
2) Onları nə üçün qorumalıyıq?
3) Daha hansı sənət əsərləri qorunur?
4) Qiymətli sənət əsərlərini qorumaq üçün onları necə saxlamalıyıq?
5) Bakı şəhərində sənət əsərlərinin qorunduğu hansı məkanları tanıyırsınız?
6) Bəs rayonlarımızda belə məkanlardan varmı?
7) Əgər varsa, hansılardır? Nümunələrlə danışın.

Müəllimin köməyi ilə şagirdlər qoyulan suallara cavab verirlər. Müəllim onları istiqamətləndirir. Nitqlərindəki nöqsanları düzəldir. Fərqli cavablar qiymətləndirilir.

"Muzeylər" mətnini müəllim hissə-hissə oxutdurur. Oxunan hissələr tərcümə edilir. Şagirdlər hər hissəni adlandırırlar. 11, 12, 13, 14-cü çalışmalar mətnin məzmunu üzərində işə həsr olunur. Şagirdlərin şifahi cavabları, mühakimə bacarıqları izlənilir. Beynəlxalq Muzeylər gününün 18 may 1977-ci ildən qeyd olunmağa başladığı müəyyənləşir.

Müəllim dilin qrammatik quruluşu ilə şagirdlərin tanışlığını praktik şəkildə davam etdirir. Bu məqsədlə tərtib olunmuş 17, 18, 19, 20, 21 nömrəli çalışmalardan istifadə olunmalıdır. Bu işləri qruplarla iş formasında aparmaq tövsiyə olunur. Sonra 22-ci çalışmadakı kiçik mətn Azərbaycan dilinə tərcümə olunur.

**Məlumat mübadiləsi:** Şagirdlər respublikamızın müxtəlif bölgələrində, şəhərlərində, paytaxtda gəzdikləri, gördükləri muzeylər haqqında fikir mübadiləsi aparırlar. Muzeyləri gəzməyin çox faydalı olduğunu, insanların dünyagörüşünü zənginləşdirdiyini bir daha təsdiqləyirlər.

**Nəticə:** Paytaxtımız Bakıda çoxlu muzeylər var: "İncəsənət muzeyi", "Tarix muzeyi", "Xalçaçılıq muzeyi", ayrı-ayrı şair və yazıçılarımızın ev muzeyləri və s. Bu muzeyləri gəzmək, milli dəyərlərimizlə yaxından tanış olmaq maraqlıdır. Hər bir kəs çalışmalıdır ki, məktəbində, kəndində və ya şəhərində olan muzey eksponatlarının zənginləşdirilməsində imkanı daxilində iştirak etsin. Tapdığı nadir maddi-mədəniyyət nümunələrini itib-batmağa qoymasın, vaxtında saxlanılmaq üçün muzeylərə təhvil versin. Beləliklə, biz tariximizin, mədəniyyətimizin nadir incilərinin itib-batmasının qarşısını alar, gələcək nəsillərin də bu incilərlə tanış olmasına şərait yarada bilərik.

**Yaradıcı tətbiqetmə:** "Ən çox hansı muzeydə olmağı xoşlayırsınız və nəyə görə?" mövzusunda təqdimat hazırlamaq.

**Qiymətləndirmə:** Müvafiq cədvələ əsasən aparılır.

**Ev tapşırığı:** Mətnin məzmununu öyrənmək.



Çap üçün deyil

## DƏRS 62. AXMAQ QURBAĞA VƏ ZANBAQ (1 saat)

| № | Gözlənilən təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Dinlədiyi mətndəki əsas fikri müəyyənləşdirir. | 1.1.2 | A.t.-1.2.2. |
| 2 | Nitq prosesində jest və mimikalardan istifadə edir. | 2.1.2 | |
| 3 | Müzakirə olunan mövzu ilə bağlı mülahizələrini bildirir. | 2.1.3 | İn.-3.2.3.<br>Əd.-1.2.4. |
| 4 | Mətndəki sözləri orfoepik qaydalara uyğun oxuyur. | 3.1.2 | H.b.-3.2.2.<br>X.d.-2.1.2. |
| 5 | Sait və samitlərin, mürəkkəb sözlərin yazılış qaydalarına, cümlənin sonunda və dialoqlarda durğu işarələri qaydalarına əməl edir. | 4.1.3 | |

**Dərsin tipi:** İnduktiv.

**Dərsin forması:** Böyük və kiçik qruplarla iş.

**Dərsin üsulu:** Əqli hücum, klaster, müzakirə, rollar üzrə oxu.

**Resurslar:** Dərslik, İş dəftəri, proyektor, elektron lövhə.

**Motivasiya:** Müəllim elektron lövhədə 2 tapmacanın sözləri yazılmış slaydı işıqlandırır (1-ci slayd)

1) Ağ qıza əl uzatdım
Kökü torpaqda qaldı.
(.......)

2) Sularda batar,
Quruda yatar,
Hoppanar – düşər,
Ordları şışər. (........)

**Köməkçi sual:** Bu tapmacaların cavablarını tapa bilərsinizmi? Müəllimin köməyi ilə “zanbaq” və “qurbağa” sözləri alınır.

**Tədqiqat sualı:** Tapmacaların cavablarını ifadə edən sözlərin hansı əlamətlərini sadalaya bilərsiniz? (Tapmacaların məzmunundan çıxış edərək). Bu şaxələnmə elektron lövhədə işıqlandırılır (2-ci slayd)




**Tədqiqatın aparılması:** Şagirdlərin cavabları dinlənilir. Onlar müxtəlif əlamət bildirən sözləri sadalayırlar. Müəllim onların cavablarını elə istiqamətləndirməlidir ki, nəticədə belə bir şaxələnmə alınsın (müəllim 3-cü slaydı işıqlandırır):




Çap üçün deyil




Müəllim şagirdlərə dərslikdəki “Axmaq Qurbağa və Zanbaq” mətnini rollar üzrə oxutdurur. Onların cümlələri ifadəli oxumalarına fikir verir. “Sözlük” və “Söz ehtiyatı”ndakı çətin söz və ifadələrin mənaları izah edilir. Mətnin məzmununu mənimsətmək məqsədilə sinifdə şifahi olaraq çalışma № 1, 3, 4, 5 yerinə yetirilir. Şagirdlərin düzgün yazı bacarıqlarını inkişaf etdirmək məqsədilə çalışma № 6, 9, 10 üzərində iş aparılır (yazılı şəkildə). 4, 7, 8-ci çalışmalar lüğətin dəqiqləşdirilməsinə yönəldilir. Müəllim istər yazılı, istər də şifahi çalışmaları cütlərlə, böyük və ya kiçik qruplarla iş formasında icra etdirə bilər. Bu, müəllimin seçimindən asılıdır.

Dərslikdəki tapmacanın cavablandırılması sinifdəki əhvali-ruhiyyəni qaldırır. Cavabın mətnlə əlaqəsi axtarılır.

**Məlumat mübadiləsi:** Dərslikdəki çalışma № 2 əsasında müzakirə aparılır. Şagirdlər debata qoşulurlar. Mövzu ilə bağlı mülahizələrini əsaslandırırlar.

**Nəticə:** Hər kəs öz doğulduğu torpağa, elə sadiq olmalıdır. Ən böyük səadət doğma torpağa, vətənə, elə bağlılıqdır. Bunu başa düşməyənlər isə axmaqlardır.

**Yaradıcı tətbiqetmə:** Doğma torpağa, vətənə aid atalar sözləri tapmaq.

**Qiymətləndirmə:** Müvafiq cədvələ əsasən aparılır.

**Ev tapşırığı:** Mətnin məzmununu danışmaq.

## DƏRS 63. İKİ KİTAB (1 saat)

| № | Gözlənilən təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Dinlədiyi mətndəki əsas fikri müəyyənləşdirir. | 1.1.2 | Əd.- 2.1.2.<br>X.d.-3.1.2. |
| 2 | Müzakirə olunan mövzu ilə bağlı mülahizələrini bildirir. | 2.1.3 | H.b.-3.2.1.<br>İn.-3.3.2. |
| 3 | Mətndəki əsas fikrə uyğun fakt və hadisələri müəyyənləşdirir. | 3.1.3 | |
| 4 | Sait və samitlərin, mürəkkəb sözlərin yazılış qaydalarına, cümlənin sonunda və dialoqlarda durğu işarələri qaydalarına əməl edir. | 4.1.3 | |

**Dərsin tipi:** İnduktiv.

**Dərsin forması:** Böyük və kiçik qruplarla iş.

Çap üçün deyil

**Dərsin üsulu:** Əqli hücum, müzakirə, sual-cavab.

**Resurslar:** Dərslik, dəftər, iş vərəqləri.

**Motivasiya:** Müəllim sinfə 2 fərqli kitab – dərslik gətirir. Şagirdlərə müraciətlə deyir ki, onlar bu dərsliklərin saxlanma vəziyyətinə fikir versinlər. Dərsliklərdən biri çox səliqəli, yaxşı saxlanmış vəziyyətdə, o biri isə vərəqləri tökülmüş, cildi cırılmış vəziyyətdədir. Müəllim şagirdlərə onları müqayisə edərək öz fikirlərini söyləməyi təklif edir.

**Köməkçi sual:** Sizcə, hansı kitab insanlara daha çox xidmət edə bilər?

**Tədqiqat sualı:** Kitabların insanlara uzun müddət xidmət etmələri üçün nə etmək lazımdır?

**Tədqiqatın aparılması:** Bu sual ətrafında düşündüklərini ifadə etmək üçün müəllim şagirdləri 3 qrupa bölür. Hər qrupa iş vərəqləri paylanılır.

<u>1-ci iş vərəqinin sualı:</u> Siz öz dərsliklərinizi necə saxlayırsınız?

<u>2-ci iş vərəqinin sualı:</u> Sizə kitabxanadan səliqəsiz dərsliklər verildikdə onlarla necə rəftar edirsiniz?

3<u>-cü iş vərəqinin sualı:</u> Dərsliklərələ səliqəsiz davranan yoldaşlarınıza təsir göstərə bilirsinizmi?

Şagirdlərin cavabları dinlənilir. Cümlə quruluşundakı səhvlər müəllim tərəfindən aradan qaldırılır. Fərqli cavablar rəğbətləndirilə bilər.

Dərslikdəki "İki kitab" mətni oxutdurulur, məzmunu izah edilir. "Sözlük" və "Söz ehtiyatı"ndakı sözlərin mənaları mənimsədilir.

Çalışma 12, 13, 16 mətnin məzmunu ilə bağlı şifahi nitq bacarıqlarının inkişafına istiqamətləndirilir. 17, 18, 19-cu çalışmaların hərəsinin icrası bir qrupa tapşırılır. Verilmiş vaxt başa çatandan sonra müzakirə əsasında fikirlər dəqiqləşdirilir. 21-ci çalışma bütün siniflə aparılır. Şagirdlərin fəallığı təmin olunur. Sonra qruplar 22, 23 nömrəli çalışmalar üzərində işləyirlər. Bu çalışmalar ümumiləşdirmə və təsnifetmə bacarıqlarının formalaşmasına xidmət göstərir.

"Yadda saxla" rubrikasında verilmiş cümlələr şagirdlərə oxutdurulur, mənası izah edilir, əməl edilməsi tövsiyə olunur.

**Məlumat mübadiləsi:** "Kitab böyük sərvətdir" fikrinin mətndə öz əksini tapması barədə şagirdlərin düşüncələri dinlənilir. Onlar inanırlar ki, kitab bilik mənbəyidir. "Məndə olan yaxşı hər nə varsa, mən kitablara borcluyam" fikrinin müzakirəsi yaxşı nəticə verir. Bu məsələ ətrafında şagirdlər fikir mübadiləsi aparırlar. Müəllim onların fikirlərinə diqqətlə yanaşır. Nitq səhvləri olarsa, düzəlişlər edir.

**Nəticə:** Biz elə bir cəmiyyətdə yaşayırıq ki, əksər insanlar savadlı, bilikli və intellektual səviyyəli olmağa can atırlar. İndi elm və texnika əsridir. Müasir informasiya texnologiyaları gündəlik həyatımızın ayrılmaz hissəsidir. Lakin bütün bunlarla bərabər, müasir həyatımızı kitablarsız təsəvvür etmək mümkün deyil. Hər kitab bir xəzinədir. Bu xəzinənin açarı isə bizim əlimizdədir. İndi hər bir məktəbli hələ həyatda bilmədiklərini və öyrənmək istədiklərini kitablardan, yəni dərsliklərdən öyrənir. Ona görə də dərsliklərin qədrini bilmək, onlarla səliqəli davranmaq, sonrakı siniflərdə oxuyan məktəblilərə təmiz və səliqəli vəziyyətdə çatdırmaq qayğısına qalmaq vacibdir. Dərslikləri qoruyun və təmiz saxlayın!

Çap üçün deyil

**Yaradıcı tətbiqetmə:** “Mənim kitablarım” mövzusunda kiçik həcmli mətn hazırlamaq.

**Qiymətləndirmə:** Müvafiq cədvələ əsasən aparılır.

**Ev tapşırığı:** Dərslikdəki “İki kitab” mətninin oxusu.

## DƏRS 64. BÖYÜK SUMMATİV QİYMƏTLƏNDİRMƏ (1 saat)

| № | Gözlənilən təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Dinlədiyi mətndəki əsas fikri müəyyənləşdirir. | 1.1.2 | |
| 2 | Müzakirə olunan mövzu ilə bağlı mülahizələrini bildirir. | 2.1.3 | Əd. -3.1.2.<br>X.d.-3.1.4. |
| 3 | Mətndəki sözləri orfoepik qaydalara uyğun oxuyur. | 3.1.2 | |
| 4 | Mətndəki əsas fikrə uyğun fakt və hadisələri müəyyənləşdirir. | 3.1.3 | İn.-3.2.2. |
| 5 | Müxtəlif yazı formalarını (ifadə, inşa, hekayə) fərqləndirir. | 4.1.1 | |
| 6 | Sait və samitlərin, mürəkkəb sözlərin yazılış qaydalarına, cümlənin sonunda və dialoqlarda durğu işarələri qaydalarına əməl edir. | 4.1.3 | |

**Dərsin forması:** Böyük qruplarla iş.

**Tədqiqat sualı:** İl ərzində öyrəndiklərinizi necə xatırlayırsınız?

**Tədqiqatın aparılması:**

### BÖYÜK SUMMATİV QİYMƏTLƏNDİRMƏ №2
### HƏDIYYƏ

Yayda Bəşirin atası xidmət etdiyi hərbi hissə ilə meşəyə, çay sahilində olan mənzərəli düşərgəyə getdi. O, Bəşiri də özü ilə apardı. Bəşir burada Leyla və Yusif adlı iki uşaqla tanış oldu. Bu uşaqlar Bəşirdən ______ kişikdirlər. Bəşir və təzə yoldaşları Eyvaz adlı bir əsgər ilə bərk dostlaşdılar. Eyvaz uşaqlar üçün qamışdan tütək kəsdi, gildən onlara cürbəcür oyuncaqlar düzəltməyi öyrətdi.

Uşaqlar öyrəndilər ki, sabah Eyvazın ad günüdür. Eyvaz hər gün məşq etdiyinə görə onun paltarları çirklənirdi. Uşaqlar qərara gəldilər ki, Eyvazın paltarlarını yumaq ona ən yaxşı ... .

**1. Mətnə hansı sualı vermək olmaz?**

a) Bəşir yayda hara getdi?

b) Eyvaz kim idi?

c) Eyvaz uşaqlara nəyi öyrətdi?



Çap üçün deyil

d) Uşaqlar Eyvazın ad günü olduğunu kimdən öyrəndilər?
e) Uşaqlar hansı qərara gəldilər?

**2. Mətnin II abzasında neçə düzəltmə söz gizlənmişdir?**
a) 2 b) 1 c) 3 d) 4 e) 5

**3. Mətndə altından xətt çəkilmiş sözü aşağıdakılardan hansı ilə əvəz etmək olar?**
a) çox b) yumşaq c) pis d) yaxşı e) belə

**4. Rus dilində verilmiş sözlərin mənalarına uyğun gələn ifadələrdən hansı düz işlənməmişdir?**
a) На берегу реки-çayın sahilində
b) Его одежда-onun paltarları
c) Самый лучший подарок-qiymətli hədiyyə
d) Разные игрушки-cürbəcür oyuncaqlar
e) Новые друзья-təzə dostlar

**5. Mətndəki ağ boşluqda hansı ifadəni yazmaq olar?**
a) boyca b) ağılca c) görünüşcə d) ilcə e) yaşca

**6. Bu sözlərdən biri xüsusi isim kimi də işlənə bilər?**
a) yay b) əsgər c) tütək d) düşərgə e) təzə

**7. Hansı söz isim deyil?**
a) tütək b) düşərgə c) yay d) hərbi e) oyuncaq

**8. Düzəltmə söz hansı variantdadır?**
a) sahilində
b) cürbəcür
c) tanış
d) düşərgə
e) paltarları

**9. Hansı düzgündür?**
a) Başqalarının diqqətini cəlb etmək üçün bərkdən danışmaq lazımdır.
b) Ürəyindən keçənləri hamıya danışa bilərsən.
c) Fikrini başa salmaq üçün əl hərəkətləri etmək lazımdır.
d) Başa düşmədikdə tez-tez suallar ver.
e) Rastlaşanda əvvəl salamalaşmaq sonra söhbətə keçmək lazımdır.

**10. Mətni hansı ifadə ilə bitirmək olar?**
a) Hədiyyə olar
b) Mükafat olar
c) Təhqir olar
d) Qonaq olar
e) Dərs olar

Çap üçün deyil

# İMLA YAZI ÜÇÜN MƏTNLƏR

## QONAQ

Tahir anası ilə kəndə, xalasıgilə qonaq gəlmişdi. Kəndin çox gözəl vaxtı idi.Xüsusən yay fəsli olduğundan çiçəklərin ətri, quşların cəh-cəhi adamı heyran edirdi. Ağacların budaqları meyvələrin ağırlığından əyilib az qala yerə dəyirdi.

Kənd həyatı Tahirin çox xoşuna gəlmişdi. O, xalası uşaqları ilə bağda meyvə dərir, çaya çimməyə gedir, rəngbərəng kəpənəklər tuturdu. Tahir uzun bir kəndir tapıb özü üçün yelləncək də qurmuşdu. Hava çox isti olanda ağacların sərin kölgəsində uşaqlarla yellənirdi. (70 söz)

## Məşğələlərim

Yavaş-yavaş oba uşaqlarına alışdım. Hər gün çayımı içər-içməz alaçıqdan çıxardım. Uşaqları tapıb çiyələk, göbələk toplamağa, ya dərədə balıq tutmağa gedərdik. Bu dərə başdan-başa su qaynağı idi. Hər ağacın, hər daşın dibindən su sızırdı. Daşların, ağacların dibini qazar, ətrafa çay daşları yığıb, bulaq düzəldərdik. Hər birimiz tapdığımız bulağa öz adımızı verərdik. Elə gün olurdu ki, səhərdən axşamadək o dərədə yalqız gəzərdim. Gözəl çiçəklərdən, bulaqlardan, yaşıllıqlardan doymaz, ayrılmazdım. Arabir meşədə quş yuvası axtarmağa gedərdik. (73 söz) (A.Şaiqdən)

## HƏDİYYƏ

Yayda Bəşirin atası xidmət etdiyi hərbi hissə ilə meşəyə, çay sahilində olan mənzərəli düşərgəyə getdi. O, Bəşiri də özü ilə apardı. Bəşir burada Leyla və Yusif adlı iki uşaqla tanış oldu. Bu uşaqlar Bəşirdən yaşca kiçikdirlər. Bəşir və təzə yoldaşları Eyvaz adlı bir əsgər ilə bərk dostlaşdılar. Eyvaz uşaqlar üçün qamışdan tütək kəsdi, gildən onlara cürbəcür oyuncaqlar düzəltməyi öyrətdi.

Uşaqlar öyrəndilər ki, sabah Eyvazın ad günüdür. Eyvaz hər gün məşq etdiyinə görə onun paltarları çirklənirdi. Uşaqlar qərara gəldilər ki, Eyvazin paltarlarını yumaq ona ən yaxşı hədiyyə olar. (86 söz)

## NƏNƏNİN SÖHBƏTİ

Arazla Afaq nənələrini həvəslə dinləyirdilər.

– Dəvə çox güclü heyvandır, – deyə nənə söhbətinə davam etdi. – Ən ağır yükləri götürüb uzaq səfərə aparır. Dəvənin boyu çox hündür olduğundan onu minmək və ya yükləmək üçün əvvəlcə yerə yatırdırlar. Dəvə çox dözümlü olur. Bir həftə ac-susuz yol gedə bilir. Dəvənin yunu ən qiymətli məhsuldur. Bundan toxunan şal, hazırlanan parça bahalı sayılır. Qədim zamanlarda uzaq ölkələr bir-biri ilə dəvə karvanları vasitəsilə ticarət edirmişlər. Başqa heyvanlara nisbətən dəvənin quyruğu gödək olur, heç vaxt uzanıb yerə dəymir. (80 söz)

Çap üçün deyil

## NƏNƏMİN NAĞILLARI

Balaca Kamal nənəsinin nağıllarını çox xoşlardı. Hələ altı-yeddi yaşlarından Kamal hər gecə nənəsinə bir-iki nağıl söylətməmiş yatmazdı. Bu nağıllar nə gözəl, nə maraqlı nağıllardı: bu nağıllarda adamlar qəribə xalçalara minib göylərdə uçardılar; elə quşlar vardı ki, qəhrəmanları qanadlarına alıb yeddillik yolu bir göz qırpımında gedərdi. Hələ bu nağıllardakı adamlar nə igid, nə qoçaq cavanlar idi. Onlar istədiklərinə çatmamış dincəlmək bilmirdilər. Divlərlə, əjdahalarla pəncə-pəncəyə vuruşar, hər cür çətinliyə üstün gələrdilər...

Kamal belə nağılları çox sevərdi.

Kamal hərdənbir yuxuda özünü həmin qəhrəmanlar kimi görərdi. O da zümrüd quşların qanadlarında uçar, divlər, əjdahalarla vuruşardı. (90 söz) (M.Rzaquluzadədən)

## QARAĞACIN KÖLGƏSİ

Aysellə Aytən nənələrigilə gedirdilər. Hava günəşli və çox isti idi. Nənələrinin də evi lap kəndin o başında idi. İsti onları karıxdırmışdı. Elə bil göydən od ələnirdi. Qızların alnından tər axırdı. Küçəni burulanda yolun qırağında bir iri şaxəli Qarağac gördülər. Tez onun kölgəsində daldalandılar. Ağacın kölgəliyi necə də sərin idi. Sərinlikdən tərləri soyudu, canları dincəldi. Dincəlib yola düşəndə dedilər:

– Çox sağ ol, ay kölgə, sən olmasaydın, isti bizi öldürmüşdü.

Kölgə dilə gəlib dedi:

– Siz sağolu mənə yox, Qarağaca deyin. Mən onun kölgəsiyəm.

Qızlar dönüb qollu-budaqlı, yaşıl çətirli Qarağaca baxdılar. Baş əyib ona: “Sağ ol!”, – dedilər. (97 söz) (Əli Səmədlidən)

## DƏNİZƏ SƏYAHƏT

Maşın dənizin lap kənarında durdu. Buradan dənizin sahilində salınmış körpüyə enli bir yol var idi. Körpüyə çoxlu qayıqlar, katerlər yan almışdı. Onlar katerə mindilər. Çox keçmədi ki, yarımada gözdən itdi. İndi katerlər açıq dənizdə irəliləyirdilər. Göyün üzü buludsuz və gömgöy idi. Qabaqdan boylanan günəş adamın gözünü elə qamaşdırırdı ki, irəliyə baxmaq mümkün olmurdu. Suyun səthi gümüş kimi par-par parıldayırdı. Göydə çoxluca qağayı uçuşurdu. Onlar gah aşağı enir, gah da birdən-birə dənizdən qopmuş kimi, yuxarı qalxırdı. Bir quş lap katerin yanında qanadlarını suya toxundurdu. Laləyə elə gəldi ki, əlini uzatsa, onu tuta bilər. Lakin quş dərhal yenə yuxarı qalxdı. (98 söz) (X. Hasilovadan)

## GÖYƏRÇİNLƏRİM

Atası otağa çəkiləndən sonra Seyran göyərçinləri ilə tək qaldı. Artıq onlar xeyli artmışdı. Eyvandan havaya birdən-birə on göyərçin qalxırdı. Özü də müxtəlif rənglərdə! Bunlardan heç biri kənardan gəlmə deyildi. Bunlar Səfərin verdiyi iki göyərçindən törəmişdi. Bunu hiss etdikdə Seyran həm sevinir, həm də kədərlənirdi. Kədərlənirdi ki, atası niyə göyərçinləri sevmir! Atasının məktəbə gəlmək fikri onun həyəcanını bir az da artırmışdı. Ona görə yox ki, Seyran pis oxuyurdu və ya məktəbdə kölgəli bir işi vardı. O yenə də əlaçı idi və yaxşı şagirdlərdən hesab olunurdu. Onu qorxudan o idi ki, atası və müəllimlər birləşib onu sevdiyi göyərçinlərdən, sevdiyi quşlar dünyasından ayırarlar. (99 söz) (M.İbrahimovdan)

Çap üçün deyil

## QARA KÖPƏK

Bağı oğrudan qorumağa Piri kişinin bircə köməkçisi vardı. O da Qaraca qızı mağaradan çıxaran Qara köpək idi. Qara köpək çox heybətli və hünərli bir it idi. Onun qorxusundan heç kəs bağa dolana bilməzdi. Bu köpəkdə bir qəribə hal vardı.

Hər kəs ki Piri kişiyə düşmən idi, köpək onu sevməyib yaxına qoymazdı. Piri kişi bir yeni şəxs ilə tanış olanda Qara köpək o adama quyruq bulayıb yaxınlaşsaydı, Piri kişi onu özünə dost hesab edərdi. Əksinə, o adama dişlərini ağardıb mırıldasaydı, onu özünə düşmən bilərdi. Qara köpəyin bu hissini Piri kişi dəfələrlə imtahan etdiyi üçün belə deyərdi:

– Dost-düşmənimi Qara köpəklə tanıyıram. (100 söz) (S.S.Axundovdan)

# İFADƏ YAZI ÜÇÜN MƏTNLƏR

## GÖYƏRÇİNLƏRİM

Bu il qış sərt gəlmişdi. Tez-tez xəzri əsir, yağış və qar yağırdı. Görünür, sərçələr yeməyə bir şey tapmırdılar. Damın tinində oturub hey eyvana baxaraq cikkildəşirdilər. Seyran pəncərənin bir tayını açdı. Eyvanın döşəməsinə bir ovuc yarma atdı. Pusquda durdu. Fikri bu idi ki, sərçələr eyvana dolan kimi pəncərəni örtsün və onları tutub saxlasın. Lakin sərçələr çox bic tərpənirdilər. Yarmanı götürən kimi özlərini çölə atırdılar. Bu zaman Səfər də gəldi. Seyranın fikrini bilib güldü.

İstəyirsən, özünü öldür, sərçə adama öyrənməz. Bir də ki sərçə nə quşdur, onu saxlayasan da?! Gəl sənə bir cüt göyərçin bağışlayım. Quş deyəndə göyərçindi!

Həm göyçəkdi, həm də dünyanın hər yerində onu sevirlər. Anam deyir ki, hansı evdə göyərçin yuva salıb, bala çıxarsa, o evə xoşbəxtlik gələr.

Sabahısı, dediyi kimi, Seyran ona iki göyərçin gətirdi. İkisi də ağ idi. Ancaq dişi göyərçin tamamilə ağappaq olduğu halda, erkəyin boynuna elə bil sarı halqa salınmışdı. Onun ayaqları da çox qəribə idi. Sanki köhnə zabitlər kimi uzunboğaz çəkmə geyib bəzənmişdi. (150 söz)

(M.İbrahimovdan)

## TƏYYARƏLƏR

Bir sabah Kamal tezdən yuxudan durub evlərinin yaxınlığındakı təpəyə çıxmışdı. O, ətrafa tamaşa edirdi.

Birdən aşağıdan, düşərgə yanındakı düzənlikdən bir gurultu ucaldı. Bu gurultu get-gedə artdı. Kamal bir-birinin ardınca bir neçə təyyarənin göyə qalxdığını gördü. Göydəki qaraquşlar bir anda dağılışıb yox oldu. İndi onların yerində, onlardan da xeyli yuxarıda təyyarələr hərlənir, mayallaq aşır, qanadları üstündə fırlanır, aşağı şığıyır, yenə fişəng kimi dik qalxırdı.

Sonra təyyarələr durna qatarı kimi cərgəyə düzüldü. Birdən hər təyyarədən bir-iki nöqtə ayrılıb ağır-ağır yerə enməyə başladı. Bunlar yaxınlaşdıqca nöqtələr böyüdü və qırmızı, sarı, yaşıl rəngli çətirlərdən adamların sallana-sallana endikləri aşkar göründü.

Bu mənzərə o qədər gözəl, o qədər maraqlı idi ki! Kamal heç yuxuda da belə gözəl şey görməmişdi. (113 söz) (M.Rzaquluzadədən)

Çap üçün deyil

## TƏYYARƏÇİ OLACAĞAM

Paraşütçülərdən biri Kamalın durduğu təpədən iki-üç yüz addım aralı məxmər otların üzərinə enirdi. Kamal yerindən qopub düz ona doğru cumdu. Paraşütçünün ayağı yerə çatanda Kamal da ona çatdı. Bu paraşütçü cavan, qarayanız bir əsgər idi. Gülə-gülə paraşütü yığıb ona heyran-heyran baxan Kamala yaxınlaşdı. Onun qolundan tutub yuxudan oyadırmış kimi, silkələdi və mehriban bir səslə dedi:

– Hə, qoçaq, sən də təyyarəçi olmaq istəyirsən?

Kamal gözlənilməyən cürətli, inamlı bir səslə dedi:

– Olacağam, əmican! Mən də təyyarəçi olacağam!

Bu gündən Kamalın xəyalında uçan xalçalar, zər qanadlı zümrüd quşlar, şahzadə qəhrəmanlar əvəzinə, polad qanadlı təyyarələr, rəngbərəng paraşütlər və tunc üzlü cavan təyyarəçilər canlandı. (93 söz) (M.Rzaquluzadədən)

## TURAC

Biz adam boyu qalxmış sünbülləri aralaya-aralaya quş düşən yerə yüyürdük. Gördük ki, o, kolun dibində bir ayağı üstündə dayanıb ürkək nəzərləri ilə ətrafına baxır. Bizi görən kimi gücünü toplayıb havaya qalxdı. Biz arxasınca yüyürdük. O, bir qədər uçduqdan sonra balaca böyürtkən koluna qondu. Fikirləşdim ki, yəqin heyvan yaralı canını bizdən qurtarmaq istəyir. Ancaq yaxınlaşdığımız zaman elə bir mənzərəyə rast gəldik ki, mən onu heç vaxt unutmayacağam. Yumurtadan təzəcə çıxmış kiçik bala anasına baxaraq zəif səslə civildəyir və elə bil ki, deyirdi: “Ana, bəs mənim üçün gətirdiyin yem hanı?” Yaralı turac isə tək ayağının üstündə dayanıb ürkək nəzərləri ilə gah bizə, gah da balasına baxırdı.

“Yazıq quşcuğaz! Sən sınıq ayağınla bu körpə balaya necə yem tapıb gətirəcəksən? Bəs bu gecə o nə yeyəcək? – deyə düşünürdüm.

Körpə balanı və ananı üsulluca götürüb evə gətirdik. Onlar üçün qəfəsdə yer düzəltdik. Qabaqlarına dən səpdik, su qoyduq. Qoca nənəm quşun qıçını sarıdı. (133 söz) (İ.Əfəndiyevdən)

## ƏSMƏR XALA

Əsmər xalanı qonşu olmazdan çox-çox əvvəl tanıyırdım. Biz ona institutda Məxmər xala deyirdik. Doğrudan da, Məxmər kimi yumşaq və həlim idi. İnstitutda böyükdən-kiçiyə hamı ona öz anası kimi baxırdı. Bəlkə də, bu layihə institutunun bünövrəsi qoyulandan asılqanda işləyirdi. Saçlarını da burada ağartmışdı. Əri cavan yaşından müharibəyə gedib gəlməyib. Dörd uşaq böyüdüb ərsəyə çatdırıb. Nəvə-nəticə sahibi olsa da, təqaüdə çıxsa da, işləyir. “İşsiz qalanda xəstələnirəm”, – deyir. Bəlkə də, üzü-gözü öyrəndiyi adamlardan ayrıla bilmir.

Əsmər xala bu səhər də hamıdan tez gəlib. Əvvəl öz paltosunu çıxarıb kənardan asır. İş xalatını geyinir. Adamlar bir-bir gəlir, onunla salamlaşır, kefini soruşurlar. O, arxayınlıqla paltoları alıb asır. Heç kimə də nömrə vermir. İki yüz adamın hamısının üzünə baxan kimi paltosunu gətirib verir. İşə gələnlər çoxalır. Əsmər xalanın əlləri görünmür. Hamını tez yola salmağa çalışır.( 113 söz) (Əli Səmədlidən)

Çap üçün deyil

## VƏFALI İT

Kərim kişi peşəkar ovçu idi.

Bir dəfə o, qurduğu tələni yoxlamaq üçün meşə kənarına getdi. Yaxınlaşanda gördü ki, bir boz canavar boğazından tələyə düşüb, ölüb. O, tüfəngini və heybəsini kənara qoydu. Canavarı tələdən çıxartdı. Ancaq tələni yenidən qurmaq istəyəndə yay əlindən qaçdı, qolu tələyə düşdü. Ovçu nə qədər çalışdısa, qolunu tələdən çıxara bilmədi. Uzanıb kənara qoyduğu heybədən açar götürmək istədi, əli çatmadı.

Bir azdan axşam düşdü. Qatı qaranlıq hər tərəfi bürüdü. Uzaqda canavarların ulartı səsi bir-birinə qarışdı. Kərim kişi təşviş içərisində ətrafa boylanırdı. Bir də gördü ki, nəsə ləhləyə-ləhləyə ona tərəf gəlir. Onu canavar hesab edib, Kərim kişi ölümünü gözünün qabağına gətirdi. Ancaq bir dəqiqə sonra həmin heyvan ovçunun əl-ayağını yalamağa başladı. Bu , ovçunun vəfalı Alabaşı idi.

Alabaş təklif gözləmədən heybəni və tüfəngi sürüyüb sahibinin yanına gətirdi. Kərim kişi heybədəki vintaçanı çıxartdı. Tələnin vintini burub, qolunu xilas etdi. Sonra vəfalı Alabaşın başını tumarlayıb dedi:

– Çox sağ ol, Alabaş, sən olmasaydın, məni qurd-quş basıb yeyərdi. Sonra da yaraq-yasağını götürüb evə qayıtdı. (135 söz) (C. Cəbrayılbəylidən)

## Gündəlik nitqimizdə işlədilən ifadələr

### Tanışlıq zamanı - Во время знакомства

Sizinlə tanış olmağıma çox şadam-очень рад(а) с вами познакомиться

Bizim ölkədə (şəhərdə) sizi görməyimə çox şadam. – Рад(а) приветствовать вас в нашей стране (нашем городе).

İcazə verin sizin soyadınızı öyrənim. – Разрешите узнать вашу фамилию.

Mənim soyadım ... (Əlizadədir, Həsənlidir). – Моя фамилия ...(Ализаде, Гасанлы).

Buyurun , dostlarımla tanış olun. – Познакомьтесь , пожалуйста , с моими друзьями.

Mən sizə harada isə rast gəlmişəm. – Я вас где-то встречал(а).

Sizin sifətiniz mənə tanış gəlir. – Ваше лицо мне знакомо.

Mən sizin haqqınızda eşitmişəm. – Я о вас слышал(а).

Mən Bakıda ilk dəfəyəm (ikinci dəfə,üçüncü dəfə). – Я в Баку впервые (второй раз,третий раз).

Mən çoxdan sizin şəhərinizə gəlmək istərdim. – Я давно хотел(а) побывать в вашем городе.

### Dil bilmə - Знание языков

Siz azərbaycanca danışırsınızmı ? Говорите ли вы по – азербайджански ?

Mən ingilis dilini bir az bilirəm. – Я немного говорю по английски.

Mən sizi başa düşürəm. – Я вас понимаю.

Azərbaycanca bunu necə demək lazımdır? – Как это можно сказать по–азербайджански?

Azərbaycanca buna nə deyirlər ? – Как называется это по-азербайджански ?

Bunu necə tərcümə etmək lazımdır ? – Как надо перевести это ?

Xahiş edirəm , dediyinizi bir də təkrar edin. – Пожалуйста , повторите , что вы сказали.

Mehmanxana - qonaq evi deməkdir. – Мехманхана – значит гостиница.



Çap üçün deyil

## Məşğuliyət növləri - Род занятий

Siz hansı məktəbdə oxuyursunuz ? – В какой школе вы учитесь ?
Siz neçənci sinifdə oxuyursunuz ? – В каком классе вы учитесь ?
Sizin məktəbiniz harada yerləşir ? – Где расположена ваша школа ?
Siz dərsdən sonra nə ilə məşğul olursunuz ? – Чем вы занимаетесь после уроков ?
İdmanın hansı növü ilə məşğul olursunuz ? – Каким видом спорта вы занимаетесь ?

## Ailə. Yaş – Семья. Возраст

Sizin ailəniz böyükdürmü ? – Семья у вас большая ?
Mənim ailəm balacadır. – У меня небольшая семья.
Mənim ailəmdə üç nəfər var (Mənim ailəm üç nəfərdən ibarətdir). – В моей семье три человека (Моя семья состоит из трёх человек).
Mənim qohumlarım çoxdur. – У меня много родственников.
Sizin neçə yaşınız var ? – Сколько вам лет ?
Siz neçənci ildə anadan olmusunuz ? – В каком году вы родились ?
Biz yaşıdıq. – Мы ровесники.
Mən sizdən bir yaş böyüyəm. – Я на один год старше вас.
Sizin ad gününüz nə vaxtdır ? – Когда ваш день рождения ?
Mənim ad günüm martın 8-dir. – Мой день рождения 8 марта.

## Müraciət formaları – Формы обращения

Əziz qonaqlar ! – Дорогие гости !
Vətəndaşlar ! – Граждане !
Cavan qiz ! Cavan oğlan ! – Молодая девушка ! Молодой человек !
İcazə verin mən deyim ... – Разрешите мне сказать ...
Qulaq asın (Bura baxın) – Послушайте (Слушайте)
Vətəndaş , xahiş edirəm, mənə bilet alın – Гражданин(ка), возьмите мне, пожалуйста, билет
Əliyev! Lövhənin qarşısına keçin və məsələni həll edin. – Алиев! Идите к доске и решите проблему задачу.

## Görüşmə. Vidalaşma - Приветствие. Прощание

Salam ! – Здравствуй !
İşin – gücün ... – Как дела ?
Necə getdiniz ? – Как доехали ?
Yeni görüşə qədər ! – До новой встречи !
Hamıya salam deyin. – Передайте всем привет.
Hələlik, sağ ol(un). – Всего хорошего.
Nə xoş təsadüfdür ! – Какая приятная неожиданность !
Bu sənsənmi ? – Ты ли это ?
Sizi burada görəcəyimi gözləmirdim – Не думал(а) вас встретить здесь
Kimin ağlına gələrdi ki, biz burada görüşəcəyik ! – Кто бы мог подумать, что мы встретимся здесь !
Neçə vaxtdır sizi ( səni) görmürəm. – (Как) давно я не видел(а) вас (тебя).
Budur, mən gəldim. – Вот и я пришёл(шла).

Çap üçün deyil

Mən gecikməmişəm ki ? – Я не опоздал(а) ?
Siz çoxdanmı gözləyirsiniz ? – Вы (ты) давно ждёте (ждёшь) ?
Siz (sən) vaxtında gəlmisiniz – Вы (ты) пришли(шла) во время

## Dəvət - Приглашение

İcazə verin sizi ... (kinoya,teatra,rəqsə) dəvət edim – Разрешите пригласить вас … (в кино, в театр,на танец)
Axşamı bizimlə keçirmək istəmirsinizmi ? – Не хотите ли провести вечер с нами ?
Sizi (səni) ... dəvət edirəm – Я приглашаю вас (тебя) …
Mən istərdim ki , biz ...gedək – Я хочу (мне хотелось бы) с вами сходить …
Kinoya gedək ? – Сходим в кино ?
Gəzək ? – Погуляем ?
Siz çox diqqətlisiniz – Вы очень любезны (внимательны)
Saat 5-də kinoya gedəkmi ? – Пойдём в 5 часов в кино ?
Bir qədər gec olarmı ? Saat 5-də mən məşğulam – А можно позже ? В 5 часов я буду занят(а)
Onda saat 7-də – Ну , тогда в 7
Danışdıq. – Договорились.

## Arzu. Xahiş - Желание. Просьба

Siz nə istəyirsiniz ? Что вы желаете ?
Mən sirkə getmək istəyirəm. – Я хочу пойти в цирк.
Mən istərdim ki, yadigar üçün bir şey alım. – Я хотел(а) бы купить что-нибудь на память.
Olarmı ... (keçim,içəri girim) ? – Можно ...(пройти,войти) ?
İcazə verin ... (radionu,işığı,televizoru) qoşum (keçirim) – Разрешите включить (выключить) (радио,свет,телевизор)

## Təşəkkür – Благодарность

İcazə verin sizə (sənə) təşəkkürümü bildirim. – Разрешите поблагодарить вас (тебя).
Qabaqcadan sizə (sənə) minnətdarlığımı bildirirəm. – Заранее благодарю вас (тебя).
Mən sizin(sənin) əlinizi sıxmaq istəyirəm. – Я хочу пожать вашу(твою) руку.
Qayğıniız üçün səmimi qəlbdən təşəkkür edirəm. – От всей души благодарю вас за заботу.
Bu nə sözdür ? Təşəkkür etməyə dəyməz . – Ну что вы (ты) ? Не стоит меня благодарить.
Mən sizdən(səndən) çox razıyam. – Я вам(тебе) глубоко признателен.

## Razılıq (narazılıq) - Согласия (несогласия)

Çətin bacara bilərəm – Вряд ли смогу
Nə deyirəm , razıyam – Что ж(е) , я не прочь
Çox təəssüflənirəm , amma bacarmayacağam – Очень жаль , но не (с)могу
Həvəslə – Охотно
Şadlıqla – С радостью
Məmnuniyyətlə – С удовольствием
Qərara alındı – Решено
Olsun – Ладно (Пусть будет)
Əlbəttə – Конечно



Çap üçün deyil

Şübhəsiz ki – Безусловно
Qəti surətdə – Ни в коем случае
Bu haqda söz ola bilməz – Об этом не может быть и речи
Etiraz etmirəm – Не возражаю

## Məsləhətlər – Советы

(Mütləq, hökmən,nə olursa-olsun) ... bax(ın) – (Обязательно,непременно,во что бы то ни стало) посмотри(те)…
Sizə (sənə) məsləhət görürəm... – Советую вам (тебе) …
Sizə(sənə) təklif edirəm ... – Предлагаю вам(тебе) …
Mən fikirləşərəm – Я подумаю
Mən çalışaram – Я постараюсь (попробую)
Məsləhətinizi nəzərə alaram – Приму к сведению ваш совет
Necə getmək olar (gedim) ? – Как проехать ?
Xahiş edirəm, deyin görək, ... necə getmək olar? – Скажите, пожалуйста, как проехать к …?
Gedib çatmaq olarmı ? – Можно ли доехать ?
Bağışlayın, bu avtobusda getmək olarmı? – Простите, можно ли этим автобусом доехать до ... ?
Sağ olun! Siz çox xeyirxahsınız – Спасибо! Вы очень любезны
Harada yerləşir ? – Где находится ?
Xahiş edirəm , deyin, avtobus dayanacağı haradadır ? – Скажите , пожалуйста , где здесь автобусная остановка ?
Odur orada – Вон там
Düz və sağa – Прямо и направо

# ATALAR SÖZÜ VƏ MƏSƏLLƏR

Zəhmətsiz elm olmaz. – Без муки нет науки.
Yanan yerdən tüstü çıxar. – Нет дыма без огня.
İştah diş altındadır. – Аппетит приходит во время еды.
Adam dilindən bəlaya düşər. – Беда на голову с языка валится.
Bikarlıq eyiblərin anasıdır. – Безделье- мать всех пороков.
Çox bil, az danış. – Больше знай, да меньше болтай.
Söyləyən olma, dinləyən ol. – Больше слушай, меньше говори.
Başından böyük danışma. – Больше того, что смыслишь, не говори.
Zəhmət çəkərsən, qazanıb yeyərsən. – Будешь трудиться, будешь кормиться.
Öz sözünün sahibi ol. – Будь своему слову господин.
Qələmin əyriliyinə baxma, düzünü yazar. – Буквы кривые, да смысл прямой.
Qələm yazır, kağız dözür. – Бумага терпит, перо пишет.
Dostluqdur- doğruluqdur. – В дружбе- правда.
Quyuya su tökməklə, quyu sulu olmaz. – В лес дров не возят, в колодец воду не льют.
Elm üçün qocalıq yoxdur. – В науке старых нет.
Hər zərərin öz xeyri var. – Во всяком худе, не без добра.
Uşaqlıqda yalançı olana böyüyəndə də inanmazlar. – Врал в детстве, не верят и в старости.



Çap üçün deyil

Vaxt gözləmir. – Время не ждёт.
Zaman insanı öyrədir. – Время учит человека.
Hər kəs öz ağlı ilə iş görür. – Всяк своим умом живёт.
Hər quşun öz yuvası var. –Всякая птица свое гнездо бережет.
Qorxaq həmişə qəhrəmanlıqdan danışar. – Всякий трус о геройстве говорит.
Hər şeyin öz vaxtı var. – Всякой вещи свое время.
Hər günün öz qayğısı var. – Всякому дню своя забота.
Qorxu olmayan yerdə nizam-intizam olmaz. – Где грозно, там и честно.
Bilik olmayan yerdə mərdlik də olmaz. – Где нет знаний, там нет смелости.
Harada yoruldun, orada otur. – Где устал, там и стань.
Qoçaq bir dəfə ölər, qorxaq min dəfə. – Герой умирает раз, трус тысячу раз.
Dağ dağa yaxınlaşmaz, insan insana yaxınlaşar. – Гора с горой не сходится, человек с человеком сойдется.
Bir daş ilə iki sərçəni vurmaq olmaz. – Двух зайцев гонять- ни одного не поймать.
İşdə zarafat olmaz. – Дело шутки не любит.
Yaxşılığı unutma, yamanlığı unut. – Добро помни, а зло забывай
Şirin söz baldan da şirindir. – Доброе слово лучше мягкого пирога.
Dost dostun güzgüsüdür. – Друг –твое зеркало.
Söz var, şirin bal təki, söz var acı zəhər təki. – Есть слово - как мед сладко, а есть слово- как полынь горько.
Cansağlığı dövlətdir. – Здоровье- богатство.
Hər sözün öz yeri var. – Каждому слову- свое место.
Ağıl gözəllikdə deyil. – Красота разума не придает.
Tələsən təndirə düşər. – Кто спешит, поздно оканчивает.
Tənbəl adam yatağan olar. – Кто ленив, тот сонлив.
Şirin söz daşdan keçər. – Ласковое слово кость ломит.
Yay yığır, qış yeyir. – Лето собирает, а зима поедает.
Qocanın biliyi, cavanın biləyi. – Молодость плечами покрепче, старость головой

## SİNİFDƏNXARİC OXU ÜÇÜN

### SAQQALLI UŞAQ

Mən elə bilirdim ki, bizim uşaqlar özgə uşaqlar kimi, o qədər də divar yazan deyillər. Çünki çox nəsihət eləmişdim və onlar da mənə söz vermişdilər ki, divarları yazmayacaqlar. Amma axır vaxtlarda gördüm ki, balkonun divarında, qapının dalında bir xəlvət yerdə bir belə şəkil çəkilib: deyəsən, bir heyvan başıdır, qulaqları da, deyəsən, var, bir-iki ayağı da var, altında beş dəfə əlif yazılıb və bundan savayı, beş-altı yumru şey çəkilib. Bunların hamısı karandaş ilə yazılıb. Elə naşı, kobud yazılıb ki, bunu uşaqdan savayı, heç kəs yaza bilməz.

Xoşuma gəlmədi, çağırdım uşaqları.

– Ədə, yenə divarları yazırsınız?

Üçü də gəldi durdu yazının qabağında.

– Hansınız yazmısınız?

Üçü də dayandı.

– Elədə bəs şeytan yazıb?

– Dədə, vallah mən yazmamışam.

– Dədə, mən də yazmamışam.



Çap üçün deyil

Balaca Qurban da "mən yazmamışam" deyə-deyə əllərini üzünə qoyub başladı ağlamağa.

Mən deyinə-deyinə bir əsgi tapıb yazını təmizlədim. Amma bunu eşidirdim ki, Heydər Teymura deyirdi: – Sən yazmısan.

Teymur da Heydərə deyirdi – Sən özün yazmısan.

Bu zaman ağlayan oğlum Qurban qaça-qaça gəldi yanıma, guya ki, bir böyük xəbər gətirib.

– Dədə, o yazını Heydər yazıb: vallah, dədə, Heydər yazıb.

Mən onları saxladım və bunu dedim:

– Mən sizdən divarı yazmağınızdan ötrü incimirəm. Sizin danmağınızdan və qorxudan yalan danışmağınızdan inciyirəm. Ona inciyirəm ki, üçünüz də and-aman eləyirsiniz ki, siz yazmamışsınız. Bəs sizdən savayı bu evdə uşaq ki, yoxdu.

Aradan bir xeyli keçdi və bir-iki aydan sonra bu giley-güzar yaddan çıxdı.

Amma bir gün mən gecə bərk dilxor oldum. Balkondan keçirdim. Gördüm divarda yenə haman cızma-qara. Haman heyvana oxşar bir şey, altında bir neçə əlif, yanında bir neçə yumru-yumru yazılar.

Bu dəfə uşaqlara daha bir söz demədim...

Dünən yenə Kəblə Əzim yağ və yumurta gətirmişdi...

Birdən yadıma düşdü ki, Kəblə Əzimə tapşırım, Ərdəbildən gələn olsa, mənə xəbər versin.

Tez çıxdım dalana və gördüm ki, kişi yağı və yumurtanı qoyub yerə və keçib qapının dalına. Və bir gödək karandaşın ucunu ağzına soxub fikrə gedib. Divarda heyvana oxşar bir cızma-qara çəkilib, altından bir neçə əlif, yanında bir neçə girdə şey. Mən çox təəccüb elədim. Kəblə Əzim mətləbi duydu və mən soruşmamış dedi:

– Molla Əmi, doğrusu, mənim dərsim-zadım yoxdu, bu bir yaddaşdı, yazdım ki, hesablar dolaşmasın.

Mən qəh-qəh çəkib güldüm. Kişi də bir az gülümsündü. Mən bircə bunu soruşdum ki, divara yazdığının mənası nədir?

Kəblə Əzim istəyirmiş bir inək çəkə və inəyin altında yazdığı beş cızığın mənası bu imiş ki, mən ona beş manat inək yağından borclu qaldım. Girdə yazılar da yumurtadan qalan borcumun hesabı imiş.

Mən yenə güldüm və uşaqlarımı çağırdım və onlara belə dedim:

– Uşaqlarım, uşaqlarım, gəlin, bura gəlin!

Uşaqlar gəldilər və gözləri divara sataşan kimi çox-çox təəccüb elədilər və məndən soruşmağa başladılar:

– Dədə, bunu kim yazıb?

Dedim:

– Balalarım, bu yazını yazan da sizin kimi uşaq idi; ancaq bircə fərqiniz oradadır ki, onun saqqalı var, sizin hələ saqqalınız yoxdur.

Uşaqlar çox gülüşdülər. C.Məmmədquluzadə

## MƏŞĞƏLƏLƏRİM

Yavaş-yavaş oba uşaqlarına alışdım. Hər gün çayımı içər-içməz alaçıqdan çıxardım. Uşaqları tapıb çiyələk, göbələk toplamağa, ya dərədə balıq tutmağa gedərdik. Bu dərə başdan-başa su qaynağı idi. Hər ağacın, hər daşın dibindən su sızırdı. Daşların, ağacların dibini qazar, ətrafa çay daşları yığıb, bulaq düzəldərdik. Hər birimiz tapdığımız bulağa öz adımızı verərdik. Elə gün olurdu ki, səhərdən axşamadək o dərədə yalqız gəzərdim. Gözəl

Çap üçün deyil

çiçəklərdən, bulaqlardan, yaşıllıqlardan doymaz, ayrılmazdım. Arabir meşədə quş yuvası axtarmağa gedərdik.

Mənim quş balasına olan məhəbbətimi oxuculara anlada bilməyəcəyəm. Bu kiçik məsum heyvanları dəlicəsinə sevərdim. Bir quş balası tapdıqda o qədər sevinərdim ki, dünyalara sığmazdım. Anam, atam: "Oğul, bu heyvanları əsir etmə, burax, yazıqdırlar", – deyə nə qədər israr edirdilərsə də, ağlayıb, yalvarıb onları zor-güc razı edirdim. Bu quş balalarını fındıq çubuqlarından qayırdığım bir qəfəs içində bəsləyərdim. Şəhərdən gətirdiyim toyuğumun cücələri böyümüş, tüklənmiş, xoruzu, fərəsi bəlli olmuşdu. Kiçik bacımla hər birimiz bir xoruz və bir fərə seçmişdik.

Çadırlarımızın dörd bir yanı açıqlıq olduğundan toyuq cücələri ilə o açıqlıqda gəzişir, qurd-quş, çəyirtkə tutub yeyirdi.

Ovcumu dənlə doldurub "dü-dü-dü!" səslədiyim zaman hər yerdə olsalar, qanad çalıb yanıma gələrdilər.

Mən onları aldadırmışam kimi, əlimi arxamda gizlədərdim. Hamısı boyunlarını bükərək, gözlərini aşağıdan yuxarıya üzümə dikib baxardı. Biixtiyar ovcumdakı dəni yerə səpərdim. Cücələr bir-birini döşləyərək səpdiyim dəni dənlərdilər.

Alaçığımızın böyründə bunlara kiçik bir hin düzəltmişdim: tülkü, çaqqal qorxusundan hinin ağzını gecələr böyük bir daşla örtürdüm. Günlərimin çoxunu bu heyvanlarla keçirərdim.

Abdulla Şaiq

## PƏLƏNG OVU

Kərim baba söhbətinə belə başladı:

– Bizim Borçalı meşələrində pələng olmadığını bilirsiniz. Ancaq qabaq zamanlarda varmış. Qırx-əlli il bundan əvvəl kəndin yaxınlığında bir pələng görünmüşdü. Onun qorxusundan meşəyə heç kəs getmirdi. Bir gün eşitdim ki, kəndin yaxınlığında pələng üç inək parçalayıbdır. Ağlım başımdan çıxdı. Tüfəngimi götürüb getdim. Kəndlə meşənin arası beş ağac olardı. Dərəni aşdım. Aşağı uzanan daşlı-qayalı bir dağ ətəyi ilə meşənin içərisinə gedirdim. Günəş saralmağa, sular qaralmağa başlamışdı. Pələngi gözdən qaçırmamaq üçün yan-yörəmə baxırdım. Bir də nə gördüm?! Uzaqda iki göz məşəl kimi yanır. Baxdım, pələng idi. O da məni görmüşdü. Pəncəsi ilə acıqlı-acıqlı yeri eşir, cırmaqlayırdı.

Bir az da getmişdim ki, birdən-birə pələng yerindən atılıb bağıra-bağıra üstümə gəldi. Bir daşa söykənib tüfəngimi ona tərəf yönəltdim. Pələngin bir nəcib xasiyyəti var: hücuma başladığı yerdən üç dəfə ovun üstünə atılar. Bu üç dəfənin heç birində ovlaya bilməsə, küsüb gedər. Qalxdığı yerdən iki dəfə üstümə atıldı. Üçüncü dəfə az qaldı üstümə düşsün. Tüfəngimi dikəltdim və havada üstümə gəlirkən qolları arasından nişan aldım. Pələngdən elə bir bağırtı qopdu ki, səsindən dağ-daş titrədi. Gözlərim qaraldı, tüklərim ürpərdi. O, iki-üç addım məndən aralı bir qaratikan kolu yanında yıxılıb nərildəyirdi. İki dəqiqədən sonra canını təslim etdi. Yaxınlaşdım. O igid heyvanı öldürdüyümə peşman oldum. Ürəyim kövrəldi, gözlərim yaşardı. Tüfəngimi bir tərəfə atıb, qabağında diz çökdüm. Başını qollarım arasına alıb, üzündən-gözündən öpdüm.

Pələngin dərisini soyub evə qayıdandan sonra qonşular başıma yığıldılar. Dedim ki, Borçalı torpağında bir igid var idi, o da bu gündən yaşamır. Bundan sonra Borçalı torpağı igid üzü görməyəcək.

Bir saat əvvəl sakit və dalğın halda duran bu qoca artıq nəzərimizdə böyümüşdü.

Abdulla Şaiq

Çap üçün deyil

## YOLDAŞIM RZA

Cümə axşamları mənim ən çox sevdiyim gün idi. Çünki hər həftənin bu günü atam şəhərdən gələrdi. Bir təpə başında oturub, səbirsizliklə atamın yolunu gözlərdim.

Axşamüstü idi. Obada gəzinirdim. O gün südçülərdən biri şəhərdən çox tez qayıtmışdı. Onu uzaqdan görüncə yanına qaçıb atamı soruşdum. Südçü gülümsəyərək:

– Atan bu gün gəlməyəcək, işi var,-- dedi.

Bu söz ildırım kimi məni sarsıtdı. Məyus və dalğın halda geri döndüm. O isə arxamdan çağırıb:

– Ey, bura bax! Gələcək, səni aldatdım, mən bu gün tezdən çıxmışam, – dedi.

Cavab vermədən yoluma davam etdim. Günəş yüksək dağlar arxasına çəkilməyə, uca dağların kölgələri şərqə doğru uzanmağa başlamışdı. Sürülər, naxırlar mələşə-mələşə obaya doğru qaçırdı. Mən də bir təpədə oturub o gurultunu dinləyir, o canlı lövhəni seyr edirdim. Çadırımızın ağzında at kişnəməsi eşitdim. Dönüb baxınca nə gördüm? Atam! Sevincimdən ayaqlarım bir-birinə dolaşa-dolaşa yüyürüb boynuna sarıldım. Atam yoldaşım Rzanı da özü ilə gətirdiyindən sevincim daha da artmışdı. Nə üçün də sevinməyim?! Cücələrimi, çeşmələrimi, göyəm ağaclarımı göstərmək üçün yeni adam tapmışdım. Bir fincan çay içən kimi qalxdıq. Toyuqlarımdan başlayaraq göyəm ağaclarımı, dərədəki çeşmələrimi bir-bir göstərdim. Sonra obaya gəldik. Sürülərin içinə soxulduq. Quzularla, oğlaqlarla oynadıq. Onlarla bərabər atılıb-düşdük. Artıq qaranlıq düşür, seyrək duman uca dağlar başından dərələrə, meşələrə enirdi. Göy üzü təmiz olduğundan şimal tərəfdəki bir-iki bulud dəniz içində kiçik təpəciklər kimi görünürdü. Hər ikimiz əl-ələ verib yüyürə-yüyürə evə gəldik.

Abdulla Şaiq

## QIZIL İT

Kərim babanın "Qızıl" adlı bir iti vardı. Gecə-gündüz bizim qapımızdan ayrılmazdı. Oba itlərini heç sevməzdim. Çünki onların qorxusundan obada tək və azad gəzinə bilmirdim.

Bir gün alaçıqdan çıxarkən Qızıl üstümə düşüb, hürməyə başladı. Əlimdəki dəyənəyimlə iti vura-vura qovdum. Kərim baba iti vurduğumu bir neçə dəfə görmüş, bir söz deməmişdi. Ancaq xoşuna gəlmədiyini üz-gözündən duymuşdum. Bu gün iti vura-vura qapıdan qovarkən Kərim baba gördü. Yaxınlaşaraq:

– Vurma, oğlum! – dedi. – Bu mənim çörək ağacımdır. Bunun bir qardaş qədər mənə yaxşılığı keçibdir. Sən bunun indiliyini görürsən. Bir vaxt bunun qorxusundan evimizin yanından quş quşluğu ilə keçə bilməzdi. Bu itə beş yüz manat verən olub, verməmişəm. Hər küçüyünü otuz-əlli manata satmışam. Bunun nə qədər ağıllı, igid heyvan olduğunu bilsən, heç vurmazsan. – Kərim baba bu sözləri deyib, itin başını əlləri ilə oxşadı. Sonra yenə üzünü mənə tutaraq dedi: – Qışlaqda idik. Payızın aydınlıq gecəsi idi. Qoyunları yamaca yayıb bir daşın üstündə uzanmışdım. Nə vaxt yatdığımı heç bilməmişəm. Oyandığım vaxt hava qaralmış, dövrəmi də qalın duman almışdı. Elə qaranlıq düşmüşdü ki, göz-gözü görmürdü. Çomağı götürüb yerimdən qalxdım. Sürüdən xəbər yox idi. Qızılı çağırdım. Cavab vermədi. Dəli kimi o gecəni səhər etdim. Ancaq mənə ümid verən bu it idi; bilirdim ki, Qızıl sürüdən ayrılmaz. Dan yeri ağarar-ağarmaz uca bir təpə başına dırmaşdım. Aşağıya baxdım. Dumandan hər şey qara görünürdü. Yenə "Qızıl, Qızıl" deyə bağırarkən dərədən boğuq bir səs eşitdim. İldırım sürətilə dərəyə atıldım. O, sürünü iki təpə arasına yığmışdı. Özü isə yol ağzında durub hürür, məni səsləyirdi. Özümü Qızıla yetirdim. Məni görən kimi sevindiyindən quyruğunu



Çap üçün deyil

sallayıb məni yalamağa başladı. Sürüyə qurd girdiyini o saat bildim. Sürünün içinə girəndə üç qurd ölüsü gördüm. İşin nə yerdə olduğunu anladım. Sürüyə qurd daraşanda Qızıl onlarla boğuşa-boğuşan sürünü bu iki təpənin arasına sıxışdırmışdı. Burada qurdlara hücum edib bir-bir onları boğub öldürmüşdü. Qızılın boynuna necə sarılmışam... Üzündən-gözündən necə öpmüşəm... Sonra kök bir qoçun quyruğunu kəsib qabağına atmışam.

İftixar hissilə söhbətini tamamlamağa çalışan Kərim baba Qızılı oxşayaraq:

– İndi bunun nə cür it olduğunu bildinmi? Bu, it deyil, aslandır, əjdahadır, – dedi.

Kərim babanın bu tərifindən sonra Qızılla barışmış, səmimi bir dost olmuşduq.

Abdulla Şaiq

## KÖÇ

Mayın gözəl bir səhəri idi. Dan yeri yenicə ağarmağa başlamışdı.

Yatağımda yatırdım. Birdən anamın yavaşca: "Oğlum, qalx, yaylağa gedirik!" deməsindən gözlərimi açdım. Anam başımı əlləri arasına alaraq bir də :

– Qalx, oğlum! Səndən başqa hamı hazırdır, arabamız da gəlib, – dedi.

Dərhal dimdik qalxdım. Paltarımı geyindim. Əl-üzümü yudum. Bir fincan çay içər-içməz pilləkənləri gup-gup başıaşağı endim. Öküz arabası qapımızın ağzında durur, arabaçı Salman kişi də şeyləri üsulluca arabaya yerləşdirirdi. Artıq hərəkət edəcəyik. Sevinirəm. Ailəmizin hamısı aşağıda idi. Hətta "Mərmər" adlı ağ pişiyim, sarı, iri tüklü toyuğumu cücələri ilə bərabər, bir səbət içində götürmüşdük. Necə sevinməyim! Hamımız arabaya doluşduq. Salman kişi də arabanın boynunda oturdu: "Həm... ho!" edib əlindəki uzun qırmancını havada bir neçə dəfə şaqqıldatdı. Araba hərəkət etməyə başladı.

Atam da ata minib yanımızca gəlirdi. Artıq şəhərin iri, geniş küçələri ilə gedirik.

Hər zaman gözümüzün alışdığı geniş küçələr, böyük evlər, iri şüşəli mağazalar...

Şəhərin tozlu, gurultulu küçələrindən, isti havasından get-gedə uzaqlaşırdıq.

Arabamız iki tərəfi ağac, əkin və bostanla bəzənmiş bir yolla gedirdi.

Azərbaycan!.. Doğma vətənimin gözəl təbiəti vardır. Səhərlərə məxsus olan mehdən ara-bir yarpaqlar qımıldanır, tarlalara, təpələrə, çöllərə xalı kimi döşənmiş lətif, yumşaq otlar, çiçəklər dəniz kimi dalğalanır, yaşıl yarpaqlar arasına sığınmış quşcuğazlar səs-səsə verib ötüşürdü. Göz işlədikcə açıqlıq, yaşıllıq, dərəlik, təpəlik...

Dağların ardı-arası kəsilmir, zəncir kimi bir-birinə hörülmüş kimi durur. Qocaman bir dağın təpəsinə qalxdıq. Qarşımıza daha böyük bir dağ çıxdı. Bu dağı da aşdıq, çiçəklər səltənəti kimi bir açıqlığa çıxdıq. Bu yer qalın, sıx meşəlik, çılpaq qayalıq, uçurumlu dərələrlə qucaqlaşmışdı. Uzaqda bir təpə ətəyində beş-on alaçıqdan ibarət bir oba görünürdü. Artıq yetişmişdik. Sevincimdən atılıb-düşürdüm.

Abdulla Şaiq

## VƏTƏNİMİZ

Ürəyimiz, canımızsan,
Şöhrətimiz, şanımızsan.
Əziz, doğma anamızsan,
Gözəl, azad Vətənimiz,
Elləri şad Vətənimiz.

Başından çox duman keçmiş,
Xalqın günü yaman keçmiş,
Ağır, qanlı zaman keçmiş,
İndi azad Vətənimiz
Elləri şad Vətənimiz.

Çap üçün deyil

Yenilməyən qüdrətin var,
Böyük adın, şöhrətin var,
Ağızlarda söhbətin var,
Gözəl, azad Vətənimiz,
Elləri şad Vətənimiz.

Zeynal Cabbarzadə

## PAYIZIN SON AYI

A bağça, barlı bağım,
Ay üzümlü çardağım!
Nə oldu tez soldunuz,
Belə çılpaq oldunuz?
Qəmgin-qəmgin baxırsız
Gizlin pıçıldaşırsız.
Halınız olmuş yaman,
Qırıb dağıdır xəzan.
Qış deyəsən yavuqdur.
Ax, üşüdük soyuqdur.
Gedib geyim kürkümü,
İsti dəri börkümü.
Qalın hələ salamat,
Bahara qalsın söhbət.

A.Şaiq

## BAYRAM AXŞAMI

Toplaşardıq bir süfrənin
Gülə-gülə dövrəsinə.
Nənəm derdi: – Qurban olum
Yaradanın süfrəsinə.

Ocaq yaxıb, od qalayıb
Üzərində atlanırdıq.
Oynayırdıq yorulunca,
Yorğunluğa qatlanırdıq.

“Gün çıx” deyə, “Gün çıx” deyə
Çalxanırdı sevincimiz.
“ Kəhər atı min çıx” deyə
Qışqırırdı ən dincimiz.

Əynimizdə təzə paltar,
Başımızda təzə papaq.
Odlu məşəl əlimizdə
Dolaşırdıq soqaq-soqaq.

Qışqırırdıq, bağırırdıq
Ölçə-ölçə küçələri.
Söz qısası, xoş keçirdi
Bizə bayram gecələri.

Sabah Novruz bayramıdır
Deyə-deyə yatıyorduq.
Çəkdiyimiz acıları
Sevinclərə qatıyorduq.

M.Müşfiq

Çap üçün deyil

## TAR

Oxu, tar, oxu, tar!
Səsindən ən lətif şeirlər dinləyim.
Oxu, tar, bir qadar!..
Nəğməni su kimi alışan ruhuma çiləyim.
Oxu, tar!
Səni kim unutar?
Ey geniş kütlənin şirini, şərbəti,
Alovlu sənəti!...

Oxu, tar!
Fabrikdə, zavodda,
Traktor başında.
Bu saat qarşında
Nə qədər adam var!
Utanma, oxu, tar!
Mədənli Bakımın,
Pambıqlı Gəncəmin,
İpəkli Şəkimin
Acısı, şərbəti.
Alovlu sənəti!

M.Müşfiq

## YAZ GƏLİB

Yaz gəlib, el bəzənib,
Çöllərimiz sevinir.
Sinələrə taxılan
Güllərimiz sevinir.

Ağ günlərə yar olan,
Dünyalara car olan,
Hər günü bahar olan
İllərimiz sevinir.

Hər qəlbə nur süzülüb,
Dağlar məğrur yüksəlib,
Durnalar uçub gəlib,
Göllərimiz sevinir.

Sən də durma, ey ürək,
Söz qoşub, nəğmə deyək.
Biz necə sevinməyək,
Ellərimiz sevinir.

N.Xəzri

## PAYIZIN KÖLGƏSİ

Payız gəldi, özüylə
Sərin hava gətirdi.
Ağacların hamısı
Kölgəsini itirdi.

Kolların zərif donu
Paralandı, kiçildi.
Meşələrin ümidi
Yarpaq-yarpaq biçildi.

Hirsləndi , cin atının
Üstünə mindi külək.
Payızın əllərində
Qayçıya döndü külək.

Birdən ildırım çaxdı,
Sanki göylər ah çəkdi.
Ağacların gözünə
Payız kölgəsi çökdü.

Rafiq Yusifoğlu

Çap üçün deyil

## BAHAR NƏĞMƏSİ

Aşıb qarlı dağları,
Gəlir bəzəkli bahar.
Sinəsi qızılgüllü,
Qoynu çiçəkli bahar.

Qucur yamacı-yalı,
Açır min təzə xalı.
Göy döşlü, zər yaxalı,
Qızıl ətəkli bahar.

Quşlar verir xəbəri,
Gəzir kəndi, şəhəri.
Döyür pəncərələri,
Sərin küləkli bahar.

Ot qalxıb dizə çıxır,
Hər nə var üzə çıxır.
Maşınlar düzə çıxır,
Dəmir biləkli bahar.

Cana gəlir çöl-bayır,
Çəmənlər ətir yayır.
Aləmə nur paylayır,
Günəş ürəkli bahar.

Hüseyn Arif

## ŞƏHİDLƏRƏ OXŞAMA

Əzizlərim, şəhidlərim,
Boyunuza qurban olum.
Qan naxışlı yerinizə,
Göyünüzə qurban olum.

İnsafdırmı dillər susa,
Mərd asıla,namərd asa.
Niyə birdən döndü yasa,
Toyunuza qurban olum?!

Başından düşüb cunası,
Qəmlidi sular sonası.
Əllərində toy xınası.
Bəyinizə qurban olum.

Tökülən qan çıxdı dizə,
Tanrı yaman qıydı bizə.
Əsil olan əslinizə,
Soyunuza qurban olum.
Palıd köklü,çinar boylu
Boyunuza qurban olum!

Z.Yaqub

## GİCİTKƏN

Yaxına buraxmırdı
Gicitkən heç bir kəsi.
Eşitsəydi bir qoyun,
Ya da bir quzu səsi,
Körpə tikanlarını
Qabardıb dayanırdı,
Kim dadsa, dili-ağzı
Alışırdı-yanırdı.
Gülüb ürəkdən bu an
Xoşlanırdı Gicitkən.

Gəl ki bir gün istidən
Yaman pis günə düşdü,
Yarpaqları bürüşdü...
– Qoymayın, soluram mən,
Artıq məhv oluram mən! –
Deyib haray salsa da,
Olmadı yaxınlaşan.
Vaxtilə hamını bərk
Dalamışdı Gicitkən.

Hikmət Ziya

Çap üçün deyil

## GÖZƏL VƏTƏN

Oxuyuruq, nəğməmiz
Uzaqlara yayılsın,
Səsimizdən hər tərəf
Tez yuxudan ayılsın.

Gözəl vətən, can vətən,
Bizə mehriban vətən.

Qarlıdır, vüqarlıdır
Papağı şiş dağların.
Barlıdır, baharlıdır
Tarlaların, bağların.

Gözəl vətən, can vətən,
Qoynu gülüstan vətən.

Sən xoşbəxt böyüdürsən
Bizi hər gün, hər saat.
Daim ucalaq deyə
Bizə verirsən qanad.

Gözəl vətən, can vətən
Hər gün ucalan vətən.

T. Elçin

## AĞACLARIN ŞİKAYƏTİ

Şikayət edir
Bağçalar-bağlar:
"Bizi incidir
Dəcəl uşaqlar.
Harda gül görsə,
Dəcəllər dərir,
Yaşıl bağlara
Çox zərər verir.
Nadinclər gəzir
Yaşıl bağları
Qırır, sındırır
Göy budaqları".
Göy yarpaq açmış
Körpə budaqlar
Deyir: – "Qırmayın
Bizi, uşaqlar!
Bağda gəzməyin
Bir qaydası var:
Ağac qırmasın
Gərək uşaqlar.
Bu dəcəllikdən
Gəlin əl çəkin.
Bacardıqca siz
Gül-çiçək əkin.
Bol ağac əksə
Uşaqlar əgər,
Bağ kimi olar
Hər kənd, hər şəhər".

M.Seyidzadə

## TORPAQ

Qucağında nanə, reyhan
Lalə, nərgiz olan torpaq.
Yaşı qədim, özü cavan
Ətri təmiz olan torpaq.
Döşdə bulud, zirvədə çən,
Əskilməyir gəlib- keçən.
Göy sinəsi meşə, çəmən,
Qoynu dəniz olan torpaq.
Düzlər varı, dağlar tacı,
Xəzan görsə yox əlacı.
Kimə şirin, kimə acı,
Kimə əziz olan torpaq.

Hüseyn Arif

Çap üçün deyil

## GECƏ UÇAN TƏYYARƏLƏR

Uğur olsun, uğur olsun
Gecə uçan təyyarələr..
Bir də geri dönərsiniz
Haçan-haçan təyyarələr?..
Bir isıqlı niyyət ilə
Uçursunuz uzaqlara.
Uçursunuz fəsillərə,
Qışdan çıxıb ilk bahara.

Alsın məni qanadınız
Uçaq,uçaq hər diyara,
Qanadlanıb uçmaq ilə
Çatar insan arzulara.
Yolunuz işıqla dolsun,
Uğur olsun,uğur olsun.
Gecə uçan təyyarələr,
Gecə uçan təyyarələr...

Nigar Rəfibəyli

## MOLLA NƏSRƏDDİN LƏTİFƏLƏRİ

### BELİMƏ BAĞLASINLAR

Deyirlər ki, Teymurləng Mollanın nə dərəcədə cəsarətli olduğunu yoxlamaq üçün cəlladlara əmr edir:

– Bu saat bunu boğazından asarsınız!

Cəlladlar Mollanı qarmalayıb götürürlər. Molla heç bir söz demir. Qapıdan çıxdıqları vaxt Teymur deyir:

– Axır dəqiqələrindir, Molla, vəsiyyətin varsa, elə!

Molla deyir: – Vəsiyyətim yoxdur. Ancaq balaca bir xahişim var.

Teymur: – De!

– Molla: – Mənim boğazımdan yaman qıdığım tutur. Xahiş eləyirəm əmr edəsiniz, kəndiri boğazıma yox, belimə bağlasınlar.

### BORC İSTƏMƏ

Aldığını verməyən tanışlarından biri bir gün Mollanın yanına gəlib deyir:

– Sənin yanına bir xahişə gəlmişəm.

Molla başa düşür ki, hərif pul istəyəcək, tez deyir:

– Hər nə desən, gözüm üstə! Ancaq mənim də sizdən bir xahişim var. Qabaqca sən mənim xahişimi yerinə yetir, sonra da mən sənin.

Kişi deyir: – Buyur!

Molla deyir: – Mən ölüm, məndən borc istəmə!

### QIRX İLLİK SİRKƏ

Bir gün qonşulardan biri mollanın yanına gəlir:

– Molla, sizdə qırxillik sirkə olmaz ki?

Molla deyir: – Var, necə?

Qonşu deyir: – Bir az ondan ver mənə!

Molla deyir: – Verə bilmərəm.

Çap üçün deyil

Mollanın belə qıpqırmızı “verməræm” deməyinə qonşu heyrətlə soruşur:
– Niyə vermirsən?
Molla deyir: – Elə hər belə istəyənə versəydim, qırx ildən indiyə kimi sirkə qalmazdı ki...

## BİR YAŞDAYIQ

Bir gün Molladan soruşurlar ki: – Molla, sən böyüksən, yoxsa qardaşın?
Molla deyir: – Vallah, keçən il atam deyirdi ki, o məndən bir yaş böyükdür. O hesabla indi gərək bir yaşda olaq.

## QAZI EVDƏDİR

Şəhər qazısının Molladan çox acığı gəlirdi. Bir gün bir məsələdən ötrü Molla qazının yanına getməyə məcbur olur. Evinin qabağına çatanda qazının pəncərədən baxıb çəkildiyini görür. Molla qapını döyür. Qazının nökəri qapıya gəlib xəbər alır: – Kimi istəyirsən?
Molla deyir: – Qazını görəcəyəm.
Nökər deyir: – Ağam evdə yoxdur, bazara gedib.
Molla deyir: – Qayıdanda ağana de ki, bazara gedəndə bir də başını yadından çıxarıb pəncərədə qoymasın. Yoxsa xalq elə bilər ki, o, evdədir.

## MOLLANIN DƏRDİ

Günlərin birində Molla özünü çox pis hiss edir. Başı hərlənir, gözləri qaralır. Elə halsızlaşır ki, tərpənə bilmir. Birtəhər özünü həkimin yanına salıb deyir: – Həkim, özümü çox pis görürəm. Bir mənə bax, görək dərdim nədir?
Həkim Mollanı yoxlayıb deyir: – Molla, sənin heç bir dərdin-zadın yoxdur. Acsan, ona görə belə olmusan. Əyləş, mənimlə bir yerdə nahar elə, hamısı düzəlsin.
Molla əyləşir, doyunca yeyir, içir. Baxır ki, doğrudan da, düzəldi. Durub gedəndə deyir:
– Həkim, sən, doğrudan da, həkim imişsən. Dərdi də tapırsan, dərmanını da verib xəstəni o saat sağaldırsan. Bizim evdəkilərin hamısında bu xəstəlik var. Gedirəm bu saat bütün külfəti tökəm bura.

## TEYMURLƏNGSƏN Kİ, VARSAN

Günlərin birində Teymurləng Mollaya deyir: – Molla, bu gün kefim çox sazdı. Sənə bir şey bağışlamaq istəyirəm. Amma bilmirəm nə bağışlayam ki, sənin ürəyindən olsun.
Molla deyir: – Qibleyi-aləm sağ olsun, elə sən hər nə bağışlasan, mənim ürəyimdən olar.
Teymur deyir: – Onda qoy mən bir-bir sayım, sən özün seç! Ya on qızıl, ya bir at, ya bir sürü qoyun, ya da bir bağ. Hansını istəyirsən?
Molla deyir: – Əgər mənim ürəyimi soruşursansa, mən istəyirəm, sən sübut eləyəsən ki, doğrudan da, ədalətli bir şahsan.
Teymur deyir: – Necə?
Molla deyir: – Əgər mən on qızılı cibimə qoyub ata minsəm, qoyunları qabağıma salıb bağa getsəm, sən sübut eləmiş olarsan ki, ədalətli şahsan.
Teymur deyir: – İştahan pis deyil. Əgər heç birini verməsəm?
Molla deyir: – Heç bir şey. Sübut eləmiş olarsan ki, elə Teymurləngsən ki, varsan.

Çap üçün deyil

## FƏNLƏRARASI İNTEQRASİYA

Fənlərarası inteqrasiya zamanı ayrı-ayrı fənlər üzrə müraciət edilmiş məzmun standartları:

## TARİX FƏNNİ ÜZRƏ

1.1.1. Tarixi zaman anlayışları arasındakı əlaqələri müəyyənləşdirir.
1.2.1. Maddi və yazılı mənbələri fərqləndirir.
1.2.2. İllüstrasiya, şəkil və sənədli materiallardan istifadə edərək tarixi tədqiqat aparır.
1.3.1. İnsanların həyat tərzindəki dəyişiklikləri öz ailəsi nümunəsində təsvir edir.
2.1.1. İnsan və cəmiyyətin həyatı üçün əlverişli təbii amilləri təsvir edir.
2.1.2. Xəritələrdə Azərbaycan ərazisini və mühüm tarixi abidələri müəyyənləşdirir
3.1.2. Xalqın mənafeyinin qorunmasında dövlətin rolunu dəyərləndirir.
3.1.1. Azərbaycan dövləti haqqında sadə biliklər nümayiş etdirir.
4.1.1. Azərbaycan tarixində mühüm rol oynamış şəxsiyyətləri (İranzu, Cavanşir, Şəmsəddin Eldəniz, Uzun Həsən, Sara xatn, Şah I İsmayıl, Cavad xan, Məmməd Əmin Rəsulzadə, Nəriman Nərimanov, Heydər Əliyev, İlham Əliyev və b.) müəyyən edir.
4.1.2. Mənbələrə əsasən şəxsiyyətlər haqqında təqdimatlar hazırlayır.
3.1.3. Kiçik həcmli tarixi hekayə qurur.
5.1.1. Mədəniyyət abidələrinin əhəmiyyətini izah edir.
5.1.2. Milli-mənəvi dəyərləri fərqləndirir.
5.1.3.Azərbaycan mədəniyyəti ilə bağlı sadə təqdimatlar hazırlayır.

## ƏDƏBİYYAT

1.1.1. Sözlərdən mətn qurmaq üçün istifadə edir.
1.1.2. Sözləri yerinə qoymaqla ifadələri oxuyur.
1.1.3. İntonasiyaya riayət etməklə oxuyur.
1.2.1. Mətndə mənası tanış olmayan sözlərin.
1.2.2. Lazımı fraqmentləri öz fikrini sübut etmək məqsədilə oxuyur.
1.2.3. Plan tərtib etməklə mətni hissələrə ayırır.
1.2.4. Şeirdə və sujetli hekayələrdə bədii təsvir vasitələrini (epitet, müqayisə) müəyyənləşdirir.
1.3.2. Ədəbi nümunələrin formalarını xarakterik xüsusiyyətlərinə görə müqayisə edir.
1.3.3. Süjetli ədəbi mətnlərin mövzu və ideyasını müəyyənləşdirir.
1.3.4. Mətndə ədəbi qəhrəmanı müəyyənləşdirir.
2.1.1. Süjetli bədii mətnlərdən və şeirlərdən öyrəndiyi yeni sözlərdən nitqində istifadə edir.
2.1.2. Sitatlardan istifadə etməklə mətnin məzmununu danışır.
2.2.1. Müzakirə olunan fikirlərə öz münasibətini bildirir.
3.1.2. Mövzu ilə bağlı tərtib edilmiş mətnləri sistemləşdirir.
2.2.2. Müsbət qəhrəmanı təqdim edir.
2.2.3. Süjetli bədii mətnlərin sonluğunu öz variantları əsasında təqdim edir.

Çap üçün deyil

## HƏYAT BİLGİSİ

1.2.1. Canlıların həyatında ekoloji mühitin rolunu əsaslandırır.
2.1.1. Dövləti cəmiyyətin həyatını tənzimləyən vahid siyasi təşkilat kimi izah edir.
2.2.1. İnsan hüquqlarını müdafiə edən qurumları (dövlət, qeyri-dövlət, beynəlxalq) fərqləndirir.
2.2.2. İnsan hüquqlarını müdafiə edən qurumlar haqqında topladığı materialları təqdim edir.
2.3.1. İqtisadi resursları və iqtisadi vasitələri fərqləndirir.
3.2.1. Əxlaq və davranışlara təsir edən amilləri fərqləndirir.
3.2.2. Mənəvi borcun (təbiət, ailə, cəmiyyət, dövlət qarşısında) əhəmiyyətini izah edir.
3.1.1. Ünsiyyəti mənəvi tələbat kimi qiymətləndirir.
4.1.1. Sağlamlığın mənəvi, fiziki və emosional aspektlərini fərqləndirir
4.2.1. Məişətdə və ictimai yerlərdə yarana biləcək təhlükəli və xoşagəlməz halları izah edir.
4.3.1. Fövqəladə hadisələr zamanı yarana biləcək təhlükəni qiymətləndirir.

## İNFORMATİKA

1.2.3. İnformasiyaların qəbul edilməsi üsullarını nümunələrlə şərh edir.
3.2.3. Şəkilləri mətnə əlavə edir.
3.3.2. İnternetdə sadə iş bacarıqlarını nümayiş etdirir.
3.2.2. Mətni yadda saxlamaq və cap etmək bacarıqlarını nümayiş etdirir.
3.1.3. Proqramın icrasına dair bacarıqlar nümayiş etdirir.

## XARİCİ DİL

1.1.2. Dinlədiyi mətndə yeni söz və ifadələri seçir.
2.1.1. Yeni söz və ifadələrdən düzgün istifadə edir.
2.1.2. Kiçikhəcmli dialaoqlarda iştirak edir.
2.1.3. Kiçikhəcmli mətnlərin məzmununu danışır.
3.1.1. Söz və ifadələri seçir və qruplaşdırır.
3.1.2. Mətndəki sözləri düzgün tələffüzlə oxuyur.
3.1.3. Mətnin bütöv hissələrini fərqləndirir.
3.1.4. Mətnin məzmununa uyğun suallara cavab verir.
4.1.1. Verilmiş sözləri məna və qrammatik cəhətdən əlaqələndirərək cümlələr qurur.
4.1.2. Gördüyü əşya və hadisələrin adını yazır.
4.1.3. Sözlərdə böyük və kiçik hərflərin yazılış qaydalarına əməl edir.

Çap üçün deyil

# MÜNDƏRİCAT


Giriş ........................................................................................ 3
1. Təlim digər dillərdə aparılan ümumtəhsil məktəbləri üçün
Azərbaycan dili təliminin məzmunu ............................................. 4
Təlim rus dilində aparılan məktəblərdə Azərbaycan dilinin
tədrisi prosesində interaktiv təlim metodlarından istifadə .................. 6
Fəal təlim metodlarının xarakterik xüsusiyyətləri ............................ 8
Fəal dərsin planlaşdırılması ...................................................... 8
Fəal (interaktiv) dərsin mərhələləri ............................................ 8
Qiymətləndirmə və refleksiya ................................................... 11
Fəndaxili və fənlərarası inteqrasiya ............................................ 11
Şagird nailiyyətlərinin qiymətləndirilməsi ................................... 12
Təlim rus dilində aparılan ümumtəhsil məktəblərinin 5-ci sinfi
üçün “Azərbaycan dili”dərslik komplekti xüsusiyyətləri .................... 19
Dərslərin illik tematik planlaşdirilmasi ........................................24
Dərs 1. Diaqnostik qiymətləndirmə ............................................30
Dərs 2. Birinci dərs ................................................................ 31
Dərs 3. Sevimli məktəb ............................................................ 33
Dərs 4. Müəllimin sevinci ......................................................... 35
Dərs 5. Sevirik səni biz ............................................................ 37
Dərs 6. Əsl həqiqət ................................................................. 39
Dərs 7. Yoldaşlıq köməyi .......................................................... 41
Dərs 8. Ay aman!.. Sel apardı!.. ................................................. 43
Dərs 9. Qız məktəbində ............................................................ 45
Dərs 10. Vətən nədir? .............................................................. 47
Dərs 11. Azərbaycan ............................................................... 50
Dərs 12. Şirvanşahlar sarayı ..................................................... 52
Dərs 13. Şirvanşahlar sarayı 2-ci hissə ......................................... 53
Dərs 14. Saatsaz qarğa ............................................................ 55


Çap üçün deyil

Dərs 15. Canlı saat ........ 57
Dərs 16. KSQ ........ 58
Dərs 17. Payız ........ 60
Dərs 18. Göyçək Fatmanın nağılı ........ 62
Dərs 19. Hər kəsin yerişi var ........ 64
Dərs 20. Qızıl və ilan ........ 65
Dərs 21. Qonaq ........ 67
Dərs 22. Baba otağı ........ 68
Dərs 23. Ad gününün tarixçəsi ........ 69
Dərs 24. Arılıqda ........ 71
Dərs 25. Ayı və şir ........ 72
Dərs 26. Şahzadə və balaca çoban ........ 74
Dərs 27. Sahzadə və balaca çoban 2-ci hissə ........ 76
Dərs 28. Tanışlıq ........ 77
Dərs 29. Dörd arzu ........ 79
Dərs 30. Qışın sovqatı ........ 80
Dərs 31. BSQ ........ 82
Dərs 32. Təzə ildə ........ 84
Dərs 33. Göyərçin və qarışqa ........ 85
Dərs 34. Əsl dost ........ 86
Dərs 35. Şəhidlər Xiyabanı ........ 88
Dərs 36. Qaçaq Nəbi ........ 89
Dərs 37. Əl........ 91
Dərs 38. Xoşbəxtlik barəsində ........ 93
Dərs 39. Az danışmağın gözəlliyi ........ 95
Dərs 40. Leylək yuvası ........ 97
Dərs 41. Leylək ........ 99
Dərs 42. Leylək yuvası 2-ci hissə ........ 100
Dərs 43. Qırmızı kitab ........ 102
Dərs 44. Nigarın sevinci ........ 103

Çap üçün deyil

Dərs 45. Ürək xatirəsi ........ 105
Dərs 46. Hədiyyə ........ 106
Dərs 47. Yazın hədiyyəsi ........ 108
Dərs 48. Bənövşə ........ 109
Dərs 49. Ağacı necə suvarırlar ........ 111
Dərs 50. Dağlar ........ 112
Dərs 51. KSQ ........ 114
Dərs 52. Aprelin biri gələndə ........ 116
Dərs 53. Söz ........ 117
Dərs 54. Balaca bağban ........ 119
Dərs 55. Meşənin qorxusu ........ 120
Dərs 56. Balaca bağban 2-ci hissə ........ 122
Dərs 57. Azərbaycanın “Qırmızı kitab”ı ........ 123
Dərs 58. Rəhbərin sevdiyi güllər ........ 125
Dərs 59. Biri günəş, biri Heydər ........ 126
Dərs 60. Neft daşları ........ 128
Dərs 61. Muzeylər ........ 129
Dərs 62. Axmaq Qurbağa və Zanbaq ........ 131
Dərs 63. İki kitab ........ 132
Dərs 64. BSQ ........ 134
İmla yazı üçün mətnlər ........ 136
İfadə yazı üçün mətnlər ........ 138
Gündəlik nitqimizdə işlədilən ifadələr ........ 140
Atalar sözü və məsəllər ........ 143
Sinifdənxaric oxu üçün ........ 144
Fənlərarası inteqrasiya ........ 155

Çap üçün deyil

**HƏVVA ABDULLAYEVA**
**İRADƏ ƏFƏNDİYEVA**
**MƏLAHƏT ƏLƏSGƏROVA**

# AZƏRBAYCAN DİLİ

Ümumtəhsil məktəblərinin 5-ci sinfi üçün
"Azərbaycan dili" (dövlət dili kimi)
fənni üzrə müəllim üçün metodik vəsait

| | |
|---|---|
| Naşir | Xəlil HƏSƏNOĞLU |
| Redaktor | Hafiz RÜSTƏM |
| Texniki redaktor | Ləsfət TALIBOVA |
| Korrektor | Billurə ƏLƏKBƏROVA |
| Dizayner | Tural SƏFİYEV |

Kağız formatı 70x100 $^{1}/_{16}$. Ofset çapı.
Ofset kağızı. Fiziki və şərti çap vərəqi 10,0.
Tirajı 510. PULSUZ.

***Çaşıoğlu*** mətbəəsində çap edilmişdir
Bakı şəh., M.Müşfiq küç., 2A, Tel.: 502-46-91

**"KÖVSƏR" NƏŞRİYYATI**
Az–1010, Bakı şəhəri,
Dilarə Əliyeva küçəsi, 251A/8A.
Telefon: (+994 12) 496 54 44, 496 53 33.
www.kovsernesriyyat.com, kovserneshriyyat@gmail.com

Çap üçün deyil